

# VURMBRANDLAR

MƏSİH UĞRUNDA ƏZABLAR
TAM HEKAYƏ



# VURMBRANDLAR

MƏSİH UĞRUNDA ƏZABLAR
TAM HEKAYƏ

# VURMBRANDLARIN

## həyatı barədə başqalarının dedikləri...

«1967-ci ildə boynum sınanda və həyatım əlillik arabası ilə məhdudlaşanda heç ağlıma da gəlməzdi ki, tezliklə əlimə yenicə nəşr edilmiş məsihçi kitabı düşəcək və bu kitab Məsihin əzabları barədə olan baxışlarıma təsir göstərəcək. Tələbə yoldaşlarım təkid edirdilər ki, «*Məsih uğrunda əzablar*» kitabını oxuyum. Onlar əmin idilər ki, dərin iztirablar çəkdiyim və itki ilə üzləşdiyim bir vaxtda bu kitab Allaha etibar etməkdə mənə yardımçı olacaq.

Məni iflic edən hadisəyə qədər elə bilirdim ki, Allah Öz övladlarının şən, əzab-əziyyətdən kənar, sağlam bir həyat yaşamasını istəyir. Amma «*Məsih uğrunda əzablar*» kitabını oxuyandan sonra başa düşdüm ki, bizi xilas etməkdə Allahın məqsədi heç də həyatımızı qızılgüllərlə bəzəmək deyil, bizi daha çox İsaya bənzətməkdir. Bu məqsədinə nail olmaq üçün O, itki, kədər, ağrı və əzab kimi alətlərdən istifadə edir.

İndi əlli il əlil arabasında keçirərək (Rəbbin «*Məsih uğrunda əzablar*» kitabını istifadə etdiyi il qədər) mən əminliklə deyə bilərəm ki, məsihçinin həyatındakı dərin iztirablar Müjdənin təbliğ olunmasına hər şeydən daha çox müvəffəq olur. Məhz buna görə mən bu heyrətamiz kitab və onun istənilən dövrdə keçərli olan nəsihətləri üçün Allaha minnətdaram».

«Coni və Dostları» adlı şirkətin təsisçisi
**Coni Erikson Tada**

«Mən Riçard və Sabina Vurmbrandların həyatında göstərdiyi tükənməz mərhəmət və lütfə görə Allaha şükür edirəm. Onların

başına gələnlər mənə çox təsir etdi. «Operation Mobilization» təşkilatının yarandığı vaxtdan bəri Vurmbrandların kitablarını paylayıb dua edirdik ki, Allah bu vəsaitlərdən, xüsusilə Sabinanın «*Pastorun həyat yoldaşı*» kitabından istifadə etsin. Çünki bu kitab daha çox qadınların ehtiyaclarına cavab verirdi. Biz dünyanın hər yerinə minlərlə nüsxəsini payladığımız «*Məsih uğrunda əzablar*» kitabına görə Allaha minnətdarıq.

Allah Riçardı Öz xidməti üçün çox istifadə etmişdi. Riçard Rəbbin yolunda təvazökarlıqla və həlimliklə addımlayır, həmişə də İsadan öyrənməyə hazır idi. Riçardın şəhadəti imanlı bacı-qardaşlarının əzablarından bixəbər, ruhən yatan məsihçilərə yaman təsir etmişdi. Bu günədək onun şəhadəti və «Şəhidlərin Səsi» təşkilatı təqib edilən imanlı ailəmizə nəzər salmaqdan ötrü məsihçilərin gözlərini açır. Mən inanıram ki, Allah Riçarda dünyanın ən ucqar nöqtələrinə Onun səsini çatdırmaq üçün xüsusi qabiliyyət vermişdi. Bu xidmət metodu son əlli il ərzində heç dəyişilməyib».

«Operation Mobilization» təşkilatının[1] təsisçisi
**Corc Verver**

«Bizim əziz qardaşımız Vurmbrandın qoyduğu nümunə çox təsirlidir. Məhz onun sayəsində «Məqsədli Gənclər» təşkilatı Müqəddəs Kitabları «dəmir pərdə» arxasında qalan xalqlara gizlicə ötürməyə başladı. Xidmətimizdə «Şəhidlərin Səsi» təşkilatı ilə əməkdaşlığımız bizim üçün böyük xeyir-dua olub. Biz istəyirik ki, birlikdə gördüyümüz bu işimiz həmişə qiymətli olsun. Çünki bizim birliyimiz əslində Allahın Öz ailəsinə bəxş etdiyi məhəbbətdir. «Məqsədli Gənclər» təşkilatının əsas məqsədi Allahın Kəlamından möhkəm yapışmaqdır. Bu məqsədə çatmaqda Riçard və Sabinanın nümunəsi bizi çox ruhlandırır».

«Məqsədli Gənclər» təşkilatının təsisçisi
**Loren Kanninqem**

---

[1] Rusiyada bu təşkilat «Dünyaya vəd» («Обетование миру») adlanır.

«Pastorun on iki yaşlı qızı olaraq mən «*Məsih uğrunda əzablar*» kitabını oxuyanda çox təsirləndim. Yadımdadır, Müjdə uğrunda əzablara dözmək üçün məndə belə cəsarətin olub-olmadığı barədə düşünürdüm.

Baxmayaraq ki, özüm əsirlikdə olmuşam, amma heç vaxt Vurmbrandlar kimi bütün var-dövlətimdən məhrum olaraq Məsih uğrunda həbs edilib işgəncələrə məruz qalmamışam. Üstündən uzun illər keçsə də, bu kitab mənə düşmənin ürəyində bizə qarşı mərhəmət hissinin olmadığını xatırladır. O, elə indi də əvvəlki kimi nərə çəkən aslan kimi gəzir ki, kimisə aşırsın. Amma Vurmbrandların həyatında düşmən qələbə çala bilmədi! Bu satınalınmış cəsurlar yer üzündə sevilməsələr də, indi göylərdə möhtəşəm izzət ilahilərini oxuyanlara qoşulublar: «Bizi sevən, Öz qanı bahasına bizi günahlarımızdan azad edərək bizdən bir padşahlıq təşkil edən və bizi Öz Atası Allah üçün kahinlər təyin edən Şəxsə əbədi olaraq izzət və qüdrət olsun! Amin!» Göylərdə onlarla birlikdə ilahi oxuyana qədər Riçard və Sabina kimi qəhrəmancasına yaşamaq üçün gəlin, bu kitabın səhifələrindən cəsarət əldə edək!»

«New Tribes Mission» («Yeni nəsillərin missiyası»)<br>təşkilatının, In the Presence of My Enemies<br>(Düşmənlərimin önündə) kitabının müəllifi<br>Qrasiya Bernham

«Riçard və Sabina Vurmbrand yüz il bundan əvvəl doğulsalar da, onların həyat hekayəsi bu gün də öz gücünü və təsirini saxlayır. Bunu biz onların kitablarının səhifələrindən asanlıqla müşahidə edə bilərik. Bəli, onlar soyuq müharibə dövründə, Qərbin kommunizmlə mübarizə apardığı bir vaxtda Müjdənin qəhrəmanları idilər. Amma onlar həm də bizim dövrümüzün qəhrəmanlarıdır. Onlar həyatları ilə Məsihə məhəbbətlərini və sadiqliklərini nümayiş etdirərək, təzyiq, təqib, ağrı qarşısında nə büdrədilər, nə də yıxıldılar. Riçard və Sabinanın həyat hekayəsi ilk dəfədir ki, bir kitabda cəmlənərək oxuculara bu iki iman qəhrəmanının həyatlarını daha yaxşı başa

düşməyə və qiymətləndirməyə kömək edir. Onların göstərdikləri nümunə bizi İsaya olan imanımızı elə onlar kimi cəsarətlə bəyan etməyə ruhlandırır».

«Şəhidlərin Səsi» radiosunun aparıcısı (VOMRadio.net)
**Todd Netlton**

«Dünyanın ən çətin və təhlükəli yerlərində, əllidən artıq ölkədə təqib olunan məsihçilərlə yaxından ünsiyyət quraraq, onlarla birlikdə xidmət edərək mən Riçard və Sabinanın qoyduğu nümunənin gücünə şəxsən şahid olmuşam. Müqəddəs Kitabdan kənarda olan hekayələrin çox az hissəsi insanları sadiqliklə xidmət etməyə ruhlandırır. Vurmbrandların həyat hekayəsi məsihçiləri Məsihə, Onun məbədinə və Böyük tapşırığına daha dərindən özlərini həsr etməyə səsləyir. Onların həyat hekayəsinə diqqət yetirərkən asanlıqla başa düşmək olur ki, bu, tarixdəki ən vacib məsihçi tərcüməyi-halıdır. Vurmbrandlar haqqında kitab sadəcə rumın kommunistlərin amansızlığı ilə üzləşmiş iki məsihçinin təfərrüatı ilə təsvir edilmiş həyatının tarixi əlyazması deyil. Bu kitabın daha böyük mahiyyəti var. Onların hekayəsi Allahın sadiqliyinin, eləcə də həbsxana, işgəncə və ölüm qarşısında Onun müqəddəslərinə nümunəvi şəkildə xidmət etməyin şəhadətidir. Allah onların hekayəsindən milyonlarla insanın həyatını dəyişdirmək üçün istifadə edir. Bu kitabı hər bir məsihçi oxumalıdır».

«Şəhidlərin Səsi» təşkilatının prezidenti
**Koul Riçards**

Originally published in English under the title
*WURMBRAND. Tortured for Christ: The Complete Story*
Copyright © 2018 by VoM

© 2021 for the Azeri edition.
Contact us at *fieldresources@vm1.global*.
Translated by permission. All rights reserved.

# OXUCULAR ÜÇÜN QEYD

Müasir dövrdə oxucular və tamaşaçılar baş vermiş hadisələrə əsaslanan hekayələrə öyrəşiblər. Onlar çox vaxt bu və ya digər hekayələrdə şişirtmələr və ya uydurmaların nə qədər olduğunu düşünürlər. Təqdim etdiyimiz hekayə sənədlərə, Riçard və Sabinanın xatirələrinə, tarixi faktlara əsaslanaraq qələmə alınıb.

Oxucu bu kitabın tarixi dəqiqliyinə etibar edə bilər. Vurmbrandların irsinə sadiq qalaraq, biz bu kitabda heç bir dialoqu özümüzdən uydurmamışıq. Dialoqların hər biri Riçard və Sabinanın öz sözləridir. Bəzi yerlərdə fikrin daha dəqiq çatdırılması üçün onlar çox cüzi redaktə edilib.

# PROLOQ

*29 fevral 1948-ci il*
*Buxarest, Rumıniya*

Qara maşın Buxarestin qarlı küçələri ilə şütüyürdü. Sürücü birdən əyləci basdı. Təkərlərin asfalta sürtünməsi nəticəsində yaranan səs bazar günü səhərin sükutunu pozdu. Riçard Vurmbrand bilirdi ki, hökumətin göstərişi ilə belə həbslər onun kommunist şəhərində adi hala çevrilib. O, əvvəllər də həbs olunmuşdu və bunun yenidən baş verəcəyini düşünərək başqaları kimi qorxu içində yaşayırdı. Amma o, bu gün, xüsusilə də kilsəyə gedən yolda kommunistlərin qurbanı olacağını gözləmirdi.

Riçard kilsədə edəcəyi vəzin üzərində düşünürdü ki, yolun kənarında qəfil dayanan bir maşın fikirlərini dağıtdı. Qara kostyumlu iki kişi maşından sıçrayıb düşdü. Onların soyuq və hədələyici baxışları otuz doqquz yaşlı pastora dikilmişdi. O isə bu gözlənilməz hadisədən az qalmışdı ki, yol kənarına yıxılsın.

Riçardın bir metr doxsan santimetr boyu olsa da, onu həbs edənlərə müqavimət göstərə bilmədi. Onun hündür boyu hücumu dəf etməyə imkan vermədi. Kişilər onun üstünə cumdular. Onlardan biri Riçardın əllərini arxaya burdu, o birisi isə qabırğalarına güclü yumruqlar endirdi. Zərbədən az qaldı ki, Riçardın nəfəsi kəsilsin. Onun kömək istəmək üçün heç bir ümidi yox idi. O, yenidən buz bağlamış yerə yıxıldı. Nəfəs almağa isə gücü çatmırdı.

Riçardı qara «ford»un arxa oturacağına itələyib salanda onun ağlına gözəl bir fikir gəldi. İki gün bundan əvvəl Yeşua kitabını

oxuyarkən tez-tez təkrarlanan «Qorxma» sözü onun diqqətini cəlb etmişdi. Bu sözlərin Kəlamda dəfələrlə təkrarlanması Riçarda maraqlı gəlmişdi. Görəsən, neçə dəfə təkrarlanırdı? O, ayələri saymağı qərara aldı və onların 366 dəfə təkrarlandığını aşkar etdi. Riçard başa düşdü ki, məsihçi ilin heç bir günü, hətta dörd ildən bir olan fevralın 29-u belə qorxmamalıdır. Allahın vədləri hətta Riçardın həbs edildiyi gün — fevralın 29-u üçün də var idi.

Maşının qapısı çırpılmamış avtomobil yerindən tərpəndi. Riçard gülümsədi. O da, həyat yoldaşı Sabina da mütləq belə bir günün gələcəyini bilirdilər. Onlar yaxşı anlayırdılar ki, məsihçilik fəaliyyətləri onlara baha başa gələcək. Hətta indi də Riçardı gizlicə oğurlayaraq həbs edəndə Allahın Kəlamı ona qorxmamağı əmr edirdi.

Maşında olan üçüncü kişi tapançanı Riçarda tuşladı. Hər iki tərəfində oturan digər kişilər isə Riçardın əllərini və ayaqlarını qandalladılar.

Riçard daha cəsarətlə gülümsədi. Onu tutan adamlar isə buna təəccübləndilər. Həbs olunan insan gülümsəyirdi. Yəni o, belə qısa vaxtda ağlını itirdi? Onlar Riçarddan məlumat toplamaq istəyirdilər. Amma bu dəlinin, yəqin ki, onlara bir faydası dəyməzdi.

Kişilərdən biri ondan soruşdu:

— Nə üçün gülümsəyirsən?

Riçard cavab verdi:

— Ona görə ki, 366 dəfə yazılıb.

Onlar indi daha çox əmin oldular ki, ağlını itirmiş bir adamı dindirməli olacaqlar.

— 366 dəfə yazılan nədir?

— Mənə lazım olan şey.

— Sənə nə lazımdır ki?

Riçard cavab verdi:

— İnsan yalnız çörəklə deyil, Allahın ağzından çıxan hər kəlmə ilə yaşayar. Mənim də Allahdan eşitdiyim budur ki, qorxmayım.

# PROLOQ

Riçard kommunist Rumıniyasının təhlükəsizlik xidmətinin əməkdaşlarının əlinə keçsə də, bilirdi ki, həyatı hər şeyə qadir olan Allahın əlindədir. Bu, ona təsəlli verirdi.

Avtomobil sakit küçə ilə şütüyürdü. Riçard gözlərini yumdu. Allah onu qarşıda başına gələcək hadisələrə hazırlamışdı. O isə dua edirdi ki, Allaha sadiq qalsın.

# 1

Gavalı brendinin ikinci qədəhindən sonra Riçard kefləndi. Onun Buxarestdə çalışdığı broker firmasında uzun iş günü başa çatmışdı. İndi isə diqqətini daha gözəl şeylərə — lələkli qırmızı paltar geyinmiş kabare rəqqasəsinə cəlb edə bilərdi. Deyəsən, o, Riçardı tanımışdı, bütün axşamı səhnədən ona göz vururdu.

Musiqi bitəndən sonra rəqqasə ona yaxınlaşdı, bunu görən Riçard gülümsündü. Onun yaraşıqlı görkəmi və hündür boyu əksər qadınların diqqətini cəlb edirdi. Axır ki, özünə imkan edib ala bildiyi kostyumu dəniz kimi mavi gözlərinin gözəlliyini daha da vurğulayırdı.

Riçard bu qadının ondan nə gözlədiyini bilirdi. Bütün qadınlar kimi, o da qaçmaq istəyirdi. Riçard da nə vaxtsa kasıbçılıqdan qaçmaq istəyirdi. Otuzuncu illərin əvvəli onun üçün yaxşı keçmişdi. İndi, 1934-cü ildə, iyirmi beş yaşında artıq Riçardın maliyyə baxımından narahatlığı yox idi. İşində hər dəfə irəliləmək ona öz cismani istəklərini razı salmaqda yeni imkanlar yaradırdı. O, gününü eyş-işrətdə keçirən biri kimi nüfuz qazansa da, yığdığı var-dövlət və qadınlar onun uşaqlığının acı xatirələrini ovundura bilməmişdi. Amma keflənmək onu sakitləşdirirdi. Brendinin hər acı qurtumu Riçardın keçmişdə yaşadıqlarını dumanlandırır və dərdini daha da yüngülləşdirirdi.

Riçardın diş həkimi olan atası Birinci Dünya müharibəsi dövründə yaxşı həyat axtarmaq məqsədilə ailəsini Buxarestdən Türkiyənin İstanbul şəhərinə köçürmüşdü. Əvvəlcə onun bu addımı uğurlu görünürdü. Lakin çox keçmədi ki, hər şey dəyişildi. Onun övladları

üçün planlaşdırdığı yaxşı həyata 1918–1919-cu illərin qlobal qrip pandemiyası son qoydu. O, son nəfəsini verəndə Riçardın doqquz yaşı var idi.

Riçard üçün bəzi xatirələrdən azad olmaq digərlərindən asan idi. Yaslı anası ərini itirdikdən bir il sonra dörd övladı ilə birlikdə Buxarestə qayıtdı. Birinci Dünya müharibəsi onların ailəsini təkcə ərzaqdan deyil, geyimdən də məhrum etmişdi. Riçardın qarderobu böyük bacısından ona qalmış, Rumıniyanın sərt qışında canını isitməyən bir neçə nimdaş geyimdən ibarət idi.

Bir dəfə bir nəfər Riçarda yeni kostyum almağı təklif etmişdi. Həmin adam onunla birlikdə kişi geyimləri dükanına getmişdi. Dərzi onun üçün dükandakı ən yaxşı, bahalı kostyumlardan birini seçmişdi. O, kostyumu yeniyetmənin əyninə tutanda, qaşlarını çatmışdı. Riçard onun sözlərini heç vaxt yadından çıxarmayacaqdı: «Belə bir oğlan üçün bu kostyum artıqlıq edər». Kaş ki həmin dərzi Riçardı indi görərdi!

İndi uğurlu birjaçı Riçard dünyanın səfasını çəkirdi. O, ofisdə işləmədiyi vaxtlarda gününü gur musiqi sədaları altında, spirtli içkilər məclisində yarıçılpaq qadınlarla keçirirdi. Amma bu əyləncələr onun daxilindəki boşluğu doldura bilmirdi. Hər dəfə gecə klublarının qapıları bağlananda Riçard özünü nəyisə çatmırmış kimi hiss edirdi.

Həmin gecə restoranın səhnəsindəki parlaq işıqlardan Riçardın gözləri qamaşarkən Allaha qarşı çıxdığı vaxtlar yadına düşdü. Vurmbrandlar yəhudi idilər, amma onların imanı gündəlik həyatlarında çox nadir hallarda özünü büruzə verirdi. Onun ailəsi sinaqoqa getmirdi və Şənbə gününə riayət etmirdi. Riçard yeniyetmə dövrünə keçərkən ailəsi heç bar-mitsvanı — oğlanın tam məsuliyyətli həyata başladığını göstərən mərasimi də qeyd etməmişdi. O, yeniyetmə vaxtlarında dünyadakı əzabların cavabını dində tapmağa çalışırdı. O, hiss edirdi ki, onu sinaqoqa nəsə cəlb edir. Bir dəfə o, sinaqoqda xəstə qızının şəfası üçün yana-yana Allaha dua edən adam görmüşdü. Ertəsi gün isə qız ölmüşdü.

## Fəsil 1

«Allah belə güclü duaya necə cavab verməyə bilər?» — deyə Riçard ravvindən soruşmuşdu. O isə bu suala cavab verə bilməmişdi. Dünyada bu qədər insanın aclığına biganə qalan Allaha Riçard artıq inana bilmirdi, o ki qaldı Ona ibadət etsin...

Bir nəfərin toxunuşu onu keçmişdən geri qaytardı. Qırmızı paltarlı rəqqasə əli ilə kostyumun qatlarına toxundu. Görünür, keyfiyyətinə heyran olmuşdu. Qadının gözləri parıldayırdı, dodaqlarına ehtiraslı gülüş qonmuşdu. Riçard da ona gülümsündü və qədəhdəki axırıncı qurtumu başına çəkdi. Qadın həmin gecə Riçarda istədiyi bütün zövq-səfanı təklif edirdi.

Riçard ayağa qalxdı, rəqqasənin əlindən tutub onu gecə klubundan Kiçik Paris kimi tanınan Buxarestin təmiz havasına çıxardı.

# 2

1930-cu illərin əvvəlləri idi. Sabina Oster başını əyib üzünü isti Paris günəşinə doğru çevirdi. Günəşin şüaları üzünün incə cizgilərini vurğulayır, qalın, qara saçlarını qızdırırdı. Sabinanın axırıncı dərsi, nəhayət ki, sona yetmişdi və o, adamla dolu kafedə özünə yer tapa bildiyi üçün sevinirdi. Bu yaxınlarda valideynlərindən əldə etdiyi sərbəstlik onun başını gicəlləndirirdi.

Sabina Parisin tanınmış Sarbonnasında kimya, fizika və riyaziyyat üzrə sərbəst təhsil alan yeganə qadın deyildi. Qırx il öncə Mariya Sklovodskaya adlı qadın alim Pyer Küri ilə tanış olub onunla evlənmişdi və bu kübar təhsil ocağının birinci müəllimi olmazdan əvvəl həmin universitetdə təhsil almışdı. Ola bilsin ki, Sabina da Mariya Küri kimi Nobel mükafatı qazanacaqdı. Bu nüfuzlu auditoriyalar dünyaya saysız-hesabsız dahi şəxsiyyətlər bəxş etmişdi... Burada on yeddi yaşlı qızı yaxşı təqaüd və tələbə yoldaşları ilə romantik ünsiyyətlər gözləyirdi.

Rumıniyanın universitet şəhərciyi olan Çernovtsıda böyüyüb boya-başa çatan Sabina sadə də olsa, firavan və maraqlı bir uşaqlıq keçirmişdi. Böyük və kiçik bacı-qardaşlarının əhatəsində, zəngin yəhudi mədəniyyətindən bəhrələnərək böyümüş Sabina, demək olar ki, heç nədən korluq çəkməmişdi. Amma onun valideynlərinin verdiyi yəhudi tərbiyəsi çox ciddi idi. Sabina onu hər tərəfdən bir sədd kimi sıxışdıran sərt qadağalara güclə dözürdü.

İndi isə Sabina ilk dəfə idi ki, sərbəst həyata başlamışdı. Bu həyat onun çox xoşuna gəlirdi, çünki özünü nəzarət altında hiss

etmirdi. O, kürəyini stula söykəyib axşama planlaşdırılan görüşü xəyalında canlandırırdı.

*****

Sabina hündürdaban dar qara ayaqqabılarını geyindi. Divar saatının əqrəbləri səbirsizliklə gözlənilən görüşün saniyələrini sayırdı. Nəhayət, zəng çalındı. O, həyatında ilk dəfə olaraq oğlanla görüşə gedirdi.

Sabina böyük qardaşlarının buna necə baxacaqlarını düşünəndə, gülümsədi. Görəsən, cavan oğlan onu hara aparacaq? Onlar nə haqda danışacaqlar? Sabina onu narahat edən fikirləri ağlından çıxarmağa çalışdı. *Bəs birdən əlimdən tutmaq istəsə, onda necə?* Sabinanın həyəcandan yanaqları qızardı.

Cavan oğlan əsl centlmen kimi vaxtında gəlib çıxmışdı. Sabina otaq yoldaşını qucaqlayıb sağollaşdı və tez küçəyə çıxdı. Həyatda ilk dəfə idi ki, o, valideynlərinin ciddi qaydalarını unutmuşdu.

Şam yeməyindən sonra cavan oğlan Sabinanı səs-küylü restorandan ay işığı süzülən daş döşənmiş küçəyə çıxardı. Yemək çox dadlı idi. Söhbətlərinin yaxşı keçməsi Sabinanı təəccübləndirmişdi. Hələ ki, hər şey onun düşündüyündən də gözəl davam edirdi.

Cavan oğlan Sabinanın ovcuna toxundu və onların barmaqları bir-birinə dolaşdı. Onlar Parisin küçələrində gəzə-gəzə Lüksemburq bağının, sonra isə incəsənət və arxeologiya üzrə təhsil alan tələbələrin mühazirə keçdikləri Mesopotamiya üslubunda təzə tikilən möhtəşəm İncəsənət və Arxeologiya İnstitutunun yanından keçdilər. Onlar Birinci Dünya Müharibəsindən sonra sayı üç dəfə artan tələbələrlə universitet şəhərciyinin necə qaynaşdığına heyrətlənərək xarici tələbələr üçün yenicə açılmış yataqxanaya — Sabinanın qaldığı yerə tərəf getdilər.

Yataqxanaya yaxınlaşanda Sabina oğlana bugünkü görüşə görə minnətdarlığını bildirmək istədi. Onların baxışları toqquşdu.

Oğlan gözlənilmədən onu öpmək üçün əyildi. Bu, Sabinanı çox təəccübləndirdi və o, dərhal geri çəkildi.

Daş divara dirənən Sabina əli ilə etiraz işarəsini verdi. Onun valideynləri heç vaxt buna razı olmazdılar. O, oğlana valideynlərinin onu necə tərbiyə etdiyini, hansı qadağalar qoyduğunu izah etməyə çalışdı.

Oğlan güldü:

— Sən Allaha inanırsan?! Bəs əlləri və dodaqları yaradan həmin Allah deyilmi?

Sabina qızardı və deməyə söz tapmadı.

Cavan oğlan davam etdi:

— Əgər mən sənin əlindən tuta bilirəmsə, onda nə üçün dodaqlarına toxuna bilmərəm?

O, qabağa dartınıb qollarını Sabinanın incə belinə doladı və onu özünə tərəf çəkdi. Sabina var-gücü ilə nəsə deməyə çalışdı.

— Axı nə üçün səni qucaqlaya bilmərəm?

Sabina oğlanın bədəninin ona necə sıxıldığını hiss etdi.

Universitet auditoriyası olsaydı, o, cavan oğlanın məntiqli sualına əsaslı cavab verə bilərdi. Amma indi Sabinanın başı dumanlanmışdı, ürəyində ona qarşı istək hiss etdiyi üçün doğru cavabı verə bilmirdi. Buna görə onu kim qınaya bilərdi ki? Onu valideynlərindən iki min kilometr məsafə ayırırdı. Əsl sərbəstlik bəlkə elə budur?

Sabina oğlana güzəştə getdi. O, qızın çənəsindən tutub öz dodaqları ilə onun dodaqlarına toxundu.

*****

Sonrakı həftələr və aylar Sabina Parisin qayğısız həyatından zövq aldı. Əxlaq, paklıq, valideynlərin məhdudiyyətləri ilə dolu günlər keçmişdə, Rumıniyada qaldı. Sabina əxlaq barədə keçmiş qaydalarını Parisin həzzinə qurban verdi. İndi onun bədəni özünə məxsus idi. Onu asanlıqla oğlan dostuna təslim etdi.

Nəhayət, o, belə nəticəyə gəldi ki, ateist adam istədiyi hər şeyi etməkdə azaddır.

# 3

İki ildən sonra Sabina Parisdən Buxarestə tətilə evə qayıtdı. O, tətilini ailəsi və qohumları ilə keçirdi. Amma hər vəchlə öz yeni həyat tərzini gizlətməyə çalışdı.

Bir dəfə Sabinanın çox sevdiyi dayısı onu öz dostunun ailəsinə baş çəkməyə dəvət etdi. Maşın onların evinə çatanda Sabina başını qaldırdı. Bu zaman balkonda cavan bir oğlan gördü. O, diqqətlə baxanda gördü ki, oğlan nəsə hirslidir, onun çöhrəsi bulud kimi tutqundur. Sabina oğlanın qəzəbinin sanki onunla əlaqəli olduğunu hiss etdi və bir anlıq maşından düşüb-düşməmək barədə ürəyində götür-qoy etdi.

Cavan oğlan Sabinanın dayısını görəndə üzünün ifadəsi dəyişildi və onlara əl yellədi. Bir neçə dəqiqədən sonra o, artıq qonaqları qapıda salamlayırdı. Dayı öz bacısı qızını onun Parisdə tanıdığı oğlanlara bənzəyən yaraşıqlı gənclə — Riçard Vurmbrandla tanış etdi. Onun boy-buxununa və görkəminə vurulan Sabinanın ürəyi sevincdən titrəməyə başladı.

Riçard onları qonaq otağına apardı və nəzakətlə oturmağa yer göstərdi. Gözəl qonağında mənfi təəssürat yaratdığı üçün utanan Riçard bir qədər əvvəlki qəzəbinin səbəbini belə izah etdi:

— Bilirsiniz, anam məni evləndirmək istəyir. O, hətta bir qız da seçib. Qız ailə biznesinin varisidir, iki evi və milyonluq cehizi var.

Sabina cavab verdi:

— Bu, çox yaxşıdır.

Riçard gülərək dedi:

— Bəli, biznesə və mirasa sahib olmağa etiraz etmirəm. Amma bircə qız xoşuma gəlmir. Anam hesab edir ki, bizim

varlanmağımız üçün bu, ən yaxşı fürsətdir. Amma sonra balkona çıxanda səni gördüm...

Riçard Sabinaya baxıb gülümsündü.

Sabina bu cür səmimiyyət gözləmirdi, lakin bu, onun xoşuna gəldi.

— Səni görən kimi fikirləşdim ki, əgər həyatımda sənin kimi qız olsa, onda pul mənim vecimə də olmaz!

*****

Bu görüşdən sonra Riçard və Sabina alovlu sevgi macərası yaşamağa başladılar. Sabinanın tətilinin hər asudə vaxtını onlar birlikdə keçirirdilər. O, gələcəyə dair çox şeylər vəd edən birjaçı, yaxşı pul qazanan Riçardla tanış olduğu üçün çox məmnun idi. Riçard da qazancını Sabinaya xərcləməkdən zövq alırdı. Onlar hər gün gecə klublarına, teatrlara, şənliklərə, barlara və restoranlara gedirdilər.

Daha çox görüşdükcə Sabina üçün Paris oğlanları marağını itirməyə başladı. Sabina aşkar etdi ki, Riçardla onun təkcə maraqları və həyat təcrübəsi üst-üstə düşmür, həm də onların hər ikisi var-dövlət, dəbdəbə və sərbəst həyat uğrunda dinlərindən üz döndərmiş yəhudilərdir.

Bir axşam Riçard Sabinanı təəccübləndirdi.

«Mən çox çətin adamam, — deyə Riçard tünd içkisindən bir qurtum içib sözünə davam etdi, — mənimlə birlikdə sənin həyatın asan olmayacaq».

Bəlkə də. Amma Sabina ona vurulmuşdu. Əgər gələcəkdə həyatlarında əziyyətlərlə üzləşəcəklərsə, onların əvəzini ödəyəcək kifayət qədər əyləncə də olacaqdı. O, buna əmin idi.

# 4

Sabina daha Parisə qayıtmadı. Onun üçün Buxarestdə Riçardla həyat daha yaxşı keçirdi. O, tezliklə yerli sığorta şirkətində işə düzəldi. Onların bu görüşləri 1936-cı il oktyabrın 23-də ravvinin evində baş tutan səs-küylü toy mərasiminə kimi davam etdi. Yenicə evlənmiş cütlük ənənəvi yəhudi örtüyü — *huppa* altında dayanıb ayaqları ilə şərab badəsini sındırdılar. Bu, yəhudi toylarında bir adət idi, b.e. əvvəl 586-cı ildə Yerusəlimin Babil tərəfindən dağıdılmasını anmaq üçün edilirdi. Bu dini adətin ateist cütlük üçün heç bir mənası yox idi. Amma valideynlərini razı salmaqdan ötrü Riçard və Sabina buna etiraz etmədilər.

Yenicə evlənmiş cütlük uşaq dünyaya gətirmək barədə fikirləşmirdi. Onlar qayğısız, sərbəst həyatlarının heç nə, hətta körpə ilə belə yüklənməsinə icazə verə bilməzdilər. Riçard və Sabinanın məqsədi sadə və həyata keçirilə bilən idi: onlar hər yerdə və hər şeydə kef və əyləncə axtarırdılar.

Riçardın başqa qadınlarla sərbəst ünsiyyət vərdişi toydan sonra çox gec və çox çətinliklə tərgidildi. Yenicə evlənmiş cütlük üçün əxlaq qaydaları yox idi. Sabina ərinin baxışlarının, çox vaxt elə ürəyinin də başqa qadınlara yönəldiyini görəndə, özünü görməməzliyə vururdu. Yalan onların evlilik həyatları üçün adi bir hal idi. Bütün bunlara baxmayaraq, Riçard və onun cavan həyat yoldaşı nikahın ilk vaxtlarını kefdə-damaqda keçirirdilər.

*****

Vurmbrandlar birgə həyatlarının ilk ilini xoşbəxt yaşadılar. Çox keçmədi ki, Riçardın sərbəst həyat tərzinin fəsadları özünü göstərdi. Hər şey bezdirici, aramsız öskürəkdən başladı. O, bir müddət buna məhəl qoymasa da, nəhayət, həyat yoldaşının təkidi ilə həkimin qəbuluna yazıldı.

Həkimin qəbulundan qayıdanda Riçard çox solğun görünürdü.

1930-ci illərdə vərəm sanki ölüm hökmü idi. Dünyada ən ciddi xəstəliklərdən biri olmaqla yanaşı, Avropada da sürətlə yayılırdı. Vərəmlə mübarizədə həkimlər var-gücü ilə dərman tapmağa çalışırdılar. Xəstəliyə qarşı yeni yaradılmış peyvəndin davamlı tətbiqinə isə onilliklər lazım idi.

Həddən artıq spirtli içki Riçardın immunitetini elə zəiflətmişdi ki, onun orqanizmi nəfəs yollarına keçən vərəm çöplərinə qarşı həssas olmuşdu. Onun ağ ciyərlərində olan təhlükəli ləkə sürətlə yayılırdı, gecələr tər və hərarətli üşütmələr zəif bədənini yavaş-yavaş məhv edirdi. Maye ilə dolmuş ağ ciyərləri beyininə güclə oksigen çatdırır, qanlı öskürəyə səbəb olurdu. Bir sözlə, Sabinanın iyirmi yeddi yaşlı əri az qalırdı ki, ağ ciyərlərini bürümüş mayedə boğulsun.

Riçard üçün yeganə çıxış yolu Karpat dağlarının dərinliyindəki təcrid edilmiş sanatoriyada müalicə almaq idi. Orada o, təmiz hava alıb ultrabənövşəyi şüalar qəbul edə bilərdi. Ciddi yataq rejimi bəlkə də onun sağalmasına kömək edərdi. Amma vəziyyəti ümidverici deyildi. Onun sağ qalmaq şansı əllinin əlliyə idi.

Sabina cavan ərinin ölə biləcəyini düşünərək ağlayırdı. Onlar xoşbəxt evlilik yaşayırdılar. Lakin Riçarda qoyulan diaqnoz daşına bilinməyən bir yükə çevrilmişdi. Tanışlıqlarından bəri ilk dəfə idi ki, cütlüyün düşüncələri gələcəyə və tezliklə Sabinanın dul qalacağı fikrinə yönəlmişdi.

Riçard qatara minib Rumıniyanın yaşıl təpələri boyunca yerləşmiş kəndlərdən keçərək sanatoriyaya yola düşdü. Sabina isə anasının yanına köçdü. Hər iki həftədən bir Sabina xəstə ərinə baş çəkməkdən ötrü uzun yol qət edirdi. Amma bu görüşlər onun yuxusuzluğuna və göz yaşlarına kömək etmirdi. Riçarda görə

başqa qadınlar da — doğma anası, hətta əvvəllər münasibətdə olduğu bəzi qadınlar da ağlayırdılar.

Riçarda gəldikdə isə sanatoriyadakı sakitlik və rahatlıq Buxarestin gərgin həyatından qaçmaq üçün yaxşı bir vasitə idi. Elə buna görə bir dəfə həyat yoldaşına belə demişdi: «Həyatımda ilk dəfədir ki, dincəlirəm».

Lakin dağların sakitliyi ona keçmişi barədə düşünməyə — barlarda, teatrlarda və gecə klublarında keçirdiyi bitib-tükənməz saatları, eləcə də qəlblərini qırdığı qadınları xatırlamağa vadar edirdi.

Ona vərəm qədər əziyyət verən acı xatirələr beynində canlanırdı. O, aldatdığı biznes yoldaşlarının üzlərini görür və dediyi yalanları indi daha aydın eşidirdi. Dağ havası hər bir düşüncəni, sözü, hərəkəti və günahı üzə çıxarmışdı. *«Onlar iztirablı pyesin səhnələri kimi yenidən gözümün önündə canlanır»* deyə o düşünürdü. Riçard gəncliyini başqalarına böhtan atmağa, insanları aldatmağa və incitməyə sərf etmişdi. Bütün bunlar nədən ötrü idi ki? İndi onun önündə həyatının mənzərəsi — səfehliyin səhrası açılmışdı. O özü üçün yaşamışdı, indi isə tənhalıqda öləcəkdi.

Hətta burada, tənhalıqda təcridolunma Riçarda layiq olduğu cəza kimi görünürdü. Çox keçmədi ki, inadkar ateist ilk dəfə Allaha dua etdi. Bu, onun üçün gözlənilməz bir şey idi. Riçardın bədəni ona tabe olmasa da, qəlbi inanmadığı Allaha dua etməyə hazır idi.

# 5

Riçardın uşaqlığı çətin keçmişdi. İztirablarını yüngülləşdirmək üçün o, kitablara üz tutmuşdu. On yaşı tamam olanda artıq evlərindəki bütün kitabları oxumuşdu. O özünü dini xurafatlara qarşı çıxan fransız Voltera bənzədirdi. Onun fikirlərini bəyənir, dinə Volter kim yanaşırdı. Əgər hər şeyə qadir Allah xeyirxah və sevəndirsə, onda nə üçün Riçardın atasının ölümünə icazə vermişdi?

Riçard bir dəfə katolik kilsəsində Məryəmin bəzədilmiş heykəlinə yaxınlaşdı və onun ətrafına dua üçün toplaşmış adamlara qoşulmaq istədi.

«Ey lütfə nail olmuş Məryəm, sevin» — deyə o, duaya başladı. Lakin bu gözəl sözlər belə onun daxilindəki boşluğu doldura bilmədi. Duasını dayandırıb, Məryəmin heykəlinə baxa-baxa dedi: «Əslində sən *daşdan* başqa bir şey deyilsən. Bu qədər adam sənə yalvarır, amma sən onların dualarına cavab vermirsən». Nə Məryəm, nə də katolik kilsəsində latın dilində keçirilən ibadət Riçardda Allaha qarşı iman oyatdı. O, doksologiya[1] sözlərini oxuyarkən var-gücü ilə onları başa düşməyə çalışırdı:

*Domine Deus, Rex caelestis,*
*Deus Pater Omnipotens.*
*Domine Fili unigenite Jesu Christe.*
*Domine Deus, Agnus Dei,*
*Filius Patris.*

---

[1] Doksologiya — xristian terminologiyasında Allaha edilən tərif duasıdır.

Roma katolik kilsəsində məyus olan Riçard şərqi pravoslav kilsəsində də eyni mənzərə ilə rastlaşdı. Ona görə də Riçard yeniyetmə yaşlarına gəlib çatanda, artıq ateist əqidəli bir insan idi. O, kilsələrə ayaq belə basmaq istəmirdi. Çünki bir yəhudinin pravoslav kilsəsinin antisemitizminə (yəhudilərə qarşı nifrət hissi) haqq qazandırması mümkün deyildi. Bundan başqa, din ona həyatında yer almaqdan ötrü həddən artıq ənənə və saxtalıqla dolu bir məslək kimi görünürdü.

Əhdi-Ətiqdə Yahve israilliləri Misirin əsarətindən azad etdi və onlara səhrada yemək üçün çörəyə oxşayan manna verdi. Amma Rumıniyada çörək qıtlığı var idi. Riçard aclığın nə olduğunu yaxşı bilirdi. Vurmbrandların maddi imkanları çox aşağı idi, ailənin qazancı yalnız həyatda sağ qalmalarına kifayət edirdi.

Riçardın hər şeyə qadir, hamını sevən Allahdan üz döndərməsi onu mənasız materializmə — gözlə görünən dünyadan kənarda heç nəyin mövcud olmadığına inandırdı. O, fövqəltəbii aləm barədə fikirlərdən qaçır və həmişə həllini tapa bilmədiyi tapmacalar üzərində düşünürdü. Görəsən, insanlar atom və minerallardan daha mükəmməl yaradılışdır? Ölümdən sonra nə baş verir? Ruh adlı bir məfhum varmı? Riçard artıq ruhun mövcudluğuna da inanmırdı. Amma bütün bunlara baxmayaraq, atasının ölümü həmişə onun gözünün qarşısında idi. O, əqlən Allahdan uzaqlaşsa da, ürəyi Onun varlığına ümid edirdi.

Qışda Riçard çox vaxt Buxarestin qəbiristanlıqlarında gəzib dolaşırdı. O, par-par parıldayan qəbirüstü daşlara baxaraq bir gün özünün də öləcəyini düşünürdü: onun da qəbrinin üstünə qar yağacaq, insanlar onsuz deyib güləcək, qucaqlaşacaq, bir sözlə, həyatdan zövq alacaqdılar. O, artıq həyatda olmayacaqdı və bir müddət keçəndən sonra heç kim onu yada salmayacaqdı. «*Bəs onda insan nə üçün dünyaya gəlir?*» — deyə o özünə sual verərdi. Allahın varlığına, ölümdən sonra həyatın mövcudluğuna inanmasa da, Riçard öz-özlüyündə hər şeyin başqa cür olmağını arzulayırdı. Görəsən, onun dünyada mövcudluğuna səbəb nədir?

Ateizm ona çox maraqlı gəlirdi. On dörd yaşlı Riçard Allahın varlığını inkar edən hər bir kitabı həvəslə oxuyurdu. Xüsusilə XIX əsrin filosofu Karl Marksın əsərləri onun diqqətini cəlb edirdi. Bu filosofun düşüncələri Riçardı inandırmışdı ki, Allahın mövcudluğu ideyası insan ağlını zəhərləyir. Riçarda fantastika deyil, faktlar lazım idi. O, din ilə pərdələnmiş əfsanəvi uydurmalar deyil, dünya barədə həqiqəti bilmək istəyirdi. Karl Marksın «[Din] — xalq üçün *tiryəkdir*»[2] fikri Riçardı qane edirdi.

İti ağıla, kəskin zəkaya və dilləri öyrənmək bacarığına malik olan Riçard qısa bir vaxtda kommunist gənclər hərəkatının fəal üzvünə çevrildi. O, təhsilini artırmaq, marksizmi dərindən öyrənmək üçün Moskvaya yollandı. Doqquz dildə sərbəst danışmağı bacaran Riçard rus mədəniyyətinə çətinlik çəkmədən uyğunlaşdı. O, Rumıniyaya qayıdanda, artıq Kominternin agenti idi. Bu, müxtəlif ölkələrin kommunist partiyalarını birləşdirən, burjuaziyanı devirməyə və Leninin dediyi kimi, «bütün ölkələrdə Sovet hakimiyyətinin qurulmasına çalışan» beynəlxalq bir təşkilat idi.

Kommunizm Riçardın uşaqlıqda keçirdiyi və indi bütün Rumıniyada müşahidə etdiyi kasıblığın həllini vəd edirdi. Mülkiyyətə və əmlaka müştərək sahiblik gənc ateistə cəlbedici ideya kimi görünürdü. O, həm də eyni fikirli insanların yoldaşlığını — heç vaxt kilsədə hiss etmədiyi *yoldaşlığı* arzulayırdı. Riçard özünə elə bir fəaliyyət tapmışdı ki, onun iştirakçısı olmağa və uğrunda mübarizə aparmağa dəyərdi. O, kommunist partiyasının ölkəsində ədaləti bərpa edəcəyinə ümid bəsləyərək bütün səylərini Rumıniyanın korrupsiyaya uğramış hakimiyyətinin devrilməsinə yönəltdi.

Çox keçmədi ki, Riçard çətin bir seçimlə üz-üzə qaldı. O, solçuların proqramını heyrətamiz ideya hesab etsə də, sanki nəsə onu Allaha tərəf çəkirdi. Riçard çox nadir hallarda kilsələrin yanından keçərdi, çünki o, kilsəyə girib vəzə qulaq asmaq istəməzdi. Atasız böyüməsi onun qəlbində göylərdəki Ataya dərin bir istək yaratmışdı. Əlbəttə

[2] Karl Marks və Fridrix Engels, «Din haqqında» (Mineola, Nyu York: Dover, 2008), səh. 42

ki, Allahın da ona böyük sevgisi var idi. Birliyi və müştərəkliyi təbliğ edən marksizm isə onun ürəyində Allahın sevgisi üçün olan boşluğu doldura bilməzdi.

*****

Riçard indi cəmiyyətdən təcrid olunmuş halda, sanatoriyada ilk dəfə tərəddüd içində dua etdi: «Ey Allah, mən əminəm ki, Sən mövcud deyilsən, — deyə o pıçıldadı, — əgər təsadüfən Sən *varsansa*, onda mən *Sənə* inanmasam da, *Özünü* mənə göstərməlisən».

Sən demə, Riçard Rumıniyanın təpələrində yerləşən kəndlərdə Allaha dua edən yeganə adam deyildi. Dağların başında, kiçik bir kənddə, yaşlı dülgər Kristian Vyolfkes arvadı ilə birlikdə bütün gecəni diz üstə Allaha dua edərək keçirmişdi. Bu ər-arvad uzun müddət idi ki, heç olmasa bir yəhudini Xilaskar İsa Məsihə gətirmək üçün Allahdan fürsət istəyirdilər. Hərdən elə olurdu ki, onlar Yaradanın qarşısında ürəklərini açıb, Müqəddəs Kəlama əsaslanaraq göz yaşları içərisində həyatda heç vaxt görmədikləri yəhudinin xilası üçün dua edirdilər.

Kristian belə dua edirdi: «Ya Rəbb, mən Sənə xidmət etmişəm və istəyirəm ki, yer üzündə və göylərdə mənə mükafat verəsən. İstədiyim mükafat budur ki, ölənədək bir yəhudini Məsihlə tanış edim, çünki İsa Özü yəhudi olub. Amma mən yoxsul, qoca və xəstə bir adamam. Mən yəhudi axtarmaq üçün harasa səfərə çıxa bilmərəm. Yaşadığım kənddə isə heç bir yəhudi yoxdur. Ya Rəbb, xahiş edirəm, Sən Özün yəhudini bizim kəndə gətir. Onda onu Məsihə imana gətirmək üçün əlimdən gələni əsirgəmərəm».

*****

Sabina növbəti dəfə sanatoriyada Riçarda baş çəkəndə o, dərin düşüncələrə qərq olmuşdu.

Riçard dərindən nəfəs alaraq etiraf etdi:

— Mən elə hey keçmiş barədə düşünürəm. İncitdiyim hər kəsi... anamı, hətta sənin tanımadığın qızları belə düşünürəm. Bütün həyatım boyu özümü düşünmüşəm.

Sabina ərinə zidd getmədən cavab verdi:

— Bu barədə narahat olma. Mənim həyatım heç də səninkindən fərqli olmayıb. Biz gənc olmuşuq, çoxu cavan olanda belə hərəkət edir.

Sabina Riçardı Buxarestə qayıdandan sonra onları gözləyən yaxşı vaxtlar barədə düşünməyə ruhlandırdı. Riçard isə ürəyinin dərinliyində özünə sual verirdi: «Görəsən, oradan gəldiyi kimi oraya qayıda biləcəkdi?» Onu narahat edən fikirlər gözlənilməz nəticə hasil etmişdi. Riçardın keçmişdəki günahları artıq onu əvvəlki kimi cəlb etmirdi. Ehtiraslarla dolu olan bir həyat onun üçün öz rəngarəngliyini itirmişdi. İndi o dərk edirdi ki, qadınlara olan böyük həvəsinin və gecə klublarının heç bir dəyəri yoxdur. Sabina isə bunu anlaya bilmirdi.

*****

Riçardın səhhəti yaxşılaşanda onun qəlbi də sağalmağa başladı. Sabinanın işıqlı gələcək və əyləncəli həyat barədə ərini şirnikləndirmək cəhdləri boşa çıxdı. Amma onun yeni qeyri-adi bir kitab oxuduğunu görəndə dəhşətə gəldi. Axı bu məsihçilərin Müqəddəs Kitabıdır! Onun yəhudi ateist əri isə indi palata yoldaşının verdiyi Əhdi-Cədidi oxuyurdu!

Ənənəvi yəhudi ailəsində böyümüş Sabinaya atasının evində İsa Məsihin adının belə çəkilməsinə icazə verilmirdi. Məsihçilərin kilsəsinin yanından keçəndə valideynləri ona və bacı-qardaşlarına deyirdilər ki, üzlərini başqa tərəfə çevirsinlər. Niyə də çevirməsinlər? Məsihçilərin yəhudi xalqına qarşı törətdiyi təqibləri və həqarətləri göz önünə gətirəndə Sabinanın ailəsinin incikliyini başa düşmək olardı. Məcburi vəftiz və katolik mərasimləri bir

yana qalsın, bu xalqın tarixi məsihçi adını daşıyanların tökdüyü qana bulanmışdı. Sabina hətta oxumuşdu ki, yəhudilər məsihçiliyi qəbul etməmək və özlərini ləkələməmək üçün əvvəlcə övladlarını, sonra isə özlərini öldürmüşdülər.

Uşaqlıqda məktəbdən qayıdarkən necə qorxduğu hələ də yadındadır. Küçədə tini dönəndə çox vaxt orada özündən yaşca böyük iki məsihçi qız onu gözləyirdi. Onlar «Murdar balaca yəhudi!» deyib Sabinanın üstünə qışqırırdılar. Qızlar Sabinanı ələ salıb saçlarını və qollarını dartırdılar.

Ən nüfuzlu antisemit təşkilatlar məhz xristian təşkilatları idi: pravoslav kilsəsi, lüteran kilsəsi və əsas məqsədi yəhudi tələbələri döymək, bu xalqın nümayəndələrinə məxsus müəssisələri dağıtmaq olan Xristian Milli Müdafiə Liqası. Əgər məsihçilik bu idisə, Sabina onlara heç salam belə vermək istəməzdi.

Sabina ərinin Əhdi-Cədiddəki İsanı təsvir etməsinə artıq dözə bilmədi. Məsihçilik tarixi ləkələmişdi, indi isə onu evliliyini dağıtmaqla təhdid edirdi. Toydan əvvəl onlar uşaq istəmədikləri barədə razılığa gəlmişdilər. İndi isə əri uşaqları məsihçi tərbiyəsi ilə böyütməkdən dəm vururdu. Riçard öz əlləri ilə ailəsinin xoşbəxtliyini məhv edirdi!

Riçard başqa qəribə kitablara da aludə olmuşdu. O, Sabinaya palata yoldaşından aldığı bir kitabı verdi. Bu kitab yəhudiləri sevən və onlara kömək etmək üçün həyatlarını qurban verən məsihçilərdən bəhs edirdi. «Burada Ratisbon qardaşlarından danışılır, — Riçard dedi, — onlar yəhudiləri Məsihlə tanış etmək üçün rahiblərdən ibarət dini icma yaradıblar».

Riçardın keçmişdə yəhudilərə xidmət edən məsihçilər barədə danışdığını görən Sabina məyus halda üzünü yana çevirdi. «Öz həyatımı boş-boş şeylərə sərf edərkən, sən demə, bu insanlar mənim üçün dua ediblər» — deyə Riçard sakitcə dilləndi.

*****

Bir neçə aydan sonra Riçardın ağ ciyərlərinin vəziyyəti yaxşılaşdığı üçün vərəm sanatoriyasından çıxmağına icazə verildi. Ona məsləhət görüldü ki, tam bərpa olunması üçün yaxınlıqda yerləşən sakit kənddə bir müddət qalsın.

Bir gün Riçard və Sabina kəndin daş döşənmiş küçələrində gəzərkən yaşlı bir kişi ilə rastlaşdılar. Həmin kişi onları evinə dəvət etdi. Onun adı Kristian Vyolfkes idi. Kristian Riçardın yəhudi olduğunu biləndə gözləri doldu. «Mən Allahdan xahiş etmişdim ki, həyatımın sonuna yaxın bir arzumu yerinə yetirsin, — o, döyənəkli əli ilə Riçardın əlindən tutaraq dedi, — Məsih yəhudi olduğu üçün istəyirdim ki, heç olmasa bir yəhudini Onunla tanış edim. Burada yəhudi olmadığına görə, mənim də kənddən çıxa bilmədiyimə görə bilirdim ki, Allah yəhudini buraya, yanıma gətirəcək. Budur, sən buradasan! Sən mənim duama cavabsan!»

Riçardın yadına Ratisbon qardaşları düşdü... Qonaqları yola salanda Kristian Riçarda özünün köhnə Müqəddəs Kitabını verdi. Riçard kitabı səhifələyəndə Kristian dedi: «Həyat yoldaşımla mən bu an üçün saatlarla dua etmişik. Allaha yalvarırdıq ki, sən Onu ürəyinə qəbul edəsən».

Bu yeni dostun səmimi və səxavətli hərəkəti Riçardın ürəyinə toxundu. Amma Sabina əsəbi görünürdü. Onun baxışlarından duyulurdu ki, ona xəyanət edilmiş kimi özünü hiss edir...

# 6

Növbəti günlərdə və həftələrdə Riçard vaxtını məsihçilərin Müqəddəs Kitabını oxumaqla keçirdi. O, hər gün balaca evdə divanda oturub Əhdi-Cədidin hekayələrini oxuyurdu. Gənc yaşlarında o, Müqəddəs Kitabı sadəcə maraq xatirinə başdansovdu oxumuşdu. İndi o, imanı uğrunda həbs olunmuş Paulun bu fikirlərini yenidən oxuyurdu: «Mən Müjdədən utanmıram, çünki o, iman edən hər kəsin — əvvəlcə yəhudinin, sonra da yunanın xilası üçün Allahın qüdrətidir» (Romalılara 1:16). Riçard bu sözlərin həqiqət olub-olmadığı barədə düşünməyə başladı: həqiqətənmi İsa Məsih xilası *öncə yəhudilərə* təqdim edib?

Əhdi-Cədiddəki hər bir kəlmə onu daha çox oxumağa ruhlandırırdı. Hətta cümlələr arasında əvvəllər fikir vermədiyi durğu işarələri belə, Riçarda həqiqət rəmzi kimi görünürdü. Uşaqlıq illərində məsihçilik ona sadəcə maraqlı gəlmişdi. Lakin indi məsihçilik keçmiş həyatındakı günahlardan aldığı zövqü kökündən məhv edirdi. Riçard İsanın məsəllərini dərindən araşdırır, Onun sözləri üzərində düşünürdü: «Mənsə sizə deyirəm ki, düşmənlərinizi sevin, sizi təqib edənlər üçün dua edin. Belə ki siz göylərdə olan Atanızın övladları olasınız...» (Matta 5:44–45). Yəhudilər əsrlər boyu təqib olunmuşdular. Riçard onu incidənləri və ona nifrət edənləri həqiqətən bağışlaya biləcəkdimi? Riçard Əhdi-Cədidi elə həvəslə oxuyurdu ki, sanki onun həyatı bu kitabdan asılı idi.

Tezliklə Məsih Riçard üçün gerçək oldu. Hər gecə Onun haqqında daha çox öyrənmək arzusu ilə yatırdı. Riçardın ürəyində mübarizə gedirdi. Onun ürəyi Allaha tərəf yönəlmişdi, şüuru isə

Ona qarşı dururdu. O, belə dua edirdi: «Mən heç vaxt Sənin şagirdin olmayacağam. Mən istəyirəm ki, çoxlu pulum olsun, səyahətlərə çıxım. Bir sözlə, həyatdan zövq almaq istəyirəm. Mən bu vaxta qədər çox əzab çəkmişəm». Riçard yumruğunu sıxıb «Sənin yolun çarmıx yoludur, hətta həqiqət yolu olsa da, mən o yolla getməyəcəyəm!» deyirdi.

Cavab İsanın çağırışı kimi gözlənilməz oldu, onun əvvəlki fikirlərini dağıtdı. *«Gəl yanıma! Çarmıxdan qorxma! Sən görəcəksən ki, Mənim yolum dünyadakı ən böyük sevincdir!»*

Riçard sevinc tapacağını düşünüb ağladı. O, ehtirasın nə olduğunu bilirdi, amma sevinc yeni və tanış olmayan bir hiss idi. İsa onun günahla və xudbinliklə ləkələnmiş həyatını bağışlaya bilərdimi? Məsih Riçardın təqsirini Öz lütfü ilə əvəz edə bilərdimi? İsanın sözləri onun ürəyinə toxunurdu: «Ey bütün yorğunlar və yükləri ağır olanlar, Mənim yanıma gəlin, Mən sizə rahatlıq verərəm» (Matta 11:28). Riçardın bu rahatlığa necə də böyük ehtiyacı var idi! Məhz buna görə də sanatoriyaya qaçıb getmişdi. Lakin İsanın vəd etdiyi rahatlıq təkcə fiziki deyil, həm də ruhani idi.

Riçard qızmar günəşin dözülməz istisi altında gəzməkdən taqətdən düşmüş insan haqqında olan qədim çin hekayəsini xatırladı. O, nəhəng palıd ağacının kölgəsində dincələndən sonra dedi: «Təsadüfə bax! Nə yaxşı ki, səni tapdım!»

Palıd ağacı cavab verdi: «Bu, təsadüf deyil. Mən səni dörd yüz il idi ki, gözləyirdim».

Birdən Riçardın gözləri açıldı. Xilasın yolu indi daha aydın görünürdü. İsa Məsih Riçardı gözləyirdi. Gözləyirdi ki, Riçard gəlib Onun məhəbbətində dincəlsin. Bəlkə də vərəm xəstəliyi onu dünyanın qızmar istisindən çıxarıb Öz çarmıxının kölgəsi altında dincəltmək üçün Allahın planının bir hissəsi idi.

Riçard elə orada, Karpat dağlarında gizlənmiş kiçik bir kənd evində İsa Məsihin heç vaxt onu tərk etməyəcək sevgisini qəbul etdi.

«Ya Rəbb, — Riçard dua etdi, — həyatımı ateist kimi yaşamışam. İndi mənə Rusiyaya getməyə icazə ver ki, orada ateistlərə Müjdəni

çatdırım. Hətta ömrümün qalan hissəsini həbsxanada keçirməli olsam da, şikayət etməyəcəyəm».

*****

İsanın qadağan olunmuş adı Sabinanı hiddətləndirirdi. Riçardın həyatında baş verən gözlənilməz dəyişikliyi o, heç cür qəbul edə bilmirdi. Axı o, bir məsihçi ilə deyil, ateistlə ailə qurmuşdu.

«İsa mənə lazım deyil! — Sabina təkid edirdi, — İsa sənə də lazım deyil. Məsihçilik bizim üçün qəbulolunmazdır».

O, ayağı ilə kənd evinin taxta döşəməsinə vuraraq deyirdi. «Biz *yəhudiyik*! Bizim tamam başqa həyatımız var! Sənin məsihçi olmağını görməkdənsə, mənim üçün ölmək yaxşıdır!»

Hətta məsihçiliyə qarşı çıxan Sabina ərinin həyatında olan dəyişikliyi inkar edə bilmirdi. Riçardın yeni əldə etdiyi imanı onu tamamilə dəyişmişdi.

Belə olan halda, Sabina Riçardın qarşısında tələb qoydu. Əgər ona din lazımdırsa, onda bir yəhudi kimi öz imanına uyğun yaşasın. Amma Riçard vəftiz olunmaq istədiyini deyəndə, Sabina az qaldı ki, ağlını itirsin. Vəftiz, ümumiyyətlə, yolverilməz idi!

Riçard bir müddət Sabinanın tələbini yerinə yetirməyə çalışdı. O, sinaqoqa getdi və mərasimlərdə iştirak etdi. Hətta orada da İsa barədə danışırdı. Buxarestə qayıdandan sonra bir dəfə Riçard Sabinanı dilə tutdu ki, heç olmasa kilsəyə girib baxsınlar. Sabina qorxa-qorxa, lakin maraq içində ağır taxta giriş qapılarından keçərək ərinin dalınca irəlilədi. O, Riçardın paltosundan möhkəm yapışaraq divarlarda olan müqəddəslərin parlaq təsvirlərinə diqqətlə baxırdı. Onlar məsihçi müqəddəslər idi. Riçard onların yarıdan çoxunun, İsa və Onun anasının yəhudi olduğunu xatırladaraq, hər bir müqəddəs barədə Sabinaya məlumat verirdi.

Çox keçmədi ki, Sabinanın gözləri kilsədəki çırağın zəif işığına alışdı. Tağlı tavanı nəzərdən keçirərkən Riçard ona on əmrin mənasını izah etdi. Sabina atasının Musanın kitabında yəhudilərə

verilmiş bu əmrləri necə yüksək tutduğunu xatırladı. Riçard məsihçilərin Əhdi-Ətiqin yazılarına, məsələn, padşah Davudun məzmurlarına necə əziz yanaşdığını ona izah etdi. Demək olar ki, bütün Əhdi-Ətiq — yəhudilərin Müqəddəs Kitabı gələcək Məsih barədə peyğəmbərliklərlə dolu idi.

Riçard dedi:

— Əslində, məsihçi dini bizim yəhudi imanımızla eynidir. Sadəcə fərq ondadır ki, bu iman yer üzünün bütün xalqları üçündür.

Sonra Sabinaya tərəf çevrilib ona sual verdi:

— Səncə kimin sayəsində yəhudi dəyərləri, mənəviyyatı və hikməti bütün dünyaya yayıldı? Kimin sayəsində onlar iki min il ərzində yüz milyonlarla insanın həyatına təsir etdi?

Sabina heyrətlə ərinin dediklərinə qulaq asırdı.

Riçard sözünə davam etdi:

— Bunu yalnız Məsih edə bilərdi! Onun sayəsində yəhudilərin müqəddəs kitabı yəhudi dilindən minlərlə dillərə tərcümə olundu.

Həyəcandan o, səsini bir az da qaldırdı:

— İndi Müqəddəs Kitabı həm sadə kəndlilər, həm də Paster və Eynşteyn kimi alimlər oxuya bilər.

«Bəs məsihçilərin yəhudilərə etdikləri pisliklər necə olsun? Məgər İsanın davamçıları məsihçiliyi öz hərəkətləri ilə ittiham etmirlərmi?» — Sabina bir həftə ərzində bu suallar üzərində düşünmüşdü. O, Mahatma Qandinin «Sizin Məsihiniz mənim xoşuma gəlir. Amma məsihçiləri xoşlamıram...»[1] fikirləri ilə razı idi. Bəlkə o da məsihçilik olmadan Məsihi qəbul edə bilərdi?

Riçard başını tərpətdi:

— Sən İsanın şagirdlərini qəbul etmədən Onu qəbul edə bilməzsən. O sənin yanına gəlmək üçün onlardan üz döndərməyəcək. Sən İsa kimi Yəhudanı dost adlandırmasan, şagirdləri qəbul edə bilməzsən.

---

[1] Mahatma Qandi, Bill Uilsonun «Yolayrıcında məsihçilik» kitabından sitat (Şippensburq, Pensilvaniya: «Destiny İmage», 2004), səh.74.

Sabina başa düşürdü ki, Riçard imanının sevincini onunla bölüşmək istəyir. Riçard səbirlə Müjdənin gözəlliyini və Allahın onu bağışladığı kimi başqalarını da bağışlamaq istədiyini ona izah etdi. Nəhayət, Sabina Əhdi-Cədidi oxuyacağına söz verəndə Riçardın sevincdən eyni açıldı. Vurmbrandlar üçün yeni həyat başladı. Sabina ürəyində hiss etdi ki, artıq ərinin Xilaskarına hörmət edir və Onu sevməyə başlayır.

*****

Sabinanın məsihçi imanına qarşı məntiqi etirazları indi təsirini itirmişdi. Amma yəhudiliyə olan emosional bağlılığı və yəhudilərin minillik təqibləri barədə xatirələri hələ də onun qəlbində dərin kök salmışdı.

«*O haqlıdır*» — deyə Sabinanın ürəyi pıçıldayırdı. Ancaq buna baxmayaraq, məsihçilərə qarşı böyük nifrət hələ də qəlbində tüğyan edirdi.

Bir dəfə axşam Riçard yəhudilərə yardım edən Anqlikan təşkilatının dua toplantısından evə qayıdanda Sabinanın əlindən tutdu. O, bu gün insanlar qarşısında ürəyini Məsihə həsr etdiyini həyəcanla həyat yoldaşına dedi. Növbəti addım vəftiz idi.

Amma bu xəbər Sabinanın ürəyincə olmadı. O, valideynlərinin bundan xəbər tutarkən necə məyus olacaqlarını təsəvvürünə gətirdi. Ona məsihçi kilsəsinə tərəf baxmağa belə icazə verilmirdi. Bəs ərinin vəftiz olunmasına necə razılıq verəcəkdilər? Təbiətcə güclü və ruhdan düşməyən Sabina artıq buna dözə bilmədi. O, ağlaya-ağlaya əlindəki dəsmalı mətbəx stolunun üstünə atıb yataq otağına keçdi. Orada bir neçə saat çarpayıda uzanıb hönkür-hönkür ağladı. Əgər Riçard belə dəhşətli qərar verə bilibsə, onda o da verə bilər...

O, artıq qəti qərara gəldi: Riçardın vəftiz günü özünü öldürəcəkdi.

# 7

1938-ci il idi. Riçardın vəftiz günü gəlib çatmışdı. Vəftiz qonşu şəhərdə keçirildiyi üçün o, dəmir yolu vağzalına yollandı. Sabina düşünürdü ki, əri bir neçə saatlıq evdə olmayacaq və bu vaxt ərzində öz niyyətini həyata keçirə biləcək. O, məyus halda qapını bağlayıb döşəməyə uzandı. Ağlamaqdan taqətdən düşmüş bədəni artıq əzab çəkməməli idi.

«İsa, mən Sənin yanına gələ bilmərəm! — deyə o şikayətləndi, — mən istəmirəm ki, Riçard Sənin olsun. Daha dözə bilmirəm!»

Özünə qəsd Sabinanın sonuncu qərarı olacaqdı. O, Riçardla yaşaya biləcəyi həyatı — şöhrəti, var-dövləti gözləri önünə gətirib acı-acı ağladı. Sabinaya görə məsihçilik yaşamaq yox, ölmək idi. Əgər istədiyi həyatı əldə edə bilməmişdisə, onda ölüm onun üçün ən yaxşı seçimdir. Riçard evə qayıdıb onun meyitini görəndə, imanının necə dağıdıcı qüvvəyə malik olduğunu anlayacaqdı. O, vəftiz gününü həmişə kədərli bir gün kimi xatırlayacaqdı. Sabina bir küncə qısılıb özünü öldürmək üsullarını götür-qoy etməyə başladı.

Bir neçə saat ərzində ölməyin nə demək olduğu barədə düşündü. Onun fikrincə, ölüm ateizm və kommunizmin iddia etdiyi kimi sadəcə həyatın sonu, ölümdən sonrakı həyat isə gələcəkdə daha yaxşı həyata ümid edən kasıblara təlqin olunan əfsanədir. Bir də ki, Sabinanın bədəni sadəcə minerallardan və atomlardan ibarətdir. Son nəfəsini verdikdən sonra onu basdıracaqlar və bədəni tərkib hissələrinə ayrılıb çürüyəcəkdi.

Bəs birdən Riçardın dedikləri doğru olsa, onda necə? Bəs birdən gözlərini son dəfə yumandan sonra yeni reallıqda açsa və

indikindən daha pis bir gerçəkliklə üzləşsə, onda necə? Onun əri inanırdı ki, Məsihin məhəbbətini qəbul etməyənlər üçün cəhənnəm hazırlanıb. Bu, Allahdan əbədi ayrılıq deməkdir. Riçardın onun cansız bədənini görərkən keçirəcəyi ağrı barədə düşünmək onu necə narahat edirdisə, əbədi alovda çəkəcəyi əzablar barədə fikirlər də onu elə narahat edirdi. Bəs sonra nə olacaq? Görəsən, o özünə həmişə onunla kilsəyə gedən yeni məsihçi həyat yoldaşı tapacaq? Onlar uşaqlarını məsihçi imanında böyüdəcəklər?

Sabina daha çox düşündükcə, daha çox rahatlanırdı. Ölüm artıq ona böyük bir qurban kimi görünürdü. Ola bilsin ki, başqa bir yol var. İstəməsə də, ürəyi yavaş-yavaş dəyişməyə başladı. Həmin gün son qoymaq istədiyi həyat yenidən öz axarına qayıtdı. Əgər Allah həqiqətən varsa, yəqin ki, onu da sevir.

Sabina özünü toplayıb, yerdən qalxdı və paltarını səliqəyə saldı. Ağlamaqdan şişmiş gözləri ilə saata baxdı. Əgər bir az tələssə, yenicə vəftiz olunmuş ərini dəmir yol vağzalında qarşılaya bilərdi.

Sabina bilirdi ki, məsihçi ənənəsinə görə vəftiz olunandan sonra geri yol yoxdur. Bu, xilasın rəmzi idi — köhnə həyat üçün ölmək və yeni həyat üçün ölülərdən dirilmək idi. O, Riçardın həmin səhər evdən çıxarkən necə sevindiyini xatırladı. Yolüstü bir dəstə gül alıb vağzala onu qarşılamağa yollandı.

Vurmbrandlar bütün gecəni yatmayıb həmin gün baş verənləri müzakirə etdilər. Riçard həyat yoldaşının necə ümidsiz vəziyyətdə olduğunu biləndə çox kədərləndi. Amma Sabina danışdıqca Riçard əvvəllər onda görmədiyi dəyişikliyi sezdi. Onun Karpat dağlarında sanatoriyada ürəyini Allaha açarkən yaşadığı hisslər indi Sabinanın da həyatında özünü büruzə verirdi.

*****

Növbəti aylarda Sabinanın ürəyindəki ümid işartısı get-gedə artmağa başladı. O, hələ də özünü *məsihçi* adlandırmaq istəmirdi və Allahla daha çox maraqlanırdı, amma vərdişlərini tərgitməkdə

çətinlik çəkirdi. Gecələr gözlərini yumarkən Sabina cismani hisslər üçün ölmək barədə düşünürdü. Amma səhər açılan kimi keçmişin zövq-səfası yenə əvvəlki gücünü əldə edirdi. O, vaxtını hələ də barlarda və gecə klublarında keçirirdi. Kinoteatrlar onun diqqətini kilsədə eşitdiyi vəzlərdən daha çox cəlb edirdi. Erkən yaşlarından ona o qədər məhdudiyyətlər qoyulmuşdu ki, arzuladığı həyatı əlindən buraxmaq istəmirdi. Cavan və gözəl Sabina onsuz da itirdiklərini geri qaytarmaq üçün bir yol tapacaqdı...

Riçard bir müddət həyat yoldaşının köhnə vərdişlərinə qarşı çıxmadı. Lakin Sabina bilirdi ki, əri bunu yalnız onu razı salmaq üçün edir. Bir dəfə bazar günü axşam Riçard təklif etdi ki, kilsədə toplantıya getsinlər. Planları alt-üst olmuş Sabina ağlayıb kinoteatra getməyi tələb etdi.

O dedi:

— Yaxşı, mən səni sevdiyim üçün onda kinoya gedərik.

Onlar maraqlı film axtarmaq ümidi ilə bir kinoteatrdan o birisinə getdilər. Nəhayət, sonda çox qəribə görünsə də, Riçard tapa biləcəyi ən ədəbsiz və əxlaq qaydalarına zidd olan bir filmə bilet aldı. Sabina gözlərinə inanmadı. «Yəqin Riçardın imanı ötəri bir əyləncədir» — deyə özlüyündə düşündü.

Film sona çatandan sonra şirniyyat yemək üçün yaxınlıqdakı kafeyə getdilər. Tortunun axırıncı tikəsini yeyirdi ki, ərinin dilindən çıxan sözləri eşidəndə qulaqlarına inanmadı.

— İndi isə, get evə yat. Mənsə özümə bir qız tapıb otelə gedəcəyəm.

Sabinanın gözləri qəzəbdən parıldadı.

— Nə?!

Riçard əminliklə arvadının gözlərinə baxdı.

— Hə... Sən evə gedəcəksən, mən isə bir qız tapıb otelə gedəcəyəm.

— Sən nə danışırsan?

Sabina əsəbiləşib çəngəlini yerə atdı.

Riçard dedi:

— Sən məni məcbur etdin ki, səninlə kinoya gedim. Sən filmin qəhrəmanının nə etdiyini gördün. Mən niyə elə hərəkət etməyim ki?

Sabinanın qaşları çatıldı, əri isə sözünə davam etdi:

— Əgər biz sabah, o birisi gün belə filmlərə baxmağa getsək...

Sabina ərinin nə demək istədiyini yaxşı başa düşdü. Riçard özünü baxdıqları filmlərin qəhrəmanları kimi aparmağa çalışırdı!

Riçard ona izah etdi:

— Hər kəs baxdığına oxşamağa başlayır. Əgər sən mənim yaxşı ər olmağımı istəyirsənsə, onda hərdən mənimlə kilsəyə get.

Riçard öz mövqeyini Sabinaya bildirdi. Sabina onun yaxşı ər olmasını istəyirdi. Eyni zamanda anlayırdı ki, ərinə yaxşı həyat yoldaşı olmalıdır. Əri iman etməzdən qabaq dəfələrlə Sabinaya xəyanət edib nikah əhdini pozmuşdu. Amma Riçardın yenicə əldə etdiyi Allaha sadiqliyi həyat yoldaşına da sadiqliyi hasil etmişdi.

Riçard artıq heç vaxt başqa qadınla zina etməyəcəkdi. Sabinaya maraqlı gəlirdi ki, görəsən, o da xudbin həyatından üz döndərə bilərmi? Dünyada dadmadığı hələ nə qədər əyləncə qalmışdı...

Bir bazar günü axşam Sabina Buxarestdə gecə klubuna getmək üçün ərini dilə tutdu. Riçard bazar günləri, adətən, kilsəyə gedərdi, amma bu dəfə kilsəyə getmək əvəzinə Sabinanın istəyini həyata keçirdi. Cütlük kluba daxil olan kimi tüstü buludu onları hər tərəfdən bürüdü. İzdihamlı otaqda brendi və araq əxlaqsız söz-söhbətlərlə birlikdə çay kimi süzülürdü. Kişi və qadınlar camaatın gözü qarşısında əxlaqsızlıqla məşğul idilər. Riçard adamların tərli bədənləri arasından keçərək həyat yoldaşının arxasınca gedirdi. Sərxoş bir kişi içkisini Sabinanın ayaqqabısının üzərinə dağıtdı. Sabina səndələyib arxadan gələn cütlüyün üstünə yıxıldı.

Riçard Sabinanı ayağa qaldırıb dostlarının oturduğu kiçik masaya yaxınlaşdı. Onlar deyib-gülürdülər. Sabina isə heç nə danışmadan öz qədəhindən qurtum-qurtum içirdi. Söhbət çox tez bitdi. Sabina hiss etdi ki, şənlikdən istədiyi kimi zövq ala bilmirlər. Artıq o, bu əyləncələrdən əvvəlki kimi həzz ala bilmirdi.

O, Riçardın qulağına qışqırdı:

— Gəl gedək! Çıxaq buradan.

— Niyə? Biz elə indicə gəlmişik ki!

O, həyat yoldaşını inandırdı ki, belə tez getsələr, saymamazlıq kimi görünər. Axı bütün gecə hələ qabaqda idi. Niyə də ondan zövq almasınlar?

Gecəyarısı Sabina yenə Riçarddan oradan çıxmağı xahiş etdi. Riçard isə bir daha etiraz etdi. Üstündən bir saat keçəndən sonra o, yenə də Riçarddan xahiş etdi, lakin həmin cavabı eşitdi. Riçard qalmağı təkid edirdi.

Ömründə ilk dəfə idi ki, belə əyləncələr Sabinaya iyrənc gəlirdi. Bu şənliklər ona zərrə qədər də olsa, zövq vermirdi. Riçard, nəhayət, onun xahişini yerinə yetirdi və arvadının əlindən tutub bürkülü zaldan çıxış qapısına doğru yönəldi. Onlar qapını açan kimi gecənin təmiz havasını ciyərlərinə çəkdilər. Ay ətrafa işıq saçaraq gecəni nura boyayırdı. Sabina sanki ilk dəfə idi, ayı belə canlı görürdü.

O ciddi tərzdə ərinə dedi:

— Riçard, mən buradan düz pastorun evinə gedəcəyəm və deyəcəyəm ki, məni vəftiz etsin. Mənim üçün bu, bütün iyrəncliklərdən sonra çimib təmizlənmək olacaq!

Riçard güldü:

— Sən bu qədər vaxtı gözləmisən, sabah səhərə kimi də gözlə, qoy yazıq pastor gecəni rahat yatsın.

O, Sabinanın əlindən tutub birlikdə evə yollandılar. Gecə klubu arxada qaldı.

*****

Ertəsi gün Riçard həyat yoldaşı ilə Buxarestdə olan Anqlikan kilsəsinə yollandı. Orada Sabinanı pastor Adensi və pastor Ellisonla tanış etdi. Bu adamlar Sabinaya tərki dünya görünürdü. Hər ikisi Rəbbə xidmət etmək üçün Ona həsr olunmuşdular. Sabina Riçarddakı alovlu imanı bu adamlarda da gördü. Onun

üçün maraqlı idi: görəsən, bu adamlar öz keçmiş həyatlarından necə ayrıla biliblər.

Sabina onlara qulaq asdıqca ürəyi yenidən yumşalmağa başladı. Onlar Müqəddəs Kitabı açıb oradan Allaha iman edənlərə təklif olunan kamil həyat barədə oxudular. Məsih onun həyatının bir *hissəsini* deyil, *bütün* həyatını istəyirdi. İsa onun keçmişindəki bütün peşmançılıqları və kədəri satın almaq istəyirdi. Sabina onları dinlədikcə yadına özünü öldürmək istəməyi düşürdü. İndi isə həyatında olan boşluqları həqiqət doldururdu.

Onlar Sabinaya başa saldılar ki, onun daxilindəki gərginliyi yalnız İsa ilə şəxsi ünsiyyət aradan qaldıra bilər. Allah ona yeni ürək və yeni arzular verə bilər. Məsih onun həyatındakı bütün günahları götürüb əvəzində ona Öz salehliyini təklif edir.

İsa onu dünyaya bağlılıqdan azad edib ona yeni mənalı ailə həyatı verə bilər.

Sabina bütün bunları edən Allaha və onun həyatını dəyişdirəcək Məsihə inanmaq istəyirdi. Sabina onu kamil məhəbbətlə və şərtsiz sevəcək Rəbbə etibar etmək istəyirdi. Müjdə çox vaxt onun hissləri ilə ziddiyyət təşkil edirdi. İndi isə o, gecə klubunda keçirdiyi gərginliyi gizlədə bilmirdi. Axır ki, o, xudbin həyatın boşluqdan başqa bir şey olmadığını anlamışdı.

Günah öz gücünü itirmişdi, onun üzərində artıq səlahiyyətə malik deyildi. Sabina həyatını həmişəlik İsa Məsihə həsr etmək istəyirdi. Daha mənasız əyləncələr, kefli gecələr, özünə qəsd etmək fikirləri olmayacaqdı. Beləliklə, Sabina Məsihi qəbul etdi və ertəsi gün vəftiz olundu.

Növbəti aylarda Sabina öz sevincini gizlədə bilmədi. O, tanıdığı bütün adamlara yeni kəşf etdiyi iman barədə danışırdı. Nəhayət, o, həyat və ölümün mənasını dərk etmişdi. Onun növbəti addımı keçmiş həyatından ayrılmaq idi. Sabina bir daha keçmişə qayıtmamaq üçün günahlı həyat tərzindən tamamilə üz döndərdi.

Riçard ona izah etdi ki, Məsihin ardınca getmək ona baha başa gələ bilər, hətta onun üçün təhlükəli ola bilər. Amma buna

baxmayaraq, Sabina risk etməyə hazır idi. Bir dəfə o, Buxarestdə iş yerində öz yaxın yəhudi rəfiqəsini kənara çəkib ona yeni imanı barədə danışdı. Sabina ürəyinin necə dəyişdiyini izah etdikcə gözləri parıldayırdı. Lakin təəssüf ki, o, daha çox danışdıqca rəfiqəsi onu daha az dinləyirdi.

Rəfiqəsi Sabinadan uzaq dayanıb başını yırğaladı: «Demək, indi mən səni tamamilə itirdim!»

Bu sözlər Sabinanın qəlbinə bir ox kimi sancıldı, amma o, rəfiqəsinin etirazını başa düşürdü. Axı Sabina özü də bir vaxtlar ciddi yəhudi qanunları ilə Məsihin həyat verən həqiqəti arasında ilişib qalmışdı. İndi isə öz imanı barədə danışmaqda onu heç kim saxlaya bilməzdi. O, hər həftə Riçardla birgə kilsəyə gedirdi, yeni qazandığı dostlarla ünsiyyətdən faydalanırdı. Kilsədəki vəzlər onun qəlbinə toxunurdu və daxilindəki narahatlığı getdikcə azaldırdı. Riçard da öz imanında böyüyürdü. Onun Məsihlə olan ünsiyyəti daha da dərinləşir və daha canlı olurdu. Sabina həyat yoldaşının bu alovlu imanına pərəstiş edirdi, bu imanın onu hara aparıb çıxaracağını tez-tez özlüyündə götür-qoy edirdi.

Bir dəfə Riçard işdən evə gələndə onun çöhrəsində sevinc var idi. Sabina bu sevincin səbəbini bilmək istəyəndə, ərinin cavabı onun üçün gözlənilməz oldu.

Onun əri pastor olmaq istəyirdi.

# 8

Faşist işğalının qara buludları yavaş-yavaş Rumıniyanın üzərini də almışdı. 1939-cu ildə ölkə Adolf Hitlerin dəmir caynaqlarına keçəndə siyasi mühit lap dözülməz oldu. Yəhudilər alman diktatorun uğurlarından dəhşətə gəlirdilər və bütün xalqı qorxu hissi bürümüşdü. Yəhudilərin təqib olunması barədə söhbətlər hər yəhudi ailəsində olduğu kimi Vurmbrandların da əsas mövzusuna çevrilmişdi.

Həmin il uşaq dünyaya gətirmək üçün çox çətin bir il idi. Amma Allah Riçard və Sabinanın duasına cavab verdi. Bir vaxtlar uşaqlarının olmasını istəməyən cütlük indi ilk oğlan övladlarını böyük sevinclə həyatlarına qəbul etdilər. Onlar körpəyə Mihay adını qoydular.

«Onun saçları səninki kimi qara və qəşəngdir, — Riçard Sabinaya dedi, — amma o ağlamaqdan başqa bir şey etmir. Görəsən, nə vaxt bir ağıllı söz deyəcək?» Bu sözləri deyərkən Riçardın çöhrəsində təbəssüm var idi.

Riçard oğlunu öpüb qollarını həyat yoldaşının boynuna doladı. Onlar bir vaxtlar düşünürdülər ki, uşağın doğulması əyləncəli həyat tərzlərinə mane olacaq. Lakin indi ər-arvad çox xoşbəxt idi. Məsihə iman etməzdən əvvəl Sabina Riçardın əxlaqsız həyatına mane olsaydı, o, düşünmədən arvadını boşayardı. İndi isə yeni doğulmuş körpənin gəlişi Riçardın ruhani həyatına da təsir etmişdi. O, bir ata kimi məsuliyyəti öz üzərinə götürmüşdü.

*****

Bir neçə aydan sonra 1939-cu il sentyabrın 20-də şəhərin o biri başında doqquz nəfər pravoslav kilsəsinin binasında döşəmənin üzərində öz bədənləri ilə xaç formasını alaraq uzanmışdı. Onlar ertəsi gün törədəcəkləri qətlə hazırlıq üçün xeyir-dua istəyirdilər. Qatillər Gestapoda təlim almış hüquqşünas, bir neçə cavan fanat və hücuma rəhbərlik edən şəxsdən ibarət idi. Onlar Almaniya, İtaliya və Rumıniyada faşistlər tərəfindən xüsusi seçilmişdilər. Qatillərin diqqət mərkəzində olan şəxs Rumıniyanın yeni baş naziri — Armand Kalinesku idi. O, altı ay idi ki, vəzifəyə gəlmişdi. Onun rəhbərliyi «Dəmir Qvardiya»nın[1] üzvləri üçün təhlükəli görünürdü. İndi onlar Kalineskunun həyatına qəsd etməyi planlaşdırırdılar.

*****

Rumıniyada faşistlərin hakimiyyəti dövründə «Dəmir Qvardiya» pravoslav kilsəsinin üzvlərini öz siyasi oyunları üçün bir marionet kimi istifadə edirdi. 1939-cu il sentyabrın 21-i səhər qatillər məkrli niyyətlərini həyata keçirməyə müvəffəq oldular. Nazir Kalinesku Kotroçeni sarayına qayıdarkən onlar Buxarest küçələrindən birində onun həyatına son qoydular. Kalineskunun cansız bədənindən iyirmi güllə çıxarılmışdı. Onunla birgə cangüdəni və sürücüsü də qətlə yetirilmişdi. «Dəmir Qvardiya» bundan sonra hakimiyyətə Hitlerin davamçısı olan general İon Antoneskunu gətirdi. Onlar güc tətbiq edərək Rumıniyanın rəsmi rəhbəri kral Karol II devirib yerinə oğlu Mihayı qoydular. Diktator Antonesku onu da əlində bir oyuncağa çevirdi. Beləcə «Dəmir Qvardiya» əsas məqsədinə nail oldu.

Artıq yaşıl formalı cinayətkarların əl-qolu açılmışdı, onların rəhbərliyi üçün təhlükəli görünən hər kəsi sərbəst şəkildə aradan

---

[1] «Dəmir qvardiya» — iki dünya müharibələri (1927-ci ildən 1941-ci ilədək) arasındakı müddətdə Rumıniyada sosial və siyasi təsir göstərən faşist təşkilatı idi. Bu partiya Rumıniyada ifrat milliyyətçilik, antikommunizm, antikapitalizm və antisemitizm ideyalarını vurğulayırdı, eləcə də Rumıniyanın pravoslav kilsəsini dəstəkləyirdi.

götürə bilirdilər. Onların tələsinə yəhudilər, kommunistlər və protestantlar düşmüşdü. Rumıniyanın küçələrində qətl törətmək adi hal almışdı. «Dəmir Qvardiya» Vurmbrandların kilsəsini ölkəyə xəyanətdə ittiham edirdi. Ona görə də Riçard üçün hər gün təhlükəli idi.

Bazar günü toplantılarının birində Riçard yaşıl formalı bir qrup adamın sakitcə zala daxil olduğunu gördü. Oturanların diqqəti pastorda olduğu üçün gizlicə gələnlərdən xəbər tutmadılar, yalnız Riçard onların əllərində revolverin olduğunu gördü. Əgər bu, onun sonuncu vəzi idisə, o çalışacaqdı ki, daha yaxşı danışsın.

Riçard İsanın əlləri barədə vəz edirdi. O, İsanın əllərini belə təsvir edirdi: İsa əlləri ilə ağlayanların göz yaşlarını silir, uşaqları qucağına götürür, acları yedizdirirdi. O, Xilaskarın əllərinin xəstələrə necə şəfa verməsindən, çarmıxa mıxlanmasından və göylərə qalxmazdan qabaq şagirdlərinə xeyir-dua verməsindən danışdı. Sonra Riçard sözünə ara verib üzünü toplantıdakılara tutdu: «Bəs sən? Sən öz əllərinlə nə edirsən?» Kilsənin üzvləri təəccüb içərisində bir-birinə baxdılar. Onların əllərində dua kitabları var idi. Pastor nə demək istəyirdi?

Riçard özünü ələ alıb vəzinə davam etdi: «Sən günahsız insanları öldürürsən, döyürsən və onlara əziyyət verirsən! Bütün bunlardan sonra özünü məsihçi hesab edirsən? Ey günahkar, əvvəlcə əllərini yu!» Kilsənin arxa oturacaqlarındakı əsgərlər hiddətdən sanki od tutub yanırdılar. Amma hansısa bir sözə reaksiya verməklə diqqəti cəlb edəcəkdilər deyə, səssizcə silahlarından möhkəm yapışıb Riçardın vəzini bitirməsini gözləyirdilər.

Camaat kilsədən dağılışarkən Riçard tez tribunadan aşağı düşüb pərdənin arxasında gözdən itdi. Onun arxasınca səslər eşidildi: «Vurmbrand haradadır? Onun ardınca düşün!»

Riçard balaca qapıdan keçib arxasınca onu qıfılladı. Gizli yol neçə illər əvvəl tikilmişdi və pastorun həyatını xilas edəcəyi günü gözləyirdi. Riçard kilsədən sakit küçəyə çıxıb Buxarestin səs-küylü bulvarına tərəf yönəldi və tezliklə orada izdihamın arasında gözdən itdi.

Müharibə davam etdikcə yəhudilərlə birgə protestant məsihçilər də öldürülür, konslagerə (nasist həbs düşərgəsi) göndərilirdi. Bu müddət ərzində faşistlər Riçardı üç dəfə həbs etmişdilər. Məhkəmə prosesləri, istintaqlar, döyülmələr, həbslər gələcək qəddar kommunist rejiminin sadəcə *kölgəsi* idi.

*****

Riçard Sabina ilə evlənməzdən əvvəl ona demişdi: «Mənimlə birlikdə sənin həyatın asan olmayacaq». İkinci Dünya Müharibəsinin qızğın vaxtlarında bu xəbərdarlıq gerçəkliyə çevrildi. Onlar Buxarestdə yəhudilərə yardım edən Anqlikan kilsəsinə qoşulmaqla müharibənin acı nəticələrindən əziyyət çəkən yəhudi həmvətənlərinin ailələrinə xidmət etməyə başladılar. Gizlicə Gettodan (yəhudilərin məskunlaşması üçün ayrılmış rayon) yetim uşaqları çıxarır, hər gün bomba sığınacaqlarında vəz edir, macar qaraçılarına kömək etmək üçün proqramlar təşkil edir və məsihçilərin qeyri-qanuni olan gizli toplantılarında iştirak edirdilər.

Hitlerin marioneti olan general Antoneskunun rəhbərliyi altında rumın faşistlər yəhudilərə qarşı təqiblərə başladılar. Vurmbrandları məcbur etdilər ki, daha kiçik mənzilə köçsünlər. Burada onlar yəhudilərə nifrət edən qonşuların həqarətli istehzalarına məruz qalıb ələ salınırdılar. Onların binasının həyətində yəhudilərə qarşı plakatlar və təbliğatlar nümayiş olunurdu. Təqiblərdən qaçmaq mümkün deyildi, çünki Riçard və Sabinanın şəxsiyyət vəsiqələrinə «*YƏHUDİ*» möhürü vurulmuşdu. İsrail xalqına nifrət bütün Avropaya yayılmışdı. Hətta dövlət səviyyəsində olan bu təbliğata qarşı çıxmayan məsihçilər də onlara nifrət edirdi. Faşistlər Avropada yaşayan doqquz milyon yəhudinin beş-altı milyonunu qətlə yetirmişdi.

Bütün bunlara baxmayaraq, Riçard yəhudilərə nifrət edən qonşuları ilə ünsiyyət qurmağa çalışırdı, qapı-qapı gəzib onlara Məsihin məhəbbətindən danışırdı. O, əvvəlcə evin sahibi, sonra

isə yaxın qonşularla dostlaşdı. Gözəl danışıq qabiliyyəti, dostcanlı təbiəti və iti zəkası ilə Riçard bir çoxlarının ürəyinə yol tapa bildi.

Üçüncü mərtəbədə yaşayan Parvalesku bir dəfə Riçarda dedi:

— Siz yəhudilər heç vaxt bir yaxşı iş görməmisiniz!

Riçard cavab verdi:

— Sizin nə yaxşı tikiş maşınınız var! Bəs onu kim icad edib? Singer! Yaxşı! Onu yəhudi kəşf etməyibmi? Cənab Parvalesku, əgər sizin dediyiniz kimi, yəhudilər belə faydasızdırlarsa, yaxşı olar ki, siz tikiş maşınınızı çölə tullayasınız!

Orta yaşlı xanım Georgesku yəhudilər barədə çox vaxt nifrətlə danışırdı. Riçard həmişə ona diqqətlə qulaq asırdı. Çox keçmədi ki, qadın ürəyini açıb boşaltdı. Əri ailəsini atıb gedərkən keçirdiyi iztirablardan, pozğun həyat yaşayan oğlu üçün necə narahat olduğundan danışdı. Qadın qorxurdu ki, oğlu hansısa zöhrəvi xəstəliyə tutular.

«Əgər hansısa bir xəstəliyə tutulsa da, indi o xəstəliklərin müalicəsi var. Onu da qeyd edim ki, həmin dərmanları bir yəhudi kəşf edib» — deyə Riçard qadını əmin etdi.

Qonşuları güldürən mavi gözlü və gözəl danışıq qabiliyyətinə malik pastor onların qəlblərinə yol tapmışdı. Hətta ən kobud qonşulardan biri olan, həmişə arvadını döyən sərxoş polis Riçardın xeyirxahlığından və dostluğundan yan keçə bilməmişdi. Bu kişi ilə Riçardın dostluğu onun qəlbinin dəyişilməsinə və sonda iman etməsinə gətirib çıxardı. Sonralar Riçard ona icazə vermişdi ki, Mihayı öz motosikletində uzun səfərlərə aparsın, halbuki müharibə vaxtlarında yəhudi uşaqları üçün bu nadir hal idi. Havadan dəhşətli hücumlar başlayanda yəhudilərin şəhərdən kənara çıxması qadağan edildiyi vaxtlarda həmin polis Mihayı təhlükədən uzaqlaşdırmaq üçün onu ölkənin gizli yerlərinə aparmışdı. Əgər onları yolda saxlasaydılar, polis Mihayı öyrətmişdi ki, adının Con M. Vlad olduğunu desin.

Riçard xoş rəftarına və başqalarının halına acıdığına görə tədricən digər qonşuların da etibarını qazandı. Hər gün qonşularının

qərəzli fikirlərinin dəyişməsi üçün səylə çalışır, imanı barədə onlara danışırdı. Bir vaxtlar nifrət hədəfi olan Vurmbrandların mənzili indi dostluq, ruhlandırma və sülh məkanına çevrilmişdi. Həyətdə yəhudilərə qarşı olan plakatları Müqəddəs Kitabın ayələri əvəz etmişdi. Ətrafda cəhənnəm tüğyan etsə də, Mihayı məhəbbət, yeni dostlar və belə vəziyyətdə bir xoşbəxtlik əhatə etmişdi. Riçardın gördüyü işlər nə qədər çox olsa da, Mihayla oynamaq, ona macəralı hekayələr danışmaq üçün həmişə vaxt tapırdı.

*****

Rumınların əksəriyyəti yəhudilərin təqib olunmasına məhəl qoymurdu, ya da etinasız yanaşırdı. Ona görə də bu, minlərlə xilas ola biləcək yəhudinin qətlinə gətirib çıxarmışdı. Riçard və Sabina xalqının əzablarına kənardan durub baxa bilməzdilər. Onlar yəhudi xalqının əzablarını hiss edir, soyqırımın dəhşətlərini yaşamış insanlar üçün ağlayırdılar. Onlar hətta həyatlarını təhlükəyə ataraq Tassi kəndində baş verən soyqırımdan sağ çıxmış yeddi yəhudi qızını xilas etmişdilər. Vurmbrandlar bu qızların həbs olunub nəzarət altında qatarla Buxarestə gətirilməsi üçün razılığa gəlmişdilər. Onları qatarla Buxarestə gətirəndə Riçard və Sabina yetim qızları qarşılayıb təhlükəsiz bir yerə aparıb gizlətmişdilər.

Bu cür təhlükəli işlər görərkən Vurmbrandları tutub həbsxanaya salmışdılar. Qeyri-qanuni dini toplantılar keçirdikləri üçün onları tez-tez ittiham edirdilər. Faşist hakimlərin qarşısında özlərini müdafiə etməzdən qabaq mühafizəçilər onları dəfələrlə döyürdü.

Bir dəfə Riçard və Sabinanın saxlanıldığı polis bölməsinə yəhudi bir qadın gəlib belə dedi: «Siz mənim yəhudi bacı-qardaşımı həbs etmisiniz. Məni də həbs edin. Onlarla birlikdə əzab çəkmək mənim üçün şərəfdir!»

Polislər bu cavan cütlüyün tərəfini tutan hər kəsin «arzu»sunu yerinə yetirdiyi kimi, bu qadının da arzusunu yerinə yetirdi. Məhkəmədə onları müdafiə edənlərin sayı çox idi. Məsələn, alman

baptist pastor Fleyşer Riçard və Sabinanın təqsirsiz olduğunu sübut etmək üçün öz həyatını təhlükəyə atmışdı.

1940-cı ildə Rumıniya ilə Böyük Britaniya arasında münasibətlər pozulduğu üçün Buxarestdə Anqlikan kilsəsində fəaliyyət göstərənlər evlərinə qayıtmalı oldular. Yəhudilərə yardım edən Anqlikan kilsə xidmətinin rəhbəri Corc Stivensin köməkçisi olan Riçard təklikdə xidmət etməyə məcbur oldu. Müharibənin bitməsinə az qalmış, demək olar ki, beş ildən sonra Riçard başqa məsihçi konfesiyasına qatılmaq istədi. O, ölkəsində əhalinin əksəriyyətinin iman etdiyi məsihçiliyin pravoslav qoluna qoşulmaq istəyirdi. Amma pravoslavların zahiri formallığı, dini ayinləri və mənasız təmtəraqları xoşuna gəlmirdi. Elə buna görə o, katolik olmaq istəmirdi, xüsusilə latın dilindən istifadə etməyi sevmirdi. Onun fikrincə, bu dil imanlıların Müqəddəs Kitabı başa düşməsinə mane olurdu.

Digər tərəfdən, Riçard Müqəddəs Kitabı aydın tərzdə izah edən protestant kilsələrindəki ibadətin sadəliyini çox bəyənirdi. XVI əsrdə yaşamış protestant reformasiyasının banisi Martin Lüterin həyatı və fəaliyyəti ona maraqlı gəldiyi üçün Lüteran kilsəsində pastor olmağa qərar verdi. O, Lüterin qətiyyətli və alovlu vəzlərinə, eləcə də İsa Məsihi hər insana tanıtmaq yolunda göstərdiyi böyük səylərinə heyran olmuşdu.

Həm Lüter, həm də Riçard inanırdı ki, Müjdənin gücü dini konfessiyaların maneələrini dəf etməyə qadirdir. Lüter öz dövründə neçə əsrlərdən bəri qurulmuş dini sistemə qarşı çıxmaq üçün inadkarlıqla mübarizə aparmışdı. Riçardda olduğu kimi, Lüterin inadkarlığı da Allahın Kəlamından qaynaqlanan ruhani həyatdan yaranmışdı. Lüter üçün xilas əməl deyildi, lütf idi. Riçard günahlı həyat yaşadığını bildiyinə görə, yaxşı başa düşürdü ki, heç kim xilası qazanmaq üçün kamil və ya müqəddəs deyil. Riçard da Lüterin Avropada Protestant Reformasiyası dövründə gördüyü ruhani oyanışı görmək üçün qəlbən susamışdı. Görəsən, Avropada yenə də oyanış baş verəcəkdimi? Rumıniyaya da reformasiya gələ bilərdi. Riçard düşünürdü ki, əgər Lüter kimi onu da əleyhdarları

və hakimiyyət tərəfindən təqib olunmaq, oğurlanıb həbsxanalara düşmək gözləyirsə, qoy belə də olsun.

Riçardın müjdəçi kimi məşhurluğu tezliklə ölkənin hər yerinə yayıldı. Onun əsasən yəhudilərdən ibarət olan Lüteran kilsəsindəki adamların sayı minə çatırdı. O, həbsxanalarda, fahişəxanalarda və barlarda insanlara Müjdəni çatdırır, Norveç, İsveç və İngiltərə təşkilatlarında işləyir, kilsələrin beynəlxalq şurasında iştirak edir, Rumıniyada gizli toplaşma hərəkatının yaranmasında aparıcı rol oynayırdı. İkinci Dünya Müharibəsinin sonuna yaxın Riçard rus dilində yüz mindən çox Əhdi-Cədid çap etdirib, Rumıniyada yaşayan sovet ordusunun əsgərlərinə paylamışdı.

Bu imkanlara görə o, çox vaxt duada Allaha minnətdarlığını bildirirdi: «Ya Rəbb, Sənə təşəkkür edirəm ki, Sənin mərhəmətin sayəsində mən döyən və ələ salanlardan deyil, döyülən və ələ salınanlardan biriyəm!»

*****

Vurmbrandlar beş il ərzində faşistlərin güclü təqiblərinə məruz qaldılar. Həbsxanaya tez-tez düşüb çıxmaqla Riçard və Sabina ölüm hökmünün bir addımlığında idilər. Rumıniyanın hərbi tribunalında məhkəmə zamanı ən ağır cəza hökmünün verilməsindən bir neçə saat əvvəl ölkənin məşhur qəzetinin baş redaktoru Vurmbrandların azad edilməsi üçün böyük səy göstərdi. Bunun üçün o, tanınmış dini rəhbərlərin diqqətini cəlb edərək məhkəməyə təzyiq göstərmişdi. Bir çox başqa vətəndaşlar, hətta siyasətçilər də öz nüfuzlarını təhlükəyə ataraq pastorun azad olunması üçün kömək etmişdilər. İsveç diplomatı cənab Patrik Ryutersverdenin dəfələrlə müdaxiləsi Riçardı faşizm dövrünü dəmir barmaqlıqlar arxasında keçirməkdən qurtarmışdı. Məhz diplomatın general Antoneskuya təsiri sayəsində həbs edilib icbari işə cəlb olunmuş Riçard azadlığa çıxmışdı.

1944-cü il avqustun 23-də həddi-buluğa çatmamış kral Mihayın himayədarları qismində fəaliyyət göstərən bir qrup siyasətçi böyük

riskə gedərək general Antoneskunu devirdi. Bununla da onun faşist Almaniyasına olan sadiqliyinə son qoyuldu.

Moskvada dünyanın müharibədən sonrakı simasını müəyyənləşdirmək məqsədilə Dördüncü Moskva konfransı baş tutdu. Uinston Çörçill və İosif Stalin Kremldəki kabinetində üzbəüz oturmuşdular.

Çörçill dedi: «İngiltərə və Rusiyaya gəldikdə Rumıniyada[2] sizin 90 faiz, Yunanıstanda isə bizim 90 faiz hökmranlıq etməyimizə razısınızmı? Yuqoslaviyaya gəldikdə isə hər birimizin 50 faiz hökmranlığı olsun?[3]»

Çörçill öz təklifini bir vərəqə yazdı. Stalin bir neçə dəqiqə düşündükdən sonra razılıq işarəsi qoydu.

Tezliklə Rumıniyaya milyonlarla sovet ordusu daxil oldu və ölkə yeni «müttəfiq»lərin ixtiyarına keçdi.

*****

Sovet ordusu sovet xalqına zorakılıq edən, işgəncə verib onları talayan hitlerçilərdən qisas alaraq görünməmiş bir qəzəblə Berlinə girdi. İkinci Dünya Müharibəsi dünya əhalisinin üç faizini həyatdan məhrum etdi. ABŞ, demək olar ki, yarım milyon, Almaniya yeddi milyona yaxın insan itirdi, amma sovetlər birliyi bu iki ölkədən daha çox — iyirmi milyondan artıq insanını itirdi.

Adolf Hitler Berlin uğrunda döyüşdə uduzduqdan sonra bunkerində özünə qəsd edəndə, Sabinanın otuz bir, Mihayın isə altı yaşı var idi. Riçard və Sabina faşistlərin əlində çox pis döyülmüşdülər, amma bunlar kommunistlərin etdiyi qəddarlıqla müqayisədə geridə qalırdı. Kommunistlər dünyada hələ görünməmiş, demək olar ki, yüz milyona yaxın insanın həyatını məhv edən ən böyük qırğına başlayacaqdılar. Bundan başqa faşistlərin

2 Mənbədə «Rumıniya» sözü «Ramaniya» kimi yazılıb.

3 Cozef M. Sirakuza, «Stalin və Çörçillin Avropanı parçaladığı gecə: Vaşinqtondan baxışlar», «Review of Politics», 3-cü nömrə (iyul, 1981-ci il): səh. 381.

hakimiyyəti dövründən fərqli olaraq (Hitler məsihçilərin dövlət tərəfindən maliyyələşməsinə pis baxmırdı, hətta özünün də dindar olduğunu deyirdi), indi Rumıniyada din üçün yer yox idi. Marksın fikirlərini rəhbər tutan İosif Stalin məsihçiliyi sovet hökumətini devirə biləcək bir təhlükə kimi görürdü. Beləcə məsihçilər təqib olunur, faşistlərin dövründəkindən daha amansız işgəncələrə məruz qalır və öldürülürdülər.

Rəbb artıq Riçard və Sabinanı qarşıdakı dəhşətlər üçün hazırlamışdı. Faşistlərin nəzarəti altında Rumıniyada yaşamaq onlara məsihçi xidmətlərini gizlicə necə yerinə yetirməyi öyrətmişdi. Onlar məxfi məlumatları etibar edə biləcəkləri adamları tanımağı və etnik baxımdan qərəzli fikirlərə məhəbbətlə qalib gəlməyi öyrənmişdilər.

Vurmbrandlar öz həyat təcrübələrindən öyrənmişdilər ki, Müqəddəs Ruhun köməyi ilə istənilən işgəncəyə dözüb düşmənlərini bağışlaya bilərlər. Kommunistlərin psixoloji və fiziki zorakılığının nə qədər əzablı, alçaldıcı olmasına baxmayaraq, Riçardla Sabinanın bütün bunlara dözməyə və onları incidənləri bağışlamağa gücləri çatacaqdı. Məsih bu cütlük uğrunda əzab çəkmişdi. Bu cütlük də Onun uğrunda əzab çəkəndə Rəbb Özü Riçard və Sabinaya kömək edəcəkdi.

# 9

Müharibə insanlara onları incidənləri bağışlamaq üçün bir çox imkanlar yaradırdı. Müharibə təzə başlayanda Rumıniyada on minlərlə yəhudi öldürülmüşdü və ölkədən qovulmuşdu. Təkcə Yassı şəhərində bir gündə on bir min insan qətlə yetirilmişdi. 1939-cu ildə Riçard və Sabinanın Buxarestdə yaşamağı onları ölümdən xilas etmişdi. Amma Sabinanın valideynlərini, üç bacısını, kiçik qardaşını və Bukovinada yaşayan başqa qohumlarını Dnestryanı[1] ərazisinə, boş qalmış sərhəd vilayətinə sürgün etmişdilər. Həmin əraziyə gedib çıxmaq çətin idi və bu səfər çox insanın həyatına son qoymuşdu. Ora gedib çıxanları isə aclıq, təhqir, eləcə də heç bir məhkəmə və istintaq olmadan güllələnmə gözləyirdi. Dnestryanı əyalətində baş verən böyük miqyaslı soyqırım nəticəsində Sabinanın bütün ailə üzvləri öldürülmüşdü.

Riçard həyat yoldaşına bu xəbəri çatdıranda Sabina səndələdi və kresloya yıxıldı. Onun bütün uşaqlıq xatirələri bir-bir gözünün önündən keçdi. Artıq valideynlərini bir daha bu dünyada görməyəcəkdi! Bacılarını və kiçik qardaşını daha heç vaxt qucaqlamayacaqdı! Görəsən, necə oldu ki, onlar öldülər? Kim onları həyatdan məhrum etdi? Sabinanın ürəyi sıxıldı, hönkürtü ilə ağlamağa başladı.

Əgər Sabina ailəsi üçün bundan sonra yenə ağlamışdısa da, Riçard bunu görməmişdi. «Mən ağlamayacağam. Sənin xoşbəxt həyat

[1] «Rumıniya faşist Almaniyasının orbitinə düşməzdən əvvəl rumın rəhbərlər qəddar antisemitik təqiblər həyata keçirirdilər. Bunu, xüsusən də, sovet hakimiyyətinə rəğbət bəsləməkdə yanlış tərzdə ittiham edilən şərq sərhədlərində, eləcə də Macarıstanın əvvəlki rəhbərliyi ilə həmrəy olan və Transilvaniyada yaşayan yəhudilərə qarşı edirdilər».

yoldaşın, Mihayın da xoşbəxt anası olmalıdır. Kilsəmizə cəsarətli xidmətçilər lazımdır» — deyib Sabina çiyinlərini dik tutmuşdu.

Bu hadisədən çox keçməmiş onlar kimi məsihçi olan Vurmbrandların ev yiyəsi Riçarda dedi ki, onun evində bir əsgər qalır. O, əllərini bir-birinə sıxaraq dərindən nəfəs alıb sözünə davam etdi:

— Mən bu əsgəri müharibədən əvvəl tanıyırdım, amma o, indi çox dəyişilib tamam vəhşiləşib, özü də Dnestryanıda könüllü olaraq yəhudiləri öldürdüyü üçün qürurlanır. O, yüzlərlə yəhudini qətlə yetirməsi ilə öyünür.

Riçardın bədənini soyuq tər basdı və o dedi:

— *Dnestryanı? Ola bilməz!*

Riçard ailə ilə birlikdə şam yeməyi yeyərkən elə hey əsgər barədə düşünür, nə edəcəyinə qərar verə bilmirdi. Amma ürəyindəkilərini dilinə gətirmədi. Sabina oğlunu yatağına qoydu, özü də yatağına uzanıb yuxuya getdi. Riçard isə oyaq qaldı, düşüncələri onu narahat edirdi. Allah ona yuxu vermirdi. O, yatağından ayağa qalxıb aşağı mərtəbəyə, ev yiyəsinin mənzilinə tərəf getdi. Qapını döydü və qapı açılarkən otaqda divanda uzanmış qonağı gördü.

Ev yiyəsi əli ilə işarə verdi və əsgər ayağa durdu. O, boyca Riçarddan hündür idi. Onun adı Borila idi. Bu hərbiçinin huzuru otaqda vahiməli bir mühit yaratmışdı. Riçard onun paltarlarına hopmuş qanın metal qoxusunu sanki hiss edirdi. Onlar hər üçü söhbətə başladılar. Borila saysız-hesabsız yəhudini qətlə yetirdiyinə görə lovğalanaraq öz müharibə təəssüratlarını danışırdı. O, hətta körpələri valideynlərinin qucağında necə öldürməsi ilə öyünürdü.

Riçard gah qəzəb, gah da kədər hissləri ilə dolaraq əsgərin bu söhbətinə səbirlə qulaq asdı. Borila su içmək üçün bir anlıq sakit qaldı. Riçard əsgərin gözlərinin içinə baxaraq sükutu pozdu:

«Bu, çox qorxulu hekayədir, amma mən yəhudilər üçün qorxmuram. Allah çəkdikləri əzaba görə onlara mükafat verəcək. Məni narahat edən isə budur ki, onları öldürənlər Allahın məhkəməsi qarşısına çıxanda nə baş verəcək».

Borila cəld stuldan sıçradı. Onun boynundakı böyük şah damarı möhkəm vururdu. Ev yiyəsi əsgərin Riçardın üstünə cumacağından narahat olaraq tez yerindən qalxdı. Riçard və Borila onun evində qonaq idi və o, evdə dava düşməsinə yol verə bilməzdi. Borila şübhəli baxışlarla Riçarda nəzər salıb özünü ələ aldı, sonra yerinə qayıtdı.

Bundan sonra söhbət neytral mövzulara keçdi. Riçard Borilanın mülayim həmsöhbətə çevrildiyini müşahidə etdi. O, musiqini sevirdi və Ukraynada hərbi xidmətdə olarkən bu ölkənin xalq mahnılarına necə həvəslə qulaq asdığından danışdı. Borila Riçarda öz arzusunu bildirdi:

— Həmin mahnılardan birinə yenə də qulaq asmaq istəyərdim.

Riçard həmin mahnılardan bir neçəsini bilirdi, ona görə də ələ düşən bu imkandan istifadə etmək istədi. «*Balıq toruma düşdü!*» — deyə öz-özünə düşündü. Sonra o, Borilaya təklif etdi:

— Əgər Ukrayna mahnısına qulaq asmaq istəyirsinizsə, onda bizə gedək. Düzdür, mən pianoda mükəmməl çalmıram, amma sizin üçün bir neçə mahnı çala bilərəm.

Ailəsi artıq yatmış olsa da, Riçard hər iki kişini evinə dəvət etdi. O, Borilanın sevimli melodiyalarından birini sakitcə çalmağa başladı. Əsgərin gözləri yaşla doldu və üzü qızardı. Padşah Şaul üçün lira çalan yəhudi çoban Davud kimi Riçard da bilirdi ki, musiqi insana dərin təsir bağışlayır.

Lakin Riçardın repertuarı çox da uzun çəkmədi. O, əlini pianinonun dillərindən çəkib əsgərə tərəf çevrilərək dedi:

— Mənim sizə deyiləsi çox vacib bir sözüm var.

Borila göz yaşlarını silib dedi:

— Hə, buyur!

Riçard barmağı ilə qonşu otağı göstərərək dedi:

— Əgər siz bu pərdənin o tayına fikir versəniz, orada kiminsə yatdığını görərsiniz. O mənim həyat yoldaşım Sabinadır. Onun valideynlərini, bacılarını, on iki yaşlı qardaşını və başqa ailə üzvlərini öldürüblər.

Əsgər pərdəyə tərəf boylandı. Riçard sözünə davam etdi:

— Siz mənə dediniz ki, Qolta yaxınlığında yüzlərlə yəhudini öldürmüsünüz.

Borila başını tərpətdi.

— Onları məhz həmin yerdə güllələyiblər. Siz özünüz, yəqin kimləri güllələdiyinizi bilmirsiniz, ona görə də belə güman edə bilərik ki, onun ailəsini qətlə yetirən siz olmusunuz.

Borila stuldan kənara sıçradı.

Riçard əlini yuxarı qaldırdı.

— Bir dəqiqə gözlə. Gəl, bir şeyi təcrübədən keçirək. Mən arvadımı oyadacağam və ona sizin kim olduğunuzu, nə etdiyinizi deyəcəyəm. Sonra nə baş verəcəyini sizə dəqiqliklə deyə bilərəm.

Borila çaşqınlıq içərisində pastora baxırdı.

— Mənim həyat yoldaşım sizə heç bir söz deməyəcək. O sizi qardaşı kimi qucaqlayacaq və evdə olan ən yaxşı yeməyi süfrəyə düzəcək.

Borila yerində duruxub qalmışdı. Əgər onun ailəsini öldürmüşdüsə, yəqin ki, qadın qisas almaq istəyəcəkdi.

Riçard sözünə davam etdi:

— Əgər hamı kimi günahkar olan Sabina bağışlaya və sevə bilirsə, onda görün, kamil məhəbbət olan İsa sizi necə bağışlayıb sevə bilər. Əgər ürəyinizi Ona versəniz, etdiyiniz bütün günahlar bağışlanar!

Borilanın ötkəm zahiri görkəmi tədricən yumşalmağa başladı. Günah və bağışlama hissləri onu bürüdü, qatil hər iki əli ilə köynəyindən yapışıb onu cırdı. Borila əlləri ilə başını tutub hönkürtü ilə ağladı:

— Ay Allah, mən nə edim? Nə edim? Mən qatiləm. Mənim əllərim qana batıb. *Mən nə edim*?!

Riçard yüksək səslə dedi:

— İsa Məsihin adı ilə qəlbini nifrətlə dolduran iblisə əmr edirəm ki, sənin qəlbindən çıxsın!

Borila özündən asılı olmadan titrəməyə başladı. Hər iki kişi onun üçün ucadan dua edirdi. Əsgər dəfələrlə Allahdan onu bağışlamasını və törətdiyi cinayətlərə görə vicdan əzabından azad etməsini xahiş edirdi.

Borila duasını bitirdikdən sonra Riçard ona dedi:

— Mən sizə bir şeyi təcrübədən keçirməyi vəd etmişdim. Sözümün üstündə dururam.

O, qapının pərdəsini kənara çəkib Sabinanın yatdığı otağa daxil oldu. Riçard həyat yoldaşının yüngülcə çiyninə toxunaraq pıçıldadı:

— Bizim qonağımız var, səni onunla tanış etmək istəyirəm. Mən elə fikirləşirəm ki, o sənin ailəni öldürən adamdır. Ancaq o, indi tövbə edib və bizim qardaşımızdır!

Sabina gözlərini ovuşdurub çarpayıda oturdu. O, xalatına bürünüb bir neçə saniyə səssiz dayandı və sonra ailəsini öldürən qatili qarşılamaq üçün ayağa qalxdı.

Sabina Borilanı qucaqlayanda çox təəccübləndi. Bir-birinin yanağından öpüb qucaqlaşdılar, birlikdə ağladılar. Riçard həyat yoldaşının ürəyini yaxşı tanıyırdı. Əgər Allah Sabinanın keçmişdəki günahlarını bağışlaya bilibsə, onda o da Borilanı bağışlaya bilər. Əgər Allah Sabinanı incitdiyi insanlara, aldatdığı, tanımadığı adamlara, törətdiyi bütün pisliklərə görə vicdan əzabından azad edə bilibsə, onda şübhəsiz ki, Allah Borila üçün eyni şeyi edə bilər. Sabina sonra Riçardın əvvəlcədən dediyi kimi əsgər üçün yemək hazırlamaqdan ötrü mətbəxə keçdi.

Sabina mətbəxdə olarkən Riçard iki yaşlı oğlunun otağına getdi. O, qonağa göstərmək üçün hələ də yuxulu olan Mihayı qucağına alıb otağa gətirdi. Borilanın yəhudi uşaqlarını valideynlərinin qucağında öldürməsindən qürrələndiyi vaxtdan cəmi bir neçə saat keçmişdi.

Riçard dedi:

«Onun necə rahat yatdığını görürsünüzmü? Siz də yeni doğulmuş uşaq kimi Atanın qucağında dincələ bilərsiniz. İsanın tökdüyü qan artıq sizi də təmizləyib».

*****

Borila həmin gecə Vurmbrandların evlərində qaldı və səhər yuxudan çox gümrah halda durdu.

«Mən əvvəllər heç vaxt belə rahat yatmamışdım» — deyə o etiraf etdi.

Səhər yeməyindən sonra Borila Riçardla birgə başqa məsihçi yəhudilərin evlərinə yollandı. O getdiyi hər evdə öz həyat tarixçəsini danışır, onlar da onu itmiş oğul kimi qəbul edirdilər.

Riçard Borilaya Əhdi-Cədid kitabını verdi. Ona İsa Məsihin hətta ən qəddar qatilin belə ürəyini necə dəyişdirdiyi barədə danışdı. O, Borilaya tarsuslu Şaulun Allahın xalqını necə öldürdüyünü, Dəməşq yolunda Məsihlə görüşdüyünü və sonralar Paul adı ilə tanınan ən böyük müjdəçi olduğunu izah etdi.

Çox keçmədi ki, Borilanın qonşu şəhərdə yerləşən alayına qayıtmaq vaxtı gəlib çatdı. Onun bölməsinə cəbhə xəttinə qayıtmaq əmri verilmişdi. O, vacib qərar verməli idi.

Borila Riçarddan soruşdu:

— Mən nə edim? Mən yenə adam öldürməliyəm.

Riçard cavab verdi:

— Yox, sən artıq çox adam öldürmüsən! Qoy indi başqaları səni öldürsün. Müqəddəs Kitab bunu qadağan etməyib.

Riçard onun üçün qardaşa çevrilmiş Borilanı qucaqladı.

Borila başını tərpətdi və hərbçi papağını başına qoyub çıxıb getdi.

Vaxt keçdikcə o, Vurmbrandların ən yaxın dostuna çevrildi. Sonralar Riçard zarafat edərək deyirdi ki, Sabina onların toyundan sonra iki kişini öpüb, onlardan biri əri, o birisi isə ailəsini öldürən kişi idi.

# 10

«Onlar gəlirlər! — deyə oğlan çaşqınlıq içərisində velosipedini Riçard və Sabinaya tərəf sürərək qışqırdı, — ruslar gəlirlər!»

1944-cü il avqustun 31-i sovet ordusunun ilk kolonnası Buxarestə yaxınlaşdı. Vurmbrandlar isə qızmar günəş altında dayanacaqda durub rusları qarşılamaq üçün yeddi nömrəli tramvayı gözləyirdilər.

Riçard Sabinaya dedi:

«Biz mütləq onların qarşısına çıxmalıyıq, ruslara Müjdəni çatdırmaq yer üzündə cənnətə bərabərdir».

Müharibə dövrünün pastoru olan Riçard faşist düşərgələrində çoxlu ruslarla tanış olmuşdu. İyirmi beş il ateist şüarları ilə «beyinləri yuyulmuş» olsa da, ruslar əslində özlərini dindar sayırdılar, Müjdəni böyük maraqla qəbul edirdilər.

«Şanlı Qızıl Ordu»nu qarşılamaq üçün gizlin yerdən çıxan bir qrup yerli kommunistin başı üzərində qırmızı bayraqlar dalğalanmağa başladı. Kommunistlər maraqla Riçard və Sabinaya baxırdılar, çünki camaatın çoxu «xilaskarlar»dan uzaq durmaq istəyirdi. Yaxınlıqda bir neçə rumın məmur dayanmışdı. Onlar rus dilində elə indicə əzbərlədikləri sözləri təkrarlayır, əllərində ənənəvi olaraq duz və çörək tutmuşdular.

Rumıniyada müharibə bitmişdi. Riçard və Sabina yaranacaq yeni imkanları böyük həvəslə gözləyirdilər. Hündürboylu enlikürək Riçard çiyinlərini dik tutmuşdu. Onun bu duruşu Allaha imanından yaranmış qeyri-adi cəsarətini nümayiş etdirirdi. Bəstəboy həyat yoldaşı yanında durub gülümsünürdü. Uzaqdan zınqırovların səsi

gəldi. Artıq heç yerdə güllə səsləri eşidilmirdi. Yəqin ki, bundan sonra bütün insanlar bir-biriləri ilə dostlaşacaqdılar.

Riçard və Sabina hələ ki boş olan yola baxıb gələcəkdən nə gözlədiklərini düşünürdülər. İndi ruslar onların müttəfiqləri idi, amma onlar da oğurluğa və zorakılığa meyl etməkdə ad qazanmış işğalçı ordu idi. Görəsən, onlar Buxarestdə neçə il qalacaqdılar?

Birdən motosikletlərin güclü uğultusu eşidildi. Onların arxasınca qülləsindən qırmızı ulduzlu papaqlar çıxmış nəhəng tanklar peyda oldu. Tanklar irəlilədikcə tırtıllarının altında yer titrəyirdi.

Sovet yoldaşları şəhərə daxil olanda, rumın kommunistlər cərgəyə düzülüb, var-səsləri ilə «İnternasional» himnini oxumağa başladılar. Birinci tank dayanmaq üçün sürətini azaldanda səslər yavaşıdı. Sabina tankın cızılmış tozlu gövdəsinə baxdı, onun nəzərləri tankın üstündəki üzü göyə tuşlanmış topa sataşdı.

Rumın məmurlar onları salamladıqdan sonra tankın komandirinə duz və çörəyi təqdim etdilər. Komandirin yanında dayanmış gənc serjant oradakı bir neçə qadının içərisindən otuz iki yaşlı Sabinaya baxdı. O, tankın kənarına dirsəklənərək dişini ağartdı:

— Hə, qəşəng qız, de görüm, bəs sən nə təklif edə bilərsən?

Sabina barmaqlarının ucunda qalxıb ona kitab verdi:

— Mən sizin üçün Müqəddəs Kitab gətirmişəm.

Serjant altdan-altdan gülərək papağını başından çıxardı, onun sarışın saçları günəş işığı altında parıldayırdı. O dedi:

— Susuzluqdan yandığımız bir vaxtda duz, çörək və Müqəddəs Kitab! Çox sağ ol!

Tanklar hərəkətə gəldi. Onların mühərriklərindən yenə qara tüstü çıxmağa başladı, metal tırtılları asfaltı dələrək irəliləyirdi. Kolonna böyük səs-küylə gözdən itdi. Mühərriklərdən havaya yayılmış qara tüstünü udan Riçard və Sabina öskürə-öskürə yaşarmış gözlərini sildilər.

Cütlük evə qayıdarkən yolda tramvayın pəncərəsindən rusların yol boyunca yerləşmiş onsuz da boş olan mağazaları necə soyub taladığına tamaşa etdilər. Onlar şərab çəlləklərini diyirlədərək

küçəyə çıxarır, kisələrini vetçina, toyuq və kolbasa ilə doldururdular. Faşistlərin məhv etdiyi Buxarest sovet əsgərləri üçün olduqca zəngin görünürdü.

Vurmbrandlar tramvaydan düşəndən sonra Riçard ruslardan biri ilə söhbət etmək istədi, amma əvəzində bircə sual eşitdi: «Biz haradan araq tapa bilərik?»

Riçard və Sabina evə qayıdıb yeni planlar qurmağa başladılar. Sovet əsgərlərinin zavallı qəlblərindən Allah oğurlanmış, əvəzində Onun yeri dünyəvi «cənnət» vədi ilə dolmuşdu. Faşistlərin vahiməsi artıq bitmişdi və Rumıniya xalqı ümid edirdi ki, ruslar tezliklə sülh ilə oradan çıxıb gedəcəklər. O vaxt çox az adamın ağlına gələ bilərdi ki, Rumıniya xalqı onları həbsxanalara salacaq, saysız-hesabsız insanların məzarları ilə yadda qalacaq bir dövrün astanasındadır. Artıq yeni və daha dəhşətli, faşist dövründən daha betər bir dövr başlayırdı...

# 11

Sovet ordusu Rumıniyanı işğal edərkən orada əhalinin sayı iyirmi dörd milyona yaxın idi. Kommunist partiyasının təxminən on min üzvü olardı. Bu qədər sayla bir stadionu güclə doldura bilərdilər. Yerli kommunistlər ölkədə hələ də demokratiya olduğunu nümayiş etdirsələr də, indi ölkə Moskvadan idarə olunurdu.

«Biz hamı ilə dost münasibətləri qurmaq istəyirik! — deyə onlar bəyan edirdilər. — Dini azadlıq? Əlbəttə! Konstitusiyalı monarx qismində kral Mixayın rəhbərliyi ilə çoxpartiyalı kabinetin yaranması? Niyə də yox?»

Kommunistlər Rumıniyaya vədlər verməklə Qərbi aldadırdılar. Ölkə dini azadlıqdan qısa müddət olsa da faydalandı. Yəhudilər və protestantlar üzərində qəddarlıq nümayiş etdirən Pravoslav kilsəsinin rəhbərləri öz səlahiyyətlərini tamamilə itirdilər, diktator Antonesku isə edam edildi. Elə görünürdü ki, Rumıniyada demokratik hökumət yaranıb. Amma tezliklə kommunistlərin maskası yırtıldı.

«Hakimiyyətə kommunistləri təyin etmək lazımdır!» — deyə Sovet İttifaqının xarici işlər naziri Andrey Vişinski gənc kral Mixayın kabinetinə girib yumruğunu stolun üstünə vuraraq qışqırdı. Rumıniya ordusu və polisi silahsızlaşdırılmışdı, ona görə kommunistlər hakimiyyəti ələ keçirdilər. Rusiyada pravoslav kilsəsi artıq hökumətin marionetinə çevrilmişdi. Görəsən, bunun Rumıniyada baş verməsi üçün daha nə qədər vaxt lazım olacaqdı?

*****

## Fəsil 11

Yeni işğalçıların həyatda ancaq bir istəkləri var idi: içmək, oğurlamaq və dağıtmaq. Onlar küçədən keçənləri talayır, velosipedlərini və saatlarını özlərinə götürürdülər. Ruslar evlərə girib gəncindən tutmuş yaşlısına kimi minlərlə qadını zorlayırdılar. Sovet Ordusu silah gücünə nizam-intizam yaratmışdı, amma talançılıq böyük miqyasda hələ də davam edirdi.

Sovet İttifaqı Rumıniyanı ticarət donanmasının böyük hissəsindən, qatarların və dəmir yolundakı nəqliyyat vasitələrinin yarısından, hərbi dəniz donanması və avtomobillərdənsə tamamilə məhrum etdi. Onlar kənd təsərrüfatı məhsullarını, mal-qaranı və nefti qarət edib Rusiyaya apardılar. Bir vaxtlar Avropanın taxıl mənbəyi kimi tanınmış Rumıniya indi aclıqdan və yoxsulluqdan əziyyət çəkirdi.

Bir gün Sabinanın Norveçdə yaşayan yaxın dostu rumıniyalı Anutza onlarda qəhvəyə qonaq oldu. «Ah, bu ruslara nə deyim! Siz Moskva ilə bizim «ikitərəfli» razılaşma barədə eşitmisiniz? Onlar bütün taxılımızı aparıb, əvəzinə isə... biz hələ bütün neftimizi də onlara verəcəyik! Dünən bir rus əsgəri gördüm, hər qolunda üç saat var idi. Avtobusda konduktor gediş haqqını yığdığı kimi, onlar da küçədən keçənlərin saatını tutub alırlar!»

Anutza güldü, amma Rumıniya üçün bu, heç gülməli deyildi. Sovet Ordusunun ölkədən oğurladığının həcmi artıq milyardlarla dollar idi. Mağazalar boşalmışdı. İnsanlar isə gündəlik tələbat məhsullarını almaqdan ötrü uzun-uzadı növbələrdə qarovul çəkirdi. Rumıniya xalqı düşünürdü ki, Stalin öz sözünün üstündə duracaq. Almaniya tamamilə məğlub olanda Qızıl Ordu çıxıb gedəcək. Bütün bunlar tezliklə bitəcək.

*****

Faşistlərin Rumıniyada hökmranlıq etdiyi müddətdə Vurmbrandlar faşizmin qurbanlarına kömək etmək üçün yorulmadan xidmət etmişdilər. Amma indi ovçunun özü ovlanmaq təhlükəsi

ilə üz-üzə qalmışdı. Faşist ordusu geri çəkildikdən sonra onların bir neçə bölməsi arxada qalmışdı və Sovet Ordusu onları təqib edirdi. Ona görə də onlar başqa heç bir yerdən kömək olmadan özlərini qorumalı idilər. Almanlar aclıq çəkirdilər və qorxu içində idilər, əksəriyyəti isə artıq ölmüşdü. Milyonlarla insanı qətlə yetirən, bir çox ölkəni viran qoyan, Vurmbrandların ailəsini və dostlarını öldürən həmin insanlar indi özləri müharibə qurbanlarına çevrilmişdi. Riçard və Sabina onlara kömək etməyə bilməzdi.

«Allah həmişə təqib olunan insanların tərəfindədir,» — deyə Riçard qatillərə görə öz təhlükəsizliyini, hətta həyatını təhlükəyə atdığı üçün ona gülənlərə deyirdi. Allah Vurmbrandlara pisliyə yaxşılıqla cavab vermək qabiliyyəti vermişdi.

Keçmiş alman əsgərləri Riçard və Sabinanın evinə həmişə gəlib-gedirdilər. Bir dəfə onlar həyətlərindəki balaca daxmacıqda üç zabit gizlətmişdilər. Axşam qaranlıq düşəndə Riçard və Sabina dizə qədər qara bata-bata onlara yemək gətirir, onların tualet vedrəsini aparıb boşaldırdılar. Bir vaxtlar faşistlərin törətdiyi cinayətlərə nifrət edirdilər. İndi isə bu əsgərlər özlərini qəfəsə salınmış heyvan kimi hiss etməsinlər deyə onlarla ünsiyyət qururdular.

Bir dəfə alman kapitan Sabinaya dedi:

— Mən sizə bunu deməliyəm. Siz bilirsinizmi ki, məğlub olmuş ordunun əsgərini gizlədənlərə ölüm hökmü verilir? Özü də siz yəhudisiniz! Alman ordusu Buxaresti yenidən ələ keçirəndə, əminəm ki, bu baş verəcək. Onda mənim üçün etdiyinizi mən sizin üçün edə bilməyəcəyəm.

Hətta qaranlıqda belə Sabina onun başını necə yellədiyini görürdü.

Sabina üzü aşağı çevrilmiş yeşiyin üstündə oturub sözünə davam etdi:

— İndi siz mənim qonağımsınız. Mənim ailəm faşistlər tərəfindən qətlə yetirilib, amma buna baxmayaraq, evimdə qaldığınız üçün sizi təkcə müdafiə etməyəcəyəm, həm də bir qonaq kimi sizə lazım olan hörməti göstərəcəyəm. Müqəddəs Kitabda yazılıb: «Kim insan

qanı töksə, onun da qanı insan əli ilə töküləcək. Çünki Allah insanı Öz surətinə görə yaradıb».

O, kapitanın ona necə qəribə baxdığını görsə də, sözünə davam edirdi.

Kapitan əlini Sabinanın çiyninə yavaşca vuraraq dedi:

— Bu cəfəngiyatdır.

Sabina günahsız qan tökmüş əli kənara çəkib dedi:

— Bağışlayın, mənim pis bir fikrim yoxdur. Sadəcə sual verdim ki, niyə yəhudi qadın alman əsgərinə görə həyatını təhlükəyə atır. Bilirsiniz, mən nə yəhudiləri sevirəm, nə də Allahdan qorxuram!

Sabina qabağa əyilib izah etməyə çalışdı:

— Hətta ən ağır cinayətlər belə İsa Məsihə iman vasitəsilə bağışlanır. Mənim sizin günahlarınızı bağışlamaq səlahiyyətim yoxdur. Amma siz günahlarınız üçün tövbə etsəniz, İsa sizi bağışlayar.

Kapitan Riçardın (baxmayaraq ki, siqaretdən zəhləsi gedirdi) onun üçün eşib düzəltdiyi siqaretdən bir qullab vurub dərindən nəfəs aldı və onu dostuna ötürərək Sabinaya dedi:

— Mərhəmətli xanım, mən deməyəcəyəm ki, sizi başa düşdüm. Amma pisliyə yaxşılıqla cavab vermək ənamı olmasaydı, insanların qətlinə heç vaxt son qoyulmayacaqdı.

Nəhayət, həmin əsgərlər günlərin bir günü sağ-salamat sərhəddən keçib Almaniyaya qayıtdılar. Lakin onlar kimi minlərlə əsgər həbs edilib sovet məsihçiləri ilə birlikdə illərlə sovet əmək düşərgələrində cəza çəkmişdilər. Yəqin ki, məsihçilər bu düşərgələrdə onlara Məsihin Müjdəsini çatdırmış və iman yoluna gətirmişdilər. Alman əsgərlər də digər təqib olunan qruplarla birgə Vurmbrandların məsihçi mərhəmətinin və xeyirxahlığının şahidi oldular.

# 12

1945-ci il idi, Sabina Buxarestdən Budapeştə gedən qatarın yük vaqonunda bağlamaların arasında oturmuşdu. Rus əsgərləri ilə dolu olan qatarda o yeganə qadın idi. Sabina ətrafındakı ərzaqla dolu zənbillərə sıxılmışdı.

«Getmə, rus əsgərləri qadınlara sataşırlar. Küçələrdə qızların boğazları kəsilmiş halda tapırlar və heç kim də bir söz belə deyə bilmir!» — deyə Anutza ona yalvarmışdı. Sabina bilirdi ki, Macarıstanda humanitar işlə məşğul olanların ərzaq tədarükləri yoxdur. Buna görə də Budapeştdə aclıq çəkən yəhudiləri və məsihçiləri yeməklə təmin edə bilməyəcəklər. Ruslar Budapeşti tamamilə çapıb talamışdılar. Riçarda isə Buxarestdən çıxmaq qadağan edilmişdi. Bu işi könüllü görəcək başqa adam tapılmadığından Sabina getməli oldu.

Uzun axtarışdan sonra o, vaqonların birində özünə otura biləcəyi balaca künc tapdı. Qalan vaqonlar hamısı ruslarla dolu idi.

Müharibəyə qədər belə bir səyahət qısa və asan olurdu, cəmi bir neçə gün vaxt aparırdı. Qatar Budapeştə gəlib çatanda Sabinanın gözləri bərələ qaldı. Dağıntılar içərisində olan şəhərdə hələ də əsgərlər döyüşürdülər. İctimai nəqliyyat vasitələri tamamilə məhv edilmişdi, binaların tüstülənən külü ətrafa yayılırdı.

Sabina əlində ağır zənbillərlə Macarıstanın paytaxtında tüstülənən xarabalıqların arasından keçərək tanıdığı adamlardan heç kimi tapa bilmədi. Bəziləri sonuncu döyüşlərdə öldürülmüş, digərləri isə almanlar tərəfindən ölkədən qovulmuşdular. Axır ki, o, iki nəfəri tapa bildi: Norveç Müjdəçilik təşkilatının direktoru

pastor Consonu və yəhudilərin, eləcə də başqa millətlərin ibadət etdiyi kilsənin rəhbəri pastor Unqarı. Onlar üçün Sabina göylərdən gəlmiş bir mələk idi.

Budapeştdə böyük aclıq yaşanırdı. İnsanlar zirzəmilərdən çıxanda şəhərdə, ümumiyyətlə, heç bir ərzaq yox idi. Yüzlərlə insan evsiz qalmışdı, kilsə binaları dağılmışdı, camaat hərbi əməliyyatlar nəticəsində ölmüş atları kəsib ətlərini bişirib yeyirdi. Sabina elə vaxtında gəlib çıxmışdı.

Sabina Budapeştdən Vyanaya getməyi planlaşdırırdı. Avstriyanın paytaxtı da dağıntılar içində idi, əhali aclıq çəkirdi. O, Vyanaya gedən qatara minmək üçün Budapeştin dəmir yolu vağzalına gəlib çatdı. Qatar o qədər basabas idi ki, camaatın çoxu vaqonların qapısından asılıb qalmışdı, digərləri isə vaqonun damında oturmuşdu.

Birdən Sabina kiminsə şən gülüşünü eşitdi, kimsə onun adını çağırdı. «Burada yer yoxdur, amma sıxlaşıb sənə yer edərik!» — həmin adam uca səslə dedi. Yük vaqonunun üstündə bir xeyli qız sıxışıb oturmuşdu. Onlar Auşvitz düşərgələrindən sağ çıxmış qızlar idi və bir müddət Vurmbrandların ailəsi ilə yaşamışdılar. Sabina vaqonun üstünə çıxıb tanış qızlara qoşuldu. Bir vaxtlar Budapeştdən Vyanaya dörd saatlıq olan yol indi altı gün çəkirdi. Sabina öz tapşırığını yerinə yetirənə qədər bir neçə həftə Avstriyada qaldı. Budapeştdəki işi qurtarmış kimi görünsə də, Buxarestdə onu hələ çox işlər gözləyirdi.

*****

«Qəribə xəbər var, hökumət dini konfessiyaların konqresini keçirəcək. Hər bir konfessiya, hər bir din birliyi böyük nümayəndə heyətini bu tədbirə göndərməlidir. Konqres parlament binasında keçiriləcək! Sən nə vaxtsa belə bir şey eşitmisən? Görəsən, bunlar nə fikirdədirlər?» — deyə pastor Solhaym bazar günü toplantısı üçün zalı hazırlayan Riçardı işindən ayırdı. Dostunun üzündəki təəccüb və təhlükə dolu ifadələr Riçardı narahat etdi. Hamı qarşıdakı

konqresin məqsədləri barədə gəzən söz-söhbətləri müzakirə edir və öz mülahizələrini irəli sürürdü. Əksər kilsə rəhbərləri hökumətin tam dini azadlıq barədə verdiyi vədlərə inanırdı, Riçard isə bu məqsədlərin pis tərəfini görürdü. O özü-özlüyündə düşünürdü: «*Rusiyada baş verənlər, görəsən, burada da baş verəcəkmi? Lenin vəzifəyə gələnə qədər təqib olunan konfessiyaları müdafiə edirdi... Sonra isə onların on minlərlə nümayəndəsi həbsdə öldürüldü. Onlar əvvəlcə kilsəyə lay-lay oxuyurlar. Sonra isə zərbə endirirlər!*» Riçardın yadına dəhşətli səhnələr düşdü və onun tükləri ürpəşdi.

Riçard və onun həmkarları pastor Solhaym ilə görüşdülər ki, bu konqresdə necə iştirak edəcəkləri barədə birlikdə müzakirə aparsınlar. Sonda onlar bir qərar çıxardılar. Riçard onun qara gözlərində parlayan bir qətiyyət gördü.

«Biz gedib öz sözümüzü deyəcəyik!» — deyə o, son fikrini bildirdi. Qərar qəbul edildi.

*****

Beləcə məsihçi kilsəsi kommunizm ilə təhlükəli bir oyuna başladı. Pravoslav və protestant kilsələrinin rəhbərliyi kommunistləri razı salmaq üçün sanki bir-biri ilə rəqabət aparırdı. Pravoslav kilsəsində baş keşiş oraq-çəkic işarəsini öz libasına tikdirmişdi və hamıya demişdi ki, ona «Yepiskop həzrətləri» deyil, «yoldaş keşiş» deyə müraciət etsinlər.

Bir çox keşiş təhlükəsizlik xidmətinin zabitlərinə çevrildi. Ruhani məktəblərin proqramına yeni təhlükəli təlim əlavə olundu. Rumıniyada Lüteran kilsəsinin keşiş köməkçisi ilahiyyat seminariyalarında yeni təlim keçməyə başladı, guya Allah üç vəhy verib: birini Musa, o birini İsa, digərini isə Stalin vasitəsilə. Sonuncu vəhy digərlərindən daha üstündür. İndi kilsə məhz Stalinin vəhyinə əsasən hərəkət edir.

Kommunistlər kilsə rəhbərlərini «seçmişdilər» və kilsələrin də onları qəbul etməkdən başqa yolu yox idi. Baptistlərin Resit

şəhərində keçirilən illik konqresində qırmızı bayraq təntənə ilə qaldırılmışdı və iştirakçılar Sovet İttifaqının himnini sanki məsihçi himni kimi ayaq üstə oxumuşdular. Baptistlər ittifaqının prezidenti Stalini «Müqəddəs Kitabın böyük müəllimi» kimi tərifləyib onun etdiyi hər bir işi Allahın əmrlərinin icrası adlandırmışdı. Kommunistlərin çaldığı hava ilə oynamayanlar isə çox ciddi şəkildə cəzalanmışdılar.

İndi kilsələrin bütün rəhbərləri dini konfessiyaların konqresində bir ayara gələcəkdilər...

*****

Konqresin başladığı gün səhər Riçard və Sabina öz xidmətçi həmkarları ilə birlikdə təpəlikdə yerləşən parlament binasına gəlib çıxdılar. Dörd min dini rəhbər qalereyaları tam doldurmuşdu, hətta gələnlərin çoxu böyük zalın döşəməsində oturmuşdu. Pravoslav keşişlər və katolik kahinlər protestant pastorlar və xidmətçilərlə birgə oturmuşdular. Yəhudi ruhanilər və müsəlman mollalar da bir-birinin yanında əyləşmişdilər. Zalda iri, qorxunc portreti asılmış yoldaş Stalinin rəsmi sədr seçilməsini nümayəndələr təntənəli surətdə alqışladılar. Deyəsən, Stalinin ateist və məsihçiləri kütləvi surətdə öldürən biri olması heç kimi narahat etmirdi.

Zalın hər tərəfində qırmızı bayraqlar asılmışdı və səhnədə yüksək vəzifəli kommunist dövlət rəhbərləri — Rumıniyanın baş naziri və daxili işlər naziri oturmuşdu. Yığıncaq əlləri əsən qoca pravoslav patriarx Nikodimin xeyir-duası ilə başladı. Partiya rəhbərləri ikonalar qarşısında əyilib təzimlə xaç çəkir, bu qoca kişinin əllərindən öpürdülər. Baş nazir Qroza konqresi açıq elan edərək hamını əmin etdi ki, Rumıniya hökuməti xalqların dini azadlıqlarını dəstəkləyəcək, bütün dinlərin və konfessiyaların azadlığı təmin olunacaq, dini xidmətçilərin əməyi dövlət tərəfindən maliyyələşdiriləcək. Bundan əlavə, dövlət onların maaşlarını qaldıracaq. Zaldakı iştirakçılar hökumət tərəfindən vəd olunan bu

səxavətli dəstəyi böyük alqışlarla qarşıladılar. Hər çıxışdan sonra sürəkli alqışlar və razılıq nidaları eşidilirdi.

Kommunistlərin bu vədlərinə cavab olaraq kahinlər və pastorlar dövlət rəhbərlərini dini dəstəklədikləri üçün tərifədilər və yeni Rumıniya hökumətinə sadiq qalacaqlarını bəyan etdilər. Onları əmin etdilər ki, kilsə hökumətə arxalansa, onda hökumət də kilsəyə arxalana bilər. Rəhbərlər söyləyirdilər ki, kommunizmlə məsihçilik arasında ortaq cəhətlər çoxdur. Buna görə də bir-biri ilə sülh şəraitində fəaliyyət göstərə bilərlər. Keşişlərdən biri bu barədə fikrini belə ifadə etmişdi: kilsənin tarixində bütün siyasi hərəkatların rənglərini görmək olar. İndi isə o, qırmızı rəngə boyanmışdı. Dini rəhbərlərin və kommunist marionetlərin belə canfəşanlıqla dolu çıxışları konqres zalından ölkənin hər yerinə birbaşa yayımlanırdı.

Riçard əsəbiləşdi. O, köynəyinin yaxasını sanki boğazına hava gəlmirmiş kimi dartdı. Kilsə rəhbərlərinin qorxaqlığına artıq heç cür dözə bilmirdi. Kommunizm dinə nifrət edirdi! Kilsə xidmətçiləri ailələri, işləri və maaşları üçün qorxduğundan belə danışırdılar. Onlar kaş ki susaydılar!

*****

Riçardın yanında Sabina əsəbi halda dərindən köksünü ötürürdü. Hər dəfə yaltaqcasına söylənmiş yalanlardan onun üzü bir az da qızarırdı. Kommunizm dini müdafiə etməyə deyil, *məhv etməyə* həsr olunmuş bir quruluş idi. Kommunizmin Sovet İttifaqında dini rəhbərlərə göstərdiyi əsl siması artıq məlum idi. Nəyə görə onlar Rumıniyada hər şeyin başqa cür olacağını düşünməklə ağılsızlıq edirlər? Kilsə kommunizmin boş, aldadıcı vədlərinə şirniklənmişdi. Bu konqres Məsihin üzünə tüpürmək idi.

Sabinanın səbri artıq tükəndi. O, dərindən nəfəs alıb ovuclarını dizlərinə sürtdü, ürəyi tez-tez döyünməyə başladı. Sabina ərinə tərəf əyilib əlindən tutdu və qulağına pıçıldadı: «Riçard, dur, Məsihin üzündən bu rüsvayçılığı götür!»

Riçard yavaş-yavaş Sabinaya tərəf çevrilib onun qəzəbli gözlərinə baxdı. O, Sabinanın doğru dediyini bilirdi, amma bunun nə ilə nəticələnəcəyini də yaxşı anlayırdı. O, Sabinaya, xəbərdarlıq edərək dedi:

— Əgər mən bunu etsəm, sən ərini itirəcəksən.

Sabinanın baxışları Riçardın ürəyini dəlib keçirdi. O, Riçardın əlini daha da möhkəm sıxdığından dırnaqları ovcuna batdı. Sabina Müqəddəs Ruhdan gələn bir cəsarətlə cavab verdi:

— Mənə qorxaq ər lazım deyil!

# 13

Riçard öz vəsiqəsini irəli ötürüb çıxış etmək üçün icazə istədi. Konqresin rəhbərləri onu kürsüdə görməkdən çox məmnun oldular. Onlar bir-birinə baxıb gülümsünür, sabahkı xəbərlərin başlığını gözləri önünə gətirirdilər: «Beynəlxalq kilsələr birliyinin və İsveç Müjdəçilik təşkilatının nümayəndəsi pastor Vurmbrand kommunist hökumətini salamlayır və Rumıniyada dini dəstəklədiyi üçün minnətdarlığını bildirir!» Riçardın kommunizmi təbliğ edəcəyini düşünərək onlar artıq bir-birilərini təbrik etməyə hazırlaşırdılar. Amma pastor Vurmbrandın konqresdəkilərə ünvanlayacağı tamamilə başqa çıxışı var idi.

O, kürsüyə qalxdı, zala böyük bir sükut çökdü. Sabina Müqəddəs Ruhun hüzurunun gəldiyini hiss etdi. Riçard çıxış etməyə başlayanda, hamı yerində donub qalmışdı. Onun çıxışında əsas mövzu kommunizm deyil, İsa Məsih idi.

Riçard imanından irəli gələn cəsarətlə zalda oturanlara xatırlatdı ki, onların bir kahin kimi vəzifələri dünyadakı rəhbərləri tərifləmək deyil, Yaradan Allahı və çarmıxda ölən Xilaskar Məsihi izzətləndirməkdir. O, kilsə rəhbərlərinə üzünü tutub onları dünyanın faniliyinə uymamağa, əbədi məhəbbət Padşahlığına xidmət etməyə səslədi. O, partiyanın prinsiplərini tamamilə rədd edərək, əvəzində Kəlamın həqiqətlərini bəyan etdi.

Riçard danışdıqca bütün zalda ab-hava dəyişməyə başladı. Kommunist partiyasının yağlı vədlərini sakitcə dinləyən, saatlarla hərəkətsiz oturan din xadimləri, deyəsən, artıq oyandılar. Onların

donuq baxışlarında sanki bir qığılcım yarandı. Sabinanın isə ürəyi sevinclə dolmuşdu. Çünki Riçardın çıxışı ölkənin hər yerinə yayımlanırdı. Beləcə Müjdə insanlara təbliğ olunurdu.

Birdən kimsə əl çaldı. Gərginlik azaldı və zalı sürəkli alqışlar bürüdü. Nümayəndələr ayağa qalxıb Riçardın çıxışını alqışladılar. Rumıniyanın kilsələri yenidən yuxudan oyandı.

Keçmiş pravoslav kahini Burduça yerindən tez sıçrayıb xitabət kürsüsünə çıxdı.

«Sizin artıq danışmaq haqqınız yoxdur!» — deyə o qışqırdı.

Sonra aşağıda oturan əlaltılarına kürsüdən əmr verməyə başladı: «Mikrofonu söndürün!»

Onun qızarmış üzündə damarları gərilmişdi.

Amma auditoriyadakı səslər onun səsini batırırdı.

«*Pastorul! Pastorul!*» — deyə onlar pastoru alqışlayırdılar.

«Bizim pastorumuz! Bizim pastorumuz!» — İndi Riçard «pastor»dan «bizim pastor»a çevrilmişdi.

Riçard Burduçanın əmrinə məhəl qoymadı və xatırlatdı ki, danışmaq haqqını ona Allah verib. Riçard bütün məsihçi rəhbərlərin demək istədiyini çatdırdıqdan sonra zalda oturanlar onu bir daha sürəkli alqışlarla dəstəklədilər.

Qalmaqal davam etdikcə kommunistlərin əlaltıları parlament zalının bu başından o biri başına qaçaraq pastor Vurmbrandı susdurmağa və nümayəndələri sakitləşdirməyə çalışırdılar. Onlar mikrofonun şnurlarını qırdılar, amma çaxnaşmanı dayandıra bilmədilər. Riçard tribunadan düşüb getsə də, məsihçi rəhbərlər hələ də əl çalır, uca səslə nida edirdilər.

Konqres bu günlük sona çatdı. Riçard və Sabina zalda qarmaqarışlıq və çığır-bağır davam etməsinə baxmayaraq, küçəyə çıxdılar. Cəsarətli pastora bu çıxışı baha başa gələcəkdi, amma onun atdığı addım hər şeyə dəyərdi...

*****

Həmin vaxt Riçardın anası radioda konqresdə baş verənlərə qulaq asırdı. Lakin radioda yayım dayandırılanda o düşündü ki, artıq bir daha oğlunu görməyəcək.

Axşam Riçard və Sabina evə gələndə qadın dərindən köksünü ötürdü.

«Mən elə bildim ki, hər ikinizi həbs ediblər. Bəs indi necə olacaq?» — deyə qorxudan rəngi ağarmış qadın onlardan soruşdu.

«Ana, mənim hər şeyə qadir olan Xilaskarım var. O mənim üçün ən yaxşı olanı edəcək!» — deyə Riçard cavab verdi.

Çox keçmədən Riçard xəbər tutdu ki, konfessiyalar üzrə nazirlik onun pastorluq vəzifəsini ləğv etməyi planlaşdırır. Ona məsləhət gördülər ki, kömək üçün nüfuzlu pravoslav patriarxı Yustiniana müraciət etsin. Riçard bir neçə dəfə Yustinianla əlaqə saxlamaq istədi və nəhayət, onunla görüş təyin edə bildi.

Yustinian Pravoslav kilsələrinin rəhbərliyinə yenicə təyin olunmuşdu. Bu kilsələrə gedənlər ölkə əhalisinin səksən faizini təşkil edirdi. Riçard ürəyində hiss etdi ki, patriarxdan öz işi haqqında xahiş etməkdənsə, bu dəyərli fürsətdən istifadə edib onu bu yeni vəzifəsində dəstəkləsin. Belə göydəndüşmə bir görüş zamanı Riçard Pravoslav kilsələrinin rəhbəri ilə dostlaşmaq imkanı əldə etdi. Kommunizm isə ətrafda qarmaqarışıqlıq yaratmaqda davam edirdi...

Riçard Yustiniana Müqəddəs Kitabı öyrədir, onun üçün dua edir və gündəlik Kəlamdan nümunələr gətirməyi məsləhət görürdü. Yustinian Allaha imanında böyüyüb möhkəmlənəndə kommunist partiyası Rumıniyada dinlə kəskin qarşıdurma yaratdı.

Riçardın bir pastor kimi həyatı bu vaxta qədər ona sevinc bəxş edirdi. O öz maaşı ilə Sabina və Mihayı dolandıra bilirdi. Kilsədəki ailəsi onu sevir, ona etibar edirdi. Amma bütün bunlar Riçard üçün azlıq edirdi. Qəddar diktaturanın ətrafda hər şeyi məhv etdiyi və başqa məsihçilərin imanlarına görə əziyyət çəkdiyi bir vaxtda nəyə görə Allah ona belə adi həyat tərzi yaşamağa imkan verir?

## Fəsil 13

Riçard və Sabina gecə-gündüz Allaha dua edib yalvarırdılar ki, Onun uğrunda daşıya biləcəkləri çarmıxları olsun. Tezliklə onların dualarına cavab gələcəkdi.

# 14

Konfessiyaların uğursuz konqresindən sonra kommunistlər Vurmbrandların kilsəsini hədəfə aldı. Vurmbrandların kilsəsində toplantıya gələnlərin sayı artdığı üçün yeni böyük binaya köçmüşdülər və kommunistlər oraya öz əlaltılarını göndərirdilər ki, ibadətə mane olsunlar. Həftələr keçdikcə kilsədə əzələlərini şişirtmiş idmançılara oxşayan yeni pəzəvəng adamlar peyda olmağa başladı. Onlar fit çalır, yerdən tənqidi atmacalar ataraq ibadəti pozmağa çalışırdılar.

«Əslində biz sevinməliyik, — Solhaym dedi, — çünki şəhərimizin ən dələduz adamları Allah Kəlamını eşidir. Yalandan bizi dinləyən kimi özünü göstərənlərdənsə, fikrini bildirən adamlar daha yaxşıdır!»

Riçard və Sabina qərara gəldilər ki, şəhərin küçələrində ibadət keçirmək strategiyasından istifadə etsinlər. Bir çoxları kilsəyə gəlməyə utanırdı. Ona görə də kilsə onların yanına getməli idi. Məsihçilərdən ibarət kiçik bir qrup küçənin tinində durub ilahilər oxuyurdu. Əslində bu, rumınlar üçün yad bir şey idi. Maraqlanan adamlar onların ətrafına toplaşırdı. Sabina isə onlara Müjdə çatdırırdı. O, kommunistlərin diqqətindən yayınmaq üçün həmişə qısa və konkret danışırdı.

Bir dəfə Nikolay Malaksanın lokomotiv zavodunun qarşısında kommunistlərin hakimiyyəti ələ keçirməsinə qarşı etiraz mitinqi keçirildi. Bu mitinq zamanı Sabina ora toplaşmış işçilərə xilas barədə danışdı. Bəziləri üçün bu, Allahla barışıb Məsihi ürəklərinə qəbul etməkdə axırıncı şans oldu. Səhərisi gün milis etirazçıların izdihamına atəş açdı. Zavodun bir çox işçisi həlak

oldu. Kommunistlərin hökmranlıq etdiyi Rumıniyada hər dəqiqə qiymətli idi və bu dəqiqə sonuncu ola bilərdi...

Xoş günlərin birində Sabina Buxarest universitetinin pilləkənlərində çıxış etdi. Oraya toplaşanların sayı tezliklə artaraq bütün meydanı doldurdu. Bu isə qonşu küçədə böyük bir tıxaca səbəb oldu. Camaat Sabinanın Müjdə haqqında danışmasını alqışlayıb ona əl çaldı. Sabina evə qayıdıb bu uğuru barədə Riçarda danışırdı ki, birdən Anutza qapıdan içəri girib dedi:

— Şəhərin hər yerində camaat Anna Paukerin universitetin qabağındakı çıxışından danışır! Amma heç kim başa düşə bilmirdi ki, qatı kommunist, Qızıl Ordununun zabiti olan Pauker yoldaş niyə insanları günahlarına görə tövbə etməyə çağırırdı.

Riçard, Sabina və Anutza qəhqəhə çəkib güldülər.

Növbəti illərdə Sabina Rumıniyanın bütün konfessiyalarından olan dini rəhbərlər üçün hər gün ibadət keçirirdi. O, küçələrdə böyük izdihamlar qarşısında Müjdəni bölüşürdü. Güclü və xarizmatik natiq olan bu incə qadın Allahın Padşahlığında qüvvətli nəhəngə çevrilmişdi.

*****

Kommunist hökuməti Vurmbrandlara qarşı olduğuna görə onlar üçün açıq-aşkar xidmət etmək təhlükəli idi. Rusiyada olduğu kimi, Rumıniyada da məsihçilər Müjdəni çatdırmaq məqsədilə tezliklə yeni növ kilsə forması yaratdılar ki, uşaqlara da Məsih barədə öyrədə bilsinlər. Rumıniyanın rəsmi kilsələri kommunistlərin məsihçilərin fəaliyyətinə qarşı qoyduğu qadağalara riayət edirdi. Lakin yeni növ kilsələr bu qadağalara əməl etmirdi...və onların xidmətləri günü-gündən bəhrə gətirirdi.

Başqa sadiq məsihçilər ilə birlikdə Riçard öz xidmətini gizli kilsə formasına keçirdi. Rəsmi kilsədə o, mötəbər vəzifələri daşıyırdı — Norveç Lüteran Müjdəçilik təşkilatının pastoru və yardım göstərən Beynəlxalq kilsələr birliyinin Rumıniya üzrə şöbəsində nümayəndə

idi. Bu vəzifələri ona əsl xidmətini gözlətməkdə kömək edirdi. Heç kim Riçard Vurmbrandın «altdan-altdan» gördüyü fəaliyyətindən şübhələnə bilməzdi. Beləcə məxfi şəkildə gizli kilsənin köməyi ilə Riçard və Sabina sovet əsgərlərinə, Rumıniyanın əsarət altına düşmüş xalqına səmərəli şəkildə xidmət etməyə başladılar.

*****

Riçard Məsihi qəbul etdiyi gün Allahdan Müjdəni ruslara çatdırmaq üçün ona imkan verməsini istəmişdi. Riçardı Rusiyaya uzun səfərə göndərmək əvəzinə, Allah rusları onun yanına gətirmişdi. O, rus dilində gözəl danışa bildiyi üçün ölkənin yeni sakinləri ilə asanlıqla söhbət edə bilirdi, kommunistlər isə onun danışıqlarını heç də həmişə başa düşmürdülər.

Bir dəfə Riçard mağazada rus kapitanı və qadın zabitinə tərcümədə kömək edərkən onlarla tanış oldu. Alış-veriş edəndən sonra Riçard onları öz evinə nahara dəvət etdi.

Nahara başlamazdan əvvəl Riçard onlara dedi:

— Siz məsihçi evindəsiniz və ailəmizdə bir adət var, biz yeməkdən əvvəl dua edirik.

Riçardın rus dilində etdiyi dua rus zabitlərini mat qoydu. Onların yeməyə olan maraqları yoxa çıxdı, əvəzində Allah, İsa və Müqəddəs Kitab barədə suallar verməyə başladılar.

Riçard itmiş qoyun hekayəsini danışanda, onlar təəccüblə dedilər:

— Necə olub ki, onun yüz qoyunu olub? Nə yaxşı qoyunları kolxoza aparmayıblar?

Riçard İsanın Padşah olduğunu bildirəndə, onlar dedilər:

— Başqaları üzərində hökmranlıq sürən bütün padşahlar şər adamlar olublar, yəqin ki, İsa da diktator olub.

Riçard onlara pis bağbanlar məsəli başa salanda isə qonaqlar dedilər:

— Bağ sahibinə qarşı çıxmaqla düz hərəkət ediblər. Bağ kollektivə məxsus olmalıdır.

Onlarla söhbət edəndən sonra Riçard özlüyündə müəyyənləşdirdi ki, illərlə kommunizmin hökmranlığı altında yaşamış insanlara Müjdəni çatdırmaq üçün tamamilə yeni bir metoddan istifadə etmək lazımdır. İllərlə təlqin edilmiş kommunist ideologiyası onların beyinlərinə həkk olunmuşdu. Ona görə də Riçard taktikasını dəyişdi və zabitlərlə ünsiyyət qurmaq üçün marksizm üslubundan istifadə etdi. O öz gücünə uğur qazana bilməzdi, amma Müqəddəs Ruhun köməyi ilə bu iki zabit növbəti gün Məsihi ürəklərinə qəbul etdilər. Sonralar onlar Riçard və Sabinanın ruslara gizli xidmətində vacib rol oynamağa başladılar.

*****

Vurmbrandlar və onların kilsəsi rus dilində minlərlə Yəhyanın Müjdəsini və başqa məsihçilik barədə kitabları gizlicə çap etdirib paylamışdılar. Onlar Məsihə iman etmiş əsgərlər vasitəsilə Rusiyaya Müqəddəs Kitablar və onun bəzi hissələrini qaçaqmalçılıq yolu ilə göndərmişdilər. Bütün bu müddət ərzində Vurmbrandlar rus dilində yüz mindən artıq İncil və məsihçi kitablarını çap etdirmiş, sonra onları parklarda, qatarlarda, kafelərdə, dəmir yolu vağzallarında və sovet əsgərlərinin rastına çıxacağı istənilən yerdə paylamışdılar.

Məsihçilər onu da hiss etmişdilər ki, əsgərlər uşaqlara qarşı çox mehribandırlar. Yəqin ki, bu da onların öz övladlarını yenidən görmək istəyindən irəli gəlirdi. Ona görə də bu incə hisslərdən istifadə edirdilər. Mihay Vurmbrand və başqa azyaşlı uşaqlar parklarda və küçələrdə əsgərlərə yaxınlaşırdılar. Əsgərlər illərlə üzünü görmədiyi övladlarını yadlarına salaraq, onlarla nəvazişlə söhbət edir və başlarını sığallayırdılar. Onlara şokolad və konfet verirdilər, uşaqlar da bunun əvəzində əsgərlərə Müqəddəs Kitab və ya İncil hədiyyə edirdilər. Bu hədiyyələri əsgərlər böyük həvəslə qəbul edirdilər. Böyüklər üçün çox təhlükəli olan işi uşaqlar asanlıqla, heç nədən qorxmadan həyata keçirirdilər. Beləcə, azyaşlı məsihçilər ruslara Müjdəni çatdırırdılar.

Amma məsihçilik işi təhlükəli idi. Gizli kilsənin bir çox məsihçisi tutulub amansızcasına döyülmüş, amma heç biri Vurmbrandın adını verməmişdi.

*****

Sovet işğalının elə ilk günlərindən rumın məsihçilər Riçardın onlara öyrətdiyi strategiyadan istifadə edərək qonşu ölkələrdəki bacı-qardaşlarına kömək etmək üçün həyatlarını təhlükəyə atırdılar.

Şaxtalı qış gecələrinin birində dörd rumın məsihçidən ibarət qrup sərhəddən Sovet İttifaqının bir hissəsi olan Ukraynaya keçərək uzun və təhlükəli bir səfərə yollandı. Onlar özləri ilə sərhədin o biri tayında yaşayan məsihçilər üçün Müqəddəs Kitablar aparırdılar. Səyahətləri həm də ona görə çətin idi ki, onlar irəliyə doğru dal-dala getməli idilər.

Rumıniya ilə Sovet İttifaqının sərhədində yerləşdirilmiş sərhəd zolağının keşiyini çəkən saysız-hesabsız əsgərlər iki əsas təhlükənin — ölkədən qaçıb getmək istəyən sovet vətəndaşlarının və qeyri-qanuni əşyalar gətirməyə çalışan qaçaqmalçıların qarşısını almalı idilər.

Sərhəd xətti boyunca yavaş-yavaş addımlayan əsgərlərdən biri fənəri təzə yağmış qarın üstünə tutub diqqətlə baxdı. Qarın içində ayaq izlərini görən əsgər birdən qışqırdı:

«Ayaq izləri! Rumıniyaya tərəf gedən ayaq izləri!» — deyə fit çalıb uzun qulaqbatırıcı bir həyəcan siqnalı verdi. Bir neçə saniyədən sonra digər sərhədçilər itlərlə birgə qaça-qaça gəldilər. Bu vaxt sərhədçilərin yaxınlığında dörd rumın məsihçi qarın içində uzanıb diqqətlə onlara qulaq asırdı.

«Tez olun, onların arxasınca gedin! — deyə sərhədçi ayaq izlərinin istiqamətini göstərərək qışqırdı, — onlar uzağa gedən deyillər. Rumıniyaya gedib çatmazdan əvvəl onları tutmaq lazımdır».

Gecənin qaranlığında sərhədçilər gözdən itəndən sonra qışqırıqlar və itlərin hürüşməsi artıq eşidilməyəndə məsihçilər rahat nəfəs

alaraq bir-birilərinə baxıb gülümsündülər. Qrup rəhbərinin göstərişi ilə onlar ehtiyatla, dal-dala Ukraynaya doğru irəliləyərək yollarına davam etdilər. Qrup gizli kilsələrdəki bacı-qardaşları üçün qiymətli yüklərini — Müqəddəs Kitabları çatdırmağa tələsirdi.

*****

Sovet ordusu Rumıniyanı işğal edəndən dərhal sonra Riçard evlərinə rus əsgərlərini gətirməyə başladı. «Sabina, ehtiyatlı olun! — deyə bir dəfə Anutza onlara xəbərdarlıq etmişdi, — rus və alman əsgərləri evinizdə bir-biri ilə qarşılaşsa nə edəcəksiniz?»

Vurmbrandlar xidmət etmək üçün yüz ölçüb, bir biçərək plan qurmuşdular. Riçard Qızıl Ordunun kazarmalarına gedib özünü ucuz saatların alverçisi kimi göstərərək ruslara xidmət etməyə başladı. Saat almaq istəyən rumınlar kazarmalara getməli idilər. Onlar çox vaxt elə öz oğurlanmış saatlarını geri alırdılar. Ona görə də rumınların sovet kazarmalarına girməsi adi hala çevrilmişdi. Riçard üçün bu, yaxşı fürsət idi. Əsgərlər bir yerə toplaşanda o, Müqəddəs Kitab barədə müzakirələrə başlayırdı. Yaşlı əsgərlər Riçardın bu hərəkətini çox asanlıqla başa düşmüşdülər.

«Sən buraya saat almağa gəlməmisən! Sən bizə iman barədə danışmağa gəlmisən. Otur, danış bizə! Amma ehtiyatlı ol, aramızda kimin xəbərçi olduğunu bilirik, — deyə yaşlı əsgərlərdən biri orada oturanlara baxdı və sonra sözünə davam etdi, — burada hamısı özümüzünkülərdir, amma əlimi sənin dizinin üstünə qoyanda onda dərhal saatdan danışmağa başlayarsan. Əlimi götürəndən sonra söhbətinə davam edərsən».

Sovet Ordusunun içərisində xəbər çatdıranlar çox idi. Onlar öz yoldaşlarını güdür və sonra rəhbərliyə məlumat çatdırırdılar. Cavan ruslar Allah haqqında heç nə bilmirdi. Onlar heç vaxt Müqəddəs Kitabı görməmişdilər və kilsədə də olmamışdılar. Sabina tezliklə başa düşdü ki, Riçard ruslara Müjdəni çatdırmağı nəyə görə «yer üzündə cənnət» adlandırır.

Bir gün iki cavan əsgər Vurmbrandların qapısını döydü. Onlardan biri üç oğurlanmış çətir təklif edərək dedi:

— Yaxşı çətir var. Almaq istəyərsiniz?

Riçard cavab verdi:

— Biz məsihçiyik, biz almırıq, amma biz də bir şey satırıq.

O, əsgərləri evə dəvət etdi və Sabina onlara iki stəkan soyuq süd gətirdi. Yaşca böyük olan, sarı saçlı əsgər Sabinaya baxaraq dedi:

— Mənə Müqəddəs Kitabı verən siz idiniz!

Həmin an Sabina onu tanıdı:

— Siz Buxarestə girən ilk tankın serjantısınız!

Əsgər İvan Sabinanın ona verdiyi Müqəddəs Kitabı kazarmada hələ də başqalarından gizlədirdi və onu oxumuşdu. Nahar vaxtı İvan hərbi bölmələrinin Şərqi Avropaya doğru irəlilədiyi vaxt onunla birlikdə vuruşmuş bir yəhudi barədə Riçard və Sabinaya danışdı. Onun sözlərinə görə, bölmələrindəki yaşlı bir kişi yəhudi əsgəri yaman incidir, «Siz Məsihi öldürmüsünüz!» deyə onun üstünə qışqırırdı. Yəhudi düşünürdü ki, bu kişi ağlını itirib.

«O, Stalinqraddan Buxarestə qədər qarşısına çıxan insanları öldürmüşdü, — deyə İvan sözünə davam etdi, — haradan biləydi ki, kimi öldürüb? Məsihin adı o yəhudi əsgər üçün tamamilə yad bir söz idi».

Bir dəfə İvan həmin yəhudi əsgəri Vurmbrandların evinə gətirdi. Riçard ona bütün Müqəddəs Kitabı — Adəmdən tutmuş Vəhyə qədər izah etdi. O vaxtdan sonra əsgərlər Riçard və Sabinagilə tez-tez baş çəkirdilər. Stalin getdikcə onların gözündə allah simasını itirdi...

İvanın polku başqa yerə köçməzdən əvvəl o, Vurmbrandlarla vidalaşmaq üçün onlara hədiyyə — təptəzə, par-par parıldayan elektrik plitəsi gətirdi. Sabina və Riçard bir-birilərinə baxdılar. Hər ikisi başa düşürdü ki, bu oğurlanmış plitədir.

«Qəşəngdir! — deyə Anutza sükutu pozdu, — Libmangilə məhz beləsi lazımdır!»

Auşvitzdən qayıtmış bu ailə böyük ehtiyac içində olduğu üçün Riçard plitəni aparıb onlara verdi. İvan İsa Məsihin həqiqət yolunu

ona göstərdiklərinə görə Vurmbrandlara minnətdarlığını bildirmək üçün plitəni oğurlamışdı.

Sabina düşündü ki, *sadəqəlbli insanın məhəbbəti bəzən qəribə yolla özünü göstərə bilər.* Nə yaxşı ki, İsa Məsihin qanı İvanın plitə oğurluğunun da üstünü örtə bilir.

# 15

1947-ci ildə həbslər başladı. Fırıldaq və zorakılıqla keçirilən saxtalaşdırılmış seçkilər nəticəsində kommunistlər Rumıniyada hakimiyyəti tamamilə ələ keçirdilər. Müxalifət rəhbərləri, keçmiş polislər, dövlət məmurları aradan götürüldü. Sonra kommunistlər diqqətlərini kilsələrə yönəltdilər. Növbə katolik keşişlərə, saysız-hesabsız ruhanilərə, rahiblərə və rahibələrə çatdı. On minlərlə adi insan həbsxanalarda və əmək düşərgələrində yoxa çıxdı. Digərləri azadlıq uğrunda gizli mübarizə aparanlara qoşuldular. Artıq heç kimin həyatı əvvəlki kimi deyildi.

Sovet işğalının ilk günlərində yəhudilər Rumıniyadan çıxa bilirdilər. Onlar sovetlərin təklif etdiyi qəribə «azadlıq»dansa dilənçi qaçqın həyatını üstün tutaraq özlərinə məxsus hər şeyi qoyub getmişdilər. Beləcə minlərlə insan ölkəni tərk etmişdi. İndi isə növbə yəhudilərə çatmışdı.

Anutza fikirləşirdi ki, onun adı həbs olunacaq yəhudilərin siyahısındadır. O, canını qurtarmaq üçün kommunist rejimindən kənarda naməlum bir həyata imza atmağa hazırlaşırdı. Sabina və onun əziz dostu üçün bu, çətin ayrılıq idi.

«Mən əlimdən gələn hər şeyi edəcəyəm ki, sizi buradan çıxarım, — deyə Anutza vəd etmişdi, — biz tezliklə azadlıqda görüşəcəyik».

Amma rəfiqələrin yenidən görüşməsi üçün iyirmi ilə yaxın vaxt lazım gələcəkdi.

Bütün Rumıniyanı vahimə bürümüşdü. Dövlət təhlükəsizlik xidmətinin əməkdaşları evlərə girib saatlarla axtarış aparırdılar. Sonra insanları guya «izahat vermək» üçün özləri ilə aparırdılar.

Bunun bir neçə saat çəkəcəyini vəd etsələr də, onların sözü heç vaxt özünü doğrultmurdu. Buxarestin küçələrində «Ət,» «Balıq» və «Çörək» sözləri yazılmış maşınların şütüdüyünü görən jurnalistlər yazırdılar ki, ruslar əhalini ərzaq məhsulları ilə təmin edirlər. Amma onlar haradan biləydilər ki, bu maşınlar yemək deyil, həbs edilmiş insanları daşıyırdı.

Vurmbrandlara da artıq ilk xəbərdarlıq gəlmişdi. Bunu adi geyimli bir kişi Riçardın işlədiyi təşkilatın idarəsinə gələrək etmişdi:

— Müstəntiq Riosanu. Sən Vurmbrandsan?

Kişilər bir-biri ilə tanış oldular və o, Riçarda gəlişinin səbəbini söylədi:

— Mən gəlmişəm ki, sənə bir məsləhət verim.

Riçard qaşlarını çatdı və kişinin fikrini tamamlamasını gözlədi.

Riosanu döyənəkli quru əllərini bir-birinə sürtərək dedi:

— Sənin adına kəşfiyyat qərargahında böyük bir iş açılıb. Mən onu görmüşəm. Son vaxtlar kimsə sənin barəndə bizə xəbər çatdırır. Deyəsən, çoxlu rus dostların var, elə deyilmi? Amma düşünürəm ki, biz aramızda razılığa gələ bilərik.

O susub tərs-tərs Riçardın üzünə baxdı. Müəyyən məbləğə o, çatdırılmış məlumatları ləğv edə bilərdi.

Söhbətin bu yerinə Sabina da qoşuldu və üç nəfər birlikdə məbləğ barədə razılığa gəldilər.

Pulları cibinə qoyan Riosanu dedi:

— Hə, deməli xəbər verənin adı...

Sabina etiraz etdi:

— Yox! Biz o adamın adını bilmək istəmirik.

Xəbər verənin adını bilməməklə Vurmbrandlar ürəklərində ona qarşı inciklik saxlamaq istəmirdilər. Həmin günlərdə onlar hələ bilmirdilər ki, bu xəbərçilərin sayəsində nə qədər insan həyatı məhv olacaq.

Müstəntiq çiyinlərini çəkib papağını başına qoydu.

«Siz necə istəyirsinizsə, elə də olsun...» — o, bunu deyib cəld qaranlıqda gözdən itdi.

Bundan dərhal sonra Riçard sorğu-sual olunmaq üçün bölməyə çağırıldı. Amma sovet ordusunun vətənpərvər ruhunu məhv etməkdə rəsmi ittiham olmadığı üçün Vurmbrandın nüfuzlu dostları onun üç həftədən sonra azadlığa çıxmasına nail oldular. Əlbəttə, həbsxanadan bu çıxışın son deyil, sadəcə bir fasilə olduğu aydın idi. Demək olar ki, hər gün Vurmbrandların daha çox dostu və köməkçisi həbslərlə üzləşir və işgəncələrə məruz qalırdı.

*****

Rumıniyada yaşayan yəhudilər tələdə olsalar da, Vurmbrandlar üçün ölkədən çıxmaq hələ gec deyildi. Ölkədən çıxmaq getdikcə çətinləşsə də, minlərlə insan pul verməklə bir təhər qaçıb canlarını qurtarırdı. Sabina bilirdi ki, Riçard ölkəni tərk etmək istəmir. Amma bir dəfə o öz narahatlığını Sabina ilə bölüşmüşdü:

«Antonesku hakimiyyətdə olanda biz iki və ya üç həftədən artıq heç vaxt həbs edilməmişik. Kommunistlərin rəhbərliyi altında isə həbslər illərlə davam edə bilər. Onlar səni də tuta bilərlər. Elə olsa, onda Mihaya kim baxacaq?»

Dost-tanışlarla məsləhətləşmələrdən belə görünürdü ki, Vurmbrandlar üçün ən yaxşısı ölkədən çıxıb getməkdir. Lakin onlar bu addımın Allahdan olub-olmadığına əmin deyildilər. Riçard deyirdi:

«Əgər biz Qərbə çıxıb getsək, onda Rumıniyadakı kilsə üçün *çox* iş görə bilməyəcəyik. Əgər qalsaq, mən də o biri dostlarımız kimi həbsxanaya düşəcəyəm. Bu da bizim birlikdə həyatımıza son qoyacaq. Ola bilsin ki, mənə işgəncə verib öldürəcəklər. Əgər səni tutsalar, onda bu, bizim xidmətimizin sonu olacaq. Solhaymgil xarici vətəndaşlardır. Onlara burada çox qalmağa icazə verməyəcəklər. Mihay küçələrdə böyüyüb kommunist olacaq. Bunun heç birimizə xeyri olmayacaq».

Bir gecə Riçard və Sabina dualarına cavab aldılar. Gizli toplantıda əlliyə yaxın adam vardı. Gecəyarısı başqaları ilə birlikdə diz üstə dua edən qadın birdən uca səslə dedi: «Ey sən, çıxıb getməyi düşünən

insan! Yadda saxla, yaxşı çoban öz sürüsünü atıb getmədi. O, axıra qədər qaldı». Həmin qadının Riçardın seçim qarşısında olduğundan xəbəri yox idi. Vurmbrandlar təəccüblə bir-birilərinə baxdılar.

Səhər dan yeri söküləndə Riçard və Sabina soyuq küçələrdən keçərək evə yollandılar. Yanvar ayı idi. Narın qar yağırdı. «Biz indi çıxıb gedə bilmərik» — Sabina dedi. Riçard da onunla razılaşdı.

Uzun illər keçəndən sonra Riçard həbsxanadan evə qayıdanda həmin qadın əlində gül dəmir yolu vağzalında onu qarşılamışdı.

«Mən sənin məsləhətini qəbul etdiyim üçün peşman deyiləm. Əksinə, çox minnətdaram,» — Riçard ona demişdi.

*****

Təqiblər və ağlasığmaz işgəncələrlə yadda qalan növbəti illərdə Riçard və Sabina Rumıniya xalqı üçün Məsihin nümunəsi oldular. Onlar məsihçilik barədə kitabları kommunist təbliğatı altında gizlədərək kafelərdə və küçələrdə paylayırdılar. Riçard və Sabina yetim uşaqlara, yəhudilərə, keçmiş faşistlərə, keçmiş məhbuslara və Sibirə sürgün ediləcək məsihçilərə öz evlərində sığınacaq verirdilər. Ölkədə neçə illər böyük quraqlıq və aclıq hökm sürdüyü üçün onlar hər gün müharibənin yüzlərlə qurbanına yemək verirdilər. Bundan əlavə, onlar bütün konfessiyalardan olan məsihçi rəhbərlər üçün iki yay düşərgəsi təşkil etmişdilər.

Vurmbrandların Buxarestdəki kilsəsinə gələnlərin sayı minə çatanda onların xidməti kommunist rejimini narahat etməyə başladı.

# 16

1948-ci il fevralın 29-u sakit bir gün idi. Riçard Sabinanı öpərək onunla sağollaşdı və evdən çıxıb təmiz havada Buxarestin küçələri ilə addımlamağa başladı. Otuz doqquz yaşlı hündürboy pastor Olteni küçəsindən mənzərəli Vakareşti rayonunun ərazisinə keçərək üzü lüteran kilsəsinə doğru gedirdi.

Bu yol ona tanış idi. Yol kənarında avtomobillər dayanacağa qoyulmuşdu. Səhər tezdən idi, hələ çox adam işə getməmişdi. Sakit küçə ilə addımladıqca pastor bazar günü ibadətində danışacağı vəz haqqında düşünürdü. Ətrafda qədim binalar ucalırdı. Bu binalar ona şəhərinin zəngin tarixini xatırladırdı. Riçard hər bazar səhəri adəti üzrə getdiyi yolla lüteran kilsəsinə tərəf gedirdi. Yarım saatdan sonra həyat yoldaşı da oraya gələcəkdi. Günorta isə Riçard kilsədə cavan cütlüyün nikah mərasimində onlara xeyir-dua verəcəkdi. Amma hələlik onun qəlbi ayaqları kimi bazar günü toplantısına gedirdi.

Yaxınlaşan qara «ford»un içərisindən düşən iki kişi Riçardı tutanda o, dərhal anladı ki, bu günə olan bütün planları dəyişiləcək. Artıq nə həyat yoldaşını görəcək, nə kilsədə vəz edəcək, nə də nikah mərasimində cütlüyə xeyir-dua verə biləcəkdi. Təhlükəsizlik xidmətinin əməkdaşı tapançanı pastorun gicgahına tuşlayaraq onu maşının arxa oturacağına itələyib saldı. «Ford» sürətlə yerindən tərpənib naməlum istiqamətə yola düşdü. Riçard pəncərədən hansı istiqamətdə aparıldığını görmək üçün ətrafa baxmağa çalışdı. Amma onu oğurlayan insanların qəddarlığı imkan vermədi ki, haraya aparıldığını bilsin. Şəhərin mərkəzində sürətlə şütüyən avtomobil hündür polad darvazaların qarşısında dayandı.

Riçardın yaxşı tanıdığı bir siyasətçi həbs edildikdən cəmi bir neçə həftə sonra kamerada özünə qəsd etmişdi. O, həmin siyasətçini heç cür fikrindən çıxara bilmirdi. *«Görəsən, mənim həyatım da elə olacaq?»* — deyə özlüyündə düşündü. Sonra yadına düşdü ki, «Qorxma» əmri Müqəddəs Kitabda 366 dəfə təkrarlanır. Bu ayələr ilin hər bir gününü, hətta fevralın 29-unu da əhatə edir. Riçard fevralın 29-u tutulmuşdu. Həmin gün üçün də ayənin olması ona bir daha xatırladırdı ki, insanların edəcəklərindən qorxmasın. O, həbsxana kamerasına qorxu içərisində daxil olmamalı idi. Ətrafındakı insanlar onun gözlərində Məsihi görənədək, o, Allahınköməkliyi ilə işgəncələrə, qəddar münasibətlərə, xəstəliklərə və hətta ölümə dözəcəkdi.

Dünən axşam Riçard və Sabinanın bir neçə dostu onların evinə qonaq gəldi. Onlardan biri ölən siyasətçi barədə danışanda belə dedi:

— O, yəqin ki, orada cəhənnəm əzabı yaşayıb.

O biri dostu soruşdu:

— Riçard, səncə, cəhənnəm necədir?

O dostuna belə cavab verdi:

— Cəhənnəm qaranlıqda təkbaşına oturub etdiyin şər əməlləri xatırlamaqdır.

Maşının arxasınca darvazanın qapıları çırpılanda Riçard düşündü ki, bu, onun eşidəcəyi axırıncı səslərdən biridir.

*****

Əri ilə sağollaşandan otuz dəqiqə sonra Sabina da Riçardın getdiyi həmin yolla kilsəyə tərəf üz tutdu. Kilsəyə çatanda təşkilatın rəhbəri pastor Solhaymın otaqda çaşqın və narahat halda var-gəl etdiyini gördü.

O dedi:

— Riçard gəlib çıxmayıb, amma onun o qədər işi var ki. Yəqin hansısa vacib bir görüşə getməli olduğunu xatırlayıb və bura gəlməyi də yaddan çıxarıb.

Sabina Riçardın hansısa başqa bir görüşü barədə heç nə bilmirdi:
— O mənə söz verib ki, yarım saatdan sonra burada məni gözləyəcək.
Pastor Solhaym Sabinanı sakitləşdirməyə çalışdı:
— Bəlkə yolda köməyə ehtiyacı olan hansısa dostunu görüb. Harada olsa, gəlib çıxar.
Pastor Solhaym ibadəti özü apardı. Bu vaxt Sabina dostlarına zəng etdi, lakin heç kimin Riçarddan xəbəri yox idi.
«Narahat olma, — deyə Solhaym ibadət qurtardıqdan sonra Sabinanı sakitləşdirməyə çalışdı, — Riçard həmişə belə edir. Heç vaxt bilmirsən, o haradadır. Yadındadır, bir dəfə yay düşərgəsində səhər tezdən qəzet almağa yollandı, nahar vaxtı zəng edib dedi ki, sabah səhər yeməyinə qədər qayıtmayacaq».
Sabina başını yırğaladı, amma ürəyindəki təlaş getdikcə artırdı.
Həmin gün dostları Riçard və Sabinanın mənzilinə yığışıb nahar etdilər. Sabina onlar üçün hər bazar günü nahar yeməyi hazırlayırdı. Bir çoxları bazar gününü böyük səbirsizliklə gözləyirdi. Amma Sabinanın iştahası itmişdi. Qonaqlar yemək yeyərkən, ilahi oxuyarkən o, hələ də ümid edirdi ki, Riçard hansısa vacib bir tapşırığı yerinə yetirir, harada olsa gəlib çıxacaq. Dəfələrlə özlüyündə ərinin qapını açıb gülə-gülə içəri girdiyini və gecikdiyinə görə üzr istədiyini təsəvvür edirdi. Sabina da onu bağışlayır və hər şey öz axarına qayıdırdı...
Pastor Solhaym nikah mərasimində cütlüyə xeyir-dua verdikdən sonra Sabina şəhərdə olan bütün xəstəxanalara zəng etdi. Düşünürdü ki, Riçardı maşın vurub, ona görə də çaşqınlıq içində təcili yardım mərkəzlərindən onun barədə xəbər almağa çalışırdı. Amma heç bir xəbər yox idi. Ərini heç yerdə tapmayan Sabinanın fikrində indi bir xatirə dolaşırdı. Bu, Riçardın evdən çıxarkən ona yarım saatdan sonra kilsədə görüşəcəyini vəd etməsi idi.
Günortanı axşam, axşamı gecə əvəzlədi. Riçard isə hələ də qayıtmamışdı. Sabina sakitcə qapının yanında oturmuşdu. Saatlar bir-birini o vaxta qədər əvəz etdi ki, Sabina ən çox qorxduğu fikrin yeganə cavab olduğunu düşünməyə başladı.

*****

Onlar Riçardı maşından düşürüb dövlət təhlükəsizlik xidmətinin qərargahına apardılar. Onun qalstukunu çıxardılar, ciblərində olan hər şeyi — şəxsiyyət vəsiqəsi daxil olmaqla, bütün sənədlərini müsadirə etdilər, paltarlarını soyundurdular, hətta ayaqqabılarının iplərini də dartıb çıxartdılar. Məhbuslar özlərini asmaq üçün çox vaxt bu iplərdən istifadə edirdilər. Orada işləyən əməkdaşlardan biri Riçarda dedi: «Bundan sonra sən Vasili Qeorqeskusan».

Məhbusun kimliyini gizlətmək üçün bu, çox geniş yayılmış bir ad idi. Riçardın məşhurluğunu və onun təqibdən qaçmaq bacarığını nəzərə alaraq, hətta həbsxanadakı mühafizəçilər belə binanın zirzəmisində yerləşdirilən həmin məhbusun əsl adını bilməyəcəkdilər. Riçard sadəcə heç bir iz olmadan yoxa çıxacaqdı.

Buxarestin əsas küçələrindən birində, Raxov küçəsində yerləşmiş bu həbsxana yeni idi. Demək olar ki, çox adam onun yerini bilmirdi. Riçard həbsxananın bir nömrəli məhbusu olmaqla başa düşürdü ki, onu burada axtarmaq çətin ki, nə vaxtsa tanışlarının ağıllarına gələr.

Onun qaldığı beton kamera çox dar idi. Məhbusların qaça bilməməsi üçün divarın lap yuxarısında qoyulmuş kiçik dördbucaq pəncərədən içəriyə azacıq günəş şüası süzülürdü. Riçard küncdə, vedrənin yanında qoyulmuş taxta çarpayının üstündə oturub sorğu-sual ediləcəyini gözləyirdi. Gözləmək həbsxana həyatının ən ağır vaxtı — cəhənnəm əzabı yaşanan bir hissəsi idi. Riçard onun iradəsini sındırmaq üçün sorğu-sual edənlərin suallarını və işgəncə vasitələrini fikrində götür-qoy edirdi.

Fiziki ağrı vasitəsilə məhbuslardan daha çox məlumat əldə edə bilirdilər. Amma Riçardın ürəyində kommunistlər tərəfindən qaçırıldığı vaxt keçirdiyi qorxu hissi artıq keçib getmiş, yerini isə Müjdə uğrunda hər şeyə dözmək üçün möhkəm iradə tutmuşdu. Riçard inanırdı ki, ən ağır işgəncələrə dözməkdən ötrü Allah ona güc verəcək.

Riçard ölü bir sükut içərisində daş kimi hərəkətsiz halda oturub onu həbsxanaya gətirdiyinə görə Allaha minnətdarlığını bildirdi. Hər ötən saniyə Sabina ilə birlikdə etdiyi duanın cavabı idi. Onlar Allahdan çarmıx daşımağı istəmişdilər. Bu divarlar arasında, görəsən, hansı gözlənilməz və möcüzəli imkanlar qarşıya çıxacaqdı? Mühafizəçilər və digər məhbuslarla hansı dostluq münasibətlərini qura biləcəkdi? Riçard hələ heç nə bilmirdi. Amma ümid edirdi ki, Raxova küçəsindəki həbsxana kamerasında əzab çəkdikcə Allahın nuru onun vasitəsilə ətrafa işıq saçacaq.

*****

Kommunistlər təkcə Riçardı öz adından məhrum etməmişdi, Sabinanın da normal həyatını əlindən almışdılar. Siyasi məhbusun həyat yoldaşı kimi ona ərzaq məhsulları üçün talon verilmirdi. İşləmək hüququ da yox idi. Ərzaq əldə etməkdən ötrü o, hər həftə çətinliklə üzləşirdi.

Bir dəfə o, məmurdan soruşdu:

— Bəs mən nə ilə dolanım? Oğluma yeməyə nə verim?

Cavabında isə bu sözləri eşitdi:

— Bu, sizin probleminizdir. Özünüz bilərsiniz.

Sabina Riçarddan xəbər almaq üçün aylarla onu axtardı, bir idarədən o birisinə getdi. Bütün rütbəli məmurlar onun yalvarışlarına soyuqqanlı yanaşır, ərinin həbsini etiraf etməkdən boyun qaçırırdılar. Axşamlar Sabina evdə pəncərənin qabağında oturub ağlaya-ağlaya Riçardın yolunu gözləyir, *«bəlkə bu gün o, evə qayıdar»* deyə özlüyündə düşünürdü. Axı əvvəllər faşistlər onu bir və ya iki həftədən sonra azadlığa buraxırdılar.

Lakin faşistlər artıq hakimiyyətdə deyildilər. Kommunistlər isə faşistlərdən daha qəddar olduqlarını sübut edirdilər. Riçardın taleyi barədə daha yüksək orqanlardan soruşmaq üçün günlərin bir günü Sabina daxili işlər nazirliyinə yola düşdü. O bilirdi ki,

cəmiyyət içində sayılıb seçilən məhbuslar daxili işlər nazirliyinin zirzəmilərində saxlanılır. Sabina nazirliyə daxil olanda gördü ki, onun kimi burada həbs olunmuş yaxın adamları barədə məlumat almaq istəyənlər çoxdur.

O, ikinci mərtəbədə yerləşən məlumat bürosuna qalxarkən anaların uşaqları ilə birlikdə uzun-uzadı növbələrdə gözlədiyini gördü. Boş divarlarda belə bir şüar yazılmışdı: «İŞÇİ SİNFİNİN DÜŞMƏNİNƏ QARŞI MƏRHƏMƏTSİZ OLAQ!»

Sabina ondan qabaqda növbədə dayanan qadınların yalvarışlarını eşidirdi. Məmurlar özlərini elə aparırdılar ki, guya qovluqlarında çap olunmuş adların arasında nəsə axtarırlar. Qovluqlar olan seyflər açılır, yazılara baxılır və tələsik nəsə qeyd edilirdi. Cavab isə həmişə eyni olurdu. Həbs olunmuş insanların siyahısında onların ərlərinin adı yoxdur.

Sabinanın da sualına eyni cavab verildi. Hər şey ona tanış ssenari üzrə getdi. Heç bir cavab almayan qadın ruhdan düşmüş və məyus halda oranı tərk etdi.

Sabina qərara gəldi ki, kömək üçün isveçli diplomat cənab Rütersverdeyə müraciət etsin. Pastor Solhaym da onunla birlikdə həmin görüşə getdi. Rütersverde əvvəllər də Riçardı xilas etmişdi və Sabina əmin idi ki, bu dəfə də ona kömək edə bilər. Diplomat rəhbərliyin göstərişlərinə zidd gedib öz vəzifəsini təhlükə altına atsa da, Riçard barədə məlumat toplamağa çalışdı. Rütersverde xarici işlər naziri Anna Pauker ilə əlaqə saxladı, o isə diplomata belə dedi: «Bizdə olan məlumata əsasən pastor Vurmbrand ona xidmət üçün həvalə olunmuş bir çamadan pulu mənimsəyərək ölkədən qaçıb. Deyilənə görə, o, Danimarkada gizlənir».

Diplomat ona verilmiş yanlış məlumata inanmadığı üçün baş nazir Qrozaya müraciət etdi. Baş nazir isə hiyləgərcəsinə gülümsəyərək dedi: «Elə düşünürsünüz ki, Vurmbrand bizim həbsxanalarımızdadır? Əgər siz bunu sübut edə bilsəniz, mən onu azad edəcəyəm!»

Bunu sübut etmək asan olmayacaqdı. Sabina axtarışlarından əl çəkmədi. Bütün vasitələrdən istifadə edib Riçardın işinə yardım edəcək bir kimsəni tapmadığı üçün rüşvət təklif etməkdən başqa yol görmədi.

# 17

Pul ilə məlumat əldə etmək Sabinanı Buxarestin ən təhlükəli və cinayətlərin çox baş verdiyi bir rayonuna gətirib çıxardı. O, ərinin yerini deyə biləcək hər kəsə pul verməyə hazır idi. Bəziləri dedilər ki, Riçardı oğurlayıb Moskvaya aparıblar. Bəziləri isə «o ölüb və artıq haradasa dəfn olunub» dedilər.

Bir gün Sabinanın yadına uşaqlıq dostu Klari Mayer düşdü.

«Sən nazirlər kabinetində işləyən Teoxaro Qeorqesku barədə eşitmisən?» — deyə Klari Sabinadan soruşdu.

Sabina başını yırğalayaraq yox işarəsini verdi.

«Onun qardaşı bizim qonşuluğumuzda yaşayır. Deyilənə görə, o, müəyyən məbləğə həbsxanadan adam çıxara bilər. Mən Riçard barədə onun arvadı ilə danışaram».

Sabina Qeorqesku ilə şəhərdən kənarda kasıb bir daxmada görüşdü. O, bahalı kostyum geyinmiş balacaboy bir kişi idi.

«Mən Qeorqeskuyam, — o dedi, — mən bu işi yoluna qoyaram. Qardaşıma bir kəlmə deməyim kifayətdir ki, məsələ həll olunsun. Əmin ola bilərsiniz! Sizə söz verirəm!»

Qeorqesku böyük məbləğ istəyirdi. Sabina bir təhər oradan-buradan pul toplayıb ona verdi. Heç bir məbləğ onun ərinin həyatı ilə müqayisə oluna bilməzdi.

Növbəti bir neçə həftə ərzində Qeorqeskudan heç bir xəbər gəlmədi. Heç bir məlumat, heç bir yeni görüş təyin edilmədi. Axırda Sabina başa düşdü ki, onu yenə aldadıblar.

Fırıldaqçılar uzun müddət Sabinanın çıxılmaz vəziyyətindən istifadə etdilər. Bu fırıldaqçılar qadının oradan-buradan topladığı

pulu mənimsəyib onu çox pis vəziyyətdə qoydular. O, ərzaq və gündəlik tələbat malları üçün lazım olan pulunu belə insanlara verirdi ki, Riçard barədə nəsə bir məlumat əldə etsin. Amma bu insanlar yalançı idilər. Tezliklə Sabina bütün vədlərin boş olduğunu anladı.

*****

Bir gün axşam Vurmbrandların evinə yüksək vəzifəli siyasətçi gəlib dedi: «Görəsən, bizim başımıza daha nələrin gələcəyini kim bilir? Ola bilsin ki, ingilislər və amerikalılar gələcəklər».

Sabina Amerika Birləşmiş Ştatları ilə Sovet İttifaqı arasında gərginliyin artdığını bilirdi və bir anlıq onda azadlığa çıxmaq barədə ümid yarandı.

Siyasətçi Sabinaya bacardığı qədər kömək etməyə çalışdı, hətta Riçard barədə məlumat üçün pul mükafatı da təklif etdi. Lakin başqaları kimi onun da səyləri səmərəsiz oldu. Sonra Sabinanın sinif yoldaşı onu kommunist partiyasının başqa bir məmuru ilə tanış etdi. Həmin qadın insanları şübhələndirməmək üçün özünü məmurun sevgilisi kimi göstərərək onunla gizlicə görüşdü, amma onların da söhbəti heç bir nəticə vermədi.

Fırıldaqçılarla saysız-hesabsız görüşlərdən, faydasız axtarışlardan və rüşvətlərdən sonra bir axşam naməlum bir şəxs Sabinanın qapısını döydü.

Kişinin üzü qırxılmamışdı və ondan gavalı brendisinin spirtli qoxusu gəlirdi. Bu qoxu bir vaxtlar Sabinaya yaxşı tanış idi. O dedi:

— Mən sizin ərinizi görmüşəm.

Sabina ona inanmadı, amma qulaq asmağa davam etdi.

O sözünə davam etdi:

— Mən həbsxana nəzarətçisiyəm. Hansı həbsxanada işlədiyimi soruşmayın. Mən əriniz üçün yemək apara bilərəm. Əriniz mənə deyib ki, onun barədə məlumat üçün siz mənə yaxşı pul verəcəksiniz.

Sabina cavab verdi:

— Baxır siz nə qədər istəyəcəksiniz?

Naməlum adam məbləği dedi:

— Mən öz həyatımla riskə gedirəm, başa düşürsünüz?

Bu adamın istədiyi məbləğ böyük idi. Sabina onu toplaya biləcəyinə şübhə edirdi. Əgər bu adam ərinin sağ olduğunu hansısa bir şeylə sübut edə bilsə, onda o, pul axtarmağa çalışar.

Sabina bu barədə pastor Solhayma dedi, o da məsələyə çox şübhə ilə yanaşdı. Lakin həmin adamla görüşməyə razılaşdı. O, bu adama bir şokolad verib dedi:

«Bunu Vurmbranda verin. Əvəzində qoy o, şokoladın kağızında öz xətti ilə bizə nəsə yazsın».

İki gün beləcə heç bir xəbər olmadan keçdi. Birdən Sabina qapının döyüldüyünü eşitdi. O, qapını açanda qarşısında həmin həbsxana nəzarətçisini gördü və o, papağını çıxarıb şokoladın kağızını Sabinaya uzatdı. Sabina gözlərinə inana bilmədi. Kağızdakı sözlər Riçardın dəst-xətti ilə yazılmışdı: «Mənim əziz həyat yoldaşım, göndərdiyin şokolada görə təşəkkürümü bildirirəm. Mən yaxşıyam. Riçard».

Bu xətt onun ərinə məxsus idi! Buna heç bir şübhə ola bilməzdi. O, Riçardın yazdığı qalın və aydın seçilən hərifləri dərhal tanıdı. Sabinanın gözlərindən yaş süzüldü.

«O sağ-salamatdır, — həbsxana nəzarətçisi dedi, — o sizi çox sevdiyini söylədi».

Sabina Riçardın qaldığı dəhşətli şəraiti təsəvvüründə canlandırmağa çalışdı və şokoladın heç olmasa ona bir az təskinlik gətirəcəyinə ümid etdi. O, Riçardın üzünü heç olmasa bir-iki dəqiqə görmək üçün hər şeyini verərdi.

«Bəziləri təkadamlıq kamerada dözə bilmirlər. Onlar tək qalmağı sevmirlər» — deyə həbsxana nəzarətçisi dilləndi.

Sabina bilirdi ki, əslində Riçard tənha deyil. Əri əvvəllər ona tez-tez deyərdi ki, həbsxanada Məsihin hüzuru çox hiss olunur. Sonralar o, əlində olan hər şeyi həbsxana nəzarətçisinə verərək Riçardı öz məktubları ilə ruhlandırmaqda davam etdi.

«Gördüyüm bu işə görə mənə on iki il həbs cəzası verərlər, — deyə həbsxana nəzarətçisi şikayətlənirdi, — bilirsiniz, mən bunu təkcə pula görə etmirəm».

Xəbər aparıb gətirməklə həbsxana nəzarətçisi öz həyatını təhlükəyə atırdı və Sabina buna görə ona minnətdar idi. Məhz o, Sabinaya Riçardın hələ də sağ olması barədə ümid vermişdi.

Bir dəfə Sabina ondan soruşdu:

— Bizim sizə verdiyimiz pulu nəyə xərcləyirsiniz?

Gülərək o cavab verdi:

— İçirəm!

Əgər həbsxana nəzarətçisinin içib keflənməsi Riçardın əzablarını azaldırsa, onda bu sövdələşməyə dəyər. Riçard sağ idi və bu, hər şeydən vacib idi. Sabina aylarla brendi gölündə üzməsi üçün həbsxana nəzarətçisinə kifayət qədər pul vermişdi. Təəccüblü olsa da, o, bu vaxt ərzində Riçardla həqiqətən dostlaşdı və ona gizlicə əlavə çörək dilimləri gətirməyə başladı.

Sabina pastor Solhaym və onun həyat yoldaşı Silqiyaya Riçardın həbs olunması barədə xəbər verəndə, cütlük bütün başqa işlərini kənara qoyub onu azadlığa çıxarmaq üçün yollar axtarmağa çalışdılar. Solhaym Sabinanı yenidən İsveç diplomatın yanına apardı. O, Riçardın acınacaqlı vəziyyətdə olmasını sübut etmək üçün bu dəfə şokolad kağızını özü ilə götürmüşdü. Diplomat dərhal baş nazirə məktub yazdı: «Siz söz vermişdiniz ki, əgər pastor Vurmbrandın Rumıniyanın həbsxanasında olduğunu sübut edə bilsək, onu azadlığa çıxaracaqsınız. İndi mənim əlimdə sübut var».

Qroza zarafatının gerçəkləşdiyini görəndə, məlumatı diplomat ilə görüşmək istəyən xarici işlər naziri Anna Paukerə ötürdü. Hirsli və özünü təhqir olunmuş hiss edən Anna diplomat Rütersverdeni onu yalançı hesab etdiyi üçün danladı və bir daha təkrar etdi ki, Riçard Danimarkaya qaçıb. O, ölkəsinin daxili işlərinə qarışan diplomatın belə hərəkətinə yol verə bilməzdi. Beləcə Anna Rütersverdenin bu işin üstünün açılması üçün etdiyi xahişini rədd etdi. Amma diplomat günahsız insanın əzab çəkməsi ilə razılaşa bilməzdi.

O, yenidən bu işə baxılmasını xahiş etdi. Lakin xarici işlər naziri üçün məsələ artıq bağlanmışdı.

Diplomatdan vəzifəcə yüksək olan rəhbərlər onun Rumıniyanın daxili işlərinə qarışdığı üçün vəzifəsindən sui-istifadə etdiyini düşündülər və bu hərəkətini xoşagəlməz hərəkət kimi dəyərləndirdilər. Nüfuzunu itirmiş və əlindəki bütün imkanlardan istifadə etmiş biri kimi Rütersverde artıq Sabinaya Riçardı tapmaqda kömək edə bilmirdi. Sabinanın əlində ərinin sağ olmasını və Rumıniyada haradasa həbsxanada olmasını təsdiq edən sübut olsa da, diplomat artıq ona heç cür kömək edə bilmirdi. Bundan sonra Rütersverdenin karyerası alt-üst oldu. O, Stokholma geriyə çağırıldı və ölkəsinin diplomatik korpusunun göstərişi ilə istefa verməli oldu.

Sabina üçün daha bir ağır xəbər isə bu oldu ki, onun yaxın dostları Solhaym və həyat yoldaşı Rumıniyanı tərk etməli idi. Sabina ən çətin vaxtlarında bu dostların sayəsində cəsarət və dözümlülük əldə edirdi. Onun ümidləri qırılanda və Riçard barədə yalanlara inanmağa başlayanda, Sabinanı onlar ruhlandırır, ona ümid və əminlik verirdilər. Bəs indi onlar olmadan necə yaşayacaqdı? Solhaymgilin müjdəçilik xidməti sona çatmışdı. İndi onlar yalnız uzaqdan Sabinaya azacıq kömək edə biləcəkdilər.

Onlar getməzdən əvvəl Allah Sabinanın aylarla etdiyi dualarına cavab verdi. Riçard, nəhayət, tapıldı!

*****

Buxarestdə camaat içərisində xəbər yayılmışdı ki, itmiş insanların qohumları həftədə iki dəfə Raxova küçəsindəki hökumət binasına gəlib özlərini təqdim edərək yaxınları barədə məlumat ala bilərlər. Sabina bu sonuncu cəhd üçün dostu Biyankaya müraciət etdi və ondan xahiş etdi ki, «qardaşı» Riçard barədə oradan məlumat əldə etsin[1].

[1] Byanka Adlerin «Düşmən ərazisində Allaha xidmət» kitabından şəhadətliyi (Penrit, Avstraliya: «Stephanus», 2003).

Biyanka ərizə yazdı və onu həmin idarəyə təqdim etdi. Sonralar məlum oldu ki, zirzəmisində Riçardın qaldığı bu bina dövlət təhlükəsizlik xidmətinin binasıdır. Qadınlar idarənin kiçik həyətində gözləyirdilər ki, içəri girib qohumlarının adının orada olub-olmadığını öyrənsinlər. Birdən Biyankanın yanında dayanan qadın ona əli ilə işarə etdi ki, binanın zirzəmisinin pəncərəsinə baxsın.

Biyanka yavaş-yavaş o tərəfə çevrildi və üzü qırxılmamış kişiyə baxmağa başladı. O, gözlərini ovuşdurdu ki, daha da yaxşı görə bilsin: «Bu ki Riçarddır! O sağdır!»

Biyanka öz sevincini gizlətməyə çalışdı. Riçard da başa düşdü ki, qadın onu tanıdığını büruzə verməməlidir. Ona görə də Riçard ona əl edib gülümsədi.

Tezliklə içəri girmək üçün Biyankanın növbəsi gəlib çatdı: «Vurmbrand, Vurmbrand...»

«Onun adı bizim siyahımızda yoxdur, — deyə zabit könülsüz halda cavab verdi, — bu o deməkdir ki, bizdə elə adam yoxdur və onun harada olduğu bizə məlum deyil».

Biyanka başa düşdü ki, məhbusların ailələrinin daha çox əzab çəkməsi üçün bu məzhəkə kommunistlərin növbəti qəddar kələyidir. Məhbusların ora toplaşmış qohumlarının hər birinə eyni cavab verilirdi.

Amma Sabina dövlət təhlükəsizlik xidmətindən verilmiş rəsmi məlumata məhəl qoymadı. O, Riçardın yerini biləndən sonra həftədə iki dəfə guya itmiş ərini axtarmaq məqsədilə oraya gedirdi. Hər dəfə həyətdə dayanıb növbədə gözləyərkən o, baxışları ilə Riçardla «danışırdı». Əri Raxova küçəsindəki kamerada qaldığı müddətdə Sabina tez-tez ona belə baş çəkirdi.

Amma bu görüşlərin nə qədər davam edəcəyini heç kim bilmirdi.

# 18

1948-ci ilin mayın 14-də İsrail dövləti quruldu. Sabina buna həm təəccüblənir, həm də sevinirdi. Faşistlərin Rumıniyada törətdiyi yəhudi soyqırımından sonra bu yeni xəbər kommunistlərin hakimiyyəti altında olan ölkələrdən yəhudi ailələrinin köçüb getməsinə təkan verdi. Riçard həbsxanada əziyyət çəksə də, Sabina bilirdi ki, əri də Yeremya peyğəmbər vasitəsilə verilmiş Allahın «Onları qızğın qəzəb və böyük hiddətlə sürgün etdiyim bütün ölkələrdən toplayacağam və onları buraya qaytarıb əmin-amanlıq içində yaşamalarını təmin edəcəyəm» (Yeremya 32:37) vədinin yerinə yetməsindən çox sevinəcək. Əgər iki yüz altmış ildən sonra Allah Öz xalqını evlərinə qaytara bilirsə, deməli, O, Riçardı da evinə qaytara bilər.

Amma yəhudilərin Babil əsarətindən qayıtdığı dövrdə olduğu kimi indi də vəd olunmuş torpağa qayıtmaq asan deyildi. Kommunizm xalqı dəmir caynaqlarında tutub saxlamışdı və çox az adam bu caynaqlardan qurtula bilirdi. Sovet əsgərləri tez-tez küçələrdə basqınlar edib yəhudiləri həbsə atır, onları sovet mədənlərində ağır işlər görməyə məcbur edirdilər. Dövlət təhlükəsizlik xidmətinin əməkdaşları rumınları da tutub aparırdılar və sonra onlardan heç bir xəbər gəlmirdi.

Sabinanın doğulub boya-başa çatdığı Bukovina şəhərindən olan cavan oğlan bir dəfə ona demişdi: «Mənim qardaşım dörd ay şkafın dalında oyuğun içərisində gizlənmişdi ki, Sovet İttifaqı üçün məcburi işə göndərilməkdən canını qurtarsın. Mən geyimlərimdən bir-ikisini götürdüm və sovet bürokratına dedim ki, mənzilimi,

içərisində olan hər bir şeyi və yığdığım bütün pulu ona verirəm, bircə mənə pasport versin. Mən pasport aldım və ölkədən çıxdım. Kommunizm — hamıdan hər şeyi oğurlamaqdır».

Hamı ölkədən qaçıb getmək istəyirdi, amma bu, çox baha başa gəlirdi. Rumıniyada xarici valyutaya böyük ehtiyac var idi. Xarici işlər naziri Anna Pauker İsrail ilə müqavilə imzaladı. Bu müqavilə Rumıniyaya yeni yaranmış ölkəyə öz yəhudilərini satmaq imkanı verirdi. Tezliklə professorlar, həkimlər və alimlər yüksək qiymətə alınan satış məhsuluna çevrildi.

Hər gün viza şöbəsinin qarşısında yəhudilərdən ibarət böyük bir izdiham olurdu. Bura toplaşanlar ölkələrinin onları satmasını istəyirdilər. Ən zəif və arzuolunmaz insanlar — babalar, nənələr qucaqlarındakı körpələrlə idarənin həyətində daşın üstündə yatırdılar ki, başqaları kimi onlar da Rumıniyadan çıxıb getsinlər. İsrail vizası almaq istəyən yəhudilərdən ibarət növbə milis idarəsindən Parlament meydanına qədər uzanırdı.

Bir yad adam yəhudidən soruşdu:

— Bu növbə nə üçündür?

— Portağal almaq üçündür!

— Axı yolun o tayında mağazada portağal növbəsiz satılır...

— Bəli, amma biz portağalı ağacdan dərib yemək istəyirik.

İsrail torpağı neçə əsrlərdən bəri ilk dəfə idi ki, meliorasiya sistemi ilə suvarılırdı və öz xalqını bol məhsulla təmin edəcəyini vəd edirdi. Rumıniyanın müxtəlif şəhərlərindən oraya yəhudilərlə dolu yük qatarları yola düşürdü. Hətta yəhudi olmayanlar da azadlığa çıxmaq üçün saxta vizalardan ötrü hədsiz böyük məbləğlər ödəyirdilər. Rumıniya hökuməti «İsrail əməliyyatı»nı gizli saxlamağa çalışdığı üçün bu qatarlar Buxarestin mərkəzi dəmir yolu vağzalından yola düşmürdü. Onların qatarları şəhərətrafı stansiyalardan gecə saatlarında çıxırdı. Sabina hər həftə bu stansiyalara göz yaşları içində yollanır, dostları ilə vidalaşır və onlara yeni həyatlarında uğurlar arzulayırdı.

Sabina da ölkədən çıxmağı düşünürdü, amma Riçardsız getmək istəmirdi. Ərinin azadlığa çıxmasına neçə il lazım gəlirsə gəlsin, Sabina onu həbsdə qoyub getməzdi.

Əsrlər boyu hər yəhudi «Gələn il Yerusəlimdə!» deyə fəryad edir, təcrid olunduqları gettoda və ibadət etdikləri sinaqoqda o günü səbirsizliklə gözləyirdi. Sabina da onlar kimi həmin günü böyük intizarla gözləyirdi. O, çox istəyərdi ki, Riçard və Mihay ilə birlikdə qatarla İsrailə — Allahın Öz xalqına vəd etdiyi torpağa, müqəddəs bir səyahətə yola düşsünlər.

Ölkədən qaçıb getmək üçün hətta əsgərlər və milis əməkdaşları belə öz həyatlarını təhlükəyə atırdılar. Bir dəfə yüksək rütbəli milis rəisi Sabinaya belə demişdi: «Əgər mənə pul versəniz və yəhudi kimi mənə viza almaqda kömək etsəniz, sizin ərinizi həbsxanadan çıxararam».

Sabinanın etibar etdiyi dostlarından biri onu inandırdı ki, bu milis əməkdaşı, həqiqətən də, verdiyi vədə əməl edəcək. Xəbəri eşidən Mihay sevincindən atılıb düşdü. Nəhayət, o, atasını yenidən görə biləcək.

Yaşına görə hündürboy və daha yetkin olan Mihay yaşıdları tərəfindən rədd olunmuşdu. O, atasının niyə belə tez-tez tutulduğunu məktəbdə sinif yoldaşlarına izah etməkdə çətinlik çəkirdi. Mihaya qarşı olan bu soyuq münasibət Sabinanın diqqətindən heç vaxt yayınmırdı.

Səhərisi günü Mihay anasına dedi:

«Ana, mən bir yuxu görmüşəm. Yuxuda gördüm ki, qonşumuz papağını uzadaraq iki quşun onun içinə oturmasını xahiş edir. Onlar papağın ətrafında qanad çalır, sonra uçub gedirlər».

Sabina yuxunun mənasını başa düşdü. Həmin adamın Riçardı azad etməsi alınmayacaqdı. Bir neçə gün sonra yuxu çin çıxdı və milis əməkdaşı həbs olundu.

Mihay tez-tez gələcəyi göstərən yuxular görürdü. Lakin uşaqlıq sərgüzəştləri kimi onun yuxuları da, adətən, qorxulu sonluqla bitirdi.

Hər gün Buxarestin dalanlarından daha çox yəhudi yoxa çıxırdı. Bir dəfə həbsxanadan bir neçə yaxşı tanınan məhbusu azadlığa buraxmışdılar. Onları təcili yardım maşınlarında evlərinə gətirmişdilər ki, ailə üzvlərinə bədənlərindəki zədələnmiş yerləri göstərsinlər və onlara verilən işgəncələrdən danışsınlar. Ertəsi gün isə onlar yenidən həbs olunmuşdu.

Riçardın işgəncələrə dözüb-dözə bilməyəcəyi Sabinanı çox narahat edirdi. Kommunistlər məhbuslardan məlumat əldə etməkdə faşistlərdən daha bacarıqlı idilər. İsa bir dəfə demişdi: «Bədəni öldürüb canı öldürə bilməyənlərdən qorxmayın. Həm canı, həm bədəni cəhənnəmdə məhv edə bilən Allahdan qorxun» (Matta 10: 28). Sabina işgəncələr zamanı Məsihi inkar edən, hətta ailələrini və yaxın dostlarını belə ələ verən pastorlar tanıyırdı. Mühafizəçilər çox vaxt onları amputasiya etməklə, axtalamaqla və başqa dəhşətli işgəncə vasitələri ilə hədələyirdilər. Əvvəl-əvvəl insan bədəni ən sərt fiziki işgəncələrə dözə bilir, amma bu işgəncələr dəfələrlə təkrarlandıqca ağrı yaddaşda yığılaraq tədricən insanın iradəsini sındırmağa başlayır.

Sabina qorxurdu ki, Riçardın mətanəti, saysız və uzunmüddətli işgəncələr zamanı sarsılsın.

Əri bir dəfə ona dostlarını ələ verməkdənsə ölümü seçəcəyinə söz vermişdi. Lakin Sabina bilirdi ki, hətta həvari Peter də öz vədini pozaraq Məsihi inkar etmişdi. Riçard nə qədər dözümlü və rəşadətli olsa da, onun iradəsi işgəncə qarşısında sına bilərdi. İsa Öz şagirdlərinə xatırlatmışdı: «Oyaq durub dua edin ki, sınağa düşməyəsiniz. Ruh həvəsli, cisim isə gücsüzdür» (Matta 26:41). Sabina bilirdi ki, əgər hər şey ən dəhşətli sonluqla bitsə və Riçard işgəncə zamanı ölsə, bir gün onu yenidən göylərdə görəcək. Onlar bu barədə əvvəlcədən danışıb razılığa gəlmişdilər ki, göylərdə cənnətin on iki darvazasından birinin — Binyamin darvazasının qarşısında görüşsünlər.

# 19

1948-ci il idi. Raxova küçəsindəki həbsxanada olan Riçard zirzəminin hündürdə qoyulmuş pəncərəsindən həyətin kənarını çətinliklə görə bilirdi. O, çox vaxt özünə belə sual verirdi: «Görəsən, dəhşətli işgəncələrə tab gətirmək üçün onun imanı kifayət qədər möhkəmdirmi?» Riçard Kəlamdan əzbər öyrəndiyi ayələrlə özünü ruhlandırırdı.

İstintaq edilərkən müstəntiqlər böyük səbir nümayiş etdirirdilər. Yaxşı təchiz edilmiş arxivlərdə olduğu kimi, kommunist həbsxanalarında da çoxlu məlumat var idi. Amma məlumatlar arxivlərdən fərqli olaraq, kağızlarda deyil, insan yaddaşlarında saxlanılırdı. Lazım olanda dəqiq məlumat yavaş-yavaş məhbuslardan çıxarılırdı. Lakin bu, bir dəfəyə edilmirdi. Riçard özü müstəntiqlərin gözündə vacib məlumatlarla dolu bir sandıq kimi görünürdü. Onlar Riçarddan qərb kilsələri və beynəlxalq kilsələr birliyi ilə əlaqəli məlumatlar toplamaq fikrində idilər. Rumıniyadakı kommunistlər onun qərblə geniş əlaqələrini xəyanət hesab edirdilər. Ona görə də Riçard siyasi məhbus sayılırdı. Bu gedişlə o, yəqin ki, istintaq aparanların əlində öləcəkdi.

Ancaq Riçardı həbs edənlər bilmirdilər ki, onun sirli və güclü silahı var: o, neçə illər idi ki, həbsxana həyatı üçün hazırlaşmışdı. Əsgərlərin əmin-amanlıq dövründə döyüşə hazırlaşdığı kimi, Riçard da öz ağlını və bədənini sorğu-suala, işgəncəyə və aclığa öyrəşdirmişdi. Riçardın küçədən oğurlanıb həbs edildiyi gündən onun bədəni və ağlı zərbələrə, sözlə təzyiqə və kameradakı ən pis şəraitə dözmək üçün mükəmməl vəziyyətdə idi.

Riçard uzun illər başqa məsihçilərin ağır işgəncələrə necə tab gətirdiyi barədə oxumuşdu. O, sanki şəhidlərin həyatını tədqiq edən bir insan olmuşdu, onların keçirdikləri oxşar sınaqları öz həyatında gözləyərək yaşayış tərzini çətinliklərə uyğunlaşdırır və öz üzərində çalışırdı. Belə məhbus həyatına az hazırlıqlı olanlar təzyiq altında təslim olub, çox vaxt müstəntiqlərə məlumat verirdilər. Riçard isə öz dözümlülüyünə görə məhbuslar arasında nüfuz qazanmışdı.

İstintaq zamanı müstəntiqlər çox vaxt bu sözləri deyirdilər: «Sən məsihçisən və bizə yalnız həqiqəti söyləməlisən». Amma Riçard ilə belə edə bilmirdilər. Əslində onların heç bir taktikası Riçard üzərində işə yaramırdı. Riçardın onlara deyəcəyi hər bir söz ittihama, ən pisi isə Allahdan dönməyə gətirib çıxara bilərdi. Buna görə də o, təhqiqat işini çətinləşdirərək müstəntiqləri çaşdırır və azdırırdı.

Riçard əvvəlcə Sabinaya və dostlarına harada yerləşdiyini xəbər vermək üçün yol tapdı. Onun yoxa çıxması Skandinaviya və Böyük Britaniyadakı kilsələrin rəhbərlərini də narahat edirdi.

Hətta ən cəsarətli kişilər belə Riçardın şəxsən tanıdığı Anna Paukerin qarşısında geri çəkilirdilər. Annanın atası Rabinoviçi soyadlı bir keşiş idi. Bir dəfə o, böyük kədərlə Riçarda demişdi: «Annada yəhudiliyə aid heç nə yoxdur». O, tibb üzrə təhsil alıb həkim olmaq istəyirdi. Sonra ingilis kilsə xidmətində qısa müddət çalışmışdı. Anna gənc yaşlarında din ilə kifayət qədər yaxından tanış olmuşdu ki, vəzifəyə gələndə onu dağıtmağa çalışsın.

Marsel Pauker adlı mühəndislə ailə həyatı qurandan sonra o, kommunist olmuşdu və sui-qəsdçilikdə iştirakına görə siyasi əleyhdarları tərəfindən həbs edilmişdi. Özünü kommunizmin ideyalarına həsr etmiş Anna və əri Moskvaya köçmüşdü. Lakin İosif Stalinin müharibədən əvvəl «təmizləmə» əməliyyatlarının birində Marsel güllələndi. Anna tez bir zamanda partiyada irəliləmiş, sonra Rumıniyaya qayıdıb xarici işlər naziri vəzifəsini tutmuşdu. Rəhmsiz bir qadın kimi nüfuz qazanan Anna tezliklə

«Taym» jurnalının üz qabığında «dünyanın ən güclü qadını» kimi təsvir olunaraq yer almışdı[1].

Anna Pauker Rusiya ilə yaman fəxr edirdi. Günəşli və gözəl günlərdən birində o, Buxarestdə başının üstündə çətir tutaraq küçə ilə gedirdi. Ona sual vermişdilər:

— Niyə çətir tutmusunuz?

Anna cavab vermişdi:

— Ona görə ki, indi Moskvada yağış yağır. Mən bunu indicə radioda eşitdim.[2]

---

1 «Bişmiş kremli pirojnaları xoşlamayan qız», «Time», 20 sentyabr 1948-ci il.

2 «Moskvada yağış», «Time», 9 iyun 1952-ci il.

# 20

Kameranın qapıları taybatay açılanda Riçard gözlərinə inanmadı. İçəri daxil olan adam ədliyyə naziri Lukretiu Petreşkanunun özü idi. O, kommunizmi Rumıniyaya gətirən əsas adamlardan biri idi. Belə yüksək vəzifəli məmur tərəfindən sorğu-sual olunmaq necə də böyük «şərəf» idi.

Qapı Petreşkanunun arxasınca çırpılanda Riçardın gözü onun ayaqqabılarına sataşdı: onların ipləri çıxarılmışdı. Qalstuku da çıxarılmış, köynəyi isə səliqəsiz halda əynində asılıb qalmışdı. Məgər o da məhbus idi?

Petreşkanu Riçardla üzbəüz taxta çarpayıda oturdu. Petreşkanuya göstərilən böyük hörmətə onun necə öyrəşdiyini qamətindən və davranışından hiss etmək olardı. Hətta həbsxana belə siyasətçinin vərdiş etdiyi oturuşunu dəyişdirə bilməmişdi. Riçard Petreşkanunun Rumıniyada korrupsiyanın yayılmasında rolundan və insanlara qarşı ədalətsizliyindən xəbərdar idi. Amma hər iki məhbus bir-biri ilə söhbətə başladıqdan sonra Riçard onun səmimiliyini gördü və onunla dil tapa biləcəyinə əmin oldu.

Petreşkanu əvvəllər də keçmiş rəhbərlər tərəfindən bir neçə dəfə həbs olunmuşdu. Artan nüfuzuna paxıllıq edən siyasi düşmənləri öz aralarında razılığa gəlib onu rəhbərlikdən uzaqlaşdırmaq istəyirdilər. Bir neçə gün əvvəl daxili işlər naziri Teoxari Qeorqesku ona «burjuaziya satqını» damğasını vurmağa nail olmuşdu. O, maliyyə naziri Vasili Lukanın dəstəyi ilə Petreşkanunu imperialist qüvvələrə kömək etməkdə ittiham edərək ona qarşı cinayət işi açmışdı.

Məhbuslara və əksinqilabçılara verilən işgəncələr barədə eşitdiyi xəbərlər Petreşkanunu narahat etmişdi. Bu şayiələrin doğru olub-olmadığını soruşanda isə sadiq bir kommunist kimi öz nüfuzunu itirmişdi. Sonuncu zərbəni ona yaxın dostu Anna Pauker vurmuşdu.

«Mən nazirliyin binasından çıxanda xidmət maşınımın yanında yeni sürücü gördüm, — deyə Petreşkanu başına gələnləri Riçarda danışmağa başladı, — həmin sürücü dedi ki, mənim sürücüm İonesku xəstələnib. Mən maşına oturdum, arxamca da dövlət təhlükəsizlik xidmətinin iki zabiti oturdu. Sonrası isə sənə məlumdur, buraya gəlib çıxdım!»

Riçard həmsöhbətinə tərəf əyilib diqqətlə onu dinləyirdi.

Adətən, nahar üçün Riçarda bir balaca qabda qaynadılmış arpa gətirilirdi. Petreşkanuya isə toyuqdan dadlı yemək, pendir və meyvələr gətirildi. Nazir üçün tıxacı açılmış bir şüşə şərab da gətirmişdilər. Amma kameraya yenicə daxil olmuş məhbusun yeməyə iştahası yox idi. Petreşkanu məcməyini Riçarda tərəf itələdi, o da ziyafət naharını böyük həvəslə yedi.

Riçard yeməyini yedikcə Petreşkanu gülməli hadisələrdən danışırdı. Onun yadına isveçrəli bir senator düşmüşdü. Həmin senator İsveçrədə hərbi dəniz donanmasının baş komandanı olmaq istəyirdi. Baş nazir ona «Bizdə hərbi dəniz donanması yoxdur!» demişdi. Senator isə «Bunun nə mənası var ki? Əgər Rumıniyanın ədliyyə naziri ola bilirsə, niyə İsveçrənin hərbi dəniz donanmasının naziri olmasın?» deyə etiraz etmişdi.

Riçard dənizə çıxışı olmayan İsveçrə haqqında hərbi dəniz donanması fikirlərinə güldü. Petreşkanunu da gülmək tutdu.

Səhəri gün iki mühafizəçi Petreşkanunu kameradan çıxarıb istintaq otağına apardı. Riçard belə yüksək vəzifəli məmurun necə qəddarcasına sorğu-sual olunacağını düşünürdü. Amma həmin axşam Petreşkanu kameraya qayıdanda Riçarda dedi ki, onu, ümumiyyətlə, sorğu-sual etmədilər. Sorğu-sual edilmək əvəzinə isə universitetdə o, hüquqdan mühazirə keçmişdi. Onun həbs olunması bir sirr olaraq qalmalı idi. Hətta həyat yoldaşı belə ərinin

harada olduğundan xəbərsiz idi. Arvadı elə düşünürdü ki, əri harasa ezamiyyətə gedib və gecələr mehmanxanada qalır. Nazir Riçardın gec-tez güllələnəcəyini, ya da ömürlük barmaqlıqlar arxasında qalacağını güman etdiyi üçün ona etibar edirdi.

Petreşkanu kommunist ideyalarına inandığına görə deyil, müharibədən sonra baş verənlərə görə kommunist olmuşdu. Birinci Dünya müharibəsində onun atası almanlara kömək etmişdi, ona görə də müttəfiqlərin qələbəsindən sonra bütün ailəsi cəmiyyətdən kənarlaşdırılmışdı. Petreşkanu universitetdə təhsil almaq üçün Almaniyaya qaçıb getmişdi. Rumıniyaya qayıdıb gələndə onu qəbul edən yeganə siyasi partiya kommunist partiyası olmuşdu. O, məktəbdə Sabina ilə dostluq edən kommunist bir qızla evlənmişdi.

Riçard ona dedi:

— Siz mənə Marksı və Lenini xatırladırsınız.

Bu sözlər Petreşkanunu çox təəccübləndirdi.

Riçard sözünə davam etdi:

— Marks özünü zəkalı bir insan hesab edirdi, amma antisemitizmin tüğyan etdiyi dövrdə Almaniyada yaşayan bir yəhudi kimi o öz fikirlərini yaymaq üçün inqilabçı olmaqdan başqa çıxış yolu tapmadı. Leninin qardaşını çarın həyatına sui-qəsd etməyə cəhd etdiyi üçün asmışdılar. Bundan sonra Leninin ürəyini bürüyən hiddət və kin onu bütün dünyanı alt-üst etməyə vadar etmişdi. Sizinlə də eyni şey baş verib.

Petreşkanu, təbii ki, bununla razılaşmadı. Lakin Riçard gördü ki, sözləri məhbus yoldaşına təsir edib. Onlar ədalətdən, əzablardan və kilsənin bəşər tarixindəki rolundan danışdılar. Petreşkanu Borciya ailəsindən olan papaların korrupsiya əməllərini, ispan inkvizisiyasının təcavüzünü, səlib yürüşlərini və Qalileyaya qarşı ədalətsiz təqibləri tənqid edə-edə dil boğaza qoymadı.

Riçard onun tənqidi çıxışına müdaxilə etdi:

— Məhz kilsənin cinayətləri və səhvləri bizə ona minnətdar olmağa imkan verir.

— Sən nə demək istəyirsən?

Riçard fikrini izah etməyə başladı:

— Xəstəxanadan irin və qan qoxusu gələ bilər. Məhz onun gözəlliyi də elə bundan ibarətdir: iyrənc yaraları və dəhşətli xəstəlikləri olan xəstələri qəbul edir. Kilsə Məsihin xəstəxanasıdır. Milyonlarla xəstə Onun məhəbbəti ilə əhatə olunaraq orada müalicə alır. Kilsə günahkarları qəbul edir, onlar isə günah etməkdə davam edirlər. Onların hərəkətlərinə görə isə kilsə ittiham olunur.

Riçard sözünə davam etdi:

— Digər tərəfdən kilsə anaya bənzəyir. Bu ana uşaqları cinayət törətsə də, onlardan üz döndərmir. Kilsənin xidmətçilərinin siyasəti və qərəzi isə Allahdan gələn Müqəddəs Kitabın, Onun təlimlərinin, ibadətin və ayinlərin təhrifidir. Nə qədər nöqsanları olsa da, kilsədə gözəl olan çox şeylər var. Dənizdə hər il yüzlərlə insan boğulur, amma heç kim onun gözəlliyi barədə mübahisə etmir.

Petreşkanu bir anlıq fikrə dalıb dedi:

— Kommunizm barədə də belə demək olar. Düzdür, onun ideyalarını həyata keçirənlər kamil deyillər. Aramızda fırıldaqçılar da var. Amma bu o demək deyil ki, bizim nəzəriyyəmizdə nəsə səhvdir.

Riçard cavab verdi:

— Onda siz nəticəyə əsasən mühakimə yürüdün. Biabırçı əməllər kilsənin tarixini ləkələyib, lakin o, həmişə dünyanın hər yerinə məhəbbət paylayıb və insanların qayğısına qalıb. Kilsə çox sayda müqəddəslər yetirib, onların başında ən müqəddəs olan Məsih durur. Bəs siz kimlərə pərəstiş edirsiniz? Marks kimilərə? Moskvanın Marks və Engels institutunun direktoru, bioqraf Ryazanov onu sərxoş adlandırmışdı. Bəlkə Leninə? Həyat yoldaşı onun səhlənkar qumarbaz və əsərlərindən zəhər daman biri olduğunu deyirdi. Kommunizm milyonlarla günahsız qurbanları məhv edib, ölkələri dağıdıb, dünyanı yalan və qorxu ilə doldurub. Deyin görüm, onun müsbət cəhəti haradadır? Hamıya məlumdur ki, sizin yoldaşlarınız ya həbsxanadadırlar, ya güllələniblər, ya da hansısa başqa bir yolla öldürülüblər. Siz insanlardan istifadə edib sonra onları tullayırsınız.

Petreşkanu təsdiqlədi:

— Elədir ki, var. Çünki onlar axmaqdırlar. Birinci Dünya müharibəsindən on il sonra dahi bolşevik mütəfəkkiri yoldaş Buxarin Trotskinin silah ilə dünyada inqilab yaratmaq planlarına qarşı çıxış etmişdi. O demişdi ki, kapitalist ölkələrinin öz aralarında müharibəyə başlayacağı vaxtı gözləmək daha yaxşı olar. Sonra Rusiya qalib tərəfə qoşulub fəth olunmuş ölkələrin əsas payını ələ keçirər. Əgər Qərb bilsəydi ki, Avropanın yarısı və Asiyanın üçdən ikisi kommunist hakimiyyəti altına keçəcək, sonuncu müharibə heç vaxt baş verməzdi.

Bu fikirlər Riçardı inandıra bilməzdi:

— Cənab Petreşkanu, məgər görmürsünüz ki, siz insanlardan istifadə edib sonra kənara tulladığınız kimi, yoldaşlarınız da sizdən istifadə edib sizi kənara tullayıb? Sizə elə gəlmirmi ki, gözlərinizi Leninin təliminin şər məntiqi kor edib?

Petreşkanu kədərini gizlədə bilmədi:

— Danton edam olunmağa aparılarkən yolda balkondan baxan Robespyeri görür və «Maksimillian növbə sənindir!» deyə qışqırır.

Riçard onun gözlərinin qisasdan necə qığılcım saçdığını gördü.

Petreşkanu sözünə davam etdi:

— Mən sizi əmin edirəm, məndən sonra Anna Pauker, Qeorqesku və Lukanın növbəsidir.

Beş ildən sonra Petreşkanunun dedikləri gerçək olacaqdı...

# 21

1948-ci il idi. Bir gün gecə saat 10 radələrində Raxova küçəsindəki həbsxana kamerasına üç mühafizəçi daxil oldu və Riçarddan tələb etdilər ki, paltarlarını geyinsin.

«Qalın paltonu geyinin, — deyə Petreşkanu Riçardın qulağına pıçıldadı, — zərbələrin ağrısını az hiss edərsiniz».

Appel adlı mühafizəçilərdən biri Riçardın üzünə qara bir örtük taxdı və onu uzun dəhlizlə apararaq içərisində lampalı stol və stul olan bir otağa gətirdi.

Appel örtüyü açarkən Riçard güclü işıqdan gözünü qıydı. Stolun o biri tərəfində bir kişi silueti gördü. Bir neçə saniyədən sonra həmin kişinin üzü daha aydın görünməyə başladı. Riçard onu tanıdı. O, keçmiş polis müfəttişi Moravets idi. Onun rütbəsini yenicə artırmışdılar və indi o, istintaq işlərini aparırdı.

Moravets dedi:

— Vasili Qeorqesku, stolun üstündə kağız və qələm var. Stulu altınıza çəkib oturun, həyatınız və əmək fəaliyyətiniz barədə yazın.

Riçard onun dediyi kimi etdi.

— Siz bir keşiş kimi çoxlu etiraflar eşitmisiniz. İndi isə bizim qarşımızda etiraf edəcəksiniz.

Riçardın öz şəhadətini və ruhani tərcümeyi-halının əsas məqamlarını vərəqə yazması bir saat vaxt apardı. Riçard onu istintaq edən adamlar kimi bir vaxtlar ateist idi. Amma indi onun qəlbi dəyişmişdi.

Nəhayət, Moravets qələmi Riçardın əlindən alaraq dedi:

— Bu günlük kifayətdir.

Növbəti saysız-hesabsız istintaqlardan sonra Riçard onu həbs edənlərin metodlarını və strategiyalarını başa düşdü. Məhbusu həbs edərkən onun keçirdiyi sarsıntı zamanı milislərin dərhal məlumat toplamaq taktikası əvəzinə onlar daha səbirli yanaşmadan istifadə edirdilər: məhbus əvvəlcə *yetişməli* idi. Burada məqsəd insandan yavaş-yavaş məlumat toplamaq üçün onda kifayət qədər təqsir və narahatlıq hissləri yaşatmaq idi. Məhbuslara çox nadir hallarda həbs olunmalarının səbəbi deyilirdi. Buna görə də onlar özlərini yoxlamağa başlayır və əminsizliyə düşürdülər. Sonsuz hiylələr onların düşüncəsində gərginlik, şübhə və qorxu yaradırdı. Saxta məhkəmə günləri təyin olunurdu və ən son dəqiqədə təxirə salınırdı. Məhbusların qaldığı kameraların pəncərələrinin altında həyətdə yalandan güllələr atılırdı. Gecələr isə kasetə yazılmış qışqırıq səsləri eşidilirdi.

Bir neçə həftə belə psixoloji hücumlardan sonra dözmək daha da çətinləşirdi. İnsan iradəsi yavaş-yavaş sınmağa başlayırdı. Haldan düşmüş və təqsir hissi ilə yüklənmiş məhbuslar yanlış mühakimələr yürüdür, bir-birinin ardınca səhvlər edir, dostlarını satırdılar. Beləcə, müstəntiq ona lazım olan məxfi məlumatları əldə edirdi.

Məhbus psixi sarsıntı keçirməzdən əvvəl müstəntiq taktikanı dəyişib guya onun halına acıdığını göstərirdi. Hədə-qorxu mərhəmətə keçirdi. Əgər məhbus özünün təqsirkar olduğunu və cinayət törətdiyini boynuna alsa, onda bütün işgəncələrə son qoyulacağına söz verilirdi.

Bir neçə gündən sonra Riçardı yenidən öz kamerasından çıxarıb iki müstəntiqin olduğu zirzəmiyə gətirdilər. Appel əlini çantasına uzadıb içindən iris konfeti çıxardı və Riçarda verdi. Appel gözlənilmədən sual verdi:

— Sizin cənab Teodoresku ilə hansı əlaqələriniz var?

— Teodoresku? Bu, geniş yayılmış addır. Siz kimi nəzərdə tutursunuz?

Appel izah etmək istəmədi. Amma cəld mövzunu dəyişib Müqəddəs Kitabdan — Yeşayanın Məsih barədə

peyğəmbərliklərindən sual verməyə başladı. O, gah başını tərpədib, gah da qaşlarını çataraq özünü elə göstərirdi ki, guya Riçardın fikirləri ona maraqlı gəlir. Sonra qəfildən sovet əsgərlərinə məsihçi kitablarını paylamaqda Riçarda kömək edən adamın adını soruşdu:

— Onlar Yeşayanın peyğəmbərlikləri barədə eşidiblərmi?

Appel nəzakətlə qulaq asırdı, amma görünürdü ki, onu Riçardın sözlərindən daha çox reaksiyası maraqlandırır.

Özünə əmin olmayan Vasilu adlı digər müstəntiq elə də nəzakətli deyildi.

«Tanıdığın bütün adamların adını buraya yaz, — deyə o tələb etdi, — harada tanış olduğunuzu, hansı əlaqələrinizin olduğunu da qeyd et».

Riçard tərəddüd etdi. O, adları seçərək ehtiyatla qeyd etdi.

«Heç nə gizlətmə, — deyə Vasilu qışqırdı, — mən dedim axı, *bütün* adları...»

Riçard harasa səyahət edərkən yolda təsadüfən tanış olduğu adamların və hökumət nümayəndələrinin adlarını yazdı. Əgər birdən çaşıb məsihçi xidmətçilərin adlarını versəydi, onda onların da ailələri həbs olunub qəddarcasına döyüləcəkdi.

— İkinci sual: sən hökumətə qarşı hansı cinayəti törətmisən?

Riçard Vasilunun düz gözlərinin içinə baxdı.

— Məni nədə ittiham edirlər ki?

Vasilu əlini stolun üstünə çırpdı.

— Sən özün yaxşı bilirsən nə etmisən! Pravoslav əməkdaşın Qriqoriu ata ilə olan əlaqələrindən başla. Onun haqqında nə düşünürsən, bunu yaz! Yaz, yaz. Davam et!

Riçard ruhani tərcümeyi-halını yazmağı xoşlayırdı. Təbii ki, müstəntiqlərin ona icazə verdiyi qədər yaza bilirdi. Başqa suallar barədə mümkün qədər az qeyd edirdi.

Riçardı həftələrlə sorğu-sual edirdilər. Ona yatmağa imkan vermirdilər. Gecələr o özünü Kəlamı təkrarlamaqla sakitləşdirirdi.

Allah da Riçardı ruhlandırırdı. Bərbər onun saçını qırxanda qulağına pıçıldamışdı ki, Sabina ilə hər şey yaxşıdır və o,

xidmətini davam etdirir. Bunu eşitmək ona güc verirdi. Riçard özü istintaqlara tab gətirə bilərdi, amma düşünəndə ki, Sabinanı sorğu-sual edib işgəncə verirlər, onda bu fikirlərə dözə bilmirdi. Birdən Sabinanı həbs etsələr, onda Mihay necə olacaq? O, yetim qalacaq və küçədə yaşamağa məcbur olacaq. Artıq bir çox uşağın taleyi belə gətirmişdi.

Bir gecə Riçard gözlərini yumub yatmağa çalışırdı. Birdən qonşu otaqdan ağlayıb qışqıran qadın səsi gəldi:

«Yox, yox! — deyə qadın yalvarırdı, — xahiş edirəm, vurmayın məni. Vurmayın! Mən artıq dözə bilmirəm!»

Mühafizəçilər qadını amansızcasına döyərkən dəhlizdə onun qışqırıqları əks-səda verirdi.

Riçard diqqətlə qulaq asmağa başladı. Birdən onun gözləri dəhşətdən böyüdü. Bu, Sabinanın səsi idi! Onu da həbs edib bura gətirmişdilər. Riçard bütün gecəni ağlayıb, Sabinanı çağırdı. Məgər o, Riçardı eşitmir? Görəsən, ona nə ediblər?

Riçard sonralar öyrəndi ki, eşitdiyi o səs Sabinanın səsi deyilmiş. Bu, məhbuslar üçün səsləndirilən səs yazısı idi. Bu səs yazılarını qoşurdular ki, məhbuslar mərhəmət üçün yalvaran qadının onların həyat yoldaşı, dostu və ya anası olduğunu düşünüb narahat olsunlar.

*****

Riçardın Sabinaya verdiyi vəd — bacı-qardaşlarını ələ verməkdənsə özünü öldürəcəyi vədi hər gecə onun beynində dolaşırdı. O, erkən məsihçilik dövründə barbarlar monastıra hücum edən vaxt bir qadının öz bakirəliyini qorumaqdan ötrü özünə sui-qəsd etdiyini xatırladı. Əgər kilsə onu müqəddəs hesab edibsə, onda Allah da Riçardı özünə sui-qəsd etdiyi üçün bağışlayar. Axı o, bununla başqalarını da əzab və ölümdən xilas etmiş olardı.

Lakin ayaqqabılarının ipləri müsadirə olunmuşdu. Onun qaldığı kamerada tez-tez axtarış aparılırdı. Onlar orada şüşə parçaları, iplər və ülgüc tiyəsinin olub-olmadığını yoxlayırdılar. Hər gecə ona bir

yuxugətirici həb verirdilər. Mühafizəçilər həbi udub-udmadığına əmin olmaq üçün həmişə Riçardın ağzını yoxlayırdılar. Əgər həbləri dilinin altında gizlədə bilsə, onda qısa müddətə xeyli həb toplaya bilərdi. Dilinin altında saxlayıb udmadığı həbləri gizlətmək üçün Riçard Petreşkanunun samandan olan döşəyindən bir neçə tikişi sökmüşdü. Bir aya otuz həb toplaya bilmişdi. Bu qədər həb onun həmişəlik yuxuya getməsi üçün artıqlaması ilə bəs edərdi.

Özünə sui-qəsd qərarı Riçarda düşmənləri üzərində qalibiyyət verirdi. Lakin şəhərin qayğısız şən səsləri sanki ona yalvarırdı ki, verdiyi qərara bir də nəzər salsın. Bayırda gənc bir qız mahnı oxuyurdu, döngədən keçən tramvay relsləri həyatın axarına öz səslərini qatırdı... Riçard həyatını Allaha həsr etmişdi. Həmin həyata son qoymaq ağıllı fikir idimi?

Müstəntiqlər məhbusları incitmək üçün gözlərinə gözqamaşdırıcı işıq salırdılar. Amma Allahın da Öz xüsusi işığı var idi. Bir gecə Riçard səmaya baxarkən qaranlıqda nur saçan tənha ulduz gördü. Bu ulduz onun kamerasına işıq saçmaq, ona təsəlli vermək üçün bütün kainatı dolaşmışdı. Yəqin ki, onun həyatı da Xilaskar uğrunda əzab çəkən məhbuslara təsəlli vermək üçün uzaq məsafələr qət edə bilər. Ulduz ona yalvarırdı ki, yaşasın, lakin Riçard hələ də buna əmin deyildi. Bəlkə onun ölümü yaşamağından daha çox xeyir verə bilərdi.

Səhəri gün mühafizəçilər kameraya gəlib Petreşkanunun döşəyini başqa məhbus üçün apardılar. Beləcə, Riçardın özünə sui-qəsd planı gözlənilmədən dağıldı. O, əvvəlcə çox məyus oldu, amma tezliklə anladı ki, onu qarşıda gözləyən əzablar nə qədər ağır olsa da, Allah ona kömək edəcək.

# 22

Polkovnik Dulqeru Riçardın yanağına möhkəm bir yumruq vuraraq əsəbi halda qışqırdı:

— Sən bizimlə oyun oynayırsan. Məgər görmürsən ki, sən bütünlüklə mənim ixtiyarımdasan? Sənin Xilaskardır, nədir adlandırdığın Kəs həbsxana qapılarını sənin üçün açmaq fikrində deyil?

Riçard titrəyən üzünü örtərək cavab verdi:

— Onun adı İsa Məsihdir. Əgər O istəsə, məni buradan çıxara bilər.

Dulqeru dedi:

— Oldu, onda sabah sən yoldaş Brinzaru ilə tanış olacaqsan.

Başqa məhbuslar kimi Riçard da Brinzarunun adı gələndə qorxurdu. Mayor Brinzaru işində çox dəqiq və məharətli bir sadist idi. Onun əlləri qorillanın əlləri kimi tüklü idi. Brinzaru məhbuslardan məlumat çəkib çıxarmaqda çox bacarıqlı idi. Müstəntiq olmazdan qabaq o, məşhur bir siyasətçi üçün işləyirdi. Sonralar həmin siyasətçinin oğlu vətənpərvərlik hərəkatına rəhbərlik etdiyinə görə həbs olunmuşdu. Brinzaru həmin oğlana «Bir vaxtlar sən körpə olanda səni dizlərimin üstündə otuzdurardım» demiş, sonra isə soyuqqanlılıqla onu çılpaq əlləri ilə boğmuşdu.

Riçard bilirdi ki, yumşaq sorğu-sual müddəti artıq sona yetib. Brinzaru onu cürbəcür işgəncə alətlərinin düzüldüyü bir kameraya gətirdi.

«Bəlkə bunlardan ən çox xoşuna gələni seçəsən, — deyə Brinzaru əli ilə əyri bıçaqlar və kəlbətinlərlə dolu olan stolu göstərərək soruşdu, — biz burada demokratiyanı xoşlayırıq».

Brinzaru Riçardı məcbur etdi ki, əl barmaqları ilə tavana toxunub ayaq barmaqlarının ucunda dayansın. Bir neçə dəqiqədən sonra o, yerə yıxıldı, amma Brinzaru onu döyərək yenidən həmin hərəkəti təkrarlamağı əmr etdi. Bu, dəfələrlə təkrarlandı. Hər gün bir neçə saat Riçardı nalayiq, kobud və ağılsız hərəkətlər etməyə vadar edirdilər. Mühafizəçilərin məqsədi onun mənliyini sındırmaq idi. Buna da nail olmuşdular. Belə ki, onlar Riçardın hər yeni duruşuna bir xeyli lağ edib gülürdülər.

Riçard divara baxanda Müqəddəs Kitabdan bir ayə yadına düşdü: «Sevgilim ahuya, maral balasına oxşayır, budur, hasarımızın o tayında dayanır...» (Nəğmələr Nəğməsi 2:9). Mühafizəçilər onun bədəninə işgəncə verib saysız-hesabsız yaralar açanda, Riçard divarın o tayında onunla birgə əzab çəkən və ona təsəlli verən İsanın dayandığını təsəvvür edirdi. Əgər İsa əllərini çarmıxa uzada bilmişdisə, deməli, Riçard da əllərini tavana uzada bilər. Onun yadına israillilərin böyük rəhbəri olan Musa düşdü. Musa əllərini yuxarı qaldıranda yəhudilər amaleqlilərə qarşı döyüşdə qələbə çalırdılar (Çıxış 17:11).

Riçardı çox vaxt gözübağlı kameradan çıxardıqları üçün o, həbsxananın xəritəsini heç cür fikrində canlandıra bilmirdi. Lakin onun yaxşı tanıdığı bir otaq var idi. Ora *manej* idi. Məhbuslar həmin yeri məşq üzüyü adlandırırdılar. Ora həddən artıq darısqal bir kamera idi, on iki addım ataraq bütün otaq boyunca gəzmək olardı. Dörd addımdan sonra qarşıda divar dururdu. Sonra iki addımdan sonra yenə divar gəlirdi. Brinzaru Riçarda əmr etmişdi ki, saatlarla kamera boyunca gəzsin.

«Gəz, sənə deyirəm! — deyə o tələb edirdi, — gəzməyə davam et!»

Riçard ona tabe oldu. Divarlara dəyən bədəni get-gedə zədələnirdi. Onun başı hərlənirdi, tər gözlərini yandırırdı. Bir neçə

saatdan sonra otağı bulanıq görməyə başladı. Riçard gözlərini yumdu və yenidən divarlara çırpıldı. O, əqli aydınlığını saxlamağa çalışırdı ki, onu incidən mühafizəçilər üçün dua edə bilsin.

Mühafizəçilərdən biri Riçardın dirsəyinə taxta dəyənəklə vurdu. Onun qoluna güclü bir ağrı yayıldı.

«Tez ol! — deyə ona əmr etdilər, — dur ayağa, tərpən!»

Növbəti gün Riçarda əmr etdilər ki, əlləri arxasında döşəmədə çömbəlib otursun. Sonra mühafizəçi onun dirsəklərinin altına metal ştanq keçirdi, bədənini havaya qaldırıb neylon qamçı ilə ayaqlarına, budlarına və onurğasına vurmağa başladı. Riçardın gözlərindəki sarğı ona imkan vermirdi ki, zərbələrə hazır olsun, ona görə də hər zərbə ikiqat ağrı verirdi. Bir neçə dəfə belə döyüldükdən sonra Riçard huşunu itirdi. Üzünə bir vedrə buz kimi su töküb onu ayıltdılar.

Növbəti həftə Brinzaru Riçardın kamerasına gəlib boğazına bıçaq dirədi. Bıçağın iti ucu onun boynunu və sinəsini dəlib keçdi. Riçard özünə gələndə bütün qan içində olduğunu gördü.

Brinzaru zərbələrin Riçarda kifayət qədər təsir etmədiyini görəndə onun ağzına qıf qoyub o qədər su tökürdü ki, az qala qarnı sudan partlasın. Sonra mühafizəçilərə qusana qədər onu təpikləməyi əmr edirdi.

Bir gün Riçardın gözlərini bağladılar və kamerasına iki canavar buraxdılar. Onun bu fənddən xəbəri var idi. Heyvanları elə öyrətmişdilər ki, məhbuslar hərəkət edən kimi onlara hücum etsinlər. Ona görə də Riçard heyvanların isti nəfəsini hiss edəndə, yerində hərəkətsiz oturdu.

Aylar keçdikcə işgəncələrin şiddəti artmağa başladı. Mühafizəçilər qıpqırmızı qızarmış isti dəmirləri Riçardın qabırğalarına basırdılar. Onun dərisi istinin təsirindən cızıldayır, bir neçə saniyənin içərisində o özündən gedirdi. Sonra onu ayıldıb yenidən bu işgəncəni davam etdirirdilər. Dəmirlə dağlanmaq Riçardın həyatında yaşadığı ən ağrılı işgəncə idi. Bu, cəhənnəm əzabına oxşar bir məşəqqət idi. Mühafizəçilərin əbədiyyəti belə bir əzabda keçirəcəyini düşünəndə, Riçard onların halına acıyırdı.

## Fəsil 22

Riçardın vaxtından əvvəl ölməməsi üçün ona işgəncələr verilərkən yanında həmişə həkim dayanırdı. Elə vaxtlar olurdu ki, ölümün bir addımlıqda olduğu hiss edilirdi. Riçardı o vaxta qədər boğurdular ki, o, artıq huşunu itirirdi. Bədənini isə o ana qədər döyürdülər ki, artıq ağciyərləri hava udmaq gücündə olmurdu.

Riçardın yaxşı yadında idi ki, onun Rəbbi İsa da qamçılanmışdı. Məsihin yaşadığı əzablarda iştirak etmək necə də şərəfdir! Qonşu kameradakı məhbusların nalələri və qışqırıqları bütün gecə eşidilirdi. Xüsusilə dəmir «qurğunun» üstündə onların ətrafları oynaqlarından dartılıb çıxarılanda... Bu qurğu məhbusun bədənini o qədər dartırdı ki, onun sümükləri şaqqıltı ilə oynaq yuvasından çıxırdı. Hətta bu qurğunun xatırlanması belə, məhbusları qorxuya salırdı. Bununla onlardan məlumatların çəkilib çıxarılması asanlaşırdı.

«Sirli məlumatları ötürdüyün adamların adları nədir?» — deyə Brinzaru soruşdu.

Riçard çoxlu adlar və ünvanlar yazdı. Amma heç vaxt dostlarını satmadı. Yazdığı adlar ya artıq ölmüş, ya da Qərbə köçüb gedənlərin adları idi.

Həbs olunana qədər Riçard heç vaxt ələ salınmaqdan, alçaldılmaqdan qorxmamışdı. Amma iki mühafizəçinin onun ağzına tüpürüb işəyərkən başqalarının ona tamaşa edib gülməsi hər şeyi dəyişdirdi. İşgəncə altında Riçardı məcbur edirdilər ki, homoseksual, zinakar, oğru, casus, satqın olduğunu etiraf etsin. Gecələr onu kamerasına qaytarırdılar. Orada o, bütün günü keçirdiyi əzablardan ağlayır və növbəti günün işgəncələrinə dözmək üçün Allahdan güc istəyirdi.

«Niyə təslim olmursan? — Brinzaru dedi, — inadkarlığının faydası yoxdur. Sən sadəcə bir cisimsən və gec-tez sınacaqsan».

Kommunistlər inanırdılar ki, insan ölümdən qaçmaq üçün hər şey edər. Onlar güman edirdilər ki, məhbus azadlığı üçün onların istədiyi hər şeyi boynuna götürə bilər. Riçard təkadamlıq kamerada oturub qorxu içində növbəti gün yaşayacağı işgəncələri düşünürdü. Amma inanırdı ki, həyat təkcə bədən, qan və sümükdən ibarət deyil.

Mühafizəçilər onu dağlaya, qamçılaya, ələ sala və alçalda bilərlər. Lakin Brinzaru da daxil olmaqla, Avropanın bütün kommunistləri yığışsa belə, onun qəlbini oğurlaya bilməzlər. Onun qəlbi elə güclü əllərdə idi ki, heç kim onu bu əllərdən ala bilməzdi...

# 23

Riçard qaranlıq kamerada oturmuşdu. Ürəyi təklikdən kədərlə dolmuşdu. Divarlar onun əynindəki məhbus geyimi kimi bomboz idi. Təkadamlıq kameraya salındığı vaxtdan bəri çaylar, çiçəklər, günəş və ulduzlar yaddaşından silinmişdi. Dövlət təhlükəsizlik xidmətinin binasının on metr dərinliyində yerləşən pəncərəsiz kamerada hava kiçik bir boru vasitəsilə içəriyə daxil olurdu. Riçarda həftədə bir dilim çörək verilirdi, ona görə də aclıq onun daimi yoldaşı idi. Məhbuslara verilən yemək yalnız onların nəfəs alıb sağ qalmaqları üçün kifayət edirdi.

Səkkiz illik həbsin ilk üç ilini Riçard tənhalıqda keçirdi. Onun olduğu yerdə sükut insanı kar edirdi. Hətta mühafizəçilərin ayaqqabılarına belə nazik keçə qatı yapışdırılmışdı ki, addım səslərini azaltsın. Hər dəfə onu kameradan çıxaranda döyüb sorğu-sual edirdilər. Kağız və qələm olmadığı üçün Riçard hətta necə yazı yazmağı da unutmuşdu. Yalnız 1948-ci ilin fevralında kilsəyə gedən yolda gözlənilmədən həbs olunanadək yaddaşında qalanları xatırlayırdı. Həmin vaxtdan iki il sonra həyat yoldaşı Sabina da həbs olunmuşdu.

Riçardı o biri məhbuslar olan ümumi kameraya köçürəndə də həyatı yaxşılaşmadı. Səhər saat 5-dən axşam saat 10-a qədər məhbuslar əlləri arxalarında zəncirlə bağlanmış halda düz oturmalı idilər. Zəif və skelet kimi arıq olan bu insanlar döşəməyə qoyulmuş qabdan yeməyi it kimi yeyirdilər. Onlara on yeddi saat ərzində istirahət etməyə, hətta gözlərini belə yummağa icazə verilmirdi. Gözləri bağlı halda döyülən və dağlanan Riçard imanına görə cəzanın

izlərini bədənində daşıyırdı. İllər sonra o, ABŞ Senatı qarşısında həmin dərin yaraların qoyduğu izləri göstərib belə deyəcəkdi:

«Hər tərəfdən məni «Əyyublar» əhatə edirdi. Onlardan bəziləri Əyyubdan daha çox əzab çəkmişdi. Amma mən Əyyubun hekayəsinin sonunu bilirdim. O, əvvəl sahib olduğundan iki dəfə artığını əldə etdi. Ətrafımda eləcə də dilənçi, ac və bədəni yaralarla dolu «Lazarlar» var idi. Lakin bilirdim ki, mələklər bu insanları İbrahimin qucağına aparacaqlar. Mən onları əbədiyyətdə olacaqları vəziyyətdə görürdüm. Yanımda olan cır-cındırlı, çirkli, zəif şəhiddə mən başına möhtəşəm tac qoyulmuş sabahın müqəddəsini görürdüm.»

Sükutu kommunist ideyaları ilə «beyni yuma» proqramı pozurdu. Saatlarla aparılan aramsız sorğu-suallar faydasız idi, çünki Riçard Rumıniya kilsəsindəki bacı-qardaşlarını ələ verməkdən imtina etmişdi.

Riçardın «beynini yumağa» çalışan təkcə mühafizəçilər deyildi. Bəzən o, qaranlıq və soyuq kamerada şərin hüzurunu hiss edirdi. Uşaqlıqda Riçardın gözünə istehza ilə gülən şeytan görünürdü. İndi həbsxanada olduğu vaxt iblis yenidən onu ələ salmağa gəlmişdi. Riçard, demək olar ki, onun istehzalı acı sözlərini eşidirdi: *«Bəs sənin İsan haradadır? Xilaskarın səni xilas edə bilmir. Səni aldadıblar və sən də başqalarını aldatmısan. O, Məsih deyil. Sən səhv adamın dalınca getmisən».* Müdafiəsiz qalan Riçard özünü tənha və unudulmuş bir adam kimi hiss edirdi...

Məhbusların hissləri itənə qədər onlara hansısa narkotik maddə vururdular. Riçard fikrini bir yerə toplaya bilmirdi. Bəzən Rəbbin duası belə ona çox uzun görünürdü və duanı yadına sala bilmirdi. Bir dəfə olan qalan gücünü toplayıb yavaşca bu sözləri deyə bildi: «İsa, mən Səni sevirəm».

*«Sən məni sevirsən?* — deyə İsa soruşdu, — *indi Mən də səni necə sevdiyimi göstərərəm».*

Birdən Riçardın ürəyi Xamma kəndinə gedən iki şagirdin ürəkləri kimi alışıb yanmağa başladı. «Mən hamımız üçün çarmıxda Öz həyatını verənin məhəbbətindən agaham. Kommunistlərin günahı

nə qədər böyük olsa da, Allahın məhəbbəti onlara da şamil edilir». Riçard nə qədər çox əzab çəkirdisə, ürəyində ona işgəncə verənlərə bir o qədər çox sevgi hiss edirdi. O, hər bir günahkarın xilasını istəyən Məsihin hamını əhatə edən sevgisinə inanırdı.

Bəzi vaxtlar, xüsusilə təkadamlıq kamerada keçirdiyi qaranlıq günlərdə Riçard ağlını Kəlam üzərində düşünməklə qidalandırırdı. O, bütün gecəni ayaqyalın üç addım qabağa, üç addım dala gedir, kiçik kamerasında vəz hazırlayıb onu Allahın və mələklərin hüzurunda bölüşürdü. Onun kamerasında Müqəddəs Kitabın qəhrəmanları canlanırdı. O, İbrahimi dəvələri, İsanı şagirdləri ilə və Aralıq dənizi boyunca müjdəçilik səyahətinə çıxan Paulu görürdü. Yemək kasad idi, amma ruhani qida bol idi.

Riçard gecələri dünyanın başqa ölkələrində yaşayan məsihçilər, eləcə də onu həbs edənlər üçün dua edərək keçirirdi. Bir gün təkadamlıq kamerada oturduğu vaxt otaq birdən-birə parlaq işıq şüaları ilə nurlandı. Boz həbsxana divarları brilyant kimi bərq vururdu. Səmavi musiqi sükutu pozdu. Qaranlıq yoxa çıxdı, Allah zindanı gözəllik aləminə — Məsihin Özünün olduğu aləmə çevirdi. Sonralar Riçard bu barədə düşünəndə deyirdi: «Həmin an padşahların Padşahı, İsa Özü mənimlə idi!»

*****

Kamerada tək-tənha olsa da, Riçard Məsihin hüzurunu aydın hiss etdi. O anladı ki, təqiblər kimi bağışlanma da gerçək bir məfhumdur. Onun isə bağışlayacağı çox şey var idi...

Şərin daha çox hiss olunduğu ən çətin günlərdə iblisin hədələrinə qarşı dayanmaqdan ötrü Riçard özü üçün belə bir şeir qoşdu:

*Məhəbbət bəraət qazandırır.*
*Məhəbbət müdriklər üçün deyil.*
*Minlərlə sınaqlara sinə gərsə də,*
*sevməyindən qalmır.*

*Alov onu yandırsa da, dalğalar onu boğsa*
*da, o, ağrıyan əli öpür.*
*Hətta suallarına cavab tapmasa da,*
*əminliklə gözləyir.*
*Bir gün günəş qaranlıqda nur saçacaq və*
*bütün sirlər aşkara çıxacaq.*

Riçardın başı üzərindəki lampa bütün gecəni yandı, lakin həmişəki kimi heç səs salmadı. Onun kiçik kamerasına sükut nüfuz etdi. Zahiri dünya — yağış, külək, ağacların yırğalanması yoxa çıxdı. Bütün bunlar Riçardın yaddaşından silinmişdi. Sükut hətta Sabinanın səsini də ondan oğurlamışdı.

Heç bir səsin olmadığı mühitdə onu şübhələr boğmağa başlayırdı. O, Allahın gücünü həqiqətənmi hiss edib, yoxsa onun Çobanı sadəcə təxəyyülün məhsulu idi? Riçard doğrudanmı başqalarını sevirdi, yoxsa ancaq özünə xidmət edirdi? O, siyasi xadim, milyoner və ya memar olsaydı, daha yaxşı olmazdımı? Görəsən, Allah həqiqətənmi mövcuddur, yoxsa kommunistlər düz deyir? Yaxşı, bəs Allah haradadır?

Riçard çox istəyərdi ki, sevimli «Paterik» kitabı əlində olsun. O, ilk dəfə dörd yüz səhifəlik kitabı oxuyanda nə yeyib, nə də içmişdi. Bu kitabda V əsr məsihçilərinin tarixi təsvir olunurdu. Onlar imanlarını qoruyub saxlamaq və bütpərəst Roma cəmiyyətinin onu məhv etməməsi üçün Misir səhrasına çəkilmişdilər. Cəmiyyətdən təcrid olunmuş bu səhrada rahiblərdən biri ağsaqqaldan soruşmuşdu:

— Ata, sükut nədir?

Ağsaqqal isə belə cavab vermişdi:

— Oğlum, sükut Allahın hikməti və qorxusu içərisində öz hücrəndə tənha oturub, ürəyini alovlu qızmar düşüncə oxlarından qorumaqdır... Sükut vaxtı insan ən vacib şeylərin qayğısına qalır və yalnız İsa Məsihlə danışır! Sükutu qoruyan isə belə oxuyur: «Ya Rəbb, qəlbim səni izzətləndirir!»

Əvvəllər sükut Riçardı narahat edirdi. Amma tezliklə sükut onun üçün xeyir-duaya çevrildi. O, sonralar belə deyirdi: «Sükutda mən Məsihin öpüşünü hiss edirdim. Axı insan kimsə onu öpəndə sakit dayanır. Beləcə rahatlıq və sevinc yenidən mənə qayıdırdı».

Başqa məsihçilərin xatirələri Riçardı ruhlandırmışdı. O, artıq özünü tək hiss etmirdi, əksinə, əsrlər boyu Məsihin hüzurundan zövq almış minlərlə pastorun əhatəsində duyurdu. Riçardı xəyalən iman qəhrəmanları əhatə etmişdi və onların şəhadətinə, qələbəsinə görə o, tezliklə ruhani gücünün bərpa olduğunu gördü. İsa Özü qırx gün-qırx gecə səhrada tənha qaldıqdan sonra mələklər yanına gəlib təsəlli vermişdilər (Matta 4:11). Riçard da hiss edirdi ki, mələklər onun qayğısına qalır.

Beləcə sükut ağacında sülhün bəhrəsi yetişirdi. Riçard bu həqiqətə inanmağa və hər gün onunla qidalanmağa başladı. Allah *mövcuddur*. Riçard hər gün Məsihin hüzurunu duyurdu. Allah onu pastor olmağa — səhrada gəzməyə, insanları sevib onlara xidmət etməyə, ola bilsin ki, hətta özünü qurban verməyə çağırmışdı. Bəs övladları əzab çəkərkən Allah Özü haradadır? Allah Oğlunun necə əzab çəkdiyinə baxmağın nə olduğunu bilirdi. Axı O, əzabı əbədilik ləğv etmək üçün Məsihi dünyaya göndərmişdi. Riçardı bu fikir çox təəccübləndirmişdi. O, imanının səmimiliyinə inanırdı. Onu ruhlandıran da elə bu idi. Riçardın həyatının hər anı, hər aldığı nəfəsi və hər ürək döyüntüsü Allaha məxsus idi.

Sağlam düşüncəsini qoruyub saxlamaq üçün Riçard gündəlik öz üzərində çalışmalı idi. Hər gecə saat 10-da bütün həbsxanada yatmaq vaxtını xəbər verən zəng çalınırdı. Zəng həm də Riçardın gündəlik rejiminin başlandığına işarə edirdi. O, təkadamlıq kamerada qalarkən iki ildən artıq müddətdə bu rejimə əməl etmişdi.

Gündəlik rejim dua ilə başlanırdı. Bu duanı çox vaxt göz yaşları müşayiət edirdi. Gecə səmasına müdaxiləsiz çatan radio dalğaları kimi, Riçardın etdiyi dualar da dərhal onun kamerasından, dəhlizdən keçərək Allahın taxt-tacına çatırdı.

Duadan sonra Riçard pastor olarkən toplantı qarşısında etdiyi kimi vəz edirdi. Amma əvvəlki vəzlərdən fərqli olaraq, indi onun vəzlərində heç bir məhdudiyyət yox idi: kilsəyə gələnlərin və yepiskopun nə düşünəcəyindən narahat deyildi, həbs olunmaqdan qorxmurdu, casuslardan ehtiyat etmirdi, satqınlardan çəkinmirdi. Riçard mühafizəçilərin diqqətini çəkməmək üçün astadan vəz edirdi. Lakin o, vəzlərini boşluğa danışmırdı. O, Allah, mələklər, cinlər və yadında olan simalar, xüsusilə də Sabinanın siması qarşısında vəz edirdi.

Riçard düşüncələrini daha çox Sabina üzərində cəmləmişdi və dua edirdi ki, Allah onları Sabinaya çatdırsın. Riçard bilirdi ki, Sabinanı ondan boşanmağa məcbur edirlər. Əgər o, nikahda qalsa və xidmətini davam etdirsə, kommunistlər onu həbs edəcək, işgəncə verəcək və ya daha betərini edəcəklər...

Sabina barədə düşündükdən sonra Riçard samandan olan döşəyinin oğlu Mihay olduğunu təsəvvür edərək onu qucaqlayıb «gecən xeyrə qalsın» deyirdi. Bir gecə oğlunun həsrətinə dözə bilmədiyi üçün qapıya cumub yumruğu ilə vurmağa başladı. Mühafizəçilər gəlib ona sakitləşdirici verənə qədər beləcə davam etdi. Səhərisi gün Riçard ümidsiz halda yuxudan oyandı. Doğrudanmı o da başqa məhbuslar kimi ağlını itirirdi?

Riçard çarmıxın aşağısında durmuş İsanın anasını xatırladı. «Məryəm də köməksiz idi. Amma o şikayət etmədi» deyə öz-özünə düşündü. *«Oğlum Mihayın taleyini şikayətlənmədən qəbul etməkdə mənə güc ver»* deyib dua etdi. Yəhyanın sözlərinə əsasən, «Allah Oğlunu dünyaya ona görə göndərdi ki, Ona iman edən heç kəs həlak olmasın, amma əbədi həyata malik olsun» (Yəhya 3:16). Yəqin ki, Riçard da belə edə bilər.

Con Uesli bir dəfə demişdi ki, o, heç vaxt on beş dəqiqə belə kədərli olmur. Riçard Ueslini xatırlayıb Allahın «hər zaman sevinin» əmrinə tabe oldu. O, gülmək, rəqs etmək, zarafatlar fikirləşmək və hətta özü ilə şahmat oynamaq üçün özündə güc tapdı. O, ağ və

qara çörəkdən şahmat fiqurları düzəltdi. İki il ərzində şahmatda bir dəfə də olsun uduzmadı.

Sükut Riçardın ruhani inkişafı üçün lazımi bir mühit oldu. Təkadamlıq kamera onun Məsihin hüzurunda dua edib şəfa alması üçün müqəddəs bir yerə çevrildi. O, Allahın gözəl hüzurundan aldığı böyük məmnunluğu heç bir sözlə ifadə edə bilmirdi və sevincindən nur saçırdı. İsa vəd etmişdi: «Bəşər Oğluna görə insanlar sizə nifrət edəndə, sizi cəmiyyətdən qovub təhqir edəndə, adınızı bədnam edəndə nə bəxtiyarsınız! O gün sevinin və sevincdən atılıb-düşün! Çünki göydə mükafatınız böyükdür» (Luka 6:22–23). Riçard Müqəddəs Ruhla dolaraq sevincindən atılıb düşdü, Padşahı uğrunda əzab çəkməkdən şərəf duyaraq kamerasında rəqs etdi.

Riçard bilirdi ki, Allahın xalqı işığa çıxmazdan əvvəl tırtıl kimi qaranlıq baramanın içərisində yaşamalıdır. Kommunizmin baraması Riçardı müjdəçilik işi ilə təmin etmişdi. O, qərara gəldi ki, onu təqib edənləri nə vaxtsa ola biləcəkləri kimi deyil, olduqları kimi sevsin. Əgər Allah tarsuslu Şaulu dəyişə bildisə, onda Riçardın ən qəddar düşmənlərini də iman yoluna gətirə bilər. Sonralar Riçardın mühafizəçilərindən çoxu İsa Məsihə iman edəcəkdi və ağır cəzaya məhkum olacaqdı.

«Məhz işgəncə prosesində biz onları sevməyi öyrəndik, — deyə Riçard o günləri belə xatırlayacaqdı, — Səmavi darvazalar kommunistlər üçün bağlı deyil və işıq onlar üçün sönməyib».

# 24

Sabina qohumunun gözlərindəki qorxunu görüb narahat oldu. Qohumu həmin axşam bir az əvvəl gəlmiş şübhəli adam barədə dedi:

— O, mənzil istismar idarəsindəndir. Mənzilə adamlar köçürməkdən danışırdı. Amma əminəm ki, sizin giriş qapınızdan başqa neçə çıxış qapınızın olduğunu öyrənmək istəyirdi.

Sabina dərindən köksünü ötürdü, onu soyuq tər basdı. O, bunun nə olduğunu bilirdi. Tezliklə mənzilində axtarış aparılacaqdı.

*****

Sabina hövlnak yuxudan durub gözlərini açdı. Səs-küyün haradan gəldiyini anlamağa çalışaraq həyəcan içində ətrafa baxdı. Nəhayət, o, giriş qapısının bərk-bərk döyüldüyünü eşitdi. O, yatağında durub oturdu və gecələr yanında qalan rəfiqəsi də oyandı. Sabina gözlərini qıyıb saata baxmaq istədi. Səhər saat 5 idi. Axtarış başlandı.

Sabina hirsli qışqırıqların içərisindən qohumunun səsini eşitdi. Pilləkənlərdəki çəkmələrin tappıltısı tezliklə ətrafa yayıldı. Onlar Sabinanın yataq otağına tərəf gəlirdilər. *«Əgər Riçard burada olsaydı, orqan işçiləri ilə necə rəftar etməyi bilərdi»* deyə qadın özlüyündə düşündü. Lakin Riçard artıq iki il idi ki, evdə yox idi. Sabina və onun rəfiqəsi yorğanlarını üstlərinə çəkərək yataqlarında oturub gözləyirdilər.

Vəzifəsi o birilərdən böyük olan boynu yoğun kişi qışqırdı:

— Sabina Vurmbrand? Biz bilirik ki, siz burada silah gizlədirsiniz. Göstərin, görək haradadır. Cəld olun!

Sabina ağzını açmağa macal tapmamış altı kişi şkafları açmağa və içindəki hər şeyi döşəməyə tökməyə başladı. Onlar daxıldakıları və kitab rəfindəkiləri yerə boşaltdılar. Sabinanın rəfiqəsi kitabları yığmaq üçün ayağa durdu. Kişi qışqıra-qışqıra dedi:

— Qoy qalsın! Geyinin!

Qadınlar otağı axtaran kişilərin yanında paltarlarını geyinməli oldular.

— Deməli, sən silahı harada gizlətdiyini boynuna almırsan?! Onda biz bu evi dağıdıb tökəcəyik!

Müqəddəs Ruhun hüzurundan cəsarətlənmiş və hirsi soyumuş Sabina yerə səpələnmiş əşyaların altından Müqəddəs Kitabı çıxardıb göstərərək dedi:

— Bizim evimizdə olan yeganə silah budur.

Boynu yoğun kişi bağırdı:

— Bu silahlar barədə ətraflı izahat vermək üçün sən bizimlə gedəcəksən!

Sabina Müqəddəs Kitabı stolun üstünə qoyub dedi:

— Xahiş edirəm, bizə dua etmək üçün bir-iki dəqiqə vaxt verin. Sonra sizinlə gedərəm.

Qadınlar dua edərkən kişilər istehzalı nəzərlərlə onları süzürdülər. Sonra Sabina qohumunu və rəfiqəsini qucaqlayıb dedi:

— Gələn il Yerusəlimdə!

Sabinanı aparanda o, tələsik stolun üstündən kiçik bir bağlama götürdü.

*****

Kişilər Sabinanı itələyib «Oldsmobil» maşınının arxa oturacağına saldılar və gözlərinə qara motosiklet eynəyi taxdılar. Yol uzun çəkmədi. Onu maşından çıxarıb heyvan kimi sürüyə-sürüyə pilləkənlərlə yuxarı apardılar. Sabinanı küncə itələyəndə dizi əzildi. Sonra gözlərindən eynəyi çıxarıb arxasınca qapını bağladılar.

Sabina qadınlarla dolu uzun otağa nəzər saldı. Onlar skamyalarda və döşəmədə oturmuşdular. Sabina onların arasından qəzetlərdə şəkli çıxan, yüksək təbəqədən olan qadını, sarayda işləyən qadını və açıq-saçıq paltarlar geyinən aktrisanı tanıdı. İndi Sabina da Rumıniya cəmiyyətinin bu «çürümüş ünsürlər»inin sırasına düşmüşdü.

Axşama qədər otağa bir neçə yüz qadını itələyib salmışdılar. Ölkənin hər yerində «təxribatçı casuslar» adı altında həbslər başlamışdı. Bu həbsləri kommunistlərin Azadlıq günü kimi qeyd etdikləri bayramın ildönümünə həsr etmişdilər. Qadınlar tavandan asılmış yeganə lampanın ətrafında oturmuşdular. Hər birini qorxu bürümüşdü. Saatlar bir-birini əvəz etsə də, heç kim onlara nə su, nə də yemək gətirdi.

Qadınların hamısını bir sual düşündürürdü: *«Görəsən, sorğu-sual nə qədər davam edəcək?» «Onların uşaqlarının taleyi necə olacaq?»* Mihay artıq atasını itirmişdi, indi isə onun anasını tutub aparmışdılar. Onların evləri və içində olan hər bir şey müsadirə olunacaqdı. Sabina dostların ümidinə qalacaq Mihay üçün dua edirdi. İndi hamı təhlükədə idi.

Sabinanın yanında olan qadın yerindən sıçrayıb qapını yumruğu ilə döyəcləməyə başladı:

— Uşaqlarım! Uşaqlarım!

O belə qışqırsa da, heç kim ona cavab vermədi.

Aktrisa dedi:

— Məni tezliklə buradan çıxaracaqlar, görərsiniz!

Qapı yenə açıldı. Qadınlar mühafizəçilərin üstünə qışqırdılar.

Onların hər biri təkid etdi:

— Mən heç bir pis iş görməmişəm.

Guya günahsız olmaları onları xilas edəcəkdi. Sanki onlar 1950-ci il olduğunu və hakimiyyətin kommunistlərin əlinə keçdiyini unutmuşdular.

Qadınların hər birinə deyirdilər: «Səni ifadə vermək üçün bura gətiriblər». Bəziləri üçün bu ifadə vermək prosesi on illərlə davam edəcəkdi.

*****

Sabina gecəni adamlarla dolu otaqda keçirdi. Səhəri gün nəfəsli alətlərdən ibarət orkestrin səsi ətrafa yayıldı. Azadlıq gününə həsr edilmiş parad keçirilirdi. *«Əgər aşağıda parad keçirilirsə, deməli, biz Buxarestin mərkəzi Qələbə küçəsindəki milis bölməsindəyik»* deyə Sabina düşündü.

Qadınlar nizamla yeriyən minlərlə çəkmənin ayaq səslərini eşidirdilər. Parad iştirakçıları şüarları bir ağızdan əzbər deyirdilər:

— 23 Avqust bizə azadlıq gətirdi!

— Həbsxanalarda olan oğrulara və satqınlara ölüm!

— Qırılmış buxovları kənara ataq!

Qadınlar qaşlarını çataraq deyinirdilər. Rumıniya tarixində heç vaxt bu qədər insan buxovlarda olmamışdı.

Nəhayət, həbs olunmuş bu qadınlara qara çörək və sulu şorba gətirdilər. Kasad şam yeməyindən sonra qadınlar yatmağa hazırlaşdılar. Sabina xeyli dua edib sonra yuxuya getdi.

# 25

Ertəsi gün serjant otağa daxil olub bir-bir adları çəkməyə başladı. *Sabina Vurmbrand* siyahıda birinci idi.

Mühafizəçilər yenidən Sabinanın gözlərinə qara eynək taxıb onu küçədə gözləyən maşına mindirdilər. Sabina sonradan bildi ki, onu Raxova küçəsində dövlət təhlükəsizlik xidmətinin binasına gətiriblər.

«Sizlərdən kimsə bu qadını tanıyırmı?» — deyə qadın mühafizəçi Sabinanı içəri salmazdan əvvəl kiçik kamerada olanlardan soruşdu. Heç kim onu tanımırdı, ona görə də Sabinanı oraya yerləşdirdilər. Tanış adamları heç vaxt bir yerdə saxlamırdılar. Dostlar ayrı qalmalı idi ki, bir-birinə dəstək və təsəlli verməsinlər. Həbs olunmuş adamlar yad adamların arasında qalmalı idilər. İstintaq mərhələsində mühafizəçilər məhbusların yerini tez-tez dəyişirdilər ki, onlar bir-biriləri ilə dostlaşıb xəbər verən adamı tanımasınlar. Kameraya gətirilən hər yeni adam xəbərçi ola bilərdi.

Tibb üzrə təhsil alan gənc tələbədən başqa Sabinanın yeni qonşuları kəndli qadınlar idi. Fermerlərin torpaqları kommunistlər tərəfindən zəbt edilərkən bəzi kəndlilərə tribunalda güllələnmə cəzası verilmişdi. Yüz minə yaxın insan isə həbsxanalarda idi.

Bir neçə gün keçəndən sonra mühafizəçilər Sabinanı təkadamlıq kameraya köçürmüşdülər. Onun kiçicik kamerasında bir dənə dəmir çarpayı var idi. Qadın ətrafa nəzər salanda dəhşətə gəldi: orada hətta vedrə belə yox idi. Vedrə məhbuslara ən çox lazım olan əşya idi. Həbsxana həyatında qida və sıxıntılar mədə-bağırsaq sistemində daim pozğunluqlar yaradırdı. Sabinaya bildirdilər ki, hər yeddi-on saatdan bir — səhər saat 5-də, günorta 3-də və gecə saat 10-da

ayaqyolundan istifadə edə bilər. Həzm sistemi pozğunluğundan əziyyət çəkən Sabina qalan vaxtları yalnız dözməli idi.

Avqust ayı olsa da, kamera rütubətli və soyuq idi. Onun başının üstündə çöldən dəmir barmaqlıqlarla əhatə olunmuş balaca pəncərə var idi. Sabina yüngül paltosunda titrəyirdi. Onu evdən çıxaranda əlinə keçən bir cüt yun corabı da geyinmişdi. Üst geyimi nazik olsa da, buna şükür edirdi.

Görəsən, istintaq nə vaxt olacaq? Ona nə suallar verəcəklər? Riçardın sözləri Sabinanın yadına düşdü: «Cəhənnəm — qaranlıqda tənha oturub öz keçmiş günahlarını xatırlamaqdır». Sabina günahlarının çox olduğunu bilirdi və düşünürdü ki, istintaq zamanı onu döyməklə həmin günahları çıxara biləcəkdilərmi?

«Bu gün bir az qatıdır!» — yaşlı mühafizəçi Sabinaya gündəlik qaynadılmış yulaf yeməyini uzadaraq dedi. Çox vaxt yaşlı mühafizəçilər məhbuslarla yaxşı rəftar edirdilər. Bu mühafizəçi də Sabinaya qarşı mehriban idi. Onlar hələ də düşünürdü ki, amerikalılar tezliklə gəlib rumınların çəkdiyi bu əzablara son qoyacaqlar. Amma haradan biləydilər ki, rumınların azadlığı görmələri üçün on illiklər lazım olacaq.

Gecələr Sabina çarpayıda uzanıb onu dəhşətə gətirən ətrafdakı səslərdən — dəmir qapıların cırıltısı, çəkmələrin taqqıltısı və mühafizəçilərin ədəbsiz söyüşlərindən diqqətini yayındırmaq istəyirdi. O, yaxınlıqdakı kameraların dəmir qapılarının açıldığını və məhbusların istintaqa aparıldığını eşidirdi. Hər dəfə bu səsi eşidəndə düşünürdü ki, növbəti istintaq olunan məhbus özü olacaq. O vaxta qədər isə klaustrofobiya (dar yerdə olmaq qorxusu) ilə mübarizə aparırdı.

*****

«Üzü divara!» — Sabinanın kamerasının qapısını açan mühafizəçi qışqırdı və qara eynəyi gözünə taxdı. İki kişi Sabinanı həbsxana dəhlizləri ilə dartıb apararkən onu dəhşətli bir qorxu bürüdü. Sola,

sağa, sola, sağa. Onu güllələyəcəklər? Bəlkə heç bir xəbərdarlıq etmədən onu qaranlıqda öldürəcəklər?

Nəhayət, onlar harasa çatdılar. Sabinanın gözlərindən qara eynəyi çıxardılar. Onu böyük bir otağa gətirmişdilər. Burada parlaq günəş işığı onun gözlərini sanki kor edirdi. Mühafizəçi onu stula otuzdurdu. Stulun qarşısında palıddan düzəldilmiş böyük bir masa vardı. Sabina gözlərini masanın üzərindəki mürəkkəb ləkələrinə dikmişdi. Masanın arxasında iki kişi oturmuşdu. Geyimlərindən görünürdü ki, onlar dövlət təhlükəsizlik xidmətinin əməkdaşlarıdır. Biri bığlı, kök orta yaşlı mayor, o biri isə cavan sarışın leytenant idi. Sabinanın evində axtarış edənlərin arasında o da var idi. Sabina leytenantın üzünə baxanda onu tanıdı. O gülümsəyəndə sanki Sabinanı üşütmə tutdu. Bu oğlan onun Parisdəki sevgilisinə oxşayırdı. Çox qeyri-adi bir bənzərlik var idi.

Sabina gözləyirdi ki, ona qarşı qaldırılmış ittihamı oxuyacaqlar. Amma hövsələsiz mayor sözə başladı:

— Vətəndaş Vurmbrand, hökumətə qarşı etdiyiniz cinayətdən, yəqin ki, xəbərdarsınız. İndi bizə bu barədə ətraflı izahat yazacaqsınız.

— Axı mən nə yazım? Mən heç bilmirəm, məni nə üçün buraya gətiriblər.

Mayor qaşlarını çatıb dedi:

— Siz hər şeyi çox gözəl bilirsiniz.

Stolun üstündə kağız və qələm var idi. Sabina zabitləri razı salmaq üçün əlinə qələm götürüb nəyə görə həbs olunduğunu bilmədiyini vərəqə yazdı. Mayor onun yazısına baxıb başını tərpətdi. Sonra əmr etdi ki, növbəti məhbusu gətirsinlər.

Kameraya qayıdanda bütün yol boyunca mühafizəçi gözləri bağlı Sabinanın üstünə qışqırıb onu divara çırpırdı. Kameraya daxil olub arxasınca qapı bağlananda isə, Sabina gördü ki, mühafizəçi kiçik gözlükdən ona baxır.

— İndi isə otur, mayorun sənə dediklərini yazanacan fikirləş. Əgər yazmasan, səninlə başqa cür rəftar edəcəyik.

Sabinaya «başqa cür rəftar» yaxşı məlum idi. İşgəncələr. Hədə-qorxular. Ələ salmalar. Alçaltmalar. O, qonşu kameralarda lentə yazılmış qışqırıq səslərini, dəhlizlərdə quraşdırılmış səsgücləndiricilərlə verilən güllə səslərini eşidirdi. Psixoloji işgəncələr məhbusun inadkarlığını istintaq üçün qırırdı.

Amma işgəncələr psixoloji hücumlar ilə kifayətlənmirdi. Növbəti həftələr və aylar ərzində Sabina məhbuslara edilən dəhşətli fiziki işgəncələrə də şahid olacaqdı.

Sabinanın onu sorğu-sual edənlərə verəcəyi cavablarla bağlı yaşadığı çətinlik yeni bir şey deyildi. O, faşistlərin hakimiyyəti dövründə də bununla üzləşmişdi. Bəzi məsihçilər fikirləşirdilər ki, başqalarını xilas etmək üçün yalan danışmaq qəbuledilməzdir. Onlar elə bu düşüncələrinə uyğun hərəkət edirdilər. Sabina isə düşünürdü ki, evdə pulun harada gizlədildiyini oğruya demək olmaz. Həkim əlində silah olan xəstənin əlindən silahı almaq üçün onu aldada bilər. Kommunistlərin nifrəti səbəbsiz ağılsızlıqdır. Əgər onların yeganə məqsədi məhv etməkdirsə, onda məsihçilər belələrini aldatmalı idilər.

*****

Səhəri gün mayorla leytenant Sabinanı gözləyirdilər. Mayorun qeyd dəftərcəsində suallar var idi və tez-tez bir-birinin ardınca həmin sualları soruşmağa başladı. Onun məqsədi Riçarda qarşı işlənə biləcək məlumat toplamaq idi.

Mayor dedi:

— Hər bir kişinin zəif tərəfi var.

Kommunistlər Riçardın zəif tərəfini axtarırdılar. Sabina bilirdi ki, istintaqda ona qarşı çox qəddar olacaqlar. Müstəntiq ondan soruşdu ki, əri iş yoldaşları ilə nəyi müzakirə edirdi. Sabina cavab verdi ki, onlar heç vaxt siyasətdən danışmırdılar, onların söhbətləri həmişə din barədə olub.

Mayor gülümsündü:

— Vətəndaş Vurmbrand, Müqəddəs Kitab başdan-ayağa siyasətlə doludur. Üsyan edən peyğəmbərlər Misir hakimiyyətindən şikayət edirdilər. İsa öz dövrünün hakim sinfinə qarşı çıxmışdı. Əgər sizin əriniz məsihçidirsə, onda onun hakimiyyət barədə aydın fikirləri var.

— Mənim ərimin siyasətə marağı yoxdur.

Mayor ona nə qədər təzyiq göstərsə də, Sabina amiranə tərzdə danışırdı.

Mayor səmimi olmağa çalışdı:

— Vətəndaş Vurmbrand, siz həm də çox ağıllı qadınsınız. Ancaq sizin belə davranışınızı anlaya bilmirəm. Siz və əriniz yəhudisiniz. Biz isə sizi faşistlərdən xilas edən kommunistlərik. Əslində siz bizə minnətdar olmalısınız. Bizim tərəfimizdə olmalısınız!

O, gözlərini qıyıb astadan davam etdi:

— Sizin əriniz əksinqilabi fəaliyyətlərdə ittiham edilir. Onu güllələyə bilərlər. İş yoldaşları da ona qarşı ifadə veriblər.

Sabinanın ürəyi düşdü. Bütün dünya sanki başına fırlandı. Mayor, təbii ki, yalan danışırdı və qadının reaksiyasına baxırdı. Sabina özünü toplamağa çalışdı.

Mayor sözünə davam etdi:

— Kim bilir, bəlkə *onlar* özlərini xilas etməyə çalışırlar. Ola bilsin, elə *özləri* də əksinqilabçılardır. Əgər siz müjdəçilik xidmətində çalışanların dediyi hər şeyi bizə danışmasanız, biz bu barədə öyrənə bilmərik.

O sözünə davam etməzdən qabaq bir az fasilə etdi:

— Hər şeyi danışın. Əsl əksinqilabçıları ifşa edin və sabah əriniz azadlığa çıxacaq.

Mayor leytenanta tərəf çevrilib gülümsündü, Vurmbrandların gələcəyi barədə xoş söhbətə onu da dəvət etdi. Cavan oğlan da üzünü Sabinaya tutub onu ruhlandırdı:

— Onda siz evinizə, ailənizə qayıda bilərsiniz.

Mihayın və kilsədəki ailəsinin yanına qayıtmağı düşünəndə Sabina bir anlıq sevindi. Lakin bu hissləri dərhal özündən kənarlaşdırdı və o, soyuqqanlıqla cavab verdi:

— Mən heç nə bilmirəm!

Mayor ayağa durub Sabinaya donuq baxışlarla baxaraq dodaqlarını bir-birinə sıxdı. O, bir addım atıb Sabinaya yaxınlaşdı və üzünə yumruq vurdu. Sabina döyülməyə hazır idi.

Kamerasına qayıdanda Sabina yaralarına baxdı. O, çarpayısına oturub ayaqlarını döşəyin üstünə uzatdı. Ayaqları çarpayıdan aşağı sallanırdı. Qadın bir anlıq ərini düşündü: *«Yazıq Riçard hündürboydur, yəqin ki, onun da ayaqları çarpayıdan belə sallanır. Görəsən, onun başına nələr gətirirlər?»*

Artıq iki il idi ki, Sabina ərinin üzünü görmürdü. Onun bircə arzusu bu idi ki, Riçard sağ qalsın və təslim olmasın. Bütün gecə bu arzusunu düşünərək təsəlli tapırdı.

*****

Mayorun baxışlarında yorğunluq görünsə də, sanki qələbə parıltısı var idi. Bu dəfə sorğu-sual faşistlərə yönəlmişdi. Sabina almanlardan kimləri tanıyır? Vurmbrandların onlarla hansı əlaqələri var? O bilir ki, faşistlərə sığınacaq verənləri güllələyirlər? Nəyə görə Sabina öz evində alman zabitlərini gizlətmişdi?

Sabina səmimi deyə bilərdi ki, faşistləri evində gizlətməyib. Sabina üçün onlar faşistlər deyildi, sadəcə insanlar idilər. Onların ehtiyacları var idi. Vurmbrandlar isə kimliklərindən asılı olmayaraq bir çoxlarına kömək etdikləri kimi, onlara da kömək etmişdilər. Mayor istehzalı nəzərlərlə baxaraq dedi:

— Deməli, siz bu ittihamı inkar edirsiniz. Onda sizin üçün sürprizimiz var.

O, stolun altındakı zəng düyməsini basdı. Mühafizəçilər otağa bir məhbus gətirdilər. O, Sabinanın tanıdığı adam idi. Stefanesku 1945-ci ildə Vurmbrandların ailəsi ilə yaşamışdı və onların almanlar üçün etdikləri bütün işlərdən xəbərdar idi. Sabinanın ovucları tərləməyə başladı. Stefaneskunu qabağa itələdilər. Onun həyəcanlı gözləri gah mayora, gah leytenanta, gah da Sabinaya baxırdı. O,

reallıqdan qaçmağa çalışaraq udqunub gözlərini yumdu. Mayor siqaretini alışdırıb bir qullab alaraq dedi:

— Bu da Stefanesku. De görək, Vurmbrandlar evlərində faşistləri necə gizlədirdilər.

Sonra başı ilə Sabinanı göstərdi.

— Bu qadını tanıyırsan?

— Yox?

— Necə yəni?

— Mən onu heç vaxt görməmişəm.

— Sən yalan danışırsan!

Stefanesku yenə gözlərini yumub yeni zərbəyə hazırlaşdı.

— Yox, cənab müstəntiq.

Mayor qışqıraraq söyüş söyməyə başladı. O, Stefanesku ilə üzbəüz dayandı və bütün var-gücü ilə bağırdı. Stefanesku karıxmış halda yenə də Sabinanı tanımadığını dedi. Bu hal dəfələrlə təkrarlandı.

Nəhayət, mayor yumşaldı. Deyəsən, ona elə gəldi ki, bu, cəfəngiyatdır: bütün ailəsi faşistlər tərəfindən öldürülmüş yəhudi qadın ərinin, oğlunun və özünün həyatını təhlükəyə ataraq faşist zabitini niyə evində gizlətsin ki. Sonra mayor Sabinaya tərəf çevrilib Vurmbrandların sovet ordusu ilə əlaqəli gördükləri işlər barədə onu sorğu-sual etdi. Sabina təhlükəli suallara cavab verməkdən yayına bildi.

Yuxusuzluqdan əziyyət çəkən qadın həmin gecə çarpayısında uzanıb bir vaxtlar sovet ordusunun arıq, uzun, gənc əsgərlərinin onların mənzillərində toplaşdığını xatırladı. Onlar necə də böyük sadəliklə Allahın Kəlamına qulaq asırdılar! Bir dəfə Riçard Məsihin üçüncü gün ölülərdən dirildiyini deyəndə, onlardan biri mətbəxdə atılıb düşərək rəqs etmişdi.

Gün ərzində baş verənlər Sabinanı ruhlandırmışdı. O, kamerada tənha olsa da, Allahın güclü hüzurunu hiss edirdi. Allah ona bu gün qüvvət və hikmət vermişdi: o, rus dilində İncil kitablarının çapı,

kasıblar üçün maddi vəsaitin əldə olunması ilə əlaqədar ona verilən suallardan yan qaça bilmişdi. Bəlkə çətinliklər artıq arxada qalıb?

O, divardan qopub düşmüş əhəng suvaqdan qara yorğanın üstündə böyük bir çarmıx şəkli çəkdi.

# 26

Sabinanın növbəti müstəntiqi kök, tərli bir kişi idi. Onun əlləri tüklü, başı isə keçəl idi. O, qəhvəyi qovluqdan sənədləri oxuyarkən Sabina mürəkkəblə ləkələnmiş stolun qabağında durub gözləyirdi. Sarışın leytenant qalın dərslikdən nəsə qeydlər edirdi, hərdənbir hiyləgər nəzərlərlə Sabinanı altdan yuxarı süzürdü. Elə bil ki o, Sabinanın bilmədiyi nəyisə bilirdi.

Nəhayət, sorğu-sual başlandı. Bütün suallar şəxsi zəmində idi: Sabinanın ailəsi, dostları, xaricə səyahətləri, hətta Parisdə yaşadığı tələbəlik illəri. Müstəntiqin sualları vermək tərzi rahat, rəvan və səmimi idi. O, adi rəsmi tonda dedi:

— İndi isə, biz istəyirik ki, sən seksual münasibətlərinin tarixçəsini burada yazasan.

Sabina başını qaldırıb çaşqınlıq içində alnını qırışdırdı.

Müstəntiq səbirlə izah etdi:

— Bəli, seksual münasibətləriniz haqqında. Güman edirəm ki, sizdə belə şeylər olub, elə deyilmi? Sizin birinci təcrübəniz. O sizi necə əzizləyib, siz onu necə öpdünüz? Sonra nə baş verdi? O, harada sizinlə yaxınlıq etdi və bunlar harada baş verdi? Birinci görüşdüyünüz oğlan bunu etdi, yoxsa o birisi? Deyin görək sizi necə qucaqladı? Onların hər ikisini müqayisə edin. Ya da hər üçünü. O biri sevgililəriniz barədə də yazın. Biz sizin ətraflı hesabat verməyinizi istəyirik, necə deyərlər, addımbaaddım.

Onun sakit nəvazişli tonu sanki Sabinanın üzünə dəyən bir şillə idi. Leytenant Sabinaya baxdı, ağzının kənarında qırmızı bir yaraya toxunanadək dili ilə dodaqlarını yaladı.

— Hamısını yazın. Biz hər şeyi bütün təfərrüatı ilə bilmək istəyirik. Mən əminəm ki, onlar çox olub.

Sabina sakitliyini qorumağa çalışdı.

— Sizin mənə belə suallar verməyə heç bir haqqınız yoxdur. Siz məni əksinqilabçı olmaqda və ya istədiyiniz hər şeydə ittiham edə bilərsiniz, amma bura əxlaq məhkəməsi deyil.

Kişi tüklü barmaqları ilə stolu döyəclədi.

— Hansı suallar verəcəyimizi biz bilərik. Deyirlər ki, sən guya müqəddəs qadınsan. Amma biz əksini düşünürük. *Bilirik* ki, bu, belə deyil. İndi biz sənin iç üzünü açıb göstərmək istəyirik...

Leytenant onun sözünü bitirdi:

— Bir fahişə kimi.

— Mən sizin tələbinizi yerinə yetirməyəcəm.

— Baxarıq!

Keçəl müstəntiq Sabinaya nalayiq suallarını yağdıraraq, qəzəbdən sanki od püskürürdü. Onun ağzından biədəb sözlər tökülürdü. O, ətli ovcunu stolun üstünə döyəcləməklə sanki hər cümləsinə bir nida işarəsi qoyurdu.

Sabinanın paltarları tərdən islanmışdı. Başı hərlənirdi. O, heç nə yazmayacaqdı. Bir saatdan sonra sorğu-sual bitdi. Müstəntiqlər eyni sualları başqa qadınlara da verdikləri üçün, deyəsən, artıq yorulmuşdular.

Keçəl müstəntiq fikrini tamamlamağa başladı:

— Vaxt bizim xeyrimizə işləyir. Sənin ərin artıq boynuna alıb ki, satqın və casusdur. Sizin hər ikinizin yeri zibil vedrəsidir.

O, hiddət dolu nəzərlərlə Sabinaya baxırdı. Sabina isə titrəyirdi.

Mühafizəçilər qara eynəyi onun gözünə taxıb turş qoxu gələn dəhlizlə kameraya apardılar. Sabinanı kameraya salmazdan əvvəl eynəyi gözündən çıxardılar. O ilk dəfə qaldığı kameranın nömrəsini gördü.

Yeddi.

O, yeddinci nömrəli kamerada idi. Müqəddəs bir rəqəm. Yaradılışın günlərinin sayı. Menoradakı budaqların sayı. Sabina

çarpayısına yıxılıb hönkürtü ilə ağladı. Bir müddətdən sonra bir az sakitləşdi. Onun cismi hələ də çarpayıda uzanmışdı, amma ruhu isə həbsxana divarlarından yuxarıya qalxmışdı. O, Məsihlə çarmıxa çəkilmişdi. Əgər «tamam oldu» deməyin vaxtı çatıbsa, onda o, yaxınlarına, dostlarına, hətta İsa kimi yanındakı quldura belə məhəbbət sözləri demək istəyirdi.

*****

Sabina bir neçə ay təkadamlıq kamerada qaldı. Oradan yalnız müstəntiqlərin sonu bitməyən suallarına cavab vermək üçün çıxarılırdı. O, günorta yağlı şorbanı yedi və Riçardla evliliklərinin ilk günlərini xatırladı. O, yemək barədə çox vasvası idi.

Sabina hər gecə yeddi nömrəli kamerada Çıxış kitabından ayələri əzbərdən deyir, Allahın İsrail xalqını misirlilərin köləliyindən necə azad etdiyini özünə xatırladırdı. O bilirdi ki, Riçard da harada olursa olsun, belə edir. Sabina inanırdı ki, Allah bir gün onları da azad edəcək.

Keçəl müstəntiq Sabinanın seksual həyatı barədə ədəbsiz suallarını verməkdə davam edirdi. Sabina da hər dəfə bu suallara cavab verməyəcəyini israrla bildirirdi: «Mən sizin eşitmək istədiyiniz şeyləri deməyəcəyəm». O bilirdi ki, ən pis «seksual həyat» belə insanın Allaha yaxınlaşmasına mane ola bilməz və istənilən günahkar özünü Allaha təslim etsə, müqəddəs ola bilər. Məsələn, Əhdi-Ətiqdəki fahişə qadın Raxav Əhdi-Cədiddə üç yerdə Allaha hörmət edən saleh biri kimi qeyd olunub (Yeşua 2:1, Matta 1:5, İbranilərə 11:31, Yaqub 2:25).

Nəhayət, müstəntiq Sabinanı şəxsi həyatı barədə sorğu-sual etməyi dayandırdı. Bir neçə gündən sonra Sabina ümumi kameraya köçürüldü. Qış gəlirdi, otaq sanki buzxana idi. Onun yüngül paltosuna və yun corablarına indi kamera yoldaşları həsəd aparırdı. Sabina öz var-dövlətini məhbus yoldaşları ilə bölüşdü. Onun paltosu

yorğana, xalatı isə sorğu-sual üçün rəsmi geyimə çevrildi. Sabina öz nimdaş corablarını nazik pambıq paltar geyinmiş qıza təklif edəndə, qızın avazımış üzündə göz yaşları gilələndi.

*****

Mühafizəçi onun alman mənşəli soyadının ilk «v» hərfini deməyə çalışaraq əmr etdi:

— Vurmbrand! Eynəyi taxın!

Pis qoxusu olan dəhlizlərlə gözübağlı addımlayaraq kişilərlə dolu bir otağa daxil oldular. Orada tam sükut var idi və Sabina gözlərin ona dikildiyini hiss etdi.

— Eynəyi çıxarın!

Gur işıq onun gözlərini qamaşdırdı. Lakin bir neçə saniyədən sonra o, uzun və pəncərəsiz otağa nəzər sala bildi. Stolun arxasında forma geyinmiş on zabit əyləşmişdi. Onlardan biri soruşdu:

— Sən bilirsən, ərinin başına nə gəlib? Otur. Əgər sorğu-sualda bizə kömək etsən və suallara cavab versən, onda ərini görə bilərsən.

Sabina həqiqətən də inandı ki, onun Riçardla görüşməsinə imkan verəcəklər. Axı nə Riçard, nə də Sabina heç bir cinayət törətməmişdi. Bəlkə əri artıq məhkəmə qarşısına çıxıb və bəraət qazanıb. İlk həbs olunduğu vaxtlarda o, necə də sadəlövh idi.

Riçard və yoldaşları barədə bitib-tükənməz suallar Sabinanı az qala dəli edəcəkdi. Onların bəzilərinə cavab verə bilmirdi, digərlərinə isə cavab vermək istəmirdi. Onun başı hərlənirdi və əsəbləri tarıma çəkilmişdi.

Mühafizəçilərdən biri ona xəbərdarlıq etdi:

— Burada ağlamağa icazə verilmir.

Amma Sabina özünü saxlaya bilmədi. İki saat ərzində gözlərindən axan yaş damla-damla yanaqlarından süzüldü.

Zabitlər onu hədələyir, azadlıq barədə vədlər verir, pul təklif edirdilər.

Sonra keçəl müstəntiq dedi:

— Hər bir qadının qiyməti var. Sən ismətli qadınsan. Sən öz qiymətini qaldıra bilərsən. Yəhuda axmaq idi, öz müəllimini otuz gümüş pula satdı. O, üç yüzə də sata bilərdi. Bizə de görək, nə istəyirsən? Özün və ərin üçün azadlıq? Ərin üçün yaxşı kilsə? Biz sizin ailənizin qayğısına qala bilərik. Siz isə bizim üçün çox qiymətli ola bilərsiniz. Bircə satqınların adını deyin, bunların hamısı yoluna qoyular.

Müstəntiq sözünü bitirən kimi otağa sükut çökdü. Sabina bu sükutu pozdu:

— Çox sağ olun, mən artıq özümü satmışam. Allahın Oğlu əzab çəkdi və mənim üçün Öz həyatını verdi. Siz Ondan böyük bir məbləğ ödəyə bilərsinizmi?

*****

Vurmbrandların toy günlərinin ildönümü oktyabrın 23-ü gəlib keçdi və tezliklə payızı qış əvəz etdi. Sabina bircə dəqiqə belə, Mihayı unutmurdu. Uşaq çox tez-tez soyuqlayırdı. Görəsən, gecə üstünü açanda, kim örtür? Hər gün Sabinanın ağlına yüzlərlə şübhə gəlirdi.

Noyabr ayında kameraya həbsxananın rəisi özü gəldi. Qadınların bəzilərinə əmr edildi ki, yola düşmək üçün on dəqiqəyə hazır olsunlar. Sual vermək qadağan idi. Sabina məhbus yoldaşlarının üzündə qorxu gördü. Onlar qorxudan əsə-əsə köhnə cır-cındırlarını bir yerə yığdılar. Qadınlar düşünürdülər ki, ya onları həbsxanadan buraxacaqlar, ya da güllələyəcəklər.

Neçə illərdən sonra Sabina biləcəkdi ki, onu əslində dövlət təhlükəsizlik xidmətinin leytenantı Corc Borunun protokoluna əsasən ittiham etmişdilər: «Olteni küçəsi 45 ünvanında yerləşən müjdəçi lüteran kilsəsinin xidmətçisi kimi vətəndaş Vurmbrand kommunist hökumətinə qarşı düşmənçilik fəaliyyəti ilə məşğul olmuş və kommunist rejiminin, eləcə də marksist ideyalarının

dağıdılmasına yönələn işlər görmüşdür». İttihamlarda onun imanına da toxunulmuşdu. Orada qeyd olunmuşdu ki, o, kilsəyə gələnlərdən həbsxanalarda olanlar üçün dua etməyi xahiş edib. «O öz imanında fanatikdir, camaatı inandıra bilir və böyük təsir gücünə malikdir».

Sabina məhkəməsiz əmək-islah düşərgəsində iyirmi dörd aylıq ağır əməklə həbs cəzasına məhkum edildi. Bu vaxt bitdikdən sonra həbs müddəti yenidən uzadıldı. O, əmək düşərgələrinin «inzibati» sakinləri kimi qruplaşdırılmış minlərlə məhbusdan biri idi. Onların qul əməyi kommunist iqtisadiyyatı üçün lazımlı idi. Qəzetlərdə hökumət iş yerləri yaratdığı üçün alqışlanırdı, amma həbslər barədə bir kəlmə belə yazılmırdı. Dövlət nəyi xoşlayırdısa, onu edirdi və nəyi istəyirdisə, onu çap etdirirdi.

Ölkənin hər guşəsində əmək düşərgəsi peyda olmağa başladı. Əmək normalarını yerinə yetirməyən «təxribatçılar» — qaraçılar, cinayətkarlar, kahinlər, fahişələr, varlılar «yenidən tərbiyə edilmək» üçün oraya göndərilirdi. Bu düşərgələr o qədər böyük idi ki, orada həmişə on iki yaşdan tutmuş yetmiş yaşa qədər iki yüz mindən artıq kişi, qadın və uşaq olurdu. Bütün sosialist ölkələrində belə metodlarla «sosialist yenidənqurma» həyata keçirilirdi. Rumıniya öz işsizlik problemlərini uğurla həll etmiş nümunəvi ölkəyə çevrilmişdi.

Sabina bu «uğurlu həll»də iştirak etməzdən qabaq onu bir müddət qalmaq üçün Cilava adlı həbsxanaya köçürdülər. Bura ölkənin ən qorxulu həbsxanası hesab olunurdu.

# 27

Riçard Raxova küçəsindəki həbsxanada qalarkən bir gün kameranın divarından zəif taqqıltı səsləri gəldi. Əvvəlcə düşündü ki, ona elə gəlir, amma taqqıltı səsləri kəsilmədi. Tezliklə Riçard başa düşdü ki, yanındakı kameraya yeni məhbus gəlib və kod vasitəsilə danışmaq istəyir. Bir taqqıltı «a,» iki taqqıltı «b,» üç taqqıltı... və s. demək idi.

Divarın o tayındakı məhbus taqqıltı ilə soruşdu:

— Sən kimsən?

Riçard cavabında taqqıldatdı:

— Mən pastoram.

Növbəti bir neçə saat ərzində onların arasında uzun və yorucu söhbət getdi.

Riçard taqqıldadaraq ondan soruşdu:

— Siz məsihçisiniz?

Bir neçə dəqiqə keçdikdən sonra taqqıltı səsi gəldi:

— Mən deyə bilmərəm ki, məsihçiyəm.

Söhbət əsnasında Riçard öyrəndi ki, onun həmsöhbəti 52 yaşlı radiomühəndisdir və ağır cinayət törətdiyi üçün məhkəməsini gözləyir. O, imansız bir qadınla evlənib məsihçilikdən üz döndərmişdi, indi isə böyük ruh düşkünlüyündə idi. Riçard hər gecə yeni tapdıqları bu ünsiyyət üsulu ilə ona təsəlli verirdi. Bir müddət sonra həmsöhbətlər bu üsulu özləri üçün təkmilləşdirdilər. Bir taqqıltı əlifbanın ilk beş hərfini, iki taqqıltı növbəti beş hərfini və bu qayda ilə davam etməklə taqqıltıların sayı hərfləri bildirirdi. Beləliklə, «b» hərfi bir taqqıltı, fasilə və sonra daha iki taqqıltı ilə

işarə edilirdi: «e» hərfi üçün iki taqqıltı, fasilə və sonra bir taqqıltı istifadə edilirdi. Amma ünsiyyət qurmaq üçün təkmilləşdirilmiş bu variant belə Riçardın yeni qonşusunu qane etmədi. Radiomühəndis Morze əlifbasını da bilirdi, yavaş-yavaş onu da Riçarda öyrətdi.

Bir gecə həmsöhbəti divarı yenə taqqıldatdı:

— Mən öz günahlarımı etiraf etmək istəyirəm.

Divarı taqqıldatmaqla o, ürəyini boşaltdı. Onun etirafı yeddi yaşında olanda ayağı ilə yəhudi oğlanı təpikləməyindən başlayıb saysız-hesabsız digər günahları ilə tamamlandı. Riçard isə cavabında Kəlamdan kamera qonşusunu ruhlandıran ayələri sitat gətirdi. O vaxtdan iki məhbus bir-birinə azadlıqda keçən günlərindən danışıb zarafatlaşır, hətta şahmat taxtasında çörəkdən düzəldilmiş fiqurların yerini və hərəkətini taqqıldatmaqla şahmat oynayırdılar.

Mühafizəçilər iki kamera arasında taqqıltıları eşidəndə Riçardı yeni kameraya köçürdülər. Riçard artıq ünsiyyət qurmaq üçün yeni dil öyrənmişdi və bunu məhbus yoldaşlarına öyrədirdi. Mühafizəçilər Riçardın yerini daha çox dəyişdikcə, o, yeni bacarığını daha çox məhbuslara öyrədə bilirdi. Tezliklə təkadamlıq kamerada qalan məhbusların çoxu bir-biriləri ilə ünsiyyət qurmağın yolunu tapdılar.

Riçardın beton divarlar vasitəsilə eşitdiyi etiraflar çox vaxt bu sözlərlə başlayırdı: «Mən balaca oğlan olanda...» və ya «Mən məktəbdə olanda...» Təkadamlıq kamera keçmişin çoxdan yaddan çıxmış günahlarını məhbusların yadına salırdı. Atalarına, analarına, qardaşlarına və bacılarına dedikləri sözlərin xatirələri onlara dözülməz əzab verir, utandırırdı. Böhtan atdıqları dostlarının, xəyanət etdikləri arvadlarının və döydükləri uşaqlarının siması onların gözləri önündə yenidən canlanır və vicdanlarını narahat edirdi. Üstündən uzun illər keçsə də, heç bir günah yaddan çıxmırdı.

Bir səhər Riçard yuxudan duranda o günün İsanın çarmıxa çəkilən gün olduğunu bildi. Ayaqyolunda tapdığı mismarla qaldığı kameranın divarında «İsa» adını cızdı. Kim bilir, bəlkə bu söz Riçarddan sonra bura gələcək məhbusa təsəlli verəcəkdi...

# 28

Riçardı dəhliz boyunca itələyə-itələyə aparıb divarın içərisində oyulmuş dar bir şkafa saldılar. Şkafın hündürlüyü iki metr, eni yarım metr idi və məhbuslar onun içində ayaq üstə dururdular ki, ülgüc kimi iti mıxlar onları yaralamasın. Mühafizəçi qapını bağlayanda qaranlıqda bir neçə xırda işıq zərrəsi göründü — bunlar hava almaq üçün qoyulmuş deşiklər idi. Riçard kürəyini arxaya söykəyən kimi iti mismarlar belinə batdı. Bu zaman qeyri-ixtiyari önə çəkildi, yenə iti mismarlar onu yaraladı. O, ağrıdan qovrulurdu, bədəni hansı tərəfə əyilirdisə, mismarlar sinəsini və əllərini daha çox dəlirdi. Yaralanmaması üçün tamamilə hərəkətsiz qalması lazım idi.

Bir neçə saatdan sonra mühafizəçilər şkafı açdılar. Bədəni deşik-deşik olan və ayaq üstdə durmağa taqəti qalmayan Riçard yerə yıxıldı. Bir az dincələn kimi onu yenidən şkafa saldılar. Hərdən ona elə gəlirdi ki, nəfəsi kəsilir. Riçard özünə padşah Davudun sözləri ilə təskinlik verirdi: «Ölüm kölgəsinin dərəsində gəzsəm belə, şərdən qorxmaram, çünki Sən mənimləsən, Sənin əsan, Sənin dəyənəyin mənə təsəlli verir» (Zəbur 22:4).

Riçard nəinki gəzə, qaranlıqda heç tərpənə də bilmirdi. O, gözlərini yumub Yunanıstanın Afon dağındakı mağaraları təsəvvür etməyə başladı. Dağların içində yonulmuş mağaralarda yaşayan məsihçi rahiblər ürək döyüntüsü kimi səslənən belə bir dua yazmışdılar: «Rəbb. İsa. Məsih. Allah. Oğlu. Mənə. Mərhəmət. Et». Riçard bu sözləri saatlarla təkrar etdi. Sonda ağlı ürəyinə əmr etdi ki, bədəni iztirab çəkə-çəkə qeyri-iradi olaraq duanı təkrar etsin.

## Fəsil 28

Həkim Riçardın oradan çıxarılmasını tələb edənədək iki gün karserdə qaldı. Günəş işığı görmədiyi və yaxşı qidalanmadığı üçün saçları artıq uzanmırdı. Dırnaqları yumşalmış, qupquru idi. Onun otuz doqquz yaşı var idi. Onu Buxarestin küçəsindən qaçırıb həbs edəndə Riçard yaraşıqlı və gümrah kişi idi. İndi isə... Bir dəfə ayaqyolundan tapdığı sınıq güzgü parçasına baxanda, Riçard gözlərinə inanmamışdı. O, güzgüdən boylanan qoca kişini tanımamışdı. Riçard öz bədənində yad bir insan, keçmiş «mən»in arxasında dayanmış kölgə idi. Görəsən, ailəsi onu tanıyacaqdımı? Kamerasında küncdə qoyulmuş dəmir fincan ona cəhənnəmdə deyil, həyatda yaşadığını xatırladan yeganə əşya idi. Axı cəhənnəmdə su yoxdur.

Gecələr Riçard hallüsinasiyadan əziyyət çəkirdi. Onun gözünə min bir naz-nemətlə dolu süfrələr görünürdü. Sabina ona dolu bir nimçə hisə verilmiş kolbasa gətirirdi. Bu, onun ən sevimli yeməyi idi. O, böyük ləzzətlə ağzını açıb yumur, hər duzlu dilimin dadını hiss edirdi. Birdən divarlar aralanır, o özünü böyük bir kitabxanada görürdü. Qarşısında milyonlarla kitab qalaqlanırdı. O, böyük maraqla romanlara, poetik kitablara, tərcümeyi-hallara və saysız-hesabsız elmi jurnallara baxırdı. Sonra kitabxana yoxa çıxırdı. Onun yerinə minlərlə insan üzləri görünür, onlar böyük həvəslə Riçardın nitqini gözləyir və sonda onu alqışlayırdılar.

Riçard qorxunc görüntülər də görürdü. O, dəhşətli zorakılıqlara və qan tökülmələrə şahid olurdu. O, mühafizəçilərin məhbusları necə şikəst etdiyini, onların başına hansı işgəncələri açdığını görürdü. Çox vaxt seksual xəyallar onu yuxuya getməyə qoymurdu. Şəhvətli yuxular ona əziyyət verirdi. Səhrada otuz il yaşayan müqəddəs Böyük Antoni kimi, ona elə gəlirdi ki, qadınlar çılpaq bədənləri ilə onu günaha salırlar. O, hətta öz həyat yoldaşı ilə yaxınlığını belə unutmuşdu. Tənhalıq və müalicə olunmayan vərəmin əlamətləri onun cinsi hisslərini artırmışdı. Qarabasmadan nə qədər çox azad olmağa çalışırdısa, görüntülər bir o qədər çox ifrat halını alırdı. Riçard artıq bu işgəncələrə və əzablara layiq

olduğunu düşünürdü. Təqsir hissindən təngə gələn, haldan düşən Riçard Allahdan kömək istəyirdi.

Nəhayət, Allah onun duasına cavab verdi və Riçard bu qarabasmalardan azad olmaq üçün strategiya işləyib hazırladı. O, qərara gəldi ki, görüntüləri günah deyil, düşmənin hücumları kimi qəbul etsin. Özünü bu görüntülərə görə ittiham etmək əvəzinə, məntiqi fikirlərlə silahlandı. Allah Riçarda iti zəka vermişdi. O, bütün həbs dövründə ümumilikdə yüz min sözdən ibarət olan üç yüzdən artıq şeir yazmışdı. Döyüldüyü, narkotik maddələr vurulduğu və yuxusuzluqdan məhrum olduğu vaxtlarda o, bütün bunları unudacaqdı. Amma həbsdən azad edildikdən sonra şeirləri tədricən yadına düşəcək və hamısını bir-bir qələmə alacaqdı.

Çox keçmədi ki, Riçard istintaq zamanı beyninin bir hissəsini söndürmək qabiliyyətini özündə inkişaf etdirdi. Belə olan halda o, artıq dostlarının adlarını və ünvanlarını verəcək deyə narahat olmurdu. Əslində isə o, həqiqətən də, onların adlarını xatırlaya bilmirdi. Həkimlər viruslardan digər viruslarla mübarizə aparmaq üçün istifadə etdikləri kimi, Riçard da qərara gəldi ki, düşməni elə öz silahı ilə məğlub etsin. Yəni iblisin atdığı oxları özünə qaytarsın.

Riçard hər gün bu xəyallarla mübarizə aparırdı, onları öz iradəsinə tabe etdirirdi. Günahlı düşüncələrin onun üzərində hökmranlıq etməsinə imkan verməyərək bütün qəlbi ilə Allahın vədinə sığınırdı: «Sənə qarşı işlənən heç bir silah işə yaramayacaq...» (Yeşaya 54:17).

# 29

1951-ci il idi. Təkadamlıq kamerada üç il qalan Riçard artıq həyat yoldaşı və oğlunu nə vaxtsa görmək ümidini get-gedə itirirdi. Riçardın yadına şəxsən tanıdığı bir kahin düşdü. Həmin kahin həbs olunanda onun evdə xəstə həyat yoldaşı və altı uşağı var idi. Aclıqdan və işsizlikdən əziyyət çəkən ailənin on yeddi və on doqquz yaşlı iki böyük qızı evdəkiləri dolandırmaq üçün fahişəlik etməyə başlamışdılar. Böyük bacılarının öz bədənlərini satdığını görən on dörd yaşlı qardaş ağlını itirmişdi və ruhi xəstəxanaya yerləşdirilmişdi. Ataları həbsxanadan qayıdıb ailəsinin düşdüyü vəziyyəti görəndə Allaha yalvarıb demişdi: «Ya Rəbb, məni həbsxanaya qaytar, mən buna dözə bilmirəm!»

Riçard tez-tez həmin ailə üçün dua edirdi. Başqa ölkələrdəki məsihçilərin kommunizmin məngənəsində əziyyət çəkən bacı-qardaşlarına kömək etməməsi onu çox düşündürürdü. Riçard pastor Floresku kimi başqa məhbuslar üçün də dua edirdi. Floreskunun kamerasına borular vasitəsilə ac siçovullar salırdılar. O yata bilmirdi, çünki özünü siçovullardan qorumalı idi. Əgər bircə dəqiqə yatsaydı, siçovullar onun üstünə hücum çəkərdilər. Floreskunu məcbur etmişdilər ki, iki həftə gecə-gündüz ayaq üstə dursun. Bədənini qıpqırmızı közərmiş isti ütü və bıçaqla dağlayaraq ona amansızcasına işgəncə vermişdilər.

Floreskudan xidmətçi yoldaşlarının adlarını istəmişdilər. Müstəntiqlər heç bir məlumat ala bilmədiyi üçün on dörd yaşlı oğlu Aleksandrı oğurlayaraq gətirib gözünün qabağında ona işgəncə vermişdilər. Floresku artıq buna dözə bilməmişdi.

«Aleksandr, mən onlara istədikləri adları deməliyəm! — atası oğluna demişdi, — mən artıq sənin belə döyülməyinə dözə bilmərəm!»

«Ata, — deyə uşaq cavab vermişdi, — mən istəmirəm ki, satqın kişinin oğlu olum. Möhkəm ol!»

Müstəntiqlər yeniyetmənin inadkar müqavimətini görüb hiddətlənmiş, onu daha vəhşicəsinə döyərək öldürmüşdülər. Oğlunun qanı atasının qaldığı kameranın hər yerinə səpələnmişdi.

Riçard başqa vəhşiliklər barədə də eşitmişdi. Məsələn, bir cavan qadın uşaqlara Məsih haqqında danışdığı və gizli toplantılara Müqəddəs Kitab çatdırdığı üçün tutulmuşdu. Kommunistlər onu güdürdülər, amma onu həbs etmək üçün toy gününə qədər gözləmişdilər.

Toy günü nikah mərasimi başlayan kimi kilsənin qapıları açılmış və milis əməkdaşları içəri daxil olmuşdular. Mühafizəçilər ağ gəlinlik geyinən gəlinə yaxınlaşmışdılar. Gəlin heç bir tərəddüd etmədən əllərini uzatmışdı ki, qandalları əlinə keçirsinlər. O, axırıncı dəfə sevgilisinə baxıb əlindəki qandalları öpərək demişdi: «Toy günümdə mənə hədiyyə etdiyi qiymətli bəzəyə görə göylərdəki Bəyimə minnətdaram. Onun uğrunda əzab çəkməyi mənə layiq bildiyi üçün Rəbbə təşəkkür edirəm».

Milislər gəlinin ailəsini və dostlarını göz yaşları içində qoyub onu aparmışdılar. Onu həbsxana kamerasına atmış və zifaf gecəsində mühafizəçilər tərəfindən zorlanmışdı. Həyatı, arzuları param-parça olan, yaşından otuz yaş böyük görünən zavallı qadını beş ildən sonra azadlığa, sevgilisinin yanına buraxmışdılar. Azadlığa çıxandan sonra qadın sevgilisinə demişdi ki, bu, onun öz Məsihi uğrunda verə biləcəyi ən kiçik qurban idi.

Kommunizm dövründə qadınlara qarşı edilən zorakılıqlar kişilərə verilən əzablardan qat-qat çox idi. Riçard daim Sabinanı düşünürdü və onun həbs olunmaması, işgəncələrə məruz qalmaması üçün ümidlə dua edirdi.

Qışda Riçardın əllərinə içərisində biləklərini dəlib keçə biləcək iti mıxlı qandallar taxırdılar. O, soyuq, rütubətli kamerada titrədikcə,

qandallar biləklərini kəsik-kəsik edirdi. Riçard məsihçilərin tavandan başı aşağı halda asılaraq amansızcasına döyüldüyünə şahid olmuşdu. Onları elə möhkəm döyürdülər ki, bədənləri ağrıdan qovrulduğu üçün o tərəf bu tərəfə yellənirdi. Mühafizəçilər məhbusların bədənində o qədər siqaret söndürmüşdülər ki, onların dərilərində salamat yer qalmamışdı.

Yayda Riçardı yarıçılpaq soyundurub divarları buzdan parıldayan «buzxana kameraları»na salırdılar. Burada onun əvvəlcə əl və ayaq barmaqları, sonra isə ətrafları keyiyirdi. Nəhayət, bütün bədəninin istiliyi gedəndə, o, huşunu itirirdi. Həbsxana həkimi qapıdakı pəncərədən ona nəzarət etdiyi üçün donmadan ölümə yaxınlaşmağın ilk əlamətlərini görəndə mühafizəçilərə işarə edirdi ki, onu çıxarıb yorğanla örtsünlər. Beləcə bədəninə istilik qayıdırdı. Bir neçə dəqiqədən sonra onun titrəməsi keçirdi, lakin özünə gələn kimi dərhal yenidən həmin «buzxana kamera»sına atırdılar. Bu, dəfələrlə təkrarlanırdı. Bütün bu vaxt ərzində müstəntiq Riçardın üstünə qışqıraraq tələb edirdi ki, onun suallarına cavab versin.

«Biz iblisik!» — işgəncə verənlər onun çəkdiyi iztirablardan xoşhallanaraq deyirdilər.

Müstəntiqlərdən biri Riçarda Leninin «Yumurtanın qabığını sındırmadan qayğanaq bişirə bilməzsən» sözlərindən sitat gətirmişdi.

Riçard iradəsinin sarsıldığını hiss edirdi. Raxova küçəsində həbsdə olarkən onun onurğasının dörd fəqərəsini və başqa sümüklərini sındırmışdılar. Onun dərisi kəsik-kəsik edilmişdi, çoxlu sayda bıçaq yarasından deşik-deşik olmuş bədəni çapıqlarla dolu idi. Əzələ toxumasında on səkkiz deşik açılmışdı. Qida çatışmazlığı və yuxusuzluq onun immunitetinə pis təsir etmişdi. Riçardın sağlamlığı üçün daimi təhlükə pnevmoniya idi. Axşamlar Riçard öz kamerasında ölümcül halda uzanaraq mümkün qədər özündə güc toplamağa çalışırdı ki, səhər tezdən onu gözləyən yeni işgəncələrə hazır olsun.

Riçard mənəvi cəhətdən sarsılsa da, əvvəllər özündə hiss etmədiyi bir şəfa duyurdu. Hər dəfə işgəncələrdən sonra hiss edirdi ki, işgəncə verənlərə qarşı qəzəb və nifrət onu tərk edir.

İztirablar necəsə onda şəfqət hissinin baş qaldırmasına səbəb olurdu. Müstəntiqlərə qarşı böyük nifrət bəsləyən məhbuslardan fərqli olaraq, Riçard onları sevməyi öyrənmişdi. O, belə bir nəticəyə gəlmişdi ki, Allah onu işgəncəyə nə qədər dözəcəyinə görə deyil, ona işgəncə verənləri necə sevə biləcəyinə görə mühakimə edəcək.

Riçard inanırdı ki, kommunistlərin etdikləri cinayətlərin arxasında özləri dayanmırlar. Bütün bunların arxasında iblis durur. Kommunizm şeytanın kilsəyə qarşı silahı idi. Riçard tez-tez Paulun sözlərini təkrarlayırdı: «...mübarizəmiz qandan və ətdən ibarət olan insanlara qarşı deyil, şər başçılarına və hakim olanlara, bu qaranlıq dünyanın hökmranlarına, səmadakı ruhani şər qüvvələrə qarşıdır» (Efeslilərə 6:12).

Kommunizm təkcə siyasi hərəkat deyildi. Bu, hər şeydən öncə Allahın işini məhv etmək məqsədi daşıyan ruhani hərəkat — Avropanı çulğalayan şərin üsyanı idi. Kommunistlər sadəcə böyük dram əsərinin aktyorları idi. Riçard nə vaxtsa belə aktyorlardan biri olduğu üçün təəssüflənirdi. Lakin Məsih onun günahlarını — nə qədər dəhşətli günahlar olsa da, bağışlamışdı. Buna görə o, istənilən insanın günahını, hətta düşmənlərinin günahlarını da bağışlaya bilərdi. Əgər kommunistlərin ürəyində İsa üçün yer yoxdursa, deməli, Riçardın da ürəyində şeytan üçün yer yoxdur.

Yaxınlıqda yerləşən Piteşti şəhərindəki həbsxanada məsihçilərin çəkdikləri əzablar barədə eşidən Riçard qərara gəlmişdi ki, nəyin bahasına olursa-olsun, imanında möhkəm qalmalıdır. Məsihçiləri həmin həbsxanada çarmıxa bağlayırdılar. Çarmıxları döşəməyə qoyurdular və yüzlərlə məhbus bədən ifrazatlarını onların üzlərinə boşaltmalı idilər. Sonra məhbusların bağlı olduqları çarmıxları yuxarı qaldıraraq onları ələ salıb gülürdülər: «Məsihinizə baxın! Görün, O necə də gözəldir! Bəh-bəh necə də gözəl səmavi ətirdir!»

Kahinlərdən biri işgəncələrdən dəli olmuşdu. Hər bazar günü mühafizəçilər onu məcbur edirdilər ki, insan ifrazatına və sidiyinə çörək və şərab kimi xeyir-dua verib guya «Rəbbin süfrəsi» imiş kimi başqa məhbuslara versin. Başqaları bu iyrənc qalıqları qusduqdan

sonra məsihçiləri məcbur edirdilər ki, həmin qusuntuları döşəmədən götürüb yesinlər.

Lakin belə bir zülmətdə qəhrəmanlar meydana çıxırdı. Bu qəhrəmanlardan biri Milan Haymoviçi idi. O, başqa məhbuslar üçün döyülməyi mərdliklə boynuna götürmüşdü. Kameralar məhbuslarla dolu olduğundan mühafizəçilər hamının adını bilmədiyi üçün kimsə çağırılanda Haymoviçi könüllü olaraq irəli çıxırdı. Beləcə o, hər dəfə iyirmi beş dəfə qamçılanırdı. Pastor belə könüllü döyülməyinə görə məhbuslar arasında böyük hörmət qazanmışdı və başqalarının xilası uğrunda özünü qurban verməsi ilə Məsihin nümunəsini nümayiş etdirmişdi.

*****

Kommunistlər bilirdilər ki, fiziki işgəncələr məhbuslardan məlumat toplamağa kömək edir. Onlara «beyinlərin yuyulması»nın hansı faydalar verdiyi də yaxşı məlum idi. Rumıniya Avropada ilk kommunist ölkəsi idi ki, «beyinlərin yuyulması» vasitəsilə «yenidən tərbiyələndirmək»də uğura nail olmuşdu. İmanından üz döndərən və yoldaşlarını ələ verən məhbuslara mükafat olaraq əlavə yemək payı verilirdi. Hətta bəziləri müstəntiq vəzifəsinə də təyin olunurdular. Son məqsəd bu idi ki, məhbuslar digər məhbuslara işgəncə verməyə məcbur edilsin.

«Yenidən tərbiyələndirmək» layihəsi 1949-cu ilin dekabr ayında Rumıniyanın dövlət təhlükəsizlik xidmətinin rəisi Aleksandr Nikolski tərəfindən başlanmışdı. Layihənin həyata keçirilməsi üçün «Dəmir qvardiya» faşist təşkilatına kömək etdiyinə görə on il həbsdə olmuş Eucen Turkanu seçilmişdi. O, «Kommunist ideyalı məhbuslar» təşkilatına başçılıq edirdi. Sınaq təcrübə üçün on beş məhbus seçilirdi. Layihənin dörd mərhələsini tamamlayan hər kəs mükafat qazanırdı və ona vəzifə verilirdi[1].

---

[1] Stefan Kurtua, «Kommunizmin qara kitabı: cinayət, terror, repressiya», (Kembric, Massaçusets: «Harvard University Press», 1999), səh. 420–21.

Birinci mərhələ «zahiri ifşa» idi: məhbus öz təqsirini etiraf etməli və azadlıqda olan dostlarını sataraq kommunistlərə sadiqliyini göstərməli idi. İkinci mərhələ «daxili ifşa» idi: ondan həbsdə ona kömək edən məhbus yoldaşlarını ələ vermək tələb olunurdu. Üçüncü mərhələ «ictimai əxlaqi ifşa» idi: məhbus ona müqəddəs hesab edilənləri lənətləməli idi. O, həm də öz həyat yoldaşından yaxud sevgilisindən, ailə üzvlərindən və ya yaxınlarından imtina etməli idi. Dördüncü və sonuncu mərhələ isə onun sadiqliyini təsdiqləyirdi. Məhbus ən yaxın dostuna xəyanət edib ona öz əlləri ilə işgəncə verərək onun fikrini dəyişməli idi.

Turkanunun nüfuzu məhbusların bu dörd mərhələni müvəffəqiyyətlə bitirməsindən asılı idi. Ona görə də o, hər imkandan istifadə edirdi ki, təzə qoşulmuş yeni məhbusları həvəsləndirsin. Bəzi məhbusların məsihçi olduğunu bildiyi üçün Turkanu onların dini ayinlərini təhqir edirdi. Turkanu onları sidik və nəcislə dolu vedrələrdə vəftiz edirdi. İsanın çarmıxa çəkildiyi həftə məhbusları məcbur edirdi ki, onlar kilsədə xor oxuyan oğlanlar və kahinlər kimi geyinsinlər. Onları təhqir etmək üçün geyinməyə nəcisə bulaşmış libaslar verirdi. İbadət vaxtı məhbusları pornoqrafik hərəkətlər etməyə və Müqəddəs Məryəmi «Böyük Fahişə» adlandırmağa vadar edirdi. Turkanu üç il ərzində bu cür əməlləri ilə uğur qazandı. Onun bu təcrübəsini Rumıniyanın başqa həbsxanalarında da tətbiq etməyə başladılar.

Həftələrlə, aylarla, hətta illərlə hər gün on yeddi saat Riçardı məcbur edirdilər ki, tək-tənha oturub səsgücləndiricilər vasitəsilə kommunist təbliğatına qulaq assın: «Kommunizm çox gözəldir! Kommunizm çox yaxşı sistemdir! Məsihçilik ağılsızlıqdır! Məsihçilik axmaqlıqdır! İmanınızdan dönün! Bu yoldan dönün!»

Bu metodun səmərəliliyi onun dəfələrlə təkrarlanmasından ibarət idi. Birinci və ya ikinci gün insan şüuru asanlıqla bu təbliğata qarşı müqavimət göstərirdi. Amma bu təbliğat həftələrlə və aylarla təkrarlandıqda, insanın ağlı ona qarşı dura bilmir, eşitdiyini qəbul

edirdi. Məhbuslar üçün deyilən sözlər tədricən adiləşir və amansız fiziki işgəncələrdən müdafiə edən bir dosta çevrilirdi.

Riçard başa düşürdü ki, sözlərin gücü insan ağlını idarə edə bilər. O, Müqəddəs Kəlamdan olan ayələri əzbərləyib yadda saxlamaq üçün illərini sərf etmişdi. Uzun illər kommunistlərin şüarına qulaq asan Riçard yeni silah aşkar etdi. Bu, insan «beyninin yuyulmasında» işlədilən silahdan daha güclü olan «ürək yuyan» silah idi. İnsan düşüncəsi həmişə ürəyə tabe olur və İsa Məsih ürəkləri təmizləyirsə, onda ağıl mütləq ürəyə itaət edər. «Çünki ürək doluluğundan ağız danışar» (Luka 6:45).

# 30

Təkadamlıq kamerada qalan Riçard həbsin sonuncu ilində işgəncələrə tab gətirə bilmirdi, çünki çox zəifləmişdi. Uzun müddətli qanlı öskürəyi kameranın gözlüyündən ona nəzarət edən həkimi narahat edirdi. Əgər Riçard ölsəydi, o, kommunistlər üçün lazımsız olacaqdı.

«Biz faşistlər kimi qatil deyilik, — deyə müstəntiq kommunizmlə fəxr edirdi, — biz istəyirik ki, sən yaşayıb əziyyət çəkəsən».

Həmin gecə Riçardı təmiz havaya çıxartdılar. O, artıq ay və ulduzların necə göründüyünü belə unutmuşdu. Təmiz hava onun ciyərləri üçün yad idi. Onu təcili yardım maşınına salmazdan əvvəl fürsət tapıb dərindən nəfəs aldı. Maşın şəhərin içindən keçərkən o, hətta gözucu öz evini də gördü. «*Olmaya məni ölməyə öz evimə aparırlar?*» deyə o öz-özünə sual verdi.

Maşın məhbusların xəstəxanasına çatıb dayandı və onu pilləkənlərlə çıxarıb kameraya gətirdilər. Mühafizəçi içəri girib şübhəli nəzərlərlə ona baxdı. O, Riçarddan nəyə görə həbsxanaya düşdüyünü soruşdu. Riçard cavab verdi:

— Mən pastoram və Allahın övladıyam.

Mühafizəçi ona tərəf əyilərək qulağına pıçıldadı:

— Rəbbə izzət olsun! Mən də İsanın əsgəriyəm!

O, Riçarda «Rəbbin Ordusu»na — pravoslav kilsəsi tərəfindən yaradılmış yüz minlərlə üzvü olan təşkilata qoşulduğunu söylədi. Onun soyadı Taçiçi idi.

Onlar risk edərək bir-birilərinə Kəlamdan ayələr söylədilər. Əgər mühafizəçini bu iş üstündə tutsaydılar, aqibəti çox acınacaqlı

olacaqdı. Taçiçi kimi başqa mühafizəçilər sadəcə məhbusa bir alma verdiklərinə görə on iki illik həbs cəzasına məhkum edilmişdi.

Ayağa qalxmağa gücü olmayan Riçard döşəmədə uzanıb gözlərini divardakı kiçik pəncərəyə zilləmişdi. O, axırıncı dəfə mavi səmanı nə vaxt gördüyünü xatırlamırdı. Bu rəng onun yaddaşından tamamilə silinmişdi. Yaşıl ot sanki ətrafa işıq və həyat saçırdı. Riçardı qəribə bir səs — quşların cikkiltisi heyran etmişdi. O, Martin Lüterin bir dəfə meşədə gəzərkən quşlara dediyi sözləri Taçiçiyə söylədi: «Sabahınız xeyir, ilahiyyatçılar! Siz yuxudan durub oxuyursunuz, amma mən qoca axmaq sizdən az bilirəm və Səmavi Ataya etibar etməkdənsə, hər şeyə görə narahat oluram».

Dəhşətli dərəcədə taqətdən düşmüş Riçard dərin yuxuya getdi. Amma tezliklə bir səs onu yuxudan oyatdı.

— Mən Leonte Filipeskuyam. Bəs sən kimsən?

Riçard əyilib divarın o tayından gələn səsə qulaq asmağa çalışdı. Bu, Rumıniyanın ilk sosialistlərindən biri idi. Kişi dedi:

— Xəstəliyə qalib gəl! Təslim olma! İki həftədən sonra bizi azadlığa buraxacaqlar.

Riçard maraqlandı:

— Siz bunu haradan bilirsiniz?

— Amerikalılar kommunistləri Koreyadan çıxarırlar. İki həftədən sonra onlar burada olacaqlar.

Riçard tərəddüd içində dilləndi:

— Amerikalılara qarşı müqavimət göstərilməsə belə, onların Rumıniyaya gəlib çıxmaları üçün iki həftədən çox vaxt lazım gələr, elə deyilmi?

Filipesku etiraz etdi:

— Yox, elə deyil! Məsafə onlar üçün heç nədir. Onların səsdən sürətli təyyarələri var!

Riçard bir anlıq deyilənləri xəyalında canlandırmaq istədi. Amma tezliklə kamerasına daxil olan nümayəndələr onu bu xəyallardan gerçəkliyə qaytardılar. Onun işi üzrə məhkəmə günü

təyin edilmişdi. Riçardın qarşısındakı masanın ətrafında bir qadın və dörd kişi əyləşmişdi. Onlar hakimlər idilər.

Məhkəmənin sədri ona bildirdi:

— Sizi müdafiə etmək üçün vəkil təyin edilib. O sizin şahidlər çağırmaq hüququnuzu ləğv edib.

Prokuror Riçardı imperializmin casusu adlandırıb Skandinaviya kilsələrinin təşkilatları və Beynəlxalq kilsələr birliyi üçün çalışdığını, kommunizm əleyhinə ideyalar təbliğ etdiyini və dini işlər adı altında gizli fəaliyyətlərlə məşğul olduğunu iddia edərək onu ittiham etməyə başladı. Qızdırmadan titrəyən Riçardın bədəninə sanki çoxlu iynələr batırılırdı.

Vəkil müttəhimi müdafiə etməyə heç səy də göstərmədi. Sədr ondan soruşdu:

— Özünü müdafiə etmək üçün nə deyə bilərsən?

Riçardın özünü müdafiə etmək üçün dilindən yalnız bu sözlər çıxdı:

— Mən Allahı sevirəm.

On dəqiqəlik məhkəmə bitdi və Riçard cəzasını ağır əmək düşərgəsində çəkməklə iyirmi illik həbsə məhkum edildi.

# 31

Riçardın məhkəməsindən iki gün sonra Taçiçi onun çarpayısına tərəf əyilib pıçıldadı:

— Siz buradan köçürülürsünüz. Qoy Allah sizinlə olsun!

Bu vaxt kameraya başqa mühafizəçilər daxil oldular. İyirmi kiloluq zəncirləri Riçardın topuqlarına bağlayıb onu giriş qapısına doğru apardılar. İçərisində qırx məhbus olan yük avtomobili oraya yaxınlaşdı və Riçardı maşına mindirdilər. Riçardın toplantısından olan bir qız pastoru görüb ağladı və ondan soruşdu:

— Siz məni xatırlamadınız?

Riçard bu qızı yaxşı tanıyırdı. Qız ağlaya-ağlaya başına gələnləri danışdı. O, həbs edildikdən sonra ərzaq və başqa malları oğurlamağa başlamışdı. Qız hönkür-hönkür ağlayırdı:

— Mən çox utanıram.

Riçard ona təskinlik verdi:

— Mən də günahkaram, Allahın lütfü ilə xilas olmuşam. Məsihə iman et, onda sənin günahların bağışlanacaq.

Qız əyilib Riçardın əllərindən öpdü və söz verdi ki, azadlığa çıxan kimi onu gördüyünü Sabinaya xəbər verəcək.

Yük maşını qatarın yanında dayandı. Qatar vərəm xəstələri üçün sanatoriyanın yerləşdiyi Tirqul-Oknaya yola düşəcəkdi. Üç yüz kilometrlik məsafəni qət etmək bütöv bir günə başa gəldi. Riçardı şəhərin kənarında tikilmiş böyük bir binaya gətirdilər. Burada onu Aldea adlı məsihçi həkim müayinə etdi. O izah etdi:

— Mən də məhbusam, amma mənə burada həkim kimi işləməyə icazə veriblər.

*«Bu boyda vərəm xəstələri ilə dolu sanatoriyada yalnız bir həkim?!»* — deyə Riçard öz-özünə düşündü. Həkim dedi:

— Sizə yalan danışmayacağam. Biz sizin üçün heç nə edə bilməyəcəyik. Sizin iki həftəlik ömrünüz qalıb. Düzdür, buradakı yeməklər yaxşı deyil, amma sizə nə verirlərsə, yeyin.

Növbəti bir neçə gün ərzində iki məhbus öldü. Bir dəfə o, başqa bir xəstənin xırıltılı səslə həkimə yalvardığını eşitdi:

— Həkim, sizə and verirəm, özümü yaxşı hiss edirəm. Hərarətim də düşür, bu gün cəmi bir dəfə qanlı öskürəyim olub. Xahiş edirəm, məni dörd nömrəli palataya göndərməyin. Riçard təkrarladı:

— Dörd nömrəli palata?

Riçarda sulu şorba gətirən kişi izah etdi.

— Məhbusun yaşamasına artıq ümid qalmayanda onu həmin palataya göndərirlər.

Riçard şorbanı yeməyə çalışdı, amma elə hey qusurdu.

Bir müddətdən sonra həkim ona kədərli bir xəbər gətirdi: «Çox üzr istəyirəm, amma mənə dedilər ki, səni dörd nömrəli palataya köçürüm».

*****

Riçardı içərisində on iki çarpayı və bir neçə stol olan böyük kameraya gətirdilər. Pəncərələrə dəmir barmaqlıqlar vurulsa da, oradan divarlarla və tikanlı məftillərlə əhatə olunmuş bostanı görmək olardı. Xəstəliyə tutulmaq qorxusu olduğundan mühafizəçilər Riçard və dörd nömrəli kamerada olan başqa xəstələrə dəyib-dolaşmırdılar. Onlar bu kamerada olanların heç birinin sağ qalmayacağını düşündükləri üçün yeməkləri — əsasən kələm, lobya şorbası və arpa sıyığını qapının ağzına gətirirdilər.

Başqa xəstələrə bayırda, bostanda işləməyə icazə verilsə də, Riçard iki dünya arasında qalaraq növbəti otuz ayını ölüm kamerasında keçirdi. Bəzən o, komaya düşürdü, sonra öz qanında boğulduğunu hiss edərək ayılırdı. Onun kürəyində irin axan çoxlu

yataq yaraları var idi. Kamera yoldaşları pastorun əzablarını yüngülləşdirməyə çalışaraq gecə qırx dəfəyə yaxın onu o tərəf bu tərəfə çevirir və ağrılarını azaltmaq ümidi ilə ətraflarının yerini dəyişirdilər. Hətta bir neçə dəfə Riçardı ölmüş hesab edib onun çarpayısının yanından keçəndə xaç da çəkmişdilər.

İki həftə ərzində Riçard ilə birlikdə qalan dörd nəfər öldü. Onlardan sonra sayca ondan çox xəstə vərəmin qurbanı oldu və həmin çarpayılar dərhal yeni məhbuslarla doldu.

Vərəm Riçardın bədənində sürətlə inkişaf edirdi. Onun sinəsi şişmişdi və ciyərlərindən güclü xışıltı səsi ətrafa yayılırdı. Ağciyərlərinə dolmuş maye onu çox narahat edirdi. O, bütün var-gücü ilə xəstəliyə qarşı mübarizə aparırdı. Padşah Davud bir dəfə demişdi: «...mənimlə ölüm arasında, həqiqətən, ancaq bir addım var» (1 Şamuel 20:3). Riçard demək olar ki, dəfələrlə bu addımı atmışdı. O, hər dəfə gözlərini yumanda onları bu dünyada, ya o biri dünyada açacağını bilmirdi.

Bir dəfə həkim Aldea Riçardı müayinə edərkən söyləmişdi: «Kaş müasir dərmanlardan bizdə də bir az olaydı».

Arada söz gəzirdi ki, amerikalılar vərəmi müalicə etmək üçün «streptomitsin» adlı yeni dərman ixtira ediblər. Lakin kommunistlər bu şayiələrin doğruluğuna şübhə edir və bunu qərb təbliğatı kimi qiymətləndirirdilər.

Vaxt keçdikcə Riçardın səhhəti möcüzəli şəkildə yaxşılaşmağa başladı. Xəstənin düşüncəsinin aydınlaşdığını, hərarətinin endiyini və ağ ciyərlərinin sağalmağa başladığını görən həkim mat qalmışdı. Riçarda yaxşı iştaha gəlmişdi. İndi o, imanı barədə qeyri-adi bir şövqlə danışırdı. Hər həftə dörd nömrəli palatada kimsə vərəmin qurbanı olurdu. Amma oradakı məhbusların heç biri ateist kimi dünyasını dəyişmirdi. Riçard onların pastorları olmuşdu. O, hətta ən qatı ateistə belə kömək edirdi ki, son nəfəsini verməzdən əvvəl Allah ilə barışsın. Ölüm Riçarda yeni toplantı — qatillər, oğrular, günahkarlar və faşistlərdən ibarət toplantı təqdim etmişdi. Onların hər biri kommunizmin verə bilmədiyi yeni ümid əldə etmişdi.

Bir müddət Riçardın çarpayısı Vasilesku adlı məhbusun çarpayısı ilə onun bir vaxtlar işgəncə verdiyi rahibin çarpayısı arasında idi. Vasilesku Dunay kanalı üzərində olan həbs düşərgəsində kahinlər qrupuna nəzarət edən mühafizəçi idi. İndi hər ikisi dörd nömrəli kamerada ölümlə üz-üzə qalmışdı.

Vərəm cavan Vasileskunun ciyərlərində tüğyan edirdi. Bir gecə o, boğula-boğula yuxudan oyanıb «Pastor, mən ölürəm! Xahiş edirəm, mənə kömək et!» deyə qışqırdı. O, bütün gecəni gah bir az mürgüləyir, gah da «Mən Allaha inanıram!» deyə qışqıraraq oyanırdı.

Dan yeri söküləndə rahib İsku iki məhbusu yanına çağırıb onlardan xahiş etdi:

— Məni qaldırın!

Məhbuslar etiraz etdilər:

— Axı ağır xəstəsiniz, sizi qaldırmaq olmaz.

— Qaldırın məni!

Nəhayət, rahibin təkidi ilə onu çarpayıdan qaldırdılar. İsku əli ilə onlara işarə etdi:

— Vasileskunun çarpayısının yanına.

Rahib İsku bir vaxtlar ona işgəncə verən cavan oğlanın yanında oturdu və ehtiyatla əlini Vasileskunun üzərinə qoyub asta səslə ona müraciət etdi:

— Qorxma, sən cavansan, nə etdiyini bilmirdin.

O, cavan oğlanın alnından təri sildi:

— Mən səni başqa məsihçilər kimi bütün qəlbimlə bağışlayıram. Göylərdə sənin üçün də yer var. Rahib İsku Vasileskuya kömək etdi ki, tövbə duasını etsin və ona Rəbbin süfrəsini təqdim etdi. Bundan sonra onu öz yerinə apardılar.

Həmin gecə həm rahib, həm də Vasilesku gözlərini bu dünyaya əbədi yumdular.

# 32

Cilava həbsxanası XIX əsr qalasında yerləşirdi, dərin yeraltı labirintləri var idi və kameralar onların içərisində idi. Altı yüz adam üçün nəzərdə tutulmuş, xəndəklərlə əhatə olunmuş rütubətli həbsxanada üç min dustaq var idi. Cilava Sabinaya tanış idi. O, iki dəfə bu həbsxanaya gəlmişdi: birinci dəfə dostunu axtaran qız ilə birlikdə, ikinci dəfə Riçardı axtaranda. Hər ikisində də Sabina buradan lazımi məlumatı ala bilməmişdi. İndi isə özü məhbus kimi buraya gətirilmişdi.

Dustaqlarla dolu dövlət təhlükəsizlik xidmətinin yük maşını enişli yerdə qəfildən aşağı sürüşəndə içərisindəki qadınlar qışqırmağa başladılar. Sonra maşın dayandı. Hamı yerində donub qaldı, nə əmr veriləcəyini gözləyirdilər.

Nəhayət, əmr gəldi:

— Eynəkləri çıxarın!

Sabina qarşısındakı nəhəng yeraltı tikiliyə nəzər saldı. Onun divarları nəmişlikdən parıldayırdı və forma geyinmiş qadın mühafizəçilər ora-bura gedirdilər. Narıncı saçlı enlikürək əzələli qadın mühafizəçi yeni gələn dustaqların üstünə qışqırır və onları əlində hesabat kitabı olan iş yoldaşının yanına yollayırdı.

«Bütün artıq geyim əşyaları, — serjant Aspra üzünü məhbuslara tutub qışqıra-qışqıra deyirdi, — hamısı bura təhvil verilməlidir».

Sabinanın yay paltosunu ondan aldılar və onu müvafiq hesabat kitabında qeyd etdilər. Bir neçə həftə əvvəl istintaq təcridxanasında iki məktəbli qız ilə etdiyi söhbət Sabinanın yadına düşdü. Qızlardan

yaşca böyük olanı ona pıçıltı ilə «Allah sizə kömək olsun, Cilavada dörd nömrəli kameranı heç vaxt sizə göstərməsin» demişdi.

Sabinanın olduğu qrup dəmir barmaqlıqlı ağır qapıya yaxınlaşanda dəhşətli sözlər eşitdi: «Bu qadınları dörd nömrəli kameraya salın!»

Kameranın içərisində divar boyunca iki uzun cərgədə taxta çarpayılar var idi. Bunlar ortada dar bir keçid yaradırdı. Tavandan zəif işıq saçan elektrik lampası sallanmışdı. Kameranın o başında rənglənmiş dəmir barmaqlıqlı kiçik pəncərə var idi. Havasız kamera bürkülü idi və içəridə kəskin üfunət iyi var idi. Onlarla qadın yuxarıdan gözlərini zilləyib Sabinaya baxırdılar.

«Mənim adım Viorikadır, bu kameranın nəzarətçisiyəm, — deyə bir səs sükutu pozdu, — ona çarpayı verin».

Sabina kameranın qaranlıq küncünə tərəf getdi. Orada açıq kanalizasiya borusunun yanında cəmi bir vedrə qoyulmuşdu. Əlli qadına yalnız bir vedrə... Yeməkləri pis olduğu üçün onların çoxu mədə-bağırsaq pozğunluğundan əziyyət çəkirdi. Bədənlərində işgəncə yaraları və çapıqları olan qadınlar çarpayılardan boylaboylana baxırdılar.

Sabina Cilavada ilk səhərini keçirərkən kiminsə məsihçi himni oxuduğunu eşitdi. Həbsxanadakı məhbusların bir hissəsini rahibələr təşkil edirdi. Onların ilahi oxumasından mühafizəçilərin zəhləsi gedirdi. Sabina rahibələrin birindən soruşdu:

— Sizə mahnı oxumağa icazə veriblər?

Veronika bacı ona cavab verdi:

— Bizə oxumağa icazə veriblər, onlara da buna görə bizi döyməyə icazə veriblər...

*****

Saat 11-də Sabina şorba üçün növbəyə dayandı. Hər qadına bir çömçə buğlanan maye və bir dilim qara çörək verirdilər. Şorba bidonu kameraya girər-girməz yemək payının düzgün

tərzdə bölüşdürülmədiyinə görə mübahisələr yarandı və qadınlar qulaqbatırıcı vay-şivən saldılar. Sonra əlində dəyənək olan mühafizəçilər içəri girdilər.

Serjant Aspra qışqırdı:

— Biz sizə qarşı çox mehriban davranırıq! Əgər belə davam etsə, sabah sizə yemək verilməyəcək!

Döşəmədə dağılmış şorbadan kiçik gölməçələr yaranmışdı. Çarpayılardan ağlaşma səsləri gəlməyə başladı. Aspra onların üstünə qışqırdı:

— Bu gün və sabah yemək olmayacaq!

Mühafizəçilər dəmir qapını çırpıb gedən kimi kamerada aləm bir-birinə dəydi.

Sabinanın yanında oturan qız onun qoluna toxunub dedi:

— Nə pis oldu. Siz gələndən heç yemək yeməmişdiniz.

— Eybi yox, onsuz da yemək iştah çəkən deyildi.

Yelena adlı qız üz-gözünü turşudaraq izah etdi:

— Çürük köklərdir, dövlət tərəvəz konserni bura üç yüz ton xarab olmuş məhsul gətirib töküb. Adamlar heç donuzları üçün onları almaq istəməz. Bizə isə həftələrdir bunları yedizdirirlər.

Qadınların içərisində cüssəli və zəhmli olanı Sabinaya çox diqqətlə baxırdı.

— Sən kimsən? Nə üçün buradasan? Sən gələndən bir kəlmə söz deməmisən.

Qadın gözünü zilləyib hirslə Sabinaya baxırdı. Məhbuslar isə böyük maraqla onlara göz qoyurdular.

Sabina adını və pastor arvadı olduğunu söylədi. Ağ saçlı kəndli qadın maraqlandı:

— Hə, onda dindarsan? Yəqin Müqəddəs Kitabdan hansısa bir hekayə bilirsən?

— Hə-hə, nəsə danışsan yaxşı olar, xahiş edirik! — deyə o biri qadınlar da səs-səsə verdilər. — Yoxsa burada yaman darıxırıq!

Kişisayağı zəhmli qadın isə özündən çıxdı:

— Yox, hələ bir buranı kilsəyə də çevir!

Qaranlıq kamerada gözləri parıldayan Yelena Sabinaya məsləhət gördü:

— Elza Qavriloiuya fikir verməyin. O, partiyanın çoxdankı üzvüdür və öz ideoloji səhvlərini düzəltmək üçün Cilavada — «yenidən tərbiyələndirmək müəssisəsi»ndədir. Yəqin ki, ona verilən bu imkana görə çox məmnundur.

Sabina ac və taqətdən düşmüş qadınları ruhlandırmaq üçün onlara Yusif və qardaşlarının hekayəsini danışdı. Onlara izah etdi ki, hər şey ümidsiz görünsə də, həyatın çarxı dönə bilər. Bir neçə qadın Sabinaya diqqətlə qulaq asır, qalanları isə dodaqaltı nəsə deyib narazılıqlarını bildirirdilər. Sabina narıncı saçlı Viorikanın ona göz yetirdiyini gördü və o pıçıldayaraq dedi:

— Ehtiyatlı ol! Əgər Aspra Allah haqqında danışdığını eşitsə, qanqaraçılıq olacaq.

*****

Səhəri gün Viorika çarpayıların arasında peyda oldu.

O, yerində donub qalmış Sabinanı barmağı ilə göstərdi:

— Axır ki, səni tanıdım! Sənin adın mənə tanış gəlirdi. *Elə hey fikirləşirdim ki, görəsən, bu adı harada eşitmişəm?*

O biri qadınlar da təəccüblə Sabinaya baxaraq hansısa bir sirrin açılacağını gözləyirdilər.

Viorika təntənəli surətdə dedi:

— Hə-ə... O təbliğçidir, pastor Vurmbrandın həyat yoldaşıdır.

Kameranın başçısı fəxrlə danışmağa başladı. Onun dayısı Buxarestdə pravoslav kilsəsinin rəhbəri idi və o, konfessiyaların konqresində Riçard Vurmbrandın çıxışına qulaq asmışdı.

Viorika izah etdi:

— Dörd min adamın içərisindən yeganə adam idi ki, çıxıb Allah adamı kimi danışdı. Qalanları isə kommunistləri

alqışlayırdılar. Bütün bunlardan sonra konfessiyalar üzrə nazirin işdən qovulduğunu bilirsiniz?

Sonra Sabinaya tərəf çevrilib dedi:

— Mən sizin kilsənizdə olmuşam. İbadət çox yaxşı keçmişdi.

Sabina bir anın içərisində qəhrəmana çevrildi. Viorika onu vedrədən neçə metr uzaqlıqda olan yaxşı bir çarpayıya köçürdü.

Səhər Sabinaya buradakı ilk yeməyi verildi. Bu, *tertç* — qaynadılmış qarğıdalı xörəyi idi. O, xörəyi nə iləsə yemək üçün ətrafa baxdı. Xanım Qavriloiu istehza ilə dedi:

— O, qaşıq axtarır! Yalamaqla ye!

Sabina dayaz qalaylı boşqabdan duru, nəm iyi verən sıyığı dili ilə yeməyə çalışdı, amma çənəsindən damcı-damcı axdı. Dil ilə xörək yemək ona heyvana məxsus bir tərz kimi göründü, ona görə də səhər yeməyini yanındakı qonşusuna verdi. Lakin sonralar Gideonu — İsrailin düşmənləri ilə vuruşmağa gedən qəhrəmanı xatırladı. Allah ona demişdi ki, özü ilə döyüşə aparmaq üçün yalnız suyu it kimi dili ilə içən əsgərləri seçsin, onlar özlərini alçalda bilən adamlar idi (Hakimlər 7:5). İsa da Özünü həddən artıq alçaltdı. Əgər İsa belə alçalmanı qəbul edə bilibsə, onda Sabina da bunu edə bilərdi. Növbəti xörəyi ona verəndə Sabina öz yeməyini dili ilə yalayaraq yedi. Bu cür qidalanma qadınların sağ qalmasına lazım olan kalorini vermirdi.

Adətən, kommunistlər həbsxanalarda məhbuslara az yemək verib onları ac saxlayırdılar. Belə olan halda, dustaqlar əzgin və zəif olur, onların başlarını ağrıtmırdılar. Həm də yaxşı qidalanma barədə vədlər veriləndə məhbuslar könüllü surətdə əmək düşərgələrində işləməyə razı olurdular.

*****

Sabina və başqa məsihçilər tez-tez rahibələrin çarpayılarının başına toplaşır, sakitcə mahnı oxuyur və kameradakı başqa məhbusların yaralarını yuyub təmizləyirdilər. Qadınların çoxu

pravoslav idi. Savadsız kəndli qadınlar kahinsiz və dini ayinlərsiz ölməkdən qorxurdular. Rahibələr ölüm ayağında olanlar üzərində dəfn xidmətinin sözlərini təkrarlayır, bununla da onlara sülh və ümid verirdilər.

«Axı sənin qadınlarla işləmək təcrübən var, bu davalardan, mübahisələrdən azad olmaqda bizə kömək et,» — deyə bir dəfə Yelenanın yaxın dostu olan xanım Stupineau Sabinaya müraciət etdi.

Xanım Stupineau hündürboy idi. Kommunistlər ondan hər şeyini alana qədər zəngin bir qadın idi. Yoxsullaşanda dolanmaq üçün bir vaxtlar səxavətli üzvü olduğu kilsədə şam satmaqla və oranı yığışdırmaqla məşğul olmuşdu. Xanım Stupineaunu kilsəyə gələn fransız seminariyasının tələbəsi ələ vermişdi. Dövlət təhlükəsizlik xidməti üçün işləyən bu adam qadından dini təqiblər barədə soruşmuş, sonra isə rəhbərliyə onun barədə xəbər çatdırmışdı. Xanım Stupineaunun cəmi qırx altı yaşı var idi, amma Cilavada keçirdiyi bir il ərzində bütün saçları ağarmışdı.

*****

Cilava ədalətsizlik və qorxu məkanı idi. Serjant Aspranın müavini yefreytor Qeorqesku soyuqqanlı, quru səsli, enlisifət bir qız idi. O, idman etmək üçün qadınları bir yerə topladı:

— Mən hamının bayıra çıxmağını tələb edəndə heç kim axırıncı olmamalıdır. Hamı eyni vaxtda çıxmalıdır!

Əlli qadın eyni vaxtda bir qapıdan çıxa bilməzdi. Amma Qeorqesku bu məntiqi anlamağa belə çalışmırdı. O, amiranə səslə dedi:

— Mən əmr edəndə siz tabe olmalısınız.

Onun zərbələrinə həmişə tez hərəkət edə bilməyən yaşlılar və xəstələr tuş gəlirdilər. Sabina ağlayaraq dedi:

— Məgər siz rəhm etməyin nə olduğunu bilmirsiniz? Müqəddəs Kitabda yazılıb ki, mərhəmət göstərməyən mərhəmətsiz mühakimə olunur (Yaqub 2:13).

Qeorqesku çığırdı:

— Xeyr, mən mərhəmət göstərməyin nə olduğunu bilmirəm! Heç bilmək belə istəmirəm.

Sabina sevən və nifrət edən insanlara öyrəşmişdi. Lakin hərbi geyimli bu heykəl qızlar marionetə çevrilmişdilər. Əgər döymək əmri gəlirdisə, döyürdülər. Onlar bunun üçün məktəb oxumuşdular və kor-koranə tabe olmaq əmri beyinlərinə yeridilmişdi. Əksəriyyəti əvvəllər heç nələri olmayan adi kəndlilər idi. Onların formalarından qəşəng hansısa bir geyimləri, tapançadan bahalı hansısa bir əşyaları olmamışdı. Rumıniya onların hökmranlıq etdikləri yer idi və ölkəni istədikləri kimi idarə edirdilər.

Acı xatirələr dörd nömrəli kameranın sakinlərinə tez-tez əzab verirdi. Bir qadının ağrı-acısı çox vaxt o birilərinin də dəhşətli xatirələrini yadlarına salırdı. Saatlarla məhbuslar başlarına gələn dəhşətli anları yenidən yaşayaraq yerlərində qovrulub qışqırırdılar. Sabina belə vəziyyətlərdə Allaha yalvarıb dua edirdi: «Ya Rəbb, əgər Sən mənim bu qadınlara kömək etməyimi istəyirsənsə, onda onların Sənə iman etməsi üçün mənə hikmət ver». Ertəsi gün Allah onun üçün belə bir imkan yaratdı.

*****

Səhər Sabina keçmiş partiya üzvü olan Elza Qavriloiu ilə üz-üzə gəldi. O, Sabinanı hədələyərək dedi:

— Əgər sən bir də Allahdan danışsan, onda mən qapını döyüb mühafizəçini çağıracağam.

Sabina ondan soruşdu:

— Elza, sən hələ də partiyaya inanırsan?

O cavab verdi:

— Əlbəttə, mən fikrimdən dönən deyiləm. Mən səhvən həbs olunmuşam.

— Elə mənim də həbsim Məsihə olan imanımı dəyişmədi. Əksinə, imanım daha da gücləndi. Mən insanlara İsanın necə bir dost olduğunu çatdırmaq istəyirəm.

Elza ona xəbərdarlıq edib dedi:

— Sənə görə bütün kameradakı məhbusları cəzalandıracaqlar. Mən sənin Allahına görə əziyyət çəkmək istəmirəm. Axı O, heç sənə də kömək etməyib.

Sabina maraqla soruşdu:

— Əgər Allah sizin xoşunuza gəlmirsə, bəs onda Onu necə təsvir edirsiniz?

Elza elmi saymayan və yeni kilsə binası tikmək adı ilə adamlardan pul qoparan bir mövhumatçının təsvirini verdi.

Sabina onunla razılaşdı:

— Sizin təsvir etdiyiniz allah sözsüz ki, insanda heç bir maraq yaratmır. Mənim sevdiyim Allah isə tamamilə fərqlidir. O, zəhmətkeşlərin kasıbçılığını Öz həyatında dadıb, məzlumların arasında böyüyüb, acları doyuzdurub və xəstələrə şəfa verib. O, insanlara sevməyi öyrədib və hamımız üçün qurban gedib.

Elza yoğun səslə soruşdu:

— Sevməyi öyrədib? Bunun mənə nə xeyri var? Mən özüm başdan-ayağa nifrətlə doluyam. Məni bura salan satqın yoldaşlarıma, bilirsiniz necə nifrət edirəm?! Arzu edirəm ki, onlar cəhənnəmdə yansınlar! Bütün həyatımı partiyaya həsr etdim, onlar isə gör başıma nə müsibətlər açdılar.

O, kədərlə başını aşağı saldı və gözləri yaşla doldu. Bir az ara verib, sonra davam etdi:

— Bəlkə deyirsən Allaha dua edim, onları bağışlasın? Kiminsə məni bağışlamasına da ehtiyacım yoxdur. Hamısı yalandır.

Elza hönkür-hönkür ağlamağa başladı:

— Mənim üçün fərqi yoxdur. Əgər amerikalılar gəlsə, məni asacaqlar. Yox, kommunistlər qalsa, onda həbsxanada çürüyəcəyəm. Nə bağışlamaq?!

Qadının yanaqlarından damcı-damcı göz yaşları töküldü. Sonra yubkasının ətəkləri ilə üzünü sildi:

— Sabina Vurmbrand, sən bicsən. Mən sənə deyirəm ki, Allahdan danışmayasan, sən isə beş dəqiqədən sonra mənə Allahdan danışırsan.

## Fəsil 32

*****

Cilavada məhbusların sayı getdikcə artırdı. Otuz nəfər üçün nəzərdə tutulmuş dörd nömrəli kamerada Milad bayramına yaxın artıq səksən qadın var idi. Sabina kamera yoldaşlarına Müjdəni bölüşməkdə davam edirdi və insektisid DDT (diklorodifenil trixlorometilmetan) həşərat öldürən tozunda tilişkə ilə yazaraq fransız və alman dillərini öyrədirdi. Onun dostları da çox əziyyət çəkmişdi. Bir çoxunun həyatı dəyişmişdi. Həbsxanada amerikalıların tezliklə gələcəyi barədə şayiələr yayılmışdı. Amma bu ümid özünü heç vaxt doğrultmadı. Bu vaxt ərzində dörd nömrəli kamerada əzabların ağuşunda gələcəyin müqəddəsləri yetişirdi.

Bir səhər yefreytor Qeorqesko əlində siyahı kameraya daxil oldu:

— Adlarını çəkəcəyim şəxslər köçmək üçün dərhal hazır olsunlar!

Nəhayət, adlar oxundu, amma köçməyin səbəbi açıqlanmadı. Məhbusların az bir qismi evə qayıdacaqlarına inanırdı. Axı Cilavadan betər daha nə ola bilərdi?!

Sabina hər gün onun da adının çəkiləcəyini gözləyirdi. Nəhayət, 1951-ci il 6 yanvar tarixində, Mihayın on iki yaşı tamam olan günü ona bu imkan nəsib oldu. Səhər saat 8-də onu dörd nömrəli kameradan çıxarıb bayırda, güclü şaxtada yük maşınını gözləməyə məcbur etdilər. Məhbuslar Buxarestin yaxınlığında yerləşən Genseyaya — müvəqqəti əmək düşərgəsinə aparıldı. Bir neçə ay Cilavanın zirzəmilərində yaşayan Sabina indi gecənin aydın səmasından həzz alırdı.

«Azadlığa çıxırsınız?! — deyə yeni gələn məhbusların aralarındakı söhbəti eşidən qara gözlü uzundraz bir qız əsəbləşdi, — bu haradan ağlınıza gəldi? — deyərək gözlərini Sabinaya zillədi. — Ora kanala işləməyə gedən məhbuslar üçün məntəqədir».

Məhbusları Buxarestin yaxınlığındakı bölüşdürücü stansiyadan qatara mindirib Dunay kanalına yola saldılar. Nəhayət, onlar təmiz havada işləyib kifayət qədər yemək yeyə biləcəkdilər. Bir neçə

saatdan sonra qatar dayandı. Sabina yorğun və əzgin halda vaqondan düşdü. O, Dunay ətrafı kiçik şəhərin stansiyasında «Çernavoda» sözü yazılmış lövhəni gördü. Əmək düşərgəsi stansiyadan bir neçə kilometr uzaqda idi. Ona görə də məhbuslar soyuq qış gecəsində ora piyada getməli idilər. Həmin vaxt Sabina onu Dunay kanalında gözləyən dəhşətləri ağlına belə gətirə bilməzdi...

# 33

Sabina gözlərini geniş açdı və çarpayısından sıçrayıb kameranın buz kimi döşəməsinə tullandı. Ürəyi yaman döyünürdü və yanındakı qadın qışqırdı:

— Siçovul! O mənim çarpayımın üstünə tullanıb!

Sabina qaranlıqda xışıltı, cıvıltı səsi eşitdi və gəmiricilərin kəskin qoxusunu hiss etdi. Orada siçovullar var idi!

Çernavodada Sabinanın ilk gecəsi çətin oldu. Gəmiricilər məhbuslara rahat yatmağa imkan vermirdi. Sabina əmək düşərgəsinə gələndə öyrəndi ki, məhbuslara yaxın adamları ilə görüşməyə tez-tez icazə verilir. O ümid edirdi ki, hər gecə haqqında düşündüyü oğlu Mihayı nəhayət, bir gün görə biləcək. Ertəsi gün Sabina istirahət etməyi və çirkli paltarlarını yumağı düşünürdü. Amma onun istədiyi kimi olmadı.

Əmək düşərgəsinin qadınlar bölməsinə vaxtilə uzun müddət həbsdə olmuş Dosille Rina rəhbərlik edirdi.

«Təzə gələn məhbusların hamısı hamama getmək üçün bayırda yığışsınlar!» — deyə o bərkdən qışqırdı.

Sabina o biri qadınlarla birgə sıraya düzülərək donmuş palçığın üstü ilə addımlamağa başladı. Onları silahlı mühafizəçilər müşayiət edirdilər. Sabina hamamda mühafizəçilərin gözü qarşısında soyunmalı oldu.

Çernavodanın məhbusları savadlı qadınlar və tərbiyəli cavan qızlar idi. Lakin onların arasında adi cinayətkarlar, hətta fahişələr də var idi. Mühafizəçilərin qarşısında fahişə qadınlar qışqırıb bəzi nalayiq hərəkətlər edirdilər. Mühafizəçilər də onlara gülüb

çəkmələrini yerə vururdular. Rina isə onların üstünə qışqırıb özlərini ədəbli aparmağı tələb edirdi.

Taqətdən düşmüş, ac və utancaq Sabinanın dünya başına hərləndi, gözləri qaraldı, huşunu itirərək birdən üzü üstə yaş beton döşəməyə yıxıldı. Qadınlar onu götürüb kameraya gətirdilər və yatağına uzatdılar. Kimsə onun üstünə jaket və çirkli ağ-boz zolaqları olan kisə parçadan bir yubka tulladı. Sabina yeni paltarlarını geyinmək üçün gücünü toplamağa çalışdı. Hamamın beton döşəməsinə dəymiş başı yaman ağrıyırdı.

Üzündə yəhudilərə məxsus cizgiləri olan qara saçlı Sabinanın zahiri görkəmi orada olanlara yad idi. Məhbuslar ona qəribə baxışlarla baxırdılar. Kameradakı «siyasi elita» Sabinanın qətiyyən onlara bənzəmədiyi üçün onun qaraçı olduğunu güman etdilər. O vaxtdan bəri Çernavodada Sabinanı qaraçı kimi qəbul etdilər.

*****

Ertəsi gün səhər tezdən məhbuslar düşərgədən Dunay kanalına getməyə hazırlaşırdılar. Qara dənizdən əsən soyuq külək nazik geyimli məhbusların iliyinə kimi işləyirdi. Qalın qış paltosunda olan mühafizəçilər artıq hərəkət edən məhbusları döyürdülər.

Qadınların sırasına kişi məhbuslar da qoşuldu.

Baş mühafizəçi kişi məhbusların mühafizəçisinə dedi:

— İki minə yaxın cinayətkar və əksinqilabçını yanınıza gətirirəm.

Məhbuslar dəmir gözətçi qüllələrinə gəlib çatdılar.

Məhbusların sırasının ucu-bucağı yox idi. Bu cərgə sanki nəhəng heyvana, bir məxluqa bənzəyirdi və o sonsuzadək uzanırdı. Sabinanın yadına Misirdə firon üçün kölə kimi işləyən əcdadları düşdü.

Dunay Avropada ikinci ən uzun çay idi və kommunizmin dəmir caynaqlarına keçmiş ölkələrin içərisindən keçirdi. Dunay çayı ilə Qara dənizi birləşdirəcək kanalı qazmaq üçün əmək düşərgələrindəki siyasi məhbusları və cinayətkarları işlədirdilər. Gündəlik əmək normasını yerinə yetirə bilməyənləri isə aclıq və

ağır cəza gözləyirdi. Bir çoxları sağ qalmaq üçün it, ilan, siçan və ot yeməyə məcbur olurdular. Yük arabasına donmuş palçığı doldurmaq və ağır daşları suyun içinə daşımaq üçün Sabinanın incə bədəni çox zəif idi. Daşların iti ucları onun incə barmaqlarını əzirdi və sonra şişərək ona ağrı verirdi. Gecələr yuxusuna ağrısını azaldan aspirin dərmanı girirdi. Əbəs yerə bu layihəyə xalq arasında «ölüm kanalı» deyilmirdi.

Çernavodada məhbuslar kanal boyunca sahil tikirdilər. Qadınlar əl arabalarını torpaqla doldurur, kişilər isə onları yüz metr uzağa aparıb sonra kəskin yoxuşla bəndin sipərinə daşıyırdılar. Bir neçə yük arabasını doldurduqdan sonra yaş torpaqla dolu ağır beli yük arabasına tökəndə Sabina səndələdi.

Hər dəstənin bir rəhbəri var idi. O, gündəlik iş normasını təyin edir və işin gedişatına nəzarət edirdi. Əgər dəstə böyük güc sərf edərək normanı yerinə yetirə bilirdisə, onda növbəti gün rəhbər həmin normanı artırırdı. Normanı icra edə bilməyəndə isə bütün dəstə cəzalandırılırdı.

«Tez ol! Ayıl! — deyə iyirmi metr aralıdan Rinanın səsi gəldi, — bütün gecəni karserdə keçirmək istəyirsən?»

*Karser* sözünü eşidəndə Sabinanın damarlarında qanı dondu. Riçard Raxova həbsxanasında içəriyə doğru mismarlar vurulmuş tabuta bənzər qutuda iki gün qalmışdı. Karser kanal boyunca olan əmək düşərgələrində adi cəza növü idi. Ağır iş günündən sonra məhbuslar üçün ora sadəcə işgəncə idi. Növbəti gün yenidən işləməli olurdular. Əgər yorğunluqdan gündəlik iş normasını yerinə yetirə bilməsələr, onda axşam yenidən karserə qayıtmalı olurdular.

Nahar vaxtı məhbuslara yarım kilo çörək, bir az şorba və yulaf sıyığı verirdilər. Bu yemək Cilavada verilən yeməkdən daha yaxşı idi. Lakin məhbusları əldən salan iş normasını yerinə yetirmək üçün onları lazımi kalori ilə təmin etmirdi.

Nahardan sonra məhbuslar daha dörd saat işləyirdilər. Qaranlıq düşəndə onlar düşərgəyə qayıtmaq üçün yenidən uzun bir sıraya düzülürdülər. Yol boyu bir neçə məhbus yerə yıxılırdı. Bir az

güclü kişilər mühafizəçilərin gözündən yayınaraq yıxılanları qaldırır, çiyinlərinə qoyaraq daşıyırdılar. Əsən soyuq külək bircə an belə dayanmırdı.

Məhbuslardan ibarət böyük dəstə gəlib darvazaya çatanda «iki min cinayətkarı geri qaytarıram!» deyə baş mühafizəçi qışqırdı.

«Əcəb qəşəng külək əsir!» — mühafizəçilərdən biri isti qalın şinelinə bürünərək sevinə-sevinə dedi.

Sabina iliyinə qədər donmuşdu. Onun suluqlamış əlləri, ayaqları da əzələləri və başı kimi ağrıdan zoqquldayırdı. Sabah yəqin ki, xəstələnəcəkdi.

*****

Çernavoda həbsxanası yolunu azmış və mənəviyyatı pozulmuş cinayətkarlarla dolu idi. Sabina onlara Allahın Sözündən hekayələr danışırdı ki, daşlaşmış ürəklərinə Müjdənin ruhlandırıcı kəlamını səpsin.

«Bir Allah adamı əvvəlcə fırıldaqçı idi, — deyə o, qadınlara danışdı, — onun adı Matta idi. Amma Rəblə görüşərkən Onun hüzurundan və xeyirxahlığından elə təsirləndi ki, bütün var-dövlətini tərk edib Onun şagirdi oldu. Oğru müqəddəs oldu, günahları bağışlandı və bu günə qədər dünyada sevilən bir şəxsə çevrildi». (Matta 9:9).

Sabina danışarkən qadınların üzünə baxırdı və onların gözlərində əks olunan kədəri görüb qəlbi parçalanırdı.

Bəzi qadınlar Sabinanın sözlərinə gülür, digərləri isə yenə də hekayələrə qulaq asmaq istəyirdilər.

Siyasi məhbuslarla cinayət törətmiş məhbuslar arasında sədləri aşmaq asan olmurdu. Dini zəmində həbs olunanlar siyasi məhbuslar hesab olunurdu. İki qrup arasında qalan Sabina cinayətkarlarla məhəbbətlə danışan və yüksək təbəqəli xanımların günahlarını ifşa edən qaraçı yəhudi məsihçi idi. Təbii ki, hər iki tərəfdən ona çəp nəzərlərlə baxırdılar.

Sabina təkcə ətrafında olanlara danışmırdı. O, çox vaxt Riçard ilə söhbət etdiyini təsəvvür edirdi, xüsusilə də təkadamlıq kamerada qalanda Riçardın cavabını öz-özünə təxmin edirdi. Neçə illər bir-birilərindən ayrı qalsalar da, Vurmbrandlar hələ də əqlən bir idilər.

Sabina kanalda işləyən hər kəsdən əri barədə soruşurdu. O, pis xəbər eşidəcəyindən qorxsa da, Riçardın taleyi barədə öyrənməyə çalışırdı. Amma heç kim onun haqqında bir söz demirdi. Günlərin bir günü ağır xəstələrin yerləşdirildiyi Vakareşti həbsxanasından üç qadın əmək düşərgəsinə gətirildi.

«Sən hər dəfə Allah haqqında danışanda yadıma Vakareşti düşür, — qadınlardan biri Sabinaya dedi, — mən o həbsxanada çox olmadım, amma orada sənin kimi vəz edən bir adam var idi».

Sabinanın ürəyi döyünməyə başladı.

«Biz hamama girmək üçün pilləkəndə növbəyə durmuşduq. Təkadamlıq kameranın qapısının arxasından səs eşitdik. Qapının o tayında bir kişi deyirdi: «İsanı sevin və Allahın xeyirxahlığına etibar edin». Bu sözlər bizə çox təsir etdi. Biz hamıdan bu adamın kim olduğunu soruşduq, amma cavab ala bilmədik».

Sabina bunu eşidəndə həmin vəz edənin Riçard olduğunu düşündü. Qadının dediyinə görə, onun səsi xəstə adamın səsinə oxşayırdı. Bir neçə gündən sonra o, daha vəz etmirdi. Qadınlar onun öldüyünü eşitmişdilər.

Sabina həbsxana daxmasına qayıdıb özünü dəmir çarpayıya atdı və hönkürtü ilə ağladı. Amma bu kədəri onda yeni bir ümid yaratdı. O, Rəbdən xahiş etdi ki, təkadamlıq kamerada Allaha sadiq qalıb xidmət edən həmin adama uzun ömür və can sağlığı versin.

*****

Bir müddət sonra Sabinanın göz yaşları qurudu. İndi o, səbirsizliklə Çernavodada Mihayın ona baş çəkəcəyi günü gözləyirdi. Mühafizəçilər məhbuslara vərəq vermişdilər ki, yaxınlarına yazıb onları görüşə çağırsınlar. Sabina dua edirdi ki, bu, onların qohumları

barədə məlumat əldə etmək üçün tələ olmasın. Beləliklə, Sabina Mihaya məktub yazdı.

Mihay onun yanına bazar günü gələcəkdi. Sabina səhər dan yeri sökülməmiş yuxudan oyandı. Pəncərənin şüşələrini qırov bağlamışdı. O, səhərin tez açılmasını istəyirdi.

Nəhayət, səhər açıldı və Sabina darvazanın o tərəfində onu gözləyən oğlunu görmək ümidi ilə bayıra qaçdı. O, yenicə doğan günəşin parlaq şüalarından gözlərini qıyıb əli ilə alnını örtərək uzaqda dayanan Mihayı gördü. Mihay hündür və arıq idi. Əynində nimdaş paltar var idi. Sabina oğlunun yanında dayanan adamı tanıdı. Həmin adam onların kilsələrinin pastoru idi. Sabina nə qədər əlini yellətsə də, Mihaygil yaxınlarını görmək ümidi ilə tikanlı məftillərə sıxılmış qadınların arasından onu görə bilmədilər.

Birdən Sabinanın arxasında dava düşdü. Rina qələbə çalmış biri tək ortalıqda durmuşdu. Ötən həftə çox adam gündəlik iş normasını yerinə yetirə bilmədiyi üçün görüşlər ləğv olundu.

Mihay və pastor qatarla bütün gecəni Buxarestdən Çernavodaya uzun yol gəlmişdilər. Onlara hava-su kimi lazım olan əllərindəki pulu xərcləmişdilər. Onlar Sabina ilə nə danışa, nə də gətirdikləri yeməyi və geyimi ona verə bildilər.

Görüşə gələnlərdən otuza yaxın adam komendantın fikrini dəyişəcəyinə ümid edərək bütün günü darvazanın ağzında dayanıb gözlədi. Ancaq o, fikrindən dönmədi və axşamüstü hamı dağılışıb getdi.

Buna baxmayaraq dustaqlar yenə də qohumlarını görüşə çağıra bilərdilər. Bir neçə həftədən sonra bazar günü Mihay yenə də Çernavodaya gəldi. Bu dəfə heç bir cəzalandırma olmadı. Amma görüşə gələnləri əlifba sırası ilə buraxırdılar və Vurmbrand soyadı (W hərfi ilə yazılırdı) siyahıda axırıncı yerdə idi. Həmin hərfə gəlib çıxana qədər mühafizəçilərin görüş vaxtını davam etdirəcəyinə ümid az idi. Məhbus qadınlar yaxşı görünməyə çalışaraq bir-birilərindən müvəqqəti geyinməyə paltar götürmüşdülər. Onlar ailələrinə deyəcəkləri sözləri əvvəlcədən məşq edirdilər ki, ayrılmış

on beş dəqiqəyə fikirlərini çatdıra bilsinlər. Qadınlar doğmalarından on metr aralıda dayanırdılar. Onların hər bir sözlərinə qulaq asılırdı.

Nəhayət, görüş vaxtı qurtarana yaxın Sabinanın adı çəkildi. Ana övladını görüb məhbus olduğunu və necə göründüyünü unutdu, sadəcə gözləri ilə onu qucaqlamağa çalışdı. Mihay necə də arıq və ciddi idi! Sabina Mihaya, o da anasına baxırdı. On beş dəqiqə bir göz qırpımında keçib getdi. Onlar demək olar ki, heç nə danışmadılar. Görüşün sonunda Sabina ondan aralıda durmuş oğluna dedi: «Mihay, bütün qəlbinlə İsaya inan!» O bilirdi ki, onun oğlu da minlərlə oğlan və qız kimi həyatda bələdçi olmadan taleyin ixtiyarına buraxılıb. Kommunistlər də öz məqsədlərinə nail olmaq üçün bu fürsətdən istifadə edirlər.

Sabina özü bilməsə də, sözləri oğlunun ürəyində dərin kök saldı və xırda toxumdan inkişaf edən ağac kimi cücərib Məsihə imanda möhkəm qalmasına kömək etdi.

Mühafizəçi Sabinanı itələdi və onu görüş otağından baraka apardı. Sonrakı bir neçə saat ərzində Sabina danışa bilmədi. Oğlunun dəyərli xatirələri iztirab çəkən yorğun qəlbi üçün bir məlhəm oldu.

# 34

Sabina uşaq olanda gecələri sevmirdi. İndi isə Dunay kanalındakı dözülməz işdən sonra gecələri böyük həsrətlə gözləyirdi. Amma yuxuya getmək onun üçün asan olmurdu. O, barakdakı qadınlar, əmək düşərgəsində, kommunist ölkələrində həbs olunmuş milyonlarla məhbuslar, eləcə də rumın məhbuslar üçün dua etdiklərinə ümid bəslədiyi, qərbdə rahat yatan məsihçilərdən ötrü dua edirdi.

Hər bazar günü Çernavodada «yenidən tərbiyələndirmək» üzrə mühazirələr oxunurdu. Yorğun qadınları Allah barədə kəskin çıxışlara qulaq asmaq üçün iclas zalına yığırdılar.

«Buradan kənarda hamı kommunistdir, — deyə mühazirəçi öz nitqinə başlayırdı, — yalnız siz öz dini ağılsızlığınıza davam edirsiniz və biz də sizin başınızdan onu çıxaracağıq. İndi sükan arxasında kommunist partiyasıdır və onun rəhbərliyi nəyə inanmaq lazım olduğunu sizdən yaxşı bilir. Siz burada *həbsxanada* deyilsiniz. Siz «yenidən tərbiyələndirmə» müəssisəsindəsiniz. Siz burada vətəniniz və gələcək nəsilləriniz üçün çalışaraq öz xoşbəxt gələcəyinizi quracaqsınız! Gündəlik iş normanızdan artıq iş görməklə, azadlığınızı bərpa olunmuş vətəndaş kimi tezləşdirə bilərsiniz».

«Yenidən tərbiyələndirmə» barədə mühazirədən sonra təbliğat konserti başlayırdı. Gecə klublarının müğənniləri və məşhur olmayan aktrisalar kommunizmi mədh edən mahnılar oxuyurdular. Bir vaxtlar dolu və yaraşıqlı olan, indi isə həbsxana həyatından cılızlaşıb haldan düşmüş alman qadın əllərini bir-birinin üstünə qoyaraq qəmli-qəmli mahnılar oxuyurdu. Onun səsi yuxarı notlarda qırılırdı. Bu zaman ön cərgədə oturmuş zabitlər qəşş edib gülürdülər.

Həm özünü, həm də ölkəsini camaata güldürən *freyleyn*-dən (gənc xanım) gülməli nə ola bilərdi ki? Onun bütün bədəni titrəyirdi və yanaqlarından damla-damla göz yaşları süzülürdü.

Bu bayağı səhnəyə gülməyən çox az adam tapılardı. Amma beləsinə də «yenidən tərbiyələndirmə» öz təsirini göstərmişdi. Çünki üstlərinə tökülən «palçıq» çox vaxt onların üzərində qalırdı.

Belə konsertlərdə Sabina əl çalmırdı.

«Özünü elə göstər ki, guya əl çalırsan. Əl çalmaqla sənə nə olacaq ki? Məgər buna görə döyülməyə dəyər?» — deyə Sabinanın məhbus yoldaşı ona məsləhət verirdi. Lakin Sabina öz Allahına böhtan atıldığını və gözəlliyin ayaq altında tapdandığını görəndə riyakarlıq edə bilmirdi. O, zalda sonuncu sıralarda oturmuş adamların arxasında gizlənməyə çalışır və əl çalmırdı.

*****

«Vurmbrand, məndə olan məlumata görə, sən günorta «yenidən tərbiyələndirmə» üzrə mühazirədə və konsertdə əl çalmamısan, — deyə komendant şiştəpəli furajkasının altından Sabinaya tərs-tərs baxdı, — sənin davranışın əksinqilabçı xasiyyətini və yenidən tərbiyələnməyə tabe olmadığını göstərir. Biz səninlə xoş rəftar etmişik. İndi isə başqa metodlar tətbiq olunacaq».

Həmin axşam Sabinanı baraka qaytarmaq əvəzinə karserə apardılar. Dəmir qapıda hava gəlmək üçün bir-iki deşik var idi. Yeməyi qapının aşağısında olan yarıqdan içəriyə salırdılar. Dunay kanalında işləyən mühafizəçilər məhbusları karserə salmaqdan zövq alırdılar.

Bir neçə saat karserdə qalan Sabinanın ayaqları onu yandırmağa başladı. Hər dəfə ayağının yerini dəyişəndə iti ülgüc kimi olan çıxıntılar bədəninə batırdı. «*Görəsən, neçə saat burada qalacağam?*» deyə Sabina öz-özünə sual verdi. O bilirdi ki, bu işgəncə qutularında dəhşətli fikirlər insanlara qalib gəldiyi üçün ağıllarını itirirlər. Bəs bu fikirlərdən necə can qurtarmaq olardı?

Qutunun damına su damcılayırdı və Sabina qərara gəldi ki, bu bezdirici səslərdən diqqətini yayındırmaq üçün istifadə etsin. Onları bir-bir saymağa başladı. Bir: Allah birdir. İki: iki qanun lövhəsi. Üç: Allahın üçlüyü. On beş və ya on altıya gəlib çıxanda o, yenidən saymağa başladı. Ümidsizlik hissləri ona üstün gələrkən o qışqırdı: «Bir! İki! Üç! Dörd! Bir! İki! Üç! Dörd!» Tezliklə Sabinanın sözləri bir-biri ilə əlaqəsini itirsə də, düşüncələri qarmaqarışıqlıqdan çıxdı. Qaranlıq ona iztirablı düşüncələr gətirsə də, ruhu Allahla danışmağa davam edirdi. Bir-iki saatdan sonra düşüncələrində gedən mübarizə dayandı. Onun şüuru xilas oldu.

*****

Sabina karserdən azadlığa çıxdıqdan dərhal sonra polkovnik Albon əmək düşərgəsinə baxış keçirdi. O, üzləri hisdən-tozdan bozarmış kabusabənzər qadınları həqarətli baxışlarla süzərək Çernavodanın hər tərəfini gəzib dolandı. Oradan getməyə hazırlaşanda qaraçı qız ona yaxınlaşdı. Qız təhlükəsizlik xidmətinin leytenantı ilə gizlicə görüşürdü və hal-hazırda hamilə idi.

Albon Buxarestdəki rəhbərliyə nizam-intizamın pozulduğu barədə raport göndərdi. Bundan sonra əmr gəldi ki, Çernavodadakı qadınları kişilərdən uzaq saxlamaq üçün qadın əmək düşərgəsinə köçürsünlər. Beləliklə, Sabina «4-cü kilometr» (K4) adlanan düşərgəyə gəlib çıxdı.

*****

K4 düşərgəsinin məhbusları səhərdən axşama qədər ağır daşları barja doldururdular ki, çayın o biri tərəfinə daşınsın. Bu işi suyu sıçratmadan görmək mümkün deyildi. Səhər işə başlayan kimi hamı yaş olurdu. Bereqan düzənliyindən buz kimi soyuq külək əsirdi və Sabinanın paltarlarını dondurub daş kimi edirdi. Qənbər daşlar onun əllərini cızmışdı, dırnaqlarından qan axırdı. Bundan sonra nə vaxtsa dik dura biləcəyinə inanmırdı.

Axşamlar məhbuslar baraklarına qayıdıb yaş paltarlarında yatırdılar. Sabina zərrə qədər də olsa, günəş şüasına həsrət idi! O, bir dəri, bir sümük qalmışdı. Şaxtalı külək sanki onun içindən keçib gedirdi.

*****

Gecə saat 11-də barakın qapısı taybatay açıldı və altı nəfər mühafizəçi qışqıra-qışqıra içəri girdi:

— Durun ayağa! Hamı qalxsın! Komendant yoxlama aparır!

Qorxuya düşmüş qadınlar çaşqınlıq içərisində titrəyə-titrəyə boz yorğanlarının altından çıxdılar. Onlar öz əşyalarını yığmağa çalışdılar. Bəlkə onları yeni yerə köçürürlər?

Çəkmələri lampanın zəif işığında par-par parıldayan komendant elan etdi:

— Qadınlar! Aranızda xarici dil bilən varsa, bir addım qabağa keçsin.

Sabina da daxil olmaqla, bir çox qadın irəliyə çıxdı. Cərgədəki qadınlar keçmiş burjuaziya cəmiyyətinin nümayəndələri idi. Mühafizəçi onların adlarını qeyd etdi.

«Yəqin onlara tərcüməçilər lazımdır, — deyə qadınlardan biri öz mülahizəsini irəli sürdü, — Amerikalılar gəlirlər! Fransızlar da!»

Cinayət üstündə həbs edilmiş məhbuslar savadlı yoldaşlarını gözləyən rahat iş barədə düşünəndə paxıllıqdan partlayırdılar.

Ertəsi gün düzənliklə işə gedən Sabina yol boyunca elə hey yeni iş barədə düşünərək sevinirdi. *«Görəsən, bu doğrudur?»* — öz-özünə sual verdi. — *«Bu sərt küləkdən uzaq bir yerdə hansısa isti bir idarədə tərcüməçi işi... Bəlkə hansısa beynəlxalq bir dəyişiklik baş verir?»* Daş karxanası şayiələrdən ehtizaza gəlmişdi.

Həmin gün Sabina Essika adlı balacaboy yəhudi bir qadınla yanbayan işləyirdi. Bir gözü mühafizəçilərdə olan qadın pıçıltı ilə Sabinaya dünən gecə onların barakında baş verənlər barədə söhbət açdı.

Sonra Essika böyük bir daşı götürüb barja yuvarlayaraq dedi:

«Hər barakda və düşərgədə belə şeylər baş verir. Bəzən onlar kimin xarici olduğunu soruşurlar. Almanlar və yəhudilər kommunistlərin onlara başqa ölkəyə köçmək imkanı verəcəklərini düşünərək tez rumın olmayan adlarını söyləməyə çalışırlar. Əslində isə onların elə bir fikiri yoxdur. Sadəcə əzab vermək üçün nəzərdə tutulmuş bir şeydir».

Tezliklə Sabina Essikanın haqlı olduğunu başa düşdü. Bu, məhbusların iradəsini qırmaq və şüurunu zəiflətmək məqsədilə nəzərdə tutulmuş növbəti əzab növü idi.

*****

İşgəncə verilən adamla işgəncə verən arasında çox vaxt sevgi-nifrət münasibətləri yaranırdı. Mühafizəçilər məhbusları döyüb ələ salır, bədənlərində dəyənəyin qançır yerlərini gəzdirən həmin məhbuslar isə onlara işgəncə verənləri nəvazişli adlarla çağırırdılar. Cavan mühafizəçilərə öyrədilmişdi ki, bütün məhbuslar cinayətkardırlar, onlar da heç düşünmədən bu sözdən istifadə edirdilər. Sabina soyuq baxışlarla baxan iyirmi yaşlı qızlardan özünü gözləməyi öyrənmişdi. «Yenidən tərbiyələndirmə» ideologiyası davam etdiyi bir vaxtda onlar kişilərdən daha qəddar idilər.

Sonra qızları bir neçə aylıq, bəzən bir illik kanaldakı əmək düşərgələrində işləməyə göndərəndə onlar məhbuslarla birgə yaşayır, daş karxanasına qədər olan uzaq məsafəni onlarla birgə qət edirdilər. Dustaqlar işləyərkən yanlarında dururdular. Nə qədər ciddi tapşırılsa da, qızlar dustaq qadınlarla söhbət edirdilər. Bir müddətdən sonra onlar başa düşürdülər ki, nəzarət etdikləri məhbuslar təkcə «cinayətkar» deyil, çox vaxt elə öz ailələrində olan adamlar kimi sadə kəndlilərdir. Rumıniyanın hər yerində məcburi kollektivləşdirmə proqramı keçirilirdi. Sahibkarlardan torpaqlar və mal-qaralar zorla alınırdı. Mühafizəçilər öz qohumlarının aclıqla üzləşdiyini və həbs olunduğunu eşidəndə şübhələrlə

dolmağa başlayırdılar. Öz işləri və partiyaları ilə fəxr etmək hissi getdikcə onlarda yoxa çıxırdı. Kommunizmin artan fəsadları bəzi mühafizəçiləri düşündürməyə başlamış, onların ürəklərini məhbuslara qarşı yumşaltmışdı.

Sabinaya qarşı əvvəllər də mehriban olan qırmızıyanaq mühafizəçi Nina düşərgəyə daxil olan yeni məhbusların bəzilərinin gənc olduğunu müşahidə etmişdi.

«Bu ki lap uşaqdır! — onlardan birini görən Nina bir dəfə heyrətlənmişdi, — mənə demişdilər ki, oğrular və qatillər ilə işləyəcəyəm, amma bu qız çox gəncdir!»

Nina dustaqlara gizlicə yemək gətirirdi və onların ailələrinə məktub çatdırırdı. Onun kommunizmə olan etibarı artıq laxlayırdı. Sabina Nina ilə söhbət etməyə başladı. O, hələ də ona öyrədilmiş ideologiyaya əsaslanaraq dini lağa qoyurdu. Onun qəlbi Allah üçün açıq deyildi. Sabina Məsih barədə söz açanda Nina istehza ilə dedi:

«Biz kommunistlər Məsihin yaxın dostlarıyıq! Əgər cənnət və Məsihin məhkəməsi varsa, onda O bizə böyük mərhəmət göstərəcək. Sənin ərin pastordur? — deyə o, Sabinaya sual verdi, — səncə, o, nə qədər insanı Məsihin iman yoluna gətirib? 20–25? Bəlkə bir neçə yüz? Biz kommunistlər isə çalışırıq ki, Məsih hər il Onun adını deyə-deyə ölən minlərlə müştərini əldə etsin. Biz Onun cənnətini doldururuq. O bizə minnətdar olmalıdır».

Sabina Ninaya qulaq asdı, ona tarsuslu Şaul haqqında və Şaulun məsihçiliyə olan nifrətinin gələcək Paul üçün təməl qoyduğu barədə danışdı. Müqəddəs Kitabda yazılıb ki, günah çoxalan yerdə Allahın lütfü daha da artır (Həvarilərin İşləri 9, Romalılara 5:20).

Bir müddətdən sonra Nina Məsihi ürəyinə qəbul etdi və bunu gizlətmək heç də asan deyildi. Satqın öz çirkin əməllərini iyirmi il ərzində görərək gizli saxlaya bilər, ona görə ki, onun ətrafında şər hökmranlıq edir. Bu, ona satqınlığını gizlətməyə kömək edir. Hər bir daşın altında bir ilan oturub. Xeyirxahlıq isə bir kəpənək kimidir, hətta gözəlliyə laqeydliklə baxan gözləri də heyran qoyur. Heç kim onu gözdən qaçıra bilməz, amma bəziləri onu məhv etmək istəyirlər.

1951-ci il idi. Nina K4 düşərgəsindən yoxa çıxdı.

«Ürəyini sıxma» — Sabina Ninanın rəfiqəsinə dedi. Qız elə düşünürdü ki, onun hərəkəti Ninanı təhlükəyə atdı. Sabina əlavə etdi: «O özü istəyib ki, sənə kömək etsin. Həm də indi həbsxanada məsihçi kimi keçirdiyi sevinc hissi mühafizəçi olarkən keçirdiyi sevinc hissindən qat-qat böyükdür».

Ninanın əzabları başqalarına Məsih barədə şəhadətlik etməsi üçün ona böyük nüfuz verəcəkdi. Bəs o, həbsxanada ölsəydi, necə olacaqdı. Onda onun ölümü Allahın böyük məqsədinə xidmət etmiş olacaqdı. Allah susamış insana bir qab su verəni mükafatsız qoymayacaqdı. O, Ninanı mükafatlandıracaqdı. İman uğrunda canını qurban verənlər özlərindən sonra əbədi miras qoyurlar.

# 35

Məhbusları düşərgələrə aparıb gətirənlər həmişə kişi mühafizəçilər olurdular. Onlar qadınların neçə illərdir gördükləri yeganə kişilər idi. Sabina Dunay çayının sahilində sakitcə işini görürdü, yanında işləyən fahişə qadınlar isə ədəbsiz zarafatlar edirdilər. Onlardan biri dedi:

— Bu Peterin əlləri qorillanın əlləri kimi tüklüdür, belində də qapqara tüklər var. Əminəm ki, başdan-ayağa tüklə örtülüb. Bircə kimsə görsəydi!

Qızıl dişləri günəşin şüasından parıldayan digəri səsini başına atıb ona cavab verdi:

— Görən qadınlar var!

Üçüncüsü onların söhbətinə qoşuldu:

— Bilmirəm, onların nəyindən xoşumuz gəlir?

— Düzdür, heç mən də bunun səbəbini anlamıram. Görəsən, bizim qədər çirkin varlıqlar varmı? Bizim hamımızdan pis qoxu gəlir!

Sabinanın ətrafındakı qadınlar hamısı qəhqəhə çəkib güldülər. Fahişə qadınlardan biri dedi:

— Bizim söhbətlərimizdən bu mömin xanımın xoşu gəlmir!

Qadınlar ağır işlə məşğul olarkən işsizlikdən yayxanaraq siqaret çəkən mühafizəçilər Sabinaya istehza ilə baxıb gülümsəyirdilər. Həmin an Sabinanın ağlına belə gəlmirdi ki, qadınların bu nalayiq söhbətləri az sonra onun başına hansı oyunları açacaq.

*****

«Sıraya düzülün! Sıraya düzülün!» — deyə mühafizəçi çığırdı. Qadınlar yük maşınlarının onları gözlədiyi yerə doğru addımladılar. Çay boyunca palçıqlı bir cığır var idi.

Sabina hiss edirdi ki, Peter adlı mühafizəçi ona göz qoyur. Mühafizəçi istehza ilə qadına baxıb gülürdü. Sonra yanındakı mühafizəçinin qolunu dümsüklədi. O da çəkməsi ilə Sabinanın ayağına badalaq vurub onu palçığa yıxdı. Qadın mühafizəçilər qəhqəhə çəkib güldülər. Peter əlini uzadıb onu qaldırdı. Sabina tamam islanmışdı və paltarları sürüşkən idi. O, ağrıdan qışqırdı.

Mühafizəçi onu ələ saldı:

— Əziz xanım, sizə indi çimmək lazımdır!

Kimsə ona məsləhət verdi:

— Onu Dunaya atın!

Peter Sabinanın biləyindən tutub sıxdığı üçün qadın qışqırdı. O biri mühafizəçi isə Sabinanın palçıqlı ayaqlarından tutub qaldırdı. Haldan düşmüş məhbuslar kənarda dayanıb Sabinanın buzlu suya tərəf havada necə yellədildiyinə baxırdılar. Bazar günləri mühafizəçilər böyük məmnuniyyətlə məhbusları buz kimi Dunayda «çimdirirdilər». Sonra paltar yapışmış bədənlərinə baxıb gülmək üçün dartıb sudan çıxarırdılar.

Bahar Rumıniyanın sərt qışını əvəz etmişdi. Amma Dunay çayında hələ də tünd rəngli buz parçaları üzürdü. Mühafizəçilər Sabinanı havada yellədikdən sonra əllərini buraxdılar və Sabina böyük şappıltı ilə çayın daşlı-lilli hissəsinə düşdü. Buz kimi su bir göz qırpımında onu hər tərəfdən dövrələdi və onu çayın daşlı dibinə tərəf çəkdi. O, iti daşlara dırmaşaraq sahilə çıxmağa çalışsa da, bacarmırdı. Nə qədər səy göstərirdisə, bir o qədər özünü daha çox yaralayırdı. Dunay ona üstün gəlirdi.

Mühafizəçi hədələyici və ələ salan bir gülüşlə Sabinanın başının üstündə durub dedi:

— Yaxşı, de görək, indi Allahın haradadır?

Mühafizəçilər axşam düşərgəyə eyni sayda məhbusları təhvil verməli idilər. Ona görə də iki əl onu dartıb sudan çıxardı. Sabina

sarsılmış və taqətdən düşmüş halda idi, sahildə yerdə uzanıb qalmışdı. Çaşqınlıq içərisində dalğaların səsinin bu dünyaya, yoxsa o biri dünyaya aid olduğunu bilmək istəyirdi.

Mühafizəçi onu ələ salmaqda davam etdi:

— Bəs niyə Allahın səni xilas etmədi?

Donmuş torpağın üzərində uzanmış Sabina üzünü yuxarı tutub dedi:

— O sizin əlinizlə məni xilas etdi, mən sağam.

Başqa bir mühafizəçi söhbətə qarışdı:

— Ona heç nə olmayıb. Dur ayağa! Gəl getdik, yoxsa donacaqsan.

Cavan bir qadın Sabinaya əlini uzadıb ona yerdən qalxmaqda kömək etdi. Sabina sudan islanmış uzun yubkasını sıxdı, daha sonra məhbusların cərgəsinə qoşuldu. Qadınlar onun halına acıdıqlarını baxışları ilə hiss etdirdilər.

Sabinanın qabırğaları dözülməz dərəcədə ağrıyırdı. İllər sonra həkimlər onun iki qabırğa sümüyünün düzgün bitişmədiyini təsdiqlədilər. Sabina bilirdi ki, həmin çətin vəziyyətlərdə ona yalnız Allah şəfa vermişdi.

«Belə daha yaxşıdır. Soyuq su ilə çimməyin başqa ləzzəti var,» — deyə Peter Sabinaya yenə də atmaca atdı.

Sabinanın paltarları soyuqdan titrəyən bədəninə yapışmışdı. Daşlar əlinin və ayaqlarının dərisini yarmışdı. O, isinmək üçün qolları ilə özünü qucaqladı və bu zaman böyründə dözülməz bir ağrı hiss etdi.

Məhbuslar düşərgəyə gəlib çatanda Sabina qan içində olan əlləri ilə yaş paltarlarını sıxıb ağrıyan böyrünə baxdı. Həmin gecə, demək olar ki, yata bilmədi. Rahatlanmaq üçün tez-tez o tərəf bu tərəfə çevrilirdi.

Ertəsi gün Sabina ağrıdan qollarını beldən yuxarı qaldıra bilmədi. Qabırğalarının üstündəki böyük qançırlar Afrikanın xəritəsinə bənzəyirdi. O, əzilmiş bədənini həkim Kretseanuya göstərdi ki, ona nəsə yardım etsin.

«İşləyə bilərsən!» — deyə Kretseanu qərar verdi.

# 36

Baharın gəlişi ilə K4 düşərgəsində buzlar əriməyə başlamışdı. Daş karxanasına gedən yolda yenicə bitmiş otları yeməyə məhbuslara icazə verilmirdi. Amma onlar mühafizəçilərin gözündən kənar otları qırıb yeyirdilər. Qurbağalar da dadlı yemək hesab olunurdu, əsasən çiy-çiy yeyilirdi. Ac dustaqlar hələ bir dəfə yağlı yaşıl ot ilanının üstündə vəhşi pişiklə də vuruşmuşdular. Qadınlar arasında vitamin çatışmazlığı ilə bağlı xəstəliklər baş alıb gedirdi. Demək olar ki, hamı ishaldan, sinqadan və dəri infeksiyalarından əziyyət çəkirdi. Əldə və ayaqda olan çapıqlardan infeksiya yaranır, bu da xoralar əmələ gətirirdi. Xoralar da diametri on iki santimetrə qədər olan yaralara çevrilirdi. İnfeksiya qana yayılanda immuniteti aşağı salır, bədənin tamamilə zəifləməsinə səbəb olurdu.

Yaz fəslində günlər daha da uzanmışdı. Qızılı-moruğu rəngli günəş Dunayın arxasında qüruba enirdi. İşə getmək asanlaşmışdı. Arxların içərisində gicitkən və cəfəri zoğları boy atmışdı. Ətrafa təravətli xoş bir rayihə yayılırdı. Ağaclar şaxtadan sonra cürət edərək parıldayan körpə yarpaqlarını açmışdı. Təmiz bahar havası qadınların əhval-ruhiyyəsinə yaxşı təsir bağışlayırdı. Günəş şüaları, tər yarpaqlar, yamyaşıl otlar ətrafda hər şeyi dəyişmişdi. Bu dəyişiklik məhbuslara da öz təsirini göstərmişdi. Yeni dostluq münasibətləri getdikcə möhkəmlənirdi...

Dustaqların arasında müxtəlif dini konfessiyalardan olan adamlar var idi. Bir vaxtlar onlar bir-biriləri ilə mübahisə edərdilər. İndi isə o günlər geridə qalmışdı. Qadınlar, demək olar ki, biri-birilərini başa düşürdülər. Həbsxanada olmasaydılar, mübahisəsiz

dayana bilməzdilər. Amma burada, K4 düşərgəsində onların hər şeyləri — barakları, vedrələri ümumi idi. Nəhayət, onlar burada əsl bacı olmuşdular.

*****

Tezliklə yazı yay əvəz etdi. Dustaqlar indi qızmar günəş altında başları hərlənənə qədər işləyirdilər. Saatlar yavaş-yavaş irəliləyirdi. Məhbusların boğazları susuzluqdan quruyurdu. Onlar saatlarla torpağı kətmənləyir, avtomat maşın kimi işləyirdilər.

Qadınlardan biri inildədi:

— Əgər tezliklə mənə su gətirməsələr, huşumu itirəcəyəm.

O biri qadın ona xəbərdarlıq etdi:

— Bircə huşunu itirmə! Yoxsa səni təpiklə vuracaqlar.

Günəş daha da yüksəyə qalxdı. Sabinanın gözləri qarşısında arıq, uzun, gözü yaşlı övladı — Mihayın surəti canlanırdı. Bu kanalda işləyən nə qədər ana çarəsiz halda Allaha dualar edirdi?!

Artıq günorta idi. Məhbuslar sübhdən nə yemək yemiş, nə də su içmişdilər. Yolun kənarında olan müvəqqəti ayaqyolunda çoxlu milçəklər uçuşurdu.

Uzaqdan atla çəkilən yük arabası göründü. Araba dayandı və sonra arxaya dönməyə başladı.

— Yemək gətiriblər! — deyə qadınlar hay-həşir saldılar.

— Su! Biz su istəyirik!

Dustaqlar əllərindəki alətləri kənara tullayıb arabaya tərəf cumdular. Bu vaxt yemək arabası artıq gəlib çatmışdı. Qorxuya düşmüş arabaçı ehtiyatsızlıqdan daşa ilişdi və əlindəki cilovu səhv dartdı. Bu vaxt at istiqamətini dəyişdi və ona qoşulmuş furqonu yan tərəfə aşırdı. Mühafizəçilər qışqıraraq tez köməyə qaçdılar. At şahə qalxdı və qazanlar furqondan havaya uçdu. İyirmi kiloya yaxın bişmiş makaron yerdə toz-torpağa qarışaraq bir təpə kimi ortalıqda yığılıb qaldı. Qəzəblənmiş qadınlar yük arabasını dövrəyə alıb yeməyin üstünə şığıdılar. Onlar ovucları ilə torpağa qarışmış

makaronları götürüb ağızlarına doldururdular. Qalanları isə qorxu içərisində bu ağlamalı səhnəyə tamaşa edirdilər.

Həmin gün su gətirilmədi. İş vaxtı Sabinanın gözləri qaraldı, boğazı qurudu. Dili sanki ağzında şişmişdi. Onun yadına İsanın çarmıxdakı sözləri düşdü: «Susadım!» Əlbəttə ki, İsa onun əzablarını yaxşı anlayırdı...

*****

K4 düşərgəsində Sabina bacılarının təkcə ürəklərinin deyil, eləcə də bədənlərinin qayğısına qalırdı. Qadınları döyəndə onların yaralarını sarıyır, halsızlıqdan addım ata bilməyəndə yüklərini daşıyırdı.

Sabinanın Allah barədə danışması düşərgənin komendantının müavininə də çatdı. Sabina qırmızısifət, enlikürək və iri dişləri olan qadının yanına çağırıldı. Komendantın müavini ona xəbərdarlıq etdi:

— Sən məhbuslara Allah barədə danışırsan. Buna son qoyulmalıdır!

Sabina cavabında dedi ki, heç nə onu saxlaya bilməz. Əsəbiləşmiş müavin yumruğunu qaldırıb onu vurmaq istədi, amma birdən dayandı. Sonra o qışqırdı:

— Sən nə üçün gülümsünürsən?

Sabina cavab verdi:

— Əgər mən gülümsəyirəmsə, bu, ona görədir ki, sizin gözünüzdə nəsə görürəm.

— O nədir ki?

Sabina izah etməyə başladı:

— Mən sizin gözlərinizdə özümü görürəm. Başqa insana yaxınlaşan istənilən adam onun gözlərində özünü görə bilər. Mən də əvvəllər özümdən tez çıxan idim. Mən də sevməyin, həqiqət uğrunda özünü qurban verməyin əslində nə olduğunu bilənədək əsəbiləşib yumruğumu sıxırdım. O vaxtdan bəri mənim əllərim yumruq üçün sıxılmır.

Komendantın müavininin əli qeyri-ixtiyarı aşağı düşdü. Sabina sözünə davam etdi:

— Əgər siz mənim gözlərimə baxsanız, özünüzü orada — Allahın sizi dəyişə biləcəyi bir tərzdə görə bilərsiniz.

Komendantın müavini Sabinanın qarşısında donub qalmışdı. O pıçıldayaraq dedi:

— Çıx get burdan.

Sabina məhbuslara İsa barədə danışmağı davam etdirdi və o gündən sonra komendantın müavini daha ona mane olmadı.

*****

K4 düşərgəsində zaman sanki dayanmışdı. Qadınların həyatı köləlikdən ibarət idi və gözlərinin qarşısında kanaldan başqa bir dünya yox idi. Onlar bu çıxılmaz vəziyyətlə barışmağa məcbur olmuşdular. Həbsxanadan kənardakı xəbərlər isə — aclıq, hər yerdə qıtlıq, sıxıntılar və amerikalıların gəlib onları köləlikdən azad edəcəyinə sonsuz ümidlər dəyişilməz qalmışdı.

Ruh düşkünlüyü artdıqca məhbusların işgörmə qabiliyyəti də azalırdı. Mühafizəçilər isə qadınlarla daha qəddarcasına rəftar edirdilər.

Bir dəfə iclasda mühafizəçilər qadınlar arasından iyirmiyə yaxın adam seçib elan etdilər:

— Siz ən çalışqan işçilər olmusunuz, ona görə də sizi azadlığa buraxırıq.

Komendant vida çıxışı etdi və iyirmi işgüzar qadını yük maşınına mindirib mükafat olaraq əllərinə bir kömbə çörək və qırmızı bayraq verdilər.

Kanal boyunca on altı kilometr aşağı gedəndən sonra qadınları yaxınlıqdakı əmək düşərgəsində düşürdüb dərhal işləməyə göndərdilər.

*****

Tezliklə Sabina K4 düşərgəsindən basabas boğanaq bir qatara mindirilib ölkənin o biri başına, başqa yerə köçürüldü. Yolda dustaqlar ABŞ-da keçirilmiş prezident seçkilərini və onun nəticələrinin Rumıniyaya necə təsir edəcəyini müzakirə edirdilər. Qadınlar hələ də ümid edirdilər ki, Eyzenhauer onları xilas edəcək...

Vaqonda qadınların narahatlığı getdikcə artmağa başladı. Çox sayda xəstə ilə bir həftə vaqonda uzun yol getmək dözülməz idi. Dayanacaqların birində qapılar açıldı və vaqona bir kisə yemək atdılar. Məhbuslara həftə ərzində daha başqa heç bir yemək verilmədi. Tezliklə söhbətin mövzusu Stalinə keçdi.

Sabinanın yanında oturan qadın fikrini bildirdi:

— Bir şeyi bilirəm ki, o, əbədi yaşayan deyil. Bəs bu insanı belə zalım edən nədir?

Sabina cavab verdi:

— Çox vaxt vəziyyətlər. Düzdür, şəraitlə hər şeyə bəraət qazandırmaq mümkün deyil, amma çox şey vəziyyətdən asılıdır.

Sabina bu boğanaq dəmir qutunun içərisində özünə rahatlıq axtararaq ayaqlarını qabağa uzatdı. Sonra nə demək istədiyini başa saldı:

İosif Stalin nikahdan kənar doğulmuş bir uşaq olub. Deyilənə görə, onun atası milis idi. Anası isə həmin zabitin evində qulluqçu işləyirmiş və sonra ondan hamilə qalıb. Stalinin atalığı isə içki düşkünü idi. Uşağın onun övladı olmadığını bilirdi və onu amansızcasına döyürdü. Stalin sonra pravoslav seminariyasına daxil olmuşdu, orada tələbələrlə daha çox məhbuslar kimi rəftar edirdilər.

Sabina Stalinin hansı şəraitdə inqilabçı olmağa qərar verdiyini başa düşürdü.

Artıq gecə idi və birdən qatar dayandı.

«Qatardan düşün! Hamı düşsün!» — deyə mühafizəçilər qışqırdılar.

Qapılar açıldı və qadınlar gur fənər işığından gözlərini qıydılar.

«Ay aman, olmaya hamımızı güllələmək üçün buraya gətiriblər?!» — deyə qadınlardan biri dedi.

## Fəsil 36

Onlar ağlaşa-ağlaşa qatardan düşdülər. Mühafizəçi qışqırdı: «Sıraya düzlənin! Serjantdan uzaqlaşmayın!»

Bu qarmaqarışıqlıqdan təxminən yarım saat sonra məhbus qadınları dəmir yolunun yaxınlığındakı zəmiyə getməyə məcbur etdilər. Onlar mühafizəçilərin hədə və zərbələri altında qaranlığı yara-yara gedirdilər. Bu yolun sanki sonu yox idi. Nəhayət, onlar yeni həbsxananın elektrik fənərləri ilə gur işıqlandırılmış, uzun, boz-bulanıq və hündür divarlarını görməyə başladılar. Ağır, polad darvazalar açıldı və məhbuslar beş-beş pərakəndə halda içəri girdilər. Məhbuslar arasında söz yayıldı ki, bura Tirqusordur.

«Niyə bizi bura gətirdilər? Niyə məhz Tirqusora?» — deyə dustaqlar şübhə içində bir-birinə sual verdilər. Buranın ciddi mühafizəsi var idi və ən ağır cəzaya məhkum olunmuş cinayətkarlar üçün nəzərdə tutulmuşdu. Bu həbsxana Rumıniyada çox tanınmış bir yer idi. Görəsən, bu, nə demək idi?

«Yəqin başqa bütün həbsxanalar məhbuslarla doludur» — deyə qadınlardan biri o birilərinə təskinlik verməyə çalışdı.

*****

Tirqusorda Sabina tikiş emalatxanasında işləməyə göndərildi. Bu həbsxanada ən ağır cinayətkarlar — qatillər, cinsi zorakılıq edənlər, fırıldaqçılar, sadistlər, hətta ruhi xəstələr də saxlanılırdı. Sabina ilə yanaşı tikiş maşınının arxasında oturan qadın qayçı ilə həkimi vurub öldürmüşdü. Sabina indi onun qayçı ilə necə parça kəsdiyini həyəcanla izləyirdi.

Sabina məhz burada olarkən öyrəndi ki, general Eyzenhauer ABŞ prezidenti seçilib və kommunist partiyasının bir neçə rəhbəri partiyadan çıxarılaraq vəzifədən uzaqlaşdırılıb. Görəsən, bu, azadlığın başlanğıcı idimi?

Tezliklə Rumıniyada şayiələr yayıldı ki, guya hökumət kanal tikintisini dayandırıb. Bu xəbərlər Tirqusora da gəlib çıxdı. Vaxt keçdikcə bu şayiələrin doğru olduğu təsdiqləndi və Tirqusorda

məhbuslara məlum oldu ki, kanalın mühəndisləri «dövlət malını mənimsəməkdə» ittiham olunacaqlar. Hər bir qadının ağlına bu sual gəlirdi: *«Görəsən, bunun yüz minlərlə dustağa nə faydası olacaq? Bəlkə bizi azad edəcəklər?»*

Həftələr ötdü. Tirqusorda məhbuslar gündə iki dəfə sayılırdı. Mühafizəçilərin çox az qismi saymağı bacarırdı. Yalnız bir neçəsi qabaq cərgədə olanları arxa cərgədə olanların sayı ilə toplaya bilirdi. Bütün bunlar neçə saat vaxt aparırdı. Sonra kameralar yoxlanırdı.

Bir dəfə məhbuslar çox sürətlə sayıldı və sonra dərhal qorxunc bir xəbər gəldi:

— Bütün şəxsi əşyalarınızı yığın!

Tirqusorun məhbuslarını harasa köçürürdülər.

Məhbusları üstü açıq yük maşınlarında «Ferma Rozi» kolxozuna gətirib çıxardılar. Burada onlar faydasız işlə məşğul olaraq üzüm tənəklərini soyuqdan qorumaq üçün üstlərini torpaqla örtürdülər. Tənəkləri qorumaq artıq gec olsa da, bu, heç kimi narahat etmirdi. Bir vaxtlar «Avropanın taxıl anbarı» adlanan ölkə indi aclıqdan əziyyət çəkirdi.

Günlərin bir günü səhər sahədə işləyərkən Sabina huşunu itirdi və onu Vakareştidə yerləşən məhbuslar üçün xəstəxanaya apardılar. O, buranı yaxşı tanıyırdı. Vaxtilə Riçard burada Allahdan danışanda Sabina yolka bəzəyirdi. İndi isə Sabina küncündə çirkli vedrədən başqa heç nə olmayan təcrid olunmuş bir kamerada, beton döşəmə üzərində yatırdı.

Ertəsi gün səhər Sabina pəncərədən baxanda həyətdə kişi məhbusları gördü. Onlar pəncərənin yanından keçəndə Sabina kişilərdən Riçard Vurmbrand barədə soruşdu.

İki nəfər başı ilə tanımadıqlarını işarə etdilər. O biri isə sual verdi:

— Vurmbrand? Pastor?

Nəhayət, kimsə onun ərini tanıdı.

Həmin məhbus Sabinanın pəncərəsinin altında dayandı. Kişi pıçıldadı:

— Mən onu tanıyıram, on il həbsxanada olmağıma peşman deyiləm, çünki pastor məni Məsihə doğru yönəltdi və indi mən onun həyat yoldaşı ilə tanış oldum.

Həmin dustaq Riçardla Tirqul-Oknada tanış olmuşdu, amma onun Riçardın sağ olub-olmamasından xəbəri yox idi. Sonra o kişi sözünə davam etdi:

— O, ölüm ayağında olan məhbusların kamerasında idi. Riçard həmişə Məsih barədə danışırdı.

Sabina hələ də ərinin sağ olub-olmadığını bilmirdi. Lakin bir onu bilirdi ki, həbsxanada olarkən Riçard heç dəyişməmişdi. O, yenə də əvvəlki kimi Məsih barədə danışıb insanları Allaha tərəf yönəldirdi.

*****

Nəhayət, Sabinanı mehriban bir həkim müayinə etdi. Ona sinqadan sağalmaq üçün iynələr və yaxşı qidalanma resepti yazdı. Sabinanın bədənindəki yaralar və qaysaqlar sağalmağa başladı. Yoğun bağırsağın iltihabı və ishal onu tərk etdi. Onun görməsi də yaxşılaşmışdı.

Bir axşam nəzarətçi zabit hərbi geyimli başqa adamlarla birgə palataya daxil olub dedi:

— Belə gözəl xəstəxanada qalmaq imkanı olanın Allaha nə ehtiyacı var ki?!

Sabina cavab verdi:

— Leytenant! Nə qədər ki, yer üzündə insanlar var, onların Allaha, eləcə də həyat və sağlamlıq bəxş edən İsaya ehtiyacı var.

Əsəbiləşmiş zabit onun sözünü kəsməyə çalışsa da, Sabina dayanmadı:

— Evdə yaşayan hər kəs bilir ki, bina memar tərəfindən tikilib. Eləcə də ziyafətə dəvət olunmuş hər kəs süfrədəki yeməklərin aşpaz tərəfindən hazırlandığını bilir. Biz hamımız gözəlliklərlə dolu bu dünyada ziyafətə dəvət olunmuşuq və bilirik ki, bu ziyafəti hazırlayan Allahdır.

Zabit istehza ilə gülümsündü, onu ələ salaraq qapını çırpıb getdi. Ertəsi gün Sabinaya əmr edildi ki, əşyalarını yığsın. Onu «Ferma Rozi»yə qaytardılar.

# 37

Riçard baş serjant Bukarın halına acıyaraq dedi:

— Günəş çıxmazdan əvvəl gecə ən qaranlıq olan vaxtdır.

Qızdırma içində yanan serjant ölüm ayağında idi. O, keçmişdə etdiyi cinayətlərə görə vicdan əzabı çəkirdi. Bukar hətta əmr almadan belə qadınlar və uşaqlar da daxil olmaqla çoxlu yəhudi öldürmüşdü.

Bukar ağır nəfəs ala-ala dedi:

— Mən hamınızın qarşısında etiraf etmək istəyirəm. Mən çox günahlar etmişəm və indi günahlarımla ölə bilmərəm.

Riçard onu inandırdı:

— Sən artıq həmin qatil deyilsən. İnsan göylərdən doğula bilər.

Ertəsi gün Bukarın vəziyyəti daha da pisləşdi. Dünyasını dəyişməzdən bir neçə dəqiqə əvvəl o dedi:

— Mən sizə dünən hər şeyi danışmadım, çünki qorxurdum.

Serjant etiraf etdi ki, o, uşaqları analarının qucağında güllələyib. Onun güllələri qurtaranda körpələri tüfənginin taxta qundağı ilə vurub öldürüb. Bukar günahlarının əfv olunması üçün qana susadığını sübut edən başqa dəhşətli hadisələr də danışdı. Sonra o, boynundan asılmış çarmıxı tutub huşunu itirdi.

Riçard serjantın ağır və çətin nəfəs aldığını görürdü. Etdiyi qəddarlığın əlaməti olan ağzının kənarındakı dərin qırışlar axır ki, hamarlandı. O, İsa Məsihi şəxsi Xilaskarı kimi qəbul edərək gözlərini dünyaya əbədi yumdu.

Popp adlı professor gözlərini Bukarın cəsədindən ayıraraq fikirli halda dilləndi:

— Bu qədər qatı ateistin həyatının sonunda İsaya iman etməsi məni çox təəccübləndirir.

Riçard özünü çarpayısında rahlayıb sözünə davam edərək başını yelləyib professorun fikirlərini təsdiqlədi:

— Bir vaxtlar mən dəmir yolunun yanında yaşayırdım və şəhərdə səs-küy olduğu üçün gündüzlər qatarların səsinə fikir verməzdim. Amma gecələr qatarların fit səslərini aydın eşidərdim. Həyatın səs-küyü vicdanımızın sakit səsini boğa bilər. Lakin heç bir yayındırıcı amilin olmadığı sakit həbsxana kamerasına ölüm yaxınlaşanda, insan heç vaxt eşitmədiyi vicdanının səsini asanlıqla eşidə bilər.

Professor Popp Riçardın yaxın dostuna çevrildi. Onlar axşamlar zarafatlar edib bir-birinə hekayələr danışırdılar. Onların hər ikisinin ədəbiyyata, mədəniyyətə və fəlsəfəyə böyük marağı var idi. Popp Riçarda yuyunmaqda və geyinməkdə kömək edirdi.

Onda bəs Allah haradadır? Niyə o bizə kömək etmir? — deyə o bir dəfə Riçarddan soruşdu.

Riçard ona bir qız haqqında danışdı. Həmin qız atası öləndən sonra pastora yaxınlaşıb sual vermişdi: «Sizin haqqında danışdığınız Allahın qoruyucu əli haradadır?»

Popp maraqlandı:

— Pastor ona nə cavab verdi?

— Pastor demişdi ki, Allahın əli ananın əli kimi sənin çiynindədir.

Riçard izah etdi ki, Məsih hətta həbsxanada belə onları tərk etməyib. Onu burada məsihçi həkimlər təmsil edirlər. İşgəncə təhlükəsinə baxmayaraq onlar məhbuslar üçün kameraya gizli yolla dərman gətirirdilər. Məsihi təmsil edən həm də pastorlardır. Həbsxanada xəstələrə və ölüm ayağında olanlara Allahın Müjdəsini çatdıran pastorlar idi. Onlar Kəlamın hekayələrini danışaraq qulaq asanları ruhlandırmaq və ümid vermək üçün Allahın bir aləti idilər.

*****

Pasxanın gəlişi 4 nömrəli kamerada ölüm ayağında olanlara yeni güc vermişdi. Riçardın xidməti ateistləri məsihçi, qatilləri xidmətçi, məhbusları vəzçilər etmişdi. Həmin gün səhər kameraya «Dəmir qvardiya»nın döyüşçüsü olmuş Valeriu Qafenku üçün qaçaqmalçılıq yolu ilə bir bağlama gətirildi.

«Tez aç, görək içində nə var!» — deyə otaqdakı məhbuslardan biri qışqırdı.

Qafenku bağlamanın kağızını açıb gördü ki, içində iki kiçik qənd parçası var. Məhbuslar gözlərinə inana bilmədilər. Bu ləziz ağ qidanı onlar neçə illər idi ki, görmürdülər. Taqətdən düşmüş bədənləri qəndin şirinliyini az da olsa, dadmaq istəyirdi. Hamı Qafenkunun Pasxa hədiyyəsi ilə nə edəcəyini diqqətlə müşahidə edirdi. O, qəndi öz kağızına büküb çarpayısının yanına qoyub dedi: «Hələ yeməyəcəyəm. Bəlkə kimsə özünü məndən daha pis hiss edər».

Bir neçə gün sonra Riçardın bədəni qızdırmadan titrəməyə başladı. O, elə zəiflədi ki, heç çarpayısından qalxa bilmirdi. Məhbuslar qəndi bir çarpayıdan o birinə ötürərək Vurmbranda çatdırdılar.

«Bu hədiyyədir,» — Qafenku dedi.

Riçard bir anlıq düşündü. Onun bütün bədəni bu arzuolunan qənd parçasının həsrətində idi. Amma o, qəndi yeməkdən imtina etdi. Bir neçə gündən sonra onu ölüm ayağında olan yaşlı yunan kommunisti Soterisə verdi. O, Yunanıstandakı vətəndaş müharibəsinin sonunda Rumıniyaya qaçıb gəlmişdi. Fərariliyə görə həbs olunsa da, öz qəhrəmanlıqları ilə lovğalanmaq üçün həmişə fürsət axtarırdı. Xüsusilə iki min il ərzində heç bir qadının olmadığı, yalnız rahiblərin yaşadığı Afona cavan qadınları gətirməyindən həvəslə danışır, «Kaş o qoca oğlanların necə qaçdıqlarını özünüz görəydiniz!» deyə qürurlanırdı.

Soteris ölüm ayağında ikən xilas olmaq üçün Allaha yalvardı. Riçard pıçıltı ilə Allahın məhəbbətindən və əfvindən danışaraq bu qatı ateisti Məsihə gətirdi.

Məhbuslar iki il ərzində qənd parçalarını öz aralarında bir-birilərinə ötürdülər. Hər kəs özündən daha ağır xəstə olana kömək

etmək istəyirdi. Onlardan heç biri bu əziz qənd parçalarını yeməyə özünü layiq bilmədi.

*****

Riçard dörd nömrəli kamerada işgəncələrdən bir qədər dincəldi. Amma Tirqul-Oknada «yenidən tərbiyələndirmə» proqramı başlayandan sonra onun işgəncələri yeniləndi, hətta əvvəlkindən daha betər oldu. Tanınmış Piteşti həbsxanasından gələn kommunist Formajiunun qısa səfəri məhbuslar arasında böyük qorxuya səbəb oldu. Formajiu öz metodlarını sakit, dağlıq sanatoriyada həyata keçirməyi nəzərdə tuturdu. Burada hamının həyatı təhlükədə idi.

Həbsxanaya qəddarlığına görə seçilən bir qrup yeni kommunist gəldi. Vaxtilə məhbus olmuş bu adamlar öz yoldaşlarına işgəncə verməklə kommunizmə sadiqliklərini sübut etmişdilər. Həbsxana rəisi onlara icazə vermişdi ki, vərəm xəstələrini istənilən vaxt işgəncə ilə döyə bilərlər. İndi məhbusların bu işgəncələrdən qaçmağa heç bir ümidi yox idi. Hər əlli məhbusa ondan iyirmiyə qədər xüsusi nəzarətçi düşürdü.

Həkimlər daha ağır işgəncələrə nəzarət edir, məhbuslara xüsusi serum iynəsi vururdular ki, ağrılara dözmək qabiliyyətini artırsın. Beləcə mühafizəçilər onlara daha amansızlıqla əzab verirdilər.

Həbsxanada azğınlıq hökm sürürdü. Riçardı və digər məhbusları lüt soyundurub soyuq daş döşəmədə sıraya düzərək üstlərinə buzlu su tökürdülər. Soyuğun təsirindən onların ürəyi az qalırdı ki, dayansın və bu, onların xəstəliyini şiddətləndirirdi.

Dustaqların yemək payı azaldığı üçün aclıq adi hala çevrilmişdi. Riçardın əl-qolunu arxaya bağlayaraq məcbur edirdilər ki, donuzlara yedizdirilən xarab yeməyi yesin.

Dörd nömrəli kameraya yenicə gəlmiş katolik rahib, Piteşti həbsxanasında olarkən başına gələnlərdən danışırdı. Onu kanalizasiyaya atıb, sonra məcbur etmişdilər ki, ibadət aparsın.

Riçard ondan soruşdu:

— Sən də tabe oldun?

Rahib ağlamağa başladı:

— Mən Məsihdən daha çox əzab çəkmişəm.

«Yenidən tərbiyələndirmə» proqramı ilə müstəntiqlər məhbuslardan bir çox gizli məlumatlar əldə edə bilirdilər. Dustaqlar öz həyat yoldaşlarını, dostlarını, valideynlərini və pastorlarını ələ verirdilər. Məhbuslardan əldə olunmuş məlumat əsasında minlərlə insan həbs olunurdu.

Dustaqlar arasında intihar halları artmağa başlamışdı. Yaxınlıqdakı Gerla həbsxanasında məhbuslar özlərini öldürmək üçün yaradıcı üsullardan istifadə etməli olurdular. Onlardan bəziləri hündür pilləkənlərdən özlərini daş döşəməyə atırdılar. Digərləri isə boğazlarını tikanlı məftil və ya şüşə parçası ilə kəsirdilər. Məhbusun yetərincə gücü çatanda, başını sement divara çırpıb özünü öldürürdü, ya da dezinfeksiya məhlulunu içməklə həyatına son qoyurdu. Pravoslav rahib bu üsullardan istifadə edə bilmədiyindən özünü ikimərtəbəli çarpayıdan ataraq öldürmüşdü. O, istədiyinə nail olmaq üçün bunu dəfələrlə etmişdi.

Dörd nömrəli kameraya yenicə yerləşdirilmiş yaşlı fermer Badaras Riçarda şahidi olduğu zalımlıqdan danışmışdı. Badaras axırıncı sorğu-sual vaxtı amansızcasına döyülmüşdü. O, kommunistləri lənətləyib onlardan qisas alacağına and içmişdi. Badaras ona işgəncə vermiş müstəntiq, qəddar cəllad barədə dəhşət içində danışır, «Nə vaxtsa əlimə düşsə, dərisini diri-diri soyacağam» deyirdi. O hər gün belə dua edirdi: «Ay Allah, Ata, Oğul və Müqəddəs Ruhun adı ilə kommunistləri məhv et, qoy bu donuzlar əzab çəksinlər!»

Riçard ona sual verdi:

— Niyə belə sözlər deyirsiniz? Axı məsihçilər belə danışmalı deyillər!

Badaras cəhənnəmin olduğuna inanırdı və kommunistlərin əbədiyyəti orada alov içində yanaraq keçirməsini istəyirdi.

— Mənə elə gəlir ki, Allah bu haramzadaları lənətləməyənləri cənnətə buraxmayacaq.

Riçard ona cavab verdi:

— Biz ürəyimizdə nifrətə yol verməməliyik.

Boris kimi insanların iradəsi böyük təzyiqlər altında sınmışdı.

Boris həbsxanada hamının ən çox nifrət etdiyi adam idi. O, əzazil bir müstəntiq idi və sadist metodlarına müqavimət göstərən həkim Aldeanı az qala öldürmüşdü. Borisin verdiyi işgəncələrin nəticəsində həkimin kürəyi və beli yaralarla örtülmüşdü.

«Yenidən tərbiyələndirmə» proqramının tətbiqi genişləndikcə məhbuslar üçün onlara işgəncə verən kommunistləri bağışlamaq çətinləşirdi. Hər gün ölüm hökmü icra edilirdi. Məhbuslar, xüsusilə həbs olunmazdan əvvəl böyük vəzifələrdə çalışanlar arasında etiraz və üsyan barədə şayiələr sürətlə yayılırdı. «Görəsən, təşkil olunmuş üsyan azadlıq gətirəcəkdimi?» Dörd nömrəli kamerada müzakirələr başlanmışdı: karantində olan vərəm xəstələri üçün üsyanda iştirak etmək düzgündür, yoxsa İsanın əmr etdiyi kimi «sağ üzünə şillə vurana o birini də çevirmək» lazımdır? (Matta 5:39)

*«İsa, adətən, təvazökar və mülayim təsvir olunur»* Riçard düşündü. *«Amma O, həm də döyüşçü idi. O, məbəddən tacirləri qamçı ilə qovmuşdu»*. Çox götür-qoy etdikdən sonra Riçard qərara gəldi ki, üsyançılara kömək etsin. O, başqalarını da buna inandıra bildi.

1 May, zəhmətkeşlərin beynəlxalq həmrəylik günü, axşam saat 5 radələrində belə bir imkan yarandı. Məhbusları Tirqul-Oknanın mərkəzindəki stadiona futbola baxmağa apardılar. Bəziləri ilk dəfə idi ki, həbsxanadan bayıra çıxırdılar.

Futbol matçı yenicə başlamışdı ki, uzaqdan sınan şüşə səsləri gəldi. Bu, üsyanın başladığına işarə edirdi. Qəfildən məhbuslar mühafizəçilərin üstünə hücum çəkdilər. Kifayət qədər güclü olanlar müstəntiqlərinin üstünə cumdular. Dava nəticəsində məhbusların çoxu silahlı mühafizəçilər tərəfindən öldürüldü.

## Fəsil 37

Oyun dayandırıldı. Şəhərin sakinləri stadiondan qaçıb dağılışdılar. Xəstəxanada qalan məhbusların bəziləri mühafizəçilərin diqqətinin yayındığını görüb biləklərini iti əşyalarla kəsmişdilər.

Mühafizəçilər dustaqlar üzərində nəzarəti tam bərpa etdikdən sonra qarmaqarışıqlıq yaradanlara qarşı ciddi cəza tədbirlərinə başladılar. Həkimlərə tapşırılmışdı ki, məhbuslara tibbi yardım göstərməsinlər. Üsyanın qarşısı alındı, amma səsi-sorağı bütün Rumıniyaya yayıldı. Bu, mühafizəçilərin ürəyində qorxu, məhbusların ürəyində isə ümid yaratdı.

# 38

İçərisi boş böyük bir iynə Riçardın sinəsinə batırıldı. İynə qabırğalarının arasından keçərək büzüşmüş ciyərlərinə daxil oldu. Pnevmotoraksın[1] müalicəsi üçün nisbətən ağrısız olan prosedura iki dəqiqə çəkirdi. Prosedura maye dolu nəfəs yollarına oksigen çatdırmaq üçün edilirdi. Ertəsi gün Riçard yuxudan duranda rahat nəfəs aldığını hiss etdi.

Tirqul-Oknada ötən yüz illiyin ən sərt qışı hökm sürürdü. Güclü boran gəlmişdi. Dörd nömrəli kameranın buz tutmuş pəncərəsindən o tərəfdəki bostanı iki metr hündürlükdə qar örtmüşdü. Heç bir əlavə geyimi, yorğanı olmayan Riçardın bədəni soyuqdan titrəyirdi. Onun yadına buzxana kamerasında keçirdiyi işgəncələr düşdü. Kəskin soyuqların gəlişi ilə əlaqədar məhbuslara verilən gündəlik yemək payı da azalmışdı. Çörək yaddan çıxmış zənginliyin neməti idi. Riçard özünü məcbur edib şorbada üzən çürük kökü yeməyə çalışırdı.

Milad ərəfəsində keçmiş xatirələri həmişəki höcətləşmələr, davalar və zarafatlar əvəz etdi. Riçard qısa bir vəz etmək istəyirdi, amma soyuqdan bir-birinə dəyən dişləri onun danışığına mane olurdu. Donmuş ətrafları artıq işə yaramırdı. Riçardı təəccübləndirən bu idi ki, ürəyi ağrıyan bədənində qanı hələ də necə dövr etdirir.

Riçardın yarımçıq qoyduğu Milad vəzini Aristar adlı cavan bir kişi davam etdirdi. Universitet savadı olmayan bu fermer Milad barədə elə təbii danışırdı ki, sanki Məsih onun tövləsində doğulmuşdu.

[1] Pnevmotoraks — plevra qatında havanın və ya qazın yığılması nəticəsində havanın ağ ciyərləri sıxması və onun funksiyasını dayandırması prosesidir.

Fəsil 38

Bir neçə həftədən sonra Aristar dünyasını dəyişəcəkdi. Milad ərəfəsində danışdığı bəlağətli və alovlu sözləri onu dinləyənlərin gözlərindən damla-damla yaş axıtdı. Çox keçmədi ki, kimsə Milad himnini oxumağa başladı. Əvvəlcə səs yavaş gəlirdi. Sonra başqaları da qoşulanda səs vərəm xəstələrinin qaldığı kameranı bürüdü. Melodiya gözəl idi. Riçarda bir vaxtlar Sabina və Mihay ilə tonqalın ətrafında keçirdiyi xoş qış xatirələrini xatırladırdı. Məhbusların səsi bütün dəhlizdə əks-səda verirdi. Hər kəs dayanıb onlara qulaq asırdı. Hətta öz otaqlarında isti soba ətrafında qızınan mühafizəçilər də oxuyanlara mane olmadılar.

*****

Fevral ayında Riçard və dostları daş kimi bərkimiş, donmuş torpaqda Aristar üçün dayaz qəbir qazdılar. Onlar dörd nömrəli kameraya qayıdanda Aristarın yerinə artıq başqa bir adamın yerləşdirildiyini gördülər. O, musiqiçi Avram Radonoviçi idi.

Həbs olunana qədər Avram Buxarestdə musiqişünas işləyirdi. İndi o, bütün günü ölüm kamerasında Baxın, Bethovenin, Motsartın gözəl əsərlərindən zümzümə edirdi. Vərəm xəstəliyi Avrama bütün var gücü ilə oxumağa imkan vermirdi. Lakin oxuduğu mahnılar divarlarda əks-səda saldıqca məhbuslar xüsusi zövq alırdı.

Günlərin bir günü musiqiçi didilib tökülmüş kitabçasını çıxaranda kameradakılar çox təəccübləndilər.

Riçard ondan soruşdu:

— Sən bunu haradan götürmüsən?

O, qarabasmalardan başqa neçə illər idi ki, kitab görmürdü.

Avram yavaşca dilləndi:

— Bu, Yəhyanın Müjdəsidir. Məni həbs edəndə onu özümlə götürüb gizlədə bildim. Oxumaq istəyirsənsə verə bilərəm.

Riçard kitabı qanadları qırılmış bir quş kimi əlində tutdu. Kitabın kövrək vərəqləri onun üçün dərmandan daha dəyərli idi. O, hər

səhifəni çevirdikcə içindəki sözlərdən ruhlanırdı. Riçardın diqqətini Kəlamdan bir parça cəlb etdi, çoxdan idi ki, bu ayələri oxumurdu. Hətta onu Müqəddəs Kitaba görə cəzalandırsalar belə, bir-iki dəqiqə oxumağa dəyərdi. O, cəzalanmaqdan qorxmurdu, axı əlində həyat çeşməsini tutmuşdu. Riçard Kəlamın susamış qəlbi rahatlandıran gücündən ilham alaraq kitabı digər məhbuslara ötürdü.

Növbəti həftələr Müjdənin müzakirəsinə həsr olundu. Məhbuslar Kəlamın sadəliyinə heyran olaraq bəzi hissələri əzbər öyrəndilər. Beləcə əksəriyyəti ürəyini Məsihə verdi. Onlardan biri də tərəddüd edən professor Popp idi. O dedi:

— Mən dua etməyə çalışmışam, amma uşaq vaxtı əzbərlədiyim pravoslav duaları ilə Küll-İxtiyardan layiq olmadığım mərhəməti istəməkdən başqa Allaha deyəcək elə bir sözüm yoxdur. Mənim sözlərim uçub gedir, amma fikirlərim aşağıda qalır.

Riçard ona cavab verdi:

— Mənim xoşuma gələn budur ki, İsa yanımda dayanıb və mən sizinlə danışdığım kimi Onunla danışa bilirəm.

Popp Allah ilə belə asanlıqla söhbət etmək imkanı haqqında heç vaxt eşitməmişdi. Ona görə də Riçarda böyük maraqla qulaq asırdı.

— İsa ilə Nazaretdə və Bet-Lexemdə görüşən insanlar Ona dualar oxumamışdılar. Onlar ürəklərində olanı İsaya demişdilər. Biz də onlar kimi etməliyik.

Beləcə Riçard bir zərbə ilə Poppu iman etməkdən saxlayan sonuncu səddi dağıtdı. Professor ürəyini bütünlüklə Məsihə verdi. Sonra Riçarda dedi:

— Səni ilk dəfə görəndə məndə belə bir hiss var idi ki, sən mənə nəsə verəcəksən.

İndi professor Riçardın etdiyi yaxşılığın əvəzini ona qaytarmaq istəyirdi.

O, pıçıltı ilə dedi:

— Mən Tirqul-Oknaya köçürüləndən sonra səndən bir şeyi gizlədirdim. Həkim Aldea hesab edir ki, belə vəziyyətində sənin üçün bu xəbər ağır olar.

# Fəsil 38

Riçard öz çarpayısının kənarında oturub səbirsizliklə professorun ona nə deyəcəyini gözləyirdi.

— Bilirsən, sənin həyat yoldaşın həbsxanadadır. O, kanalda işləyir.

# 39

Riçardın ürəyi sıxıldı. O bilirdi ki, Dunaydakı əmək düşərgələrində qadınlara qarşı zorakılıqlar edilir. O, Kormos adlı komandirin otuz məhbus qadını zorladığını eşitmişdi. Sonra onun özünü «kommunist rejiminin nüfuzuna xələl gətirməkdə» ittiham edərək həbs etmişdilər.

Professor Popp Riçardı sakitləşdirməyə çalışdı:

— Həyat yoldaşın pis xəstələnmişdi, amma indi yaxşıdır. O bilir ki, sən sağ-salamatsan.

Bu xəbəri eşidən Riçard emosiyalarına hakim ola bilmədi. Riçardın da bir ay qaldığı Vakareştidəki məhbus xəstəxanasından gətirilmiş dustaq orada Sabina ilə söhbət etmişdi.

Popp sözünə davam etdi:

— Onlar həyat yoldaşına deyiblər ki, sən 1950-ci ildə ölmüsən. Amma o, buna inanmayıb. Ona sübutlar göstərilsə də, o əmindir ki, sən sağsan.

Növbəti bir neçə gün ərzində Riçard yemək yemədi. Sabina hamının qorxduğu polkovnik Albonun əlində idi. O, Dunaydakı əmək düşərgələrindən birində «Poarta Alba»da rəis idi. Riçard Sabinanın necə qorxduğunu təsəvvür etməyə çalışdı və tezliklə özünü ittiham etməyə başladı. Sabina ilə evlənməkdə, onu Məsihlə tanış etməkdə, pastor olmaqda və gizli toplantılarda xidmət etməkdə *özü* günahkar idi. Əgər o özünə başqa bir peşə seçsəydi, onun əziz sevgilisi bu gün təhlükəsiz həyat yaşayardı. *Bəs oğlu?* Riçard elə bir ruh düşkünlüyü yaşadı ki, illər boyu belə vəziyyətə düşməmişdi.

Riçardın iztirab çəkdiyini görən Suroyanu ata ona dedi:

— Gülümsəmək üçün insanın on yeddi, qaşqabaq tökmək üçün isə qırx üç üz əzələsi hərəkət etməlidir!

Riçard həbsxananın həyətində tanış olduğu Suroyanu ataya böyük hörmət bəsləyirdi. Onun küləkdə o tərəf bu tərəfə yellənən uzun ağ saqqalı var idi. Suroyanu atanın daxil olduğu istənilən otağa müqəddəslik və nüfuzun ab-havası gəlirdi. O, heç vaxt məhbusları «Salam» yaxud «Sabahınız xeyir» deyə salamlamırdı. Onlara həmişə Kəlamdan olan «Sevinin!» əmrini xatırladırdı.

Suroyanunun kədərlənmək üçün Riçardın və ya istənilən məhbusun dərdindən daha böyük dərdi var idi. Onun qızı şikəst idi, qızının əri isə həbsxanada idi. Digər qızı iyirmi illik işgəncəyə məhkum edilmişdi. Məsihçi oğlu isə həbsxanada ölmüşdü. Məsihə nifrət edən digər oğlu isə bütün həyatı boyu dinlə mübarizə aparmışdı. Bütün nəvələri yetim qalmışdı. Riçard dedi:

— Sən həyatda bu qədər müsibətlər görmüsən. Axı sən necə sevinə bilirsən?!

Suroyanu məhəbbət dolu baxışlarla Riçarda cavab verdi:

— Sevinmək üçün həmişə tutarlı səbəb var. Allah təkcə göylərdə deyil. O, həm də qəlbimizdədir. Sevinmədiyin hər gün itkidir, oğlum! Sən onu heç vaxt geri qaytara bilməyəcəksən.

Riçard bilirdi ki, bu müdrik kişi haqlıdır. Axı o özü də başqa məhbuslara bu sözlərlə təsəlli verirdi. Amma Sabinanın həbsi barədə eşidəndən bəri Riçard sevinməyi unutmuşdu. O, Çobanın ağuşundan uzaqda qalmaqla başqalarına necə məsləhət verə bilərdi?

Riçard Suroyanu atanın məsləhətinə qulaq asıb dua etməyə başladı. O, neçə gün idi ki, dua etmirdi. O, Allaha Sabinanın həyatını xilas etdiyi üçün minnətdarlığını bildirdi. Riçard bilirdi ki, ya bu həyatda, ya da o biri həyatda onu görəcək. O sevinirdi ki, Allah ona ətrafındakılara imanı barədə danışmağa imkan verib.

Əvvəllər kilsə zəngləri çalınırdı ki, insanlar vəzə qulaq asmağa gəlsinlər. İndi isə Riçardın auditoriyası həmişə yanında idi. Həftədə bir-iki dəfə vəz etmək əvəzinə, o, hər dəqiqə Müjdəni təkcə sözlə

deyil, həm də əməli ilə də çatdıra bilirdi. Suroyanunun həyatı kimi Riçardın da bütün həyatı vəzə çevrilmişdi. İndi o, daha böyük həvəslə daha çox vəz edə biləcəkdi.

*****

1953-cü il idi. Riçard Tirqul-Okna həbsxanasında kəskin diş ağrısından əziyyət çəkirdi. Ağrı bütün çənəsinə yayılmışdı. Kameranın içərisində o tərəf bu tərəfə getmək ağrısını bir az yüngülləşdirsə də, topuqlarına bağlanmış iyirmi beş kiloluq dəmir zəncirləri daşımaq asan deyildi. Müntəzəm olaraq döyülmək, pis qidalanma, hərarət, çəki itkisi, titrətmə, qanlı öskürək öz işini görürdü. Xəstələrə çox nadir hallarda tibbi yardım göstərilirdi. Üsyandan sonra isə rəhbərlik həkimləri, stomatoloqları işdən uzaqlaşdırmışdı.

Bir müddətdən sonra Tirqul-Oknadakı məhbuslara evlərindən bağlama qəbul etməyə icazə verildi. Riçard Buxarestdə yaşayan öz keçmiş həkimi Filona yazdı. O, məhbuslara verilmiş açıqcada Filondan yemək və siqaret göndərməsini xahiş etdi. Riçardın özünün siqaretdən zəhləsi getsə də, bilirdi ki, başqa məhbuslar onu görəndə çox sevinəcəklər.

Bir dəfə Riçard Filona qəribə bir xahişlə müraciət etdi. O, «həkim Filonun köhnə paltarları» barədə yazdığı şifrələnmiş sözləri başa düşməsi üçün dua da etdi.

Ailə həkimi Riçard kimi hündürboy deyildi. Ona görə də onun geyimləri Riçarda yaramazdı. Amma həkim Filonun streptomisin əldə etmək imkanı var idi. Amerikanın yeni kəşf etdiyi bu dərmanla vərəmi müalicə etmək olurdu.

Riçard iki il yarım idi ki, vərəmlə mübarizə aparırdı. O, dörd nömrəli kamerada olanlar arasında yeganə sağ qalan məhbus idi. Onun tanıdığı sayca ondan çox dustaq yoldaşı bu xəstəliyin qurbanı olmuşdu.

Riçardın şifrəli açıqca yazmasından bir ay keçmişdi ki, ona bağlama gəldi. Bağlamanın içərisində bir vərəm xəstəsinin müalicəsi

üçün kifayət edən yüz qram streptomisin gizlədilmişdi. Amma Riçard qənd parçaları kimi dərmanı da özü qəbul etmək əvəzinə, məsihçi məhbus və Rumıniya ordusunun keçmiş hərbçisi general Stavratdan xahiş etdi ki, onu ən ağır xəstəyə ötürsün.

«Dəmir qvardiya»dan olan Sultanyuk adlı bir faşist ölüm ayağında idi. Stavrat çaşqın halda Riçarda baxıb dedi: «Yaxşı olar ki, dərmanı özün qəbul edəsən».

Amma Riçardın qərarı qəti idi.

Sultanyuk kommunizmə qarşı olan məsihçinin dərman təklifini qəbul etmədi. Riçard onu inandırmaq üçün məharətlə addım atmalı idi. Bunun nəticəsində yeni dostluq yaranacaqdı.

# 40

Sabinanın həbs müddətində yaşadığı ən çətin vaxtları «Ferma Rozi» adlı donuz kolxozunda keçmişdi. Burada qadınlara verilən yemək ancaq sağ qalmağa kifayət edirdi. Qadınlar hər səhər saat 5-də axşamdan yatdıqları çirkli cır-cındır paltarları ilə yataqlarından çətinliklə ayağa qalxırdılar. Donuzlar topuğa qədər çirkabın içərisində ora-bura qaçır, bütün fermada ürəkbulandırıcı üfunətli bir qoxu ətrafa yayılırdı. Sabina və digər qadınlar qarınlarını donuzların yediyi kəpəklə doldururdular.

Sabina «Ferma Rozi»dən Qençaya, müvəqqəti düşərgəyə qaytarıldı. O, iki il bundan əvvəl Qençadan kanalda işləməyə göndərilmişdi.

«Gör burada nə qədər qadın var!» — deyə məhbuslar bir-birilərinə pıçıldadılar. — Nə baş verir?

Rumıniyanın hər tərəfindən yüzlərlə qadını Qença baraklarına toplamışdılar. Ya hakimiyyət nəsə yeni bir layihəni, daha böyük miqyaslı qul əməyi proqramını həyata keçirmək istəyir, ya da... Heç kimin ümid etməyə belə cürəti çatmırdı. Onların hamısı həddən artıq əziyyət çəkmiş, çox vaxt aldanmışdılar...

Növbəti gün belə bir şayiə yayıldı: təhlükəsizlik xidmətindən gəlmiş on nəfər məhbusların işi ilə bağlı qovluqları araşdırır. Qovluqları! Bəlkə onları azadlığa buraxacaqlar?

Qadınları sorğu-suala çağırmağa başladılar. Məhbuslar əvvəlki kimi istintaq olunurdu. Amma bu dəfə onlar nəzakətlə dindirilirdi. Ayın axırına yaxın qadınlardan ibarət kiçik bir qrup Qençanı tərk etdi.

Nəhayət, növbə Sabinaya gəlib çatdı. Stolun arxasında oturmuş kök mayorun üzünün rəngi körpə uşaqlarınkı kimi çəhrayı idi. Onun əlləri sanki balaca kolbasalara bənzəyirdi və danışa-danışa stolun üstündəki əşyaları bir-bir yığışdırırdı.

Dini zəmində həbs olunmuş məhbuslar üçün bir neçə xüsusi suallar hazırlanmışdı.

İki köməkçisi onun belə iti zəkasına heyran olaraq gülümsündü:

— Xanım Vurmbrand, siz bilməlisiniz ki, burada mən Allahdan güclüyəm. Ən azı ona görə ki, bu vaxta qədər O, burada heç bir möcüzə göstərməyib. Siz bunu başa düşdünüzmü? Siz dinin saxta olduğunu həqiqətən dərk etdinizmi? Kommunist cəmiyyətində Allahın artıq olduğunu və sizin Ona ehtiyacınız olmadığını anladınızmı? Əgər sizi nə vaxtsa buradan azadlığa buraxsalar, ötən illərdə qazanılmış uğurlara heyran olacaqsınız və bunlar hələ başlanğıcdır!

O, qovluqdakı sənədləri nəzərdən keçirərkən paqonlarındakı parıldayan qızılı bağlar silkələnirdi.

Sabina dərindən nəfəs alıb cavab verdi:

— Görürəm ki, sizin böyük səlahiyyətiniz var. Yəqin ki, sizdə mənim barəmdə mənə məlum olmayan və taleyimi həll edən sənədlər var. Amma Allah da Öz kitabında hər şeyi yazır və O bizə həyat verməsəydi, nə siz, nə də mən bu gün yaşamazdıq. Ona görə də bilmirəm, O məni burada saxlayacaq, ya azadlığa buraxacaq. Bir onu bilirəm ki, Onun iradəsi mənim xeyrimədir.

Mayor hər iki yumruğunu stolun üstünə çırparaq dedi:

— Xanım Vurmbrand, siz naşükürsünüz, qədirbilməzsiniz! Mən çox təəssüf edirəm ki, siz ibrət dərsi götürməmisiniz. Bu barədə hakimiyyətə xəbər verməliyəm.

Beləcə mayor bir neçə dəqiqə qəzəb içində çığırdı.

Amma üç gün sonra Sabinanın adı yenidən oxundu. Onun taleyini mayordan daha yüksək vəzifədə olanlar həll edirdilər.

Tezliklə Sabina əlində nimdaş paltarlarla dolu boğça ilə həbsxananın qarla örtülmüş həyətində dayanıb gözləyirdi. Başqaları da onunla birlikdə gözləyirdilər. Hətta indi də qadınlar

azad olunacaqlarına əmin deyildilər. Onlara həbsxananın tikanlı məftillərlə dolanmış darvazalarından çıxıb yolda dayanmaq əmr olundu. Qadınlar yalnız əllərinə buraxılış vərəqəsi veriləndən sonra həqiqətən azad olunduqlarına inandılar.

Axşam küləyi mühafizəçinin səsini ətrafa yayırdı və Sabina öz adını eşitdi:

— Sabina Vurmbrand, doğulduğu yer — Çernovtsı, təvəllüdü 1913, yaşayış yeri...

Sabina buraxılış sənədini əlinə götürdü. Orada böyük hərflərlə «Azadlığa buraxılma barədə şəhadətnamə» yazılmışdı. Qaranlıq olduğu üçün Sabina qalan sözləri oxuya bilmədi. Sabina və onunla birgə azad olunan qadınları yük maşınına mindirib Qençadan çıxardılar, Buxarest şəhərinin yaxınlığına gətirdilər.

Sabina yük maşınından düşüb əlindəki çirkli və pis qoxulu boğçası ilə yaşayış məntəqələrinin içindən keçərək addımladı. Üç ildən sonra o, birinci dəfə idi ki, işdən evə tələsən və ailəsi üçün alış-veriş edən adamları görürdü. Əgər hələ də evi mövcud idisə, yaxud evindən əsər-əlamət qalmışdısa, onda o, bir azdan evində olacaqdı. Mihayın artıq on dörd yaşı var idi. Görəsən, bu illər onu necə dəyişdirib?

Hər tərəfdə işıqlar yanırdı və müxtəlif yeməklərin ətri ətrafı bürümüşdü. Sabina yeddi nömrəli tramvayın dayanacağına tərəf boylandı.

«Kimsə xeyirxahlıq edib mənim gediş haqqımı ödəyə bilər?» — deyə o, növbəyə düzülmüş adamlardan soruşdu. Dərhal on nəfərdən artıq adam ona pul təklif etdi. Sanki onların hər birinin həbsxanada olan qohumu və ya dostu var idi.

Tramvay Qələbə küçəsindən keçəndə Sabinanın yadına milis bölməsi barədə kədərli xatirələr düşdü. Onu həbs edərkən həmin milis bölməsinə gətirmişdilər. O vaxtdan bəri heç nə dəyişməmişdi. Bəşəriyyətin dörd dahisinin — Marks, Engels, Lenin və Stalinin nəhəng portretləri hələ də əvvəlki kimi yoldan keçənlərə yuxarıdan baxırdı.

# Fəsil 40

Sabina ona tanış olan çoxmənzilli binanın yaxınlığında tramvaydan düşdü. Sonra o, binaya daxil olub pilləkənlərlə yuxarı qalxdı. Qapını onun rəfiqəsi açdı.

«Sabina! Bu, doğrudanmı sənsən?» — deyə rəfiqəsi heyrət içində əlini ağzına qoyub bir addım geri çəkildi.

Qadınlar bir-birini qucaqladılar. Sabinanın gözləri yaşardı.

Kimsə qaçıb Mihayı çağırdı. O, qapıdan içəri girəndə Sabinanın az qala ürəyi dayanacaqdı. Mihay necə də boy atıb, arıqlayıb, rəngi solub! O, artıq gənc oğlandır.

Ana və oğul bir-birini qucaqlayanda Sabinanın yanaqlarından damla-damla yaş axırdı. Mihay onları əli ilə silib yavaş səslə dedi: «Anacan, ağlama!»

Həmin an Sabinaya elə gəldi ki, onun bütün kədəri arxada qaldı və o, bir daha ağlamayacaq.

# 41

1953-cü ildə Sabina azadlığa buraxılandan sonra Mihayla birlikdə Buxarestin ən böyük parkı olan Çişmiciyuya getdi. Gözəl bir bahar günü idi. Sünbülçiçəkləri qış yuxusundan oyanmışdı. Həbsdə keçirdiyi neçə illərdən sonra, nəhayət, Sabina oğlu ilə yenə birlikdə idi. Sabina Mihayı tanıya bilmirdi. Onun artıq on dörd yaşı var idi və indi o yeniyetmə idi.

Sabina Mihayı balaca olarkən gəzdirdiyi yumşaq otlu cığırla apardı. O öz-özünə düşündü: «*Görəsən, Mihay hələ də Allaha inanırmı?*»

Oğlu beş yaşında artıq alovlu müjdəçi idi. Yeddi yaşı olanda yaşlı bir professoru Məsihə gətirmişdi. Həmin professor çox keçmədən kilsənin üzvü olmuşdu. Lakin o vaxtdan bəri Mihay çox zərbə almışdı. Riçard və Sabinanın oğullarını əlindən almış kommunistlər onu imanından da döndərə bilmişdilərmi? Məktəblərdə məsihçilərə qarşı güclü təbliğat aparılırdı. Onlar çox vaxt məsihçi ailələrindən olan şagirdləri imandan döndərməyə nail olurdular.

Sabina oğluna həbsdə olduğu vaxtlardan, Dunay kanalının sahillərində məcburi işləməyindən, Mihay üçün yaman darıxmağından, hər gün onun üçün Allaha dua etməsindən danışdı.

Mihay isə anasını bu sözlərlə heyrətləndirdi:

— Biz təbiəti gündüz və gecədən, işıq və qaranlıqdan ibarət olduğu üçün tənqid etmirik. Mən insanların şərin əsirinə çevrildiyini başa düşürəm. Gəl onları cəllad adlandırmayaq.

Sabina Mihayın sözlərinə sevindi. O, imanında tərəddüd etməmişdi. Əksinə, kommunizmin yanlış təlimini və tərbiyəsini inkar

etmişdi. O, haqlı idi. Allah günəşi və ayı — biri gündüzü, o birisi isə gecəni idarə etməsi üçün yaratdı. Allah hətta demişdi ki, gecə yaxşıdır. Bəs yeniyetmə oğlan belə yetkin düşüncələrlə nifrətə necə cavab vermişdi? Yetkin yaşlarında olan əksər insanlar düşmənlərini bağışlayıb onlara mərhəmət göstərə bilmirlər. Başqalarının uğursuzluqla üzləşdiyi bir yerdə Mihayın uğur qazanması Sabinanı sevindirdi. Onun dəyanəti anasını heyrətləndirmişdi, səsində atasının məhəbbəti və xeyirxahlığı duyulurdu.

Çiçək açmış meyvə ağaclarının altında gəzərkən Mihay anasına dedi:

— Ana, sənlə atam hər ikiniz Allaha xidmət etmək üçün ən yaxşı üsulu — çarmıx yolunu seçmisiniz. Mən bilmirəm, bunu seçərdim, yoxsa yox. Mən əzab və utancaqlıq olmayan belə gözəl yerlərdə özümü Allaha çox yaxın hiss edirəm.

Balaca uşaqlar çox vaxt kiçik şeylərdən sevinirlər. Mihay da onlar kimi idi. Allah onun gənc həyatını kiçik maraqlı şeylərlə sevindirirdi. «Allahın yaratdığı nərgizlərə baxmaq üçün heç nə ödəmək lazım deyil,» — deyə Mihay anasına xatırlatdıqdan sonra soruşdu:

— Nə üçün bağda qalıb güllərin ətrini və Allahın məhəbbətini duymayaq?

Sabina ona belə cavab verdi:

— Bilirsən, İsa çarmıxa çəkiləndə O, bağın yaxınlığında idi. Əgər sən o bağda olub çarmıxa çəkilən günahsız bir insanın fəryadını eşitsəydin, nə edərdin? Vakareşti və Cilava həbsxanası buradan çox uzaqda deyil. Biz güllərdən zövq aldığımız bir vaxtda orada insanlara işgəncə verilir. Daxili işlər nazirliyi də küçənin o başındadır.

Mihay soruşdu:

— Ana, sənin üçün çox çətin idi?

Sabina ona elə bir cavab verdi ki, özü cavan yaşlarında olsaydı, dediklərinə inanmazdı.

— Mihay, biz yəhudiyik və Allahın övladlarıyıq. Bizə pis təsir edən fiziki əzablar yox, bizi gerçək olmayan dünyaya qul edib ruhani aləmdən ayırmaq cəhdləri idi. Kanalda başıma gələnlər

göstərdi ki, fiziki əməyin arxasında Allah dayanmasa, heç bir faydası yoxdur.

Mihay başını tərpədərək anası ilə razılaşdığını bildirdi. Sabina sözünə davam etdi:

— Axı kanalın tikintisi ilə heç bir şeyə nail olunmadı. Roma imperiyası, Yunan respublikaları, ilk yəhudi hökuməti, qədim Misir və Çin sivilizasiyası, Britaniya imperiyası ilə də belə oldu. Bunlar hamısı xülyalar aləmidir.

Bundan sonra onlar daha danışmadılar. Ana və oğul gəzintilərinin qalan vaxtını sakitlikdən zövq aldılar. Bir vaxtlar yenidən görüşəcəklərinə ümid etmədikləri halda, indi onlar birlikdə olduqlarına görə sevinirdilər.

*****

Həmin axşam Mihay əlində Plutarxın Katonun həyatı barədə yazdığı kitabla anasının otağına gəldi. Katonun həyatı barədə oxuyaraq dedi ki, qəddar Sullanın sarayı edam yerindən başqa bir şey deyildi. Çünki orada bir çoxuna işgəncələr verilib öldürülürdü. Katonun da Mihay kimi on dörd yaşı var idi.

Sarayda məşhur adamların kəsilmiş başlarını görəndə Kato düşünürdü ki, görəsən, zalım Sullanı niyə kimsə öldürmür. Müəllimi ona cavab verib demişdi ki, adamların qəddar adama qarşı qorxuları nifrətlərindən daha böyükdür. Kato isə belə demişdi: «Mənə bir qılınc verin gedib onu öldürüm və ölkəmi qəddarın əlindən qurtarım!»

Mihay kitabı bağlayıb Sabinaya dedi:

— Kato düz deyib. Mən də özümü onun kimi hiss edirəm. Mən həyatdan sadəcə zövq almaq istəyirəm, amma hərdən təəccüblənirəm ki, nə üçün bu qədər gənc adam heç nə etmir. Axı mənim kimi bir oğlan ölkəni zalım adamdan azad edə bilər. Bu barədə bütün Əhdi-Ətiqdə də yazılıb. Məgər bu fikirlər Allahdan deyil?

Sabina bir anlıq düşünüb cavab verdi:

— Müasir dövrdə bu, kömək etməzdi. Çünki zorakılıq heç də yaxşı üsul deyil. Biz *qəddarlığı* kökündən çıxarmalıyıq, qəddar adamı öldürməli deyilik. Biz günaha nifrət etməliyik, günahkarları isə sevməliyik.

Mihay dedi:

— Ana, axı bu, çətin yoldur.

Sabina başı ilə oğlunun dediyini təsdiqlədi, sonra onu öpüb dedi:

— Bəli, bu, ən çətin yoldur!

# 42

Sabinanın azadlığa buraxılmasından bir həftə keçmişdi. Səhər onu yuxudan Buxarestin kilsə zənginin səsi oyatdı. Əvvəlcə səs Müqəddəs Spiridon kilsəsinin qülləsindən gəldi, sonra ətrafdakı kilsələr, orta əsrin monastırları da bu səsə qoşuldu. Getdikcə səs matəm sədalarına çevrilirdi. İosif Stalin ölmüşdü. Bu, 1953-cü il mart ayının 5-də baş vermişdi.

Sabina küçəyə çıxıb günəşin ılıq şüalarından zövq aldı. Bu qış son otuz ilin ən sərt qışı olsa da, təmiz havada sanki yeni ümid var idi. Tramvaylar adəti üzrə relslərin üstü ilə gedə-gedə ətrafa səs salır, əyləncə parkında olduğu kimi, döngələrdə zəng çalırdı. İctimai yerlərdə yığışmaq qadağan olunsa da, camaat kimin öldüyünü bilmək üçün bazar meydanlarına axışırdı.

Sabina Qələbə küçəsi ilə addımlayaraq yanında gedən adamlara maraqla baxırdı. Bütün mağazalar, məktəblər və fabriklər bu vacib elan üçün öz işlərini dayandırdı və qəfildən uzun müddət istifadəsiz qalan səsgücləndiricilər işə düşdü: «Əziz yoldaşlar! Rumıniya Xalq Respublikasının zəhmətkeşləri! SSRİ Ali Sovetinin rəyasət heyəti dərin kədərlə bildirir ki, SSRİ Nazirlər Sovetinin sədri və Kommunist partiyasının Mərkəzi Komitəsinin baş katibi İosif Stalin ağır xəstəlikdən dünyasını dəyişmişdir. Müdrik rəhbər, Leninin yoldaşı, sadiq şagirdi və xalqların müəllimi həyatını başa vurmuşdur».

Elanı dinləyənlər köksələrini ötürdülər.

Matəm musiqisinin gur səsi ətrafa yayılırdı. Amma Sabina üçün bu səs yeni həyatın başlanğıcını əks etdirirdi. Uzun müddətdən sonra, nəhayət, o, rahatlıq hiss etdi. Bu xəbər yayımlanarkən

bildirildi ki, məsihçiliyi məhv etmək üçün vaxtını və bütün gücünü sərf etmiş rəhbərin matəm mərasimi bütün kilsələrdə qeyd olunacaq.

Neçə illər sonra Stalinin qızı Svetlana atasının son günləri barədə təfərrüatlarını ictimaiyyətlə bölüşəcəkdi[1]. Qızının dediklərinə görə, Stalinin ölümü dəhşətli olub. Qan beyninə sızarkən beyindəki nəfəsalma mərkəzləri sıxıldığı üçün o, yavaş-yavaş nəfəs çatışmazlığından boğulmuşdu. Həyatının son on iki saatı onun nəfəsalması çətinləşmiş, dodaqları qaralmış və hava çatışmazlığından ölmüşdü. Dünyasını dəyişməzdən bir az əvvəl gözlərini geniş açaraq otağına toplaşmış hökumət məmurlarına, ailə üzvlərinə, dostlarına və tibb işçilərinə qorxulu və qəzəbli baxışlarla baxmışdı. Sonra birdən hədələyici tərzdə sol əlini qaldırıb yuxarıda nəyəsə işarə edərək sanki otaqda olanları lənətləmişdi. Bundan sonra o, gözlərini əbədi yummuşdu.

Əgər Stalin ömrü boyu öldürdüyü məsihçilərin adlarının siyahısını tutsaydı, onda bu siyahının ucu-bucağı olmazdı.

Mihay məktəbdən evə gələndə Sabina çardaqda xarici radioproqramda Stalinin ölümü barədə xəbərlərə qulaq asırdı. Mihay aldığı qəzeti anasına göstərdi. Buxarestdə nəşr olunan yeganə «*Skinteya*» qəzetində Stalinin şərəfli irsinə dair bir səhifəlik alovlu mədhiyyə dərc olunmuşdu. Mihay evə gələrkən ölmüş rəhbərin plakatlarının yol boyunca hər yerdə asıldığını görmüşdü.

Radio kanalların birində aparıcı Yeşaya 14-cü fəsildən sitat gətirmişdi. Bu fəsildə bir vaxtlar yəhudiləri kölə etmiş Babil imperiyasının dağılması təsvir olunurdu. «Babil padşahına lağ edib belə deyəcəksən: «Zülmkarın sonu gör necə oldu! Zorakılığın axırı gör necə oldu!» (Yeşaya 14:4)

Veriliş bitəndən sonra Mihay anasından soruşdu:

— Sən bu barədə nə düşünürsən?

Sabina cavab verdi:

---

[1] Svetlana Allilueva, «Dosta iyirmi məktub: Xatirələr» (Nyu York: «Harper Perennial», 2016), səh.10.

— Mən qisas hissi ilə yanmıram. İnsan ömrünün son anlarında, ölümlə üz-üzə gələndə onda böyük dəyişikliklər baş verə bilər.

Təəssüf ki, Stalin ölüm ayağında olanda belə dəyişikliklər olmadı.

Sabina Stalinin ölümünə kədərlənmirdi. Rumıniyada yeni dövr başlayacaqdı, əmək düşərgələrində qul əməyinə, işgəncələrə və kommunist rejiminin törətdiyi başqa şər əməllərə son qoyulacaqdı. Stalinin ölümündən az sonra əhalinin yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün Rumıniya hökuməti diqqəti iri ictimai obyektlərin tikintisindən gündəlik tələbat mallarının istehsalına yönəldəcəkdi.

Sabina Rumıniyadakı köləlikdən qaçıb Yerusəlimə qayıdan yəhudilərin halına acıyırdı. O, «*Skinteya*» qəzetində dərc olunmuş mədhiyyənin son sözlərini oxuyandan sonra Pasxa duasından bir hissəni pıçıltı ilə dedi: «Biz Misirdə fironun qulu idik və Rəbb bizi güclü əli ilə azad etdi».

*****

1953-cü il 18 iyul tarixində Dunay kanalının tikintisinin dörd əzablı ilindən sonra layihə dayandırıldı. Əslində işin yeddidə bir hissəsi görülmüşdü. Tirqusorda yayılmış şayiələr yalan deyilmiş. Layihə kommunizmin gücünü nümayiş etdirəcəkdi, amma kanalın tikintisinə sərf olunan insan əməyi həddindən artıq böyük idi. Sabinaya yaxşı tanış olan baraklar həmişəlik bağlandı. İndi çatlamış betonun arasında, köhnə barakların içərisində ot-alaq bitirdi, döşəmədə isə bir vaxtlar məhbusların ac qarınlarını doydurmaq üçün ovladıqları ilanlar gəzirdi. Kanalın sahillərində qul kimi işləyən yüz minlərlə kişi və qadının əməyi heçə getmişdi. Saysız-hesabsız insan həyatına son qoyulmuş, minlərlə günahsız ailələr dözülməz qəddarlıqdan əziyyət çəkmişdi.

Rumın mühəndisləri hesab edirdilər ki, kanal layihəsi onsuz da baş tutmayacaq. Onlar xəbərdarlıq etmişdilər ki, suvarma layihələri onsuz da heç vaxt kifayət etməyəcək. Kanalın tikintisinin

baş mühəndisləri və memarları həbs olunmuşdu. Onlardan ikisi güllələnmişdi. Sonradan otuz nəfər də iyirmi beş illik həbs cəzasına məhkum olunmuşdu. İyirmi üç il sonra kanalın tikintisi yenidən bərpa olunacaqdı, amma bu dəfə insanların qul əməyindən deyil, ən müasir avadanlıqlardan istifadə ediləcəkdi.

Babil də bir vaxtlar məşhur asma bağlarını suvaran özlərinin yaratdıqları suvarma sistemləri ilə qürurlanırdı. Dünyanın bu möcüzəsinə yəhudilər də şahid olmuşdular. Farslar Babil imperiyasını dağıtdıqları kimi Qara Dəniz də kanalı məhv edib ondan bir əsər-əlamət belə qoymayacaqdı.

# 43

Sabina özünü ölülərdən dirilmiş kimi hiss edirdi.

O, hələ həbsxanada ikən «Bircə buradan çıxım, ömrümün sonuna qədər çörək və su ilə yaşamağa razıyam» düşüncəsi ilə yaşayırdı.

Üç il ərzində təhqirlərə, aclıq və həddindən artıq ağır işlərə dözən qadının arzuları, nəhayət ki, yerinə yetdi. İndi o, azadlıqdan həzz alırdı. Sınmış qabırğaları və yaralı barmaqları axır ki, sağaldı. Peter kimilər daha onu buzlu suya itələyib atmırdı. Gələcək onun üçün yenə də parlaq görünürdü və üfüqdə dolaşan kölgələri hələ sezmirdi.

Hökumət idarəsindəki məmur onun üstünə qışqırdı:

— Əmək kitabçanız haradadır?

Növbədə dörd saatdan çox gözləyən Sabina cavab verdi:

— Mən keçmiş məhbusam.

— Heç cür kömək edə bilmərəm, işiniz və əmək kitabçanız yoxdursa, onda sizə ərzaq talonu da düşmür.

Sabina oranı tərk edib küçəyə çıxdı, haradan ərzaq tapacağını bilmirdi. Kanalın sahillərindəki əziyyətlər onu tərk etməmişdi. Kommunistlər onların Buxarestin tarixi məkanı olan Vakareştinin Olteni küçəsindəki evlərini müsadirə etmişdi. Bir neçə gün növbələrdə dayanaraq kağızları yazıb doldurandan sonra, nəhayət, Sabina və Mihaya keçmiş mənzillərinin yuxarısında yerləşən, yaxşı qızdırılmayan çardaqda yaşamağa icazə vermişdilər. Orada nə su, nə də ayaqyolu var idi. Qışda ora həddindən artıq soyuq, yayda isə çox bürkülü olurdu. Tavan kif bağlamışdı. Laxlayan çarpayılarda yatmaq mümkün deyildi. Pəncərə kərpic divara açılırdı.

# Fəsil 43

Sabina kimi keçmiş məhbuslar şəraitsiz, qızdırıcı sistemi olmayan, icarəçiləri çox olan mənzillərdə yaşamağa məcbur olurdular. Ərzaq çatışmırdı və işıq tez-tez kəsilirdi. Gündəlik tələbat mallarını almaq üçün camaat nəsildən miras qalmış əşyalarını satırdılar. Sabinanın rəfiqələrindən biri hər şeyini — xalçalarını, kitablarını, çəngəl-bıçaq və yataq dəstlərini satıb xəstə atasına dərman almışdı.

Sabinanın yanına çoxlu sayda dostları axışıb gəlirdi və ondan həbsdə olan öz qohumları barədə bir xəbər almaq istəyirdilər.

«Sabina, adamlarla danışanda ehtiyatlı ol, — deyə bir dostu ona yalvararaq tapşırmışdı, — *hər yerdə* xəbər çatdıranlar var!»

Bir qədər keçəndən sonra gizli toplantının üzvü Canetta Sabina və Mihayla birgə yaşamaq üçün yanlarına köçdü. Daha sonra isə epilepsiyadan əziyyət çəkən cavan qadın Marietta da onlara qoşuldu.

Bir gün Marietta gözlərinin altı nimdaş qara paltosu kimi qaralmış halda Sabinagilin qapısını döydü. Sabina qapını açanda Marietta içərisində iki pirojna olan balaca bir qutunu ona uzatdı. Bu dadlı şirniyyat üçün o, iki saat növbədə gözləməli olmuşdu.

Marietta sobanın üstündə qızardılan kartofun ətrini içinə çəkərək dedi:

— Sizin nə rahat eviniz var!

Sabina onu bu kasıbyana yeməyə qonaq edərək sözə başladı:

— Hə, Marietta, gördüyün kimi, bura mənzil demək olmaz. Biz aşağıdakı mənzildə yaşayanda köhnə əşyalarımızı bu çardaqda saxlayardıq. Amma sən bizimlə qalmaq istəyirsənsə, biz bura əlavə bir çarpayı yerləşdirə bilərik.

Otuz il sonra Olteni küçəsi tamamilə dağıdılacaqdı. Şəhərin yüzillik mədəniyyət və dini abidələri alt-üst edilib yerində çoxmərtəbəli evlər və hökumət binaları tikiləcəkdi. Amma hələlik Sabina, oğlu və rəfiqələri balaca çardaqda yaşayırdılar...

# 44

Riçard Sabinanın azadlığa buraxıldığını eşidəndə kefi açılmışdı və Sultanyuka kömək etmək barədə düşünürdü. O, streptomisin dərmanını ona verməklə sağlamlığını qurban etməyə hazır idi. Riçard on səkkiz yaşlı xoştəbiətli Yusif adlı məhbusla söhbət etməyə başlamışdı. O, Almaniyadakı bacısına zəng etməyə çalışarkən həbs olunmuşdu. Beləcə siyasi oyunun girovuna çevrilərək ağır işgəncələrə məruz qalmış, Dunay kanalında, Sabinadan çox da uzaq olmayan bir yerdə islahedici işlə həbs cəzasına məhkum edilmişdi. Yusif orada vərəm xəstəliyinə yoluxmuşdu. Xoralar onun cavan üzünü eybəcər hala salmışdı.

«Mən Allaha nifrət edirəm, — deyə Yusif yerə tüpürdü, — əgər bir daha bu söhbətlərinizlə məni narahat etsəniz, mühafizəçiləri çağıracağam. Əl çəkin məndən!»

Riçard Yusifin xəbərverən adam olub-olmadığını bilmək istəyirdi. Müstəntiqlər məhbuslardan kifayət qədər məlumat ala bilməyəndə kameralara casuslar göndərirdilər. Yusif onlardan biri ola bilərdi. Amma Sultanyuk ölüm ayağında idi və risk edib kömək göstərməyə dəyərdi.

Riçard streptomisini Yusifə verib xahiş etdi ki, onu Sultanyuka ötürsün və bu dərmanı faşistlərin halına acıyan bir nəfərin verdiyini desin. Sonra Riçard Sultanyuka and içib bu dərmanın ona məxsus olmadığını dedi.

Nəhayət, ölümlə çarpışan faşist toz halında olan dərmanı qəbul etdi və bir neçə günün içərisində tamamilə sağaldı. Sonralar Riçard Yusifə izah etdi:

— Streptomisin əslində, həqiqətən də, mənim deyildi, o, Allaha məxsus idi. Mən dərmanı alan kimi onu Allaha verdim.

Bu söhbəti eşidən məhbus katolik yepiskopu Riçardın davranışına şübhə ilə yanaşaraq dedi:

— Cənab Vurmbrand, sizcə, istintaq zamanı həqiqəti söyləməli deyilsinizmi?

Riçard cavab verdi:

— Əlbəttə, yox! Ağlıma ilk gələni deməklə dostlarımı tələyə salmağa çalışanları çaşdırıramsa, onda vicdan əzabı çəkmirəm. Allahın kilsəsinə qarşı istifadə oluna biləcək məlumatı niyə onlara verməliyəm? Mən Allahın xidmətçisiyəm! Bu elə bir vəziyyətdir ki, xoşagəlməz *«yalan»ı* instinktimiz düz kimi istifadə etməyi təklif edir. Mən həqiqətə hörmət edirəm, amma dostumu xilas etmək üçün «yalan» danışmağa hazıram.

Yusif maraqlandı:

— Onda siz nəyi yalan adlandırırsınız?

— Bunun cavabını məndən soruşursan? Müqəddəs Ruhla idarə olunan insanın vicdanı həyatda istənilən vəziyyətdə nəyi deyib, nəyi deməməyi ona söyləyəcək. Dərman barədə Sultanyuka çatdırdığın andımı yalan hesab etmirsən, elə deyilmi?

Yusif gülümsəyərək cavab verdi:

— Əlbəttə ki, yox! Bu, insana qarşı olan məhəbbəti göstərir.

Riçard Yusifin ürəyinin yumşaldığını hiss edib ona sual verdi:

— Nəyə görə Allaha nifrət edirsən?

Yusif təkrarladı:

— Nəyə görə? Siz əvvəlcə mənə deyin görüm, Allah niyə vərəm xəstəliyini yaradıb?

Riçard cavab verdi:

— Əgər siz mənə axıra qədər sakitcə qulaq assanız, mən bunu sizə izah edərəm.

Yusif qolunu başının arxasına qoyub dedi:

— Əgər siz izah edə bilsəniz, mən bütün gecəni sizi dinləməyə hazıram.

— Bir balaca maya göbələyi bütün xəmiri acıdır. Başqa bir mikrob isə uşağın ağ ciyərində yaşayıb onu zədələyir. Bu mikroblardan heç biri nə etdiyini bilmir, amma mən onlardan birini bəyənirəm, o birisini isə pisləyirəm. Onlar özü-özlüyündə nə pis, nə də yaxşıdır. Amma onların faydasını bizə xeyri olub-olmaması ilə müəyyən edirik. Biz istəyirik ki, bütün kainat bizə uyğunlaşsın, lakin biz onun yalnız kiçik bir zərrəsiyik. Bizim pis adlandırdığımız çox vaxt yaxşının tamamlanmamış hissəsidir.

Yusif dedi:

— Mənim sualımı cavablandırmaq üçün daha dərin sübutlar lazımdır.

— Dörd min il bundan əvvəl Yusif adlı bir nəfər yaşamışdı. O, qardaşları tərəfindən Misirə qul kimi satılmış, orada böyük ədalətsizliklərlə üzləşmişdi. Sonra o, baş nazir vəzifəsinə təyin olunmuş və bu yolla öz ölkəsini, naşükür qardaşlarını aclıqdan xilas etmişdi. Ona görə Yusif kimi sən də işin sonunu bilməyincə başına gələnin yaxşı və ya pis olduğunu deyə bilməzsən.

Yusif soruşdu:

— Bəs yenidən azadlığı görməyib həyatdan köçənlər necə olsun?

— Lazar adlı bir adam kasıbçılıq və xəstəlik içərisində öldü. Amma onunla bağlı İsa deyir ki, «mələklər Lazarı İbrahimin qucağına apardı» (Luka 16:22). Hər birimiz öləndən sonra öz mükafatımızı alacağıq, yalnız onda biz sonu görüb hər şeyi başa düşə bilərik.

Bir neçə həftədən sonra Yusifə tezliklə azadlığa buraxılacağı barədə xəbər gəldi. Yusifin Amerikadakı gələcək planları onun ingilis dilini bilməyindən asılı idi. Riçard ona ingilis dili öyrədəcəyinə söz vermişdi. Ancaq Yusif dəri vərəmindən eybəcərləşmiş üzünün ona iş tapmaqda mane ola biləcəyindən narahat idi.

Riçard gənc dostunu ruhlandıraraq dedi:

— Məşhur rus yazıçısı Nikolay Ostrovski kor və iflic olmuşdu. Həm də o qədər kasıb idi ki, öz romanını bağlama kağızlarına yazmışdı. Şiller, Şopen, Kits də bizim kimi vərəmdən əziyyət çəkmişdilər. Dahi insanlar çox vaxt xəstə olublar.

Yusif çox götür-qoy etdikdən sonra dedi:

— Pastor, əgər İsa sizin kimidirsə, onda mən Onu da sevirəm.

*****

Mühafizəçi Riçardın kamerasına daxil olub onun geyinməyini tələb etdi. Sonra onu ayaqları zəncirlənmiş halda dəhlizdən keçirərək böyük zala apardı. Orada ona baş çəkməyə gələn var idi.

Pəncərənin dəmir barmaqlıqları arasından Riçard tanış, arıq bir üz gördü. *«Oğlum Mihay! Görəsən, bu, doğurdanmı odur?!»*

Neçə illər idi ki, Riçard nə vaxtsa Mihayı yenidən görsəydi, ona nə deyəcəyini təsəvvüründə canlandırırdı. Sabina ona hamilə olduğunu bildirəndə tezliklə dünyaya ilk övladlarının gəlişinə görə sevinən cavan cütlüyün necə rəqs etdiyi anlar Riçardın yadına düşdü. Görəsən, Mihay atası barədə nə düşünür? Onu tanıyacaqmı?

Otağın hər küncündə mühafizəçilər söhbətə diqqətlə qulaq asmaq üçün dayanıb baxırdılar. Amma Riçard üçün həmin an hər şey: divarlar, pəncərələr, məlumat əldə etmək məqsədilə onlara qulaq asan müstəntiqlər yoxa çıxmışdı. Burada yalnız iki adam var idi: saçı seyrəkləşmiş ata və onun sevimli oğlu.

Riçard böyük heyranlıqla Mihayın gözlərinə baxdı. O, həbs olunanda oğlunun doqquz yaşı var idi. İndi isə üstündən altı il keçmişdi. Oğlu, demək olar ki, kişiləşmiş, bığ yeri tərləmişdi.

— Anam deyir ki, əgər sən həbsxanada ölsən, mən kədərlənməməliyəm. Çünki biz yenidən cənnətdə görüşəcəyik.

Riçard ondan soruşdu:

— Anan necədir? Evdə kifayət qədər yeməyiniz varmı?

Mihay dedi:

— Demək olar ki, yaxşıdır. Yeməyimiz də var. Bizim *Atamız* çox zəngindir.

Mihay söhbət zamanı mühafizəçilərin yanında Sabina barədə az danışaraq Müqəddəs Kitabdan çoxlu ayələr sitat gətirdi. Riçard Allahın onun ailəsini qoruduğunu eşidəndə çox sevindi.

Başqa məhbusların həyat yoldaşlarından fərqli olaraq, Sabina ərindən boşanmaq üçün ərizə verməmişdi. Xoş xəbərlər ona streptomisindən daha güclü təsir edirdi. Onu daha neçə qaranlıq ilin gözlədiyindən asılı olmayaraq, Riçard həyat yoldaşının və oğlunun təhlükəsizlikdə olduğunu bilirdi. İndi kommunizmin dəmir caynaqlarına dözə bilərdi.

# 45

Sabinanın səhhəti get-gedə yaxşılaşırdı. Amma hər dəfə dərindən nəfəs alanda sınmış qabırğası hələ də ağrıyırdı. Həkimlər Sabinanın həbsxanada olarkən işgəncələrə necə tab gətirdiyinə çox təəccüblənirdilər. Onlar deyirdilər ki, ağrılar müvəqqətidir və bir neçə aydan sonra azalacaq.

Bir səhər Olteni küçəsi ilə gedərkən Sabina bəstəboy, nimdaş paltarlı, saçı tökülmüş bir kişinin yanından keçdiyini gördü. Çiyni ilə qadını vurub keçməzdən əvvəl, həmin kişi diqqətlə Sabinanın üzünə baxdı. Sabina buna əhəmiyyət vermədi, amma əlini cibinə salanda, səliqə ilə qatlanmış kağız parçası tapdı.

«*Yəqin ki, bu kağızı o kişi cibimə qoyub?*» Sabina öz-özünə düşündü. O, kağız parçasını işığa tərəf tutub bu sözləri oxudu: «Rəbb səni ağrıdan, sıxıntıdan, gördüyün ağır işdən qurtaranda...» (Yeşaya 14:3).

«*Bəlkə o kişi bir mələk idi?*» Sabina buna əmin deyildi, amma kiçik kağız parçasından məhəbbət duyulurdu. O, hara baxırdısa, orada Allahın mərhəmətini hiss edirdi. Buxarest Sabina üçün bu vaxta qədər aşkar etmədiyi bir xeyir-dua idi. Küçədə adamları görəndə onun qəlbini sevinc hissi bürüyürdü. Hələ nə mübarizə, nə də gizli kilsənin üzvləri tərəfindən Allahın göndərdiyi dəstək bitmişdi.

Yalnız neçə illərdən sonra Sabina qoşulduğu məsihçi müqaviməti hərəkatının adını biləcəkdi. Kommunizmin dəmir yumruğu altında fəaliyyət göstərən gizli kilsənin rəsmi adı yox idi. Bu kilsə möhtəşəm qüllələri və naxışlı tavanları ilə qürrərlənmirdi. Onun pastorları

nəfis işlənmiş libaslar və kahin paltarları geyinmirdilər. Əslində onları ruhani təlimlərinə və dərəcələrinə görə ayırd etmək mümkün deyildi. Gizli kilsənin üzvləri kommunistlərin qanunlarına əməl etmirdi və bu, onları fərqləndirən xüsusiyyət idi. Onlar Məsihin davamçıları olub Allah qorxusunda Müqəddəs Kəlama itaət edərək öz xidmətlərini yerinə yetirirdilər.

Gizli kilsə həmişə mövcud olub. Kilsə tarixi boyunca bir çox məsihçi cəzalanmaq təhlükəsinə görə Allaha sərbəst ibadət edə bilməmişdi. Yüz illiklər ərzində imanlı cəmiyyətləri öz həyatlarını təhlükəyə ataraq yeganə, həqiqi və diri Allaha səcdə etmək üçün yeraltı gizli mağaralarda yığışmışdılar.

Sabina bilirdi ki, məsihçiləri təqib edən hakimiyyət hökm sürdükcə, gizli kilsələr də mövcud olacaq. Həbsdən azad olduqdan sonra o, ətrafındakı insanlara Allahın onun həyatında etdiklərindən danışırdı. Qorxu içində yaşayanlara izah edirdi ki, əslində məsihçilər azaddırlar, onlar memarı Allah olan şəhərin vətəndaşlarıdır. İnsanlara bu həqiqətləri öyrətmək Sabinanın əsas xidmətinə çevrilmişdi. Həbsdə keçirdiyi illər onun sözlərinə qüvvət verirdi.

Sabinanın keçmişdəki bəzi dostları indi ondan qaçırdılar. İşlərini itirmək qorxusuna görə onlar Sabinanın mənzilinə belə yaxınlaşmağa cürət etmirdilər. Digərləri isə rəhbərlik tərəfindən sorğu-sual olunanda ümumiyyətlə onu heç tanımadıqlarını söyləyirdilər.

Bir dəfə Sabina oxuduğu universitetin yanından keçəndə yaxşı tanıdığı müəllimini gördü. Sabina müəllimi ilə salamlaşanda professorun iş yoldaşı onun yanından keçirdi.

«Xanım, siz yanılırsınız, mən sizi tanımıram!» — deyə professor cavab verib, utandığından Sabinanın gözünə baxmamış, üzünü çevirib getmişdi.

İndi Vurmbrandın kilsəsinə iki cavan lüteran pastoru rəhbərlik edirdi. Onlar bacardıqları qədər toplantıya xidmət etməyə çalışırdılar. Amma onların təlimləri həbsxana əzablarına deyil, kitablara əsaslanırdı. Onlar keçmiş əsrlərin tarixi barədə geniş

biliyə malik olsalar da, bildiklərini Rumıniyadakı kommunist şəraitində tətbiq etmək lazım gələndə çətinlik çəkirdilər.

Bu iki pastordan fərqli olaraq Sabina imanlı bacı və qardaşlarını ruhlandırmağı bacarırdı. Bəzən bu qədər imanlıların ruhani məsləhət üçün Sabinanın qapısına gəlməsi *onu* utandırırdı. Amma o, həmişə təsəlli, tövsiyə və duaya ehtiyacı olan yüzlərlə narahat insanı ruhlandırmaq üçün qapısını taybatay açırdı.

Rumıniyada məsihçilər Sabina kimi imanı uğrunda əzab çəkənlərə hörmət edir, erkən imanlı cəmiyyətlərində olduğu kimi, təqib olunmuş ağsaqqallar və ağbirçəkləri önə çəkib tərifləyirdilər. Onlara iman qəhrəmanları, müqəddəslər kimi sitayiş edirdilər. Sabinanın dilindən çıxan hər bir söz Müjdənin həqiqəti kimi qəbul olunurdu. Lakin o, şöhrətə və ilahiləşdirməyə qarşı çıxır, onu ucaldanlara qadağan edərək xatırladırdı ki, sadəcə Məsihin bir xidmətçisidir.

Sabina bilirdi ki, şəhidlər həqiqəti yaratmırlar, həqiqət şəhidləri yaradır.

*****

Bir dəfə Mihay anasına dedi:

— Ana, mən bezdim, daha məktəbə getməyəcəyəm!

O gün Mihay məktəbdən evə tez qayıtmışdı. Onun gözlərində bir qətiyyət var idi.

Sabina təəccüb içində oğlundan soruşdu:

— Necə yəni getməyəcəyəm?

— Mən artıq ora getməyəcəyəm!

Sabina oğlunun dediklərini anlamadı:

— Axı sən təhsil almalısan!

Mihay cavab verdi:

— Amma o məktəbdə yox!

Mihay anasına izah etdi ki, məktəbdə kommunist gənclər ittifaqı ona pionerə keçməyi təklif edir. Pionerliyə ən yaxşı şagirdlər namizəd görülürdü. Pioner olduqdan sonra Mihay qırmızı qalstuk

taxmalı idi. O isə bunu qətiyyətlə rədd etmişdi. «Mən bu qırmızı qalstuku taxmayacağam! — deyə Mihay müəlliminə bildirmişdi. — Bu, mənim atamı həbsdə saxlayan partiyanın rəmzidir».

Müəllim yəhudi olsa da, işini itirməkdən qorxduğu üçün Mihayı danlamış, dərsdən qovub evə göndərmişdi. Sabina bilirdi ki, Mihaya təhsil almaq lazımdır və oğlunu ruhlandırıb ertəsi gün məktəbə yolladı.

Müəllimlərin çoxu, xüsusilə də yəhudi müəllimlər öz fənlərini sərbəst öyrədə bilmədikləri üçün işlərinə nifrət edirdilər. Onları məcbur edirdilər ki, dərs planlarına kommunist ideyalarını daxil etsinlər. Sabina bilirdi ki, Rumıniya əslində heç vaxt kommunist ölkəsi olmayıb, o, kommunistlər tərəfindən əzilən bir ölkədir.

Növbəti gün Mihayın müəllimi onu qucaqlayıb sinfə qayıtmasına icazə verdi. O, bu hərəkətinə görə başına gələcək hər şeyə hazır idi. O gündən etibarən həmişə Mihayın tərəfini tutdu.

Başqa müəllimlər Mihayın siyasi məhbus oğlu olduğunu bilirdilər və cəsarətinə görə ona hörmət edirdilər. Hərdən o, sinifdə ateist təbliğatına qarşı çıxış edirdi. Bəzən o, mübahisələrdə uduzurdu, çünki o, yeniyetmə olduğu üçün böyüklər kimi fikirlərini izah edə bilmirdi. Amma bütün bunlara baxmayaraq, həmişə öz imanını müdafiə edirdi.

*****

Sabina həbsdə olanda Mihay «Alisiya xala»nın himayəsində qalmış, ona «Sən hələlik mənim anam olacaqsan» demişdi.

Alisiya Sabinanın oğlunun on bir yaşı olandan qayğısına qalmışdı. O, bir vaxtlar təhsil şöbəsinin müdiri vəzifəsində çalışmışdı. Kommunist partiyasının sıralarına qoşulmaqdan imtina etdiyi üçün işindən qovulmuşdu. Alisiya fransız dilini öyrətməklə və Mihay kimi şagirdləri imtahana hazırlaşdırmaqla pul qazanırdı.

Alisiyanın çətin vəziyyətdə olduğundan xəbər tutan yaşlı ər-arvad yığdıqları pulun böyük hissəsini ona vermək üçün iki gün yol

qət edib gizli yollarla Buxarestə gəlmişdilər. Başqa bir Mixayloviçi soyadlı xanım həyatını təhlükəyə ataraq öz kəndindən Buxarestə qədər yüzlərlə kilometr məsafəni qət edərək əlində olanı — bir kisə kartofu Alisiyanın Mihayı böyütməsi üçün gətirmişdi. Onun bu gəlişi barədə xəbər milisə çatmışdı. Qadını elə döymüşdülər ki, aldığı bədən xəsarətlərindən heç vaxt sağalmamışdı.

Alisiyanın kasıblığı Mihayı öz ailəsinə qəbul etməkdə ona mane olmamışdı, halbuki, qadın evdə yaşlı atasının da qayğısına qalırdı. Hər üçü bir otaqda qalırdı və Alisiya qazandığı qəpik-quruşunu sevə-sevə evdəkilərin ehtiyaclarına xərcləyirdi.

Alisiya valideynləri öldürülmüş və ya həbsxanada olan başqa uşaqların da qayğısına qalırdı. Bu qadının qoçaqlığı və cəsarəti küçədə yaşayan, aclıqdan əziyyət çəkən və hətta imkansızlıqdan ölə biləcək çox uşağı xilas etmişdi.

Sabina həbsxanadan azad olunandan sonra Alisiyanın köməyi sayəsində Mihay anası ilə görüşə bilmişdi. Sabina Mihay ilə görüşəndə oğlunun ona dediyi: «Ana, mən sizin tərəfinizdəyəm və Rəbbi sevirəm!» sözlərini heç vaxt unutmayacaqdı.

Amma məktəbdə Mihay çətinliklərlə qarşılaşırdı. Müəllimlər riyaziyyatdan başlayaraq ədəbiyyata kimi bütün tədris fənlərinə ateist təbliğatını daxil etmişdilər. Hər gün kommunist filmləri göstərməklə şagirdlərin «beyinlərini yuyurdular». Təbliğat aparanda məsihçiliyi ələ salırdılar. Hər məktəbdə «allahsızların guşəsi» var idi. Burada nümayiş olunan rəngli şəkillər və kitablarda kahinlər, pastorlar əxlaqsız həyat yaşayanlar kimi təsvir edilirdi.

Sabina Mihaya kömək etməyə çalışırdı ki, məktəbdə şagirdlərə keçirilən təbliğata qarşı mübarizə apara bilsin. Sabina əvvəllər ateist olduğu üçün «beynin yuyulması» ilə necə çarpışacağını yaxşı bilirdi. Bir vaxtlar Sabinaya şübhələrinə qalib gəlməkdə Riçard kömək etmişdi.

Bir dəfə Riçard demişdi ki, heç kim bizi əhatə edən təbiətin necə mövcud olduğu üçün sübut istəmir. Eləcə də, ruhani varlıqlar təbii olaraq doğru və həqiqi olan gizli gerçəklikləri dərk edirlər.

Məsələn, Müqəddəs Ruh insan gözü ilə görünməz. Amma heç bir məsihçi Ruhla dolanda Onun mövcudluğuna sübhə etmir. İsa Müqəddəs Ruhu küləklə müqayisə edərək deyir: «Yel istədiyi yerdə əsir, onun səsini eşidirsən, amma haradan gəlib haraya getdiyini bilmirsən. Ruhdan doğulmuş adam da belədir» (Yəhya 3:8).

Sabina küləyi görməsə də, onun əsdiyini inkar etmirdi. Buna görə ümid edirdi ki, imanını Mihaya ötürəcək və gözlə görünməyənləri görməkdə ona kömək edəcək. O istəyirdi ki, oğlunun imanına güc qatsın və həmin iman sınaqlar zamanı onu möhkəm saxlasın.

«Kilsənin müqəddəs tərəfi olduğu kimi, cismani tərəfi də var, — Sabina Mihayın məktəbdə çətin günləri olanda oğluna xatırladırdı, — hər bir məsihçinin də ikili təbiəti var. Allahın gücü isə özünü insanın daxilində tövbə və bağışlama vasitəsilə göstərir».

Vurmbrandlar böyük günahlar törətmiş pastorları tanıyırdılar. Lakin Sabina Mihaya dedi ki, məktəb kitablarında bu xidmətçilərin tövbə etmələri barədə heç vaxt bir söz belə yazılmır: «Onlar məsihçi xidmətçilərin yalnız günahlı tərəflərini göstərir, yaxşı tərəflərini isə gizlədirlər. İstənilən insan səhv edə bilər. Amma etdiyimiz günaha görə tövbə edəndə bizdə Allahın lütfü nur saçır».

Bir dəfə Mihayın məktəb müəllimi sinifdə demişdi ki, padşah Davud qatil və zinakar olub. Mihay dərsdən evə gəlib anasından soruşdu:

— Nə üçün Davud Uriyanın arvadı ilə evlənmək istəyirdi?

Sabina ona cavab verdi:

— Müqəddəs Kitab həqiqəti gizlətmir. Kəlamda qeyd edilir ki, insanlar günah və səhv edə bilər. Amma yaxşı-yaxşı fikirləşəndə başa düşəcəksən ki, məhz kommunistlər yalan danışır və həqiqəti təhrif edir.

Hər bir məsihçi ananın həyatında döyüş meydanı var idi. Onlar uşaqlarının ürəyində gün ərzində kommunistlərin zəbt etdikləri yerləri axşamlar mübarizə apararaq geri almalı olurdular. Düşmənlər bütün silahlardan istifadə edirdilər: məktəblərdə, kitablarda, radioda və televiziyada ateizmi təbliğ edirdilər. Amma Mihayın bunlardan

daha güclü olan silahı — anasının hər gün göstərdiyi məsihçilik nümunəsi var idi. Nəzəriyyə və fəlsəfə barədə mübahisə etmək olardı, amma heç kim ananın duasının gücü ilə mübahisə edə bilməzdi.

Sabina və başqa məsihçilər döyüş meydanında amansız döyüşçü kimi davranmağı öyrənmişdilər. Əgər onlar düşmənlə ön cəbhədə vuruşmağa göndərilmirdilərsə, onda mütləq düşmənə öz evlərində qalib gəlməli idilər.

*****

Təqiblərə baxmayaraq, gizli kilsənin üzvləri yetim uşaqlara kömək etməyi heç vaxt unutmurdular.

Bəzi kilsə üzvləri Buxarestdən köçüb getmişdilər, çünki qorxurdular ki, təhlükəsizlik xidmətinin işçiləri onları məlumat verməyə məcbur edərlər. Digərləri isə təzyiqə tab gətirə bilməmişdilər. Başqa məsihçiləri satmağa məcbur olanlar Buxarestdə o qədər artmışdı ki... Etdikləri pislikləri etiraf etmək və Allahdan bağışlanma istəmək üçün Sabinanın yanına tez-tez məsihçilər gəlirdilər. Bir dəfə qadınlardan biri Sabinaya etiraf etdi:

— Biz tələyə düşmüşük. Biz Rəbbi sevirik. Səni və Mihayı da çox istəyirik, amma biz hədə-qorxulara və təzyiqlərə dözə bilmirik.

Sabina həmin qadının etirafına qulaq asırdı.

— Mənim ərim ya işini itirəcək, ya da həbs olunacaq. Bizi məcbur edirlər ki, kilsəyə kimlərin gəldiyi və nə danışdıqları barədə onlara xəbər verək. Biz çalışırıq ki, yalnız sizə zərər vurmayacaq məlumatları çatdıraq. Siz son dərəcədə ehtiyatlı olmalısınız!

Kommunistlər ailə üzvlərini biri-birinə qarşı çıxararaq ailələri dağıdırdılar. Əgər onlar uşaqların valideynləri barədə xəbər çatdırmasına müvəffəq olmurdularsa, onda həmin adamları satacaq, burnunu hər işə soxan bir qonşu, iş yoldaşı və ya dost tapırdılar. Təhlükəsizlik xidmətinin əməkdaşları Sabinanın həyatının hər bir xırdalığı haqqında — aldığı ərzaq məhsulları, bişirdiyi yemək, getdiyi yerlər, gəzdiyi küçələr, həftə ərzində danışdığı adamlar barədə

məlumat toplayırdılar. Qızları görüşdükləri oğlanlar barədə sorğu-sual edirdilər. Bütün bunları sənədləşdirirdilər ki, sonra məsihçiləri tutmaq və həbs etmək üçün əsas kimi istifadə edə bilsinlər.

Məxfi fəaliyyət kilsənin əsas müdafiə mexanizminə çevrilmişdi. Ona görə də əksər məsihçilər kommunist sistemində qırmızı qalstuk taxırdılar. Bəziləri hətta hökumətin yüksək vəzifələrində idilər. Onlar çox vaxt ucqar kəndlərə gedirdilər ki, pastorlar gizlicə onların nikah mərasimini və ya uşaqlarını vəftiz etsinlər.

Məsihçilər hər bir hərəkətinə və söhbətinə nəzarət etməli idilər. Xəbər verənlər hər yerdə var idi. Sabina çardağında yüzlərlə adamla söhbət etmişdi. O həmişə onlara deyirdi: «Tövbənizin həqiqi olduğunu sübut edin və bizi necə güddükləri barədə danışın. Məlumat verdiyiniz zabitlərin adını çəkin. Harada və nə vaxt onlarla görüşdüyünüzü deyin».

Sabinanın tövbə üçün yanına gələn xəbər verənlərdən topladığı məlumat bir çoxlarının həyatını xilas etmiş, yüzlərlə insanın həbsinin qarşısını almışdı. O, kommunistlərin məsihçiləri güdə bilməsinin qarşısını alacaq gizli bir qrup yaratmışdı. Gizli kilsənin digər üzvləri ilə birlikdə Sabina təhlükəsizlik xidmətinin əməkdaşlarının fəaliyyətini güdür, dərhal məsihçi ailələrə xəbərdarlıq edirdi. Onun təşkil etdiyi bu qrupun üzvləri küçələrdə milisləri güdür, şəkillərini çəkir və kimlərlə əlaqə saxladıqlarını öyrənirdilər.

Polkovnik Şirkanunu güdmək olduqca təhlükəli idi. Lakin onun Sabinanı güddüyü kimi, o da polkovniki güdürdü. Sabina hər gün onunla eyni vaxtda evdən çıxır, yorulmadan ona göz qoyub davranışlarını qeyd edirdi. Nəhayət, onun dostlarının böyük dairəsini təyin edəndən sonra Sabinanın ənənəvi olmayan metodları işə yaradı, sorğu-suala çağırılacaq pastorları və ailələri xilas etmək mümkün oldu. Sabina düşünürdü ki, hətta xəbər verənləri bir-bir güdmək lazım gəlsə belə, kilsə nəyin bahasına olursa olsun, özünü qorumalıdır.

Mihay da yaxşı kəşfiyyatçıya çevrilmişdi. Hələ yeniyetmə olduğu üçün milis onunla maraqlanmırdı, amma o, qulaqlarını

və gözlərini geniş açmışdı. Mihay xəbər verənlərə göz qoyurdu və eşidib gördüyü hər şeyi anasına çatdırırdı. Çətinliklərə baxmayaraq, bir yeniyetmə kimi, o, gizli kilsəyə kömək edir və bir çoxlarını ruhlandırırdı.

Amma Mihay və Sabina bilirdi ki, istər kiçik, istərsə də böyük olsun, istənilən səhv onların həbsinə və ya da daha pis bir sonluğa gətirib çıxara bilər.

# 46

Bir dəfə Mihay üzündə təbəssümlə məktəbdən evə gəldi. Sabina ondan səbəbini soruşanda Mihay anasına bir lətifə danışdı:

— Bir dəfə Hitler, Napoleon və Makedoniyalı İsgəndər Moskvanın Qırmızı meydanında parada baxmaq üçün cəhənnəmdə özlərinə bir istirahət günü götürdülər. Hitlerin yanından tankların kolonu keçəndə o dedi: «Əgər mən bilsəydim ki, sovet ordusu bu qədər güclüdür, heç vaxt SSRİ-yə hücum etməzdim». Makedoniyalı İsgəndər isə dedi: «Əgər mənim belə bir ordum olsaydı, onda mən bütün dünyanı fəth edərdim». Sovet qəzetini oxuyan Napoleon isə üzünü onlara çevirib dedi: «Əgər bütün qəzetlər «*Pravda*» kimi belə itaətkar olsaydı, dünya Vaterlooda baş verənlərdən heç vaxt xəbər tutmazdı».

Sabina güldü, o bilirdi ki, Mihay bu lətifəni müəllimlərindən eşitməyib. Onun oğlunun on beş yaşı var idi, orta məktəbin səkkizinci sinfini başa vurmuşdu və təhsilini davam etdirə bilməyəcəkdi. Siyasi məhbusların uşaqlarının ali məktəblərdə təhsil almaq hüququ yox idi. Ona görə də Mihayın çoxlu asudə vaxtı yaranmışdı.

Bir dəfə Riçardın köhnə dostlarından biri Mihayın fortepianoda çaldığını eşitdi, ona görə də ona pianino kökləmək işini təklif etdi:

— Mən Dövlət Opera Teatrında musiqi alətlərini kökləməklə məşğul oluram. Mənə incə barmaqları və yaxşı musiqi duyumu olan köməkçi lazımdır.

Onun axtardığı xüsusiyyətlər Mihayda var idi. Amma işə düzəlmək üçün o, on altı səhifəlik anketi doldurmalı, indiyə qədər yaşadığı hər küçədəki iki qonşusunun ünvanını qeyd etməli idi.

«Həmin qonşulara əvvəlcədən xəbərdarlıq et ki, Təhlükəsizlik Xidmətinin işçiləri onlara baş çəkəndə nə demək lazım olduğunu bilsinlər» — Riçardın köhnə dostu ona dedi.

Anketdəki suallardan biri belə idi: «Atanız heç həbs olunubmu?» Mihay bir anlıq düşünüb «Yox» yazdı. Sonra öz-özünə pıçıldadı: «Əslində onu küçədən *oğurlayıb* aparıblar. Bu, ümumiyyətlə, həbs deyil».

Mihay musiqi alətlərinin köklənməsi işində çalışarkən kasıb ailəsi üçün böyük məbləğdə maaş alırdı. Ona hətta dükandan çörək və başqa ərzaqlar almaq üçün talon da verilirdi. Bir neçə aydan sonra Riçardın dostu gördü ki, Mihayın musiqi duyumu çox yaxşıdır, notları və tonu asanlıqla təyin edir. Həmin adam Sabinaya «Mənim bu işi qırx il görməyimə baxmayaraq, o, işini məndən yaxşı görür» demişdi.

On səkkiz aydan sonra Mihay işini itirdi. Kimsə rəhbərliyə xəbər çatdırdı ki, onun atası siyasi məhbusdur. Beləcə, pianino kökləyən kişinin onu işdən çıxarmaqdan başqa çıxış yolu olmadı. Amma Mihay bu vaxt ərzində musiqi alətlərini təmir etmək bacarığına elə peşəkarcasına yiyələndi ki, Buxarestdə musiqiçilər arasında öz müştərilərindən ibarət bir çevrə yaratdı və ailəsi üçün pul qazanmağa davam etdi.

Sabina da ailəsini dolandırmaq üçün hər cür iş axtarırdı. Onun birinci işi Mariettanın jurnaldan oxuyarkən tapdığı barama qurdunu yetişdirmək idi. Elanda deyilirdi: «Ev şəraitində ipək qurdunu yetişdirmək sizin üçün əlavə gəlir mənbəyi olacaq və sosializmin quruculuğuna kömək edəcək».

Mihay gülməkdən özünü saxlaya bilmədi:

— Yəqin ki, Marietta evdə yetişdirilən ipəkdən tikilmiş paltarda özünü təsəvvür edir.

Marietta onun sözünü eşidib Sabinanı inandırmağa çalışdı:

— Yox, ciddi sözümdür. İpək baha qiymətə satılır!

Mihay jurnalı əlinə götürüb dedi:

— Bəli, amma siz nə yetişdirsəniz, dövlət müəssisəsinə təhvil verməlisiniz. Sizcə, *onlar* nə qədər pul ödəyəcəklər? Yaxşı, bəs bu

qurdları harada saxlayacağıq? Əgər siz fikirləşirsiniz ki, mən içərisi qurdlarla dolu köhnə çirkli qutunu qoyduğunuz stolun üstündə yemək yeyəcəyəm, çox yanılırsınız.

Hamı güldü.

Sabina təklif etdi:

— İstəsən, biz onları sənin çarpayının altında saxlayarıq.

Mihay ona cavab verdi:

— Yox, *sənin* çarpayının altında.

Bütün bunlara baxmayaraq, Vurmbrandlar mətbəx stolunun üstündə ipək qurdlarını yetişdirməyə başladılar. Mihay yetişdirmə qaydalarını oxudu: «İpək qurdu kəpənəyə çevrilməzdən qabaq öz ətrafında fırlanaraq bədənini barama ilə sarıyır».

Mihay bir an fasilə verib anasına dedi:

— Ana, gərək sən ehtiyatlı olasan. Bir gün sən qapağı açanda, onlar uçub gedəcəklər.

Sonra Mihay oxumağa davam etdi: «Baramanı açanda uzunluğu yüzlərlə metrlik ipək saplar yaranır».

— Sənə elə gəlmirmi ki, bunu burada etmək çətin olacaq?

Sabina karton qutunun üst qatında deşiklər açaraq ipəkqurdularının sürfələrini onun içində saxladı. Uzunluğu yeddi santimetr olan kül rəngli qurdlar Mihayın yaxınlıqdakı qəbiristanlıqdan yığdığı tut yarpağı ilə qidalanırdı. Böyük bir sürətlə onları yeyəndən sonra tırtıllar öz ipək saplarına dolanaraq baramaya çevrildi. Sabina yüz baramadan ipəyi açıb dövlət müəssisəsinə təhvil verdi.

Gördüyü işin əvəzində ona iki günlük ərzaq üçün kifayət edəcək pul ödədilər.

# 47

İpəkqurdu yetişdirdikdən sonra Sabina başqa bir işlə — tikiş və toxuma ilə məşğul olmağa qərar verdi. Mihayın pianinoları kökləməklə əldə etdiyi gəlir ailənin büdcəsinə böyük kömək idi. Beləcə Vurmbrandlar müsadirə olunmuş mənzillərini geri qaytara bildilər.

Həmin il Beynəlxalq Gənclər festivalı keçirilirdi. Müxtəlif ölkələrdən Buxarestə komsomol gənclər gəlməyə başladılar. Festivalın başlamasından üç ay əvvəl mağazaların piştaxtalarında ərzaq məhsulları yoxa çıxdı. Küçələrdə ac insanlardan ibarət böyük növbələr yarandı. Uzun müddət axtarışdan və saatlarla növbələrdə dayandıqdan sonra Sabina kiçik parça yağ və bir azca un almağa müvəffəq oldu.

Festival başlayana yaxın dükanların piştaxtaları qəfildən geniş çeşidli ərzaq məhsulları ilə doldu. Üç həftə ərzində bütün stolların üstünü nəfis təamlar, ləzzətli ətlər və tərəvəzlər bəzədi.

«Ərzaq dükanında qutuda xurmalar gördüm! — Mihay sevinclə dedi, — qızılı kağızlara bükülmüş şokoladlar da var idi!»

Sabina bolluğun uzun sürməyəcəyini bildiyindən Mihay üçün ən yaxşı yeməkləri almağa çalışırdı. Festival qurtarandan sonra əhali yenə bir neçə ay ərzaq qıtlığından əziyyət çəkdi. Bu qıtlıq əvvəlkindən daha betər idi. Xarici qonaqlar rumınların hər gün belə bolluqda yeyib-içdiyini düşünsün deyə Buxarestin rəhbərləri bütün ehtiyatlarını məsrəf etmişdilər. Amma həqiqət göz qabağında idi.

İş elə yerə gəlib çıxmışdı ki, hətta alicənab ailələr uşaqlarına yemək vermək üçün ərzaq oğurlamalı olurdular. Fabrikdə işləyənlərə

maaşlarını aylarla ödəmirdilər. Buxarest öz əvvəlki vəziyyətinə qayıtdı — yenə yalanlar və casuslarla dolu həmin şəhər oldu.

Əksər pastorlar həbs olunduqları üçün onların gizli kilsədəki məsuliyyətləri həyat yoldaşlarının üzərinə düşürdü. Sabina kimi onlarla qadın ərlərinin xidmətini davam etdirmək üçün vəz etməyi öyrənirdilər. Məsləhət almaq və pastorluq etməyi öyrənmək üçün Buxarestin hər yerindən qadınlar axışıb gəlirdilər. Onlar məsihçi kitablarını paltarlarının altında gizlicə aparırdılar. Sonra təklikdə qalanda kitabın içindəkiləri əzbərləyib camaata vəz edirdilər.

Kommunizmin dağılması üçün istər kişi, istərsə də qadın olsun, məsihçi döyüşçülər lazım idi. Həqiqət məşəlini daşımaqdan ötrü kişilər kifayət etməyəndə, onların yerini qadınlar tuturdu. Beləcə Müjdə yayılmaqda davam edirdi.

Məsihçilərin gizli işarələri var idi. Gecə pəncərədə şam yandırılardı, sonra məsihçilər pilləkənlə yuxarı qalxıb qapını işarəli tıqqıldadırdılar. Onlar balaca bir otağa daxil olurdular. Gizli kilsə ibadət etmək, ilahilər oxumaq üçün zirzəmilərdə və kifli çardaqlarda bir yerə toplaşırdı. Orada lampanın yanması üçün kifayət qədər oksigen olmurdu. Ona görə Allahın övladları yarıqaranlıqda ibadət edirdilər. Lakin heç bir yer, hətta ən qaranlıq və iyrənc yer belə onları narahat etmirdi. İsa Dünyanın Nuru idi. Sabina bilirdi ki, O, hətta ən qaranlıq zirzəmiləri və çardaqları belə işıqlandırmağa qadirdir.

*****

Kilsələrin təqibi dini konfessiyalar arasındakı səddi dağıtmağa davam edirdi. İşgəncə təhlükəsi qarşısında qalanda insanın katolik, pravoslav, lüteran və ya metodist konfessiyasına məxsus olması əhəmiyyət kəsb etmirdi. Kommunizm dövründə Rumıniyada məsihçilik Məsihin ölümündən sonra bir neçə əsr davam edən məsihçiliyə bənzəyirdi.

Pastor Qreku ilə görüşəndə Sabinanın kommunizm şəraitində gizli kilsələrin inkişaf etdirilməsi barədə taktikaları dəyişdi. Qreku dövlət tərəfindən qəbul edilmiş və idarə olunan bir kilsədə xidmət edirdi. Qrekuya ibadət keçirməyə ona görə icazə vermişdilər ki, onun içki içən olduğunu yaxşı bilirdilər.

Kommunistlərin gözündə çoxlu içki içən kahinlər məsihçiliyin xətalarına parlaq bir nümunə idi. Onların şəkilləri çox vaxt ictimai yerlərdə nümayiş olunurdu, təhsil müəssisələrində isə belə təsvirlər kitablara daxil edilirdi. Amma kommunistlər bilmirdilər ki, Qreku içkini yalnız onların gözündən pərdə asmaq üçün edir. Onun yeganə «nöqsan»ı xeyirxah olmağı idi. O, şübhə yaratmadan gizli kilsədəki əsl işini davam etdirirdi.

Pastor Qreku Sabinanı ən çox dəstəkləyən və onu ruhlandıran bir insan idi. O, dövlət tərəfindən qoyulmuş məhdudiyyətlər çərçivəsini aşaraq daha geniş miqyaslı xidmətlə məşğul olurdu. Qreku kommunistlərin rəqabət aparan təşkilatlara gizlicə daxil olmaq taktikasını mənimsəməyi Sabinaya öyrətdi. Bu vaxta qədər kommunistlər kilsələrdə və seminariyalarda insanların arasına xəlvəti girib məlumat toplayırdılar. İndi isə bu işi kilsə etməli idi.

Bir dəfə pastor Qreku Sabinaya izah etdi:

— Məsih məbədi «quldur yuvası» adlandırmışdı (Matta 21:13). Amma Onun ölümündən və dirilməsindən sonra həvarilər bilə-bilə orada xidmət etmişdilər. Qəribə vəziyyətlər qeyri-adi addım tələb edir.

Amma buna baxmayaraq, Sabina tərəddüd edirdi.

— Bacı-qardaşlarımızdan çoxu vicdan əzabı çəkəcək. Kommunist partiyasının üzvü olsalar, məsihçilər üçün səhv olan hərəkətləri etməyə məcbur olacaqlar. İmanlı insanlar mütləq tanınacaqlar və bir ay içərisində kənarlaşdırılacaqlar.

Pastor başını yırğaladı:

— Onlardan bəziləri yaxşı aktyorluq edəcəklər. Cavanlar üçün bu, daha asan olacaq. Onlar üçün komsomola, oradan milisə, sonra

dövlət təhlükəsizlik xidmətinə, oradan da partiyaya daxil olmaq çətin olmayacaq.

Sabina pastorun sözlərinin hikmətli olduğunu başa düşdü və fikrini etibarlı kilsə üzvləri ilə bölüşdü. O, əqlən hər bir könüllü məsihçini iki kateqoriyaya böldü. Onlardan çoxu kəşfiyyatçı rolunu oynaya bilməyəcəkdi. Əslində hiylə çox böyük, tapşırıq isə həddən artıq çətin idi.

Sabina bu işi etibar edə biləcək və kommunist sisteminə girməyə cürət edəcək çox az sayda adam seçdi. Onlara həvalə olunan tapşırıq onların azadlığı, hətta həyatı bahasına başa gələ bilərdi. Əgər bu məsihçilər tapşırığı icra etməyi boyunlarına götürürlərsə, onda onlar düşmən tərəfin lap dərinliyinə girməli idilər. Orada artıq gizli kilsə onları müdafiə edə bilməyəcəkdi. Burada satqınlığa qəti yol verilə bilməzdi, çünki bu oyunda ortalığa fiqurlar deyil, insan həyatları qoyulurdu. Sabinanın məxfi planından kilsənin yalnız yüz üzvündən biri xəbərdar idi.

Bir axşam Sabina öz evində Qreku ilə söhbət edərkən pastor onun fikrinə şübhə ilə yanaşdığını bildirdi. O düşünürdü ki, valideynlər öz uşaqlarının belə təhlükəli tapşırığı icra etməsinə razılıq verməzlər. Sabina ona cavab verdi:

— Mən məktəbdə oxuyanda Böyük Stefan adlı bir kral barədə bizə danışmışdılar. Döyüş meydanında yaralanandan sonra o öz qəsrinin darvazasına qədər gəlib çıxa bilmişdi. O, qapını döyəndə anası soruşmuşdu: «Kimdir?» Kral «Oğlun Stefandır!» — deyə cavab vermişdi. «Sən mənim oğlum ola bilməzsən. Mənim oğlum öz ordusunu döyüş meydanında qoyub qaçmaz. Mən səni tanımıram!»

Sabina çox analar tanıyırdı ki, Allahın Padşahlığına xidmət etmək üçün hətta öz övladlarını belə qurban verməyə hazır idilər.

Qreku dedi:

— Belə qadınlar həqiqətən hər şeylərini Allaha həsr etmiş insanlardır.

Sabina ona cavab verdi:

— Onların hansı hisslər keçirdiyini mən yaxşı başa düşürəm. Əgər kommunistlər mənə Riçardın həbsxanada öldüyünü sübut etsəydilər, mən nəinki kədərlənərdim, əksinə, böyük qürur duyardım. Əgər hansısa bir ana vətən uğrunda canından keçmiş oğlunun ölümü ilə fəxr edirsə, onda görün, İsa Məsih uğrunda şəhid olan oğlu üçün necə fəxr edər!

Bu cəsarətli sözlər Qrekunu çox ruhlandırdı və o bildirdi:

— Əslində ölmək asandır, amma əzabların başqa növləri də var.

Canetta da söhbətə qoşuldu:

— Hə, əzabların növü çoxdur. Öz heysiyyətini qurban vermək azadlığı, hətta deyərdim ki, həyatı qurban verməkdən daha çətindir.

Pastor getmək üçün ayağa qalxdı. O, iki cəsur qadına bir daha nəzər salaraq dedi:

— Düşünürəm ki, insanın imanı uğrunda əzab çəkmədiyi bir dünyada yaşamaq necə də qəribə olardı!

# 48

Bir gün Mariettanın on səkkiz yaşlı dostu Trudi Sabinaya baş çəkdi. O, sakit təbiətli, ağıllı və gözəl bir qız idi. Onun gur qara saçları və ətrafdakıların diqqətini cəlb edən cazibədar qəhvəyi gözləri var idi.

Sabina sözə başladı.

— Həbsxanada bizi döyməzdən əvvəl mühafizəçilər deyərdilər ki, siz şəhid olmaq istəyirdiniz, indi isə nə qədər istəyirsinizsə, əzab çəkin! Biz həqiqətən də əzab çəkirdik. Amma ən çətin anlarda belə, ürəyimiz sevinclə dolurdu. Çünki bilirdik ki, ilk məsihçilər kimi İsaya görə əzab çəkirik.

Trudi çox diqqətlə ona qulaq asırdı.

— İndi biz böyük addımlar ata bilərik və sən Trudi, bizə bu işdə kömək edə bilərsən.

Trudi Allah uğrunda öz həyatını təhlükəyə atmaqdan qorxmurdu. Onun gözəl qədd-qaməti və sağlam bədəni var idi. Qızın davranışları Sabinanı bir daha əmin edirdi ki, o, iradəsi asanlıqla qırılan adamlardan deyil. Ailənin böyük qızı olmaqla neçə illər idi ki, tez-tez xəstələnən bacı-qardaşlarının qayğısına qalır, cəsarətli, həm də şəfqətli olması ilə tanınırdı.

Sabina Trudiyə başa saldı ki, gizli kilsəyə komsomola daxil olacaq qızlar lazımdır.

— Gözəl imkan ələ düşüb, gərək ondan istifadə edəsən.

Qızın gözləri maraqdan parlayırdı.

— Təhlükəsizlik xidmətində çalışan polkovnik Şirkanu serjantından xahiş edib ki, ev işlərində ailəsinə kömək edəcək bir

qız tapsın. Onların şəhərin sanballı məhəllələrindən birində böyük evləri var. Onun arvadı israfçı və bir az dəlisov qadındır, amma mehribandır. Əgər sən həmin işə məşğulluq idarəsi vasitəsilə düzəlsən, onda bizə kömək edəcək çoxlu faydalı məlumat əldə edə bilərsən.

Trudi heç nə demədi, lakin böyük maraqla Sabinanı dinlədi.

Sabina sözünə davam etdi:

— Onlar heç nədən şübhələnməyəcəklər. Serjant arvadından xahiş edib ki, rəfiqələrindən soruşsun. Həmin rəfiqələrdən biri bizim toplantıya gəlir, bizə də o xəbər verib. Onun məsihçi olduğunu heç kim bilmir.

— Bəs mən nə iş görməliyəm?

— Əvvəlcə heç nə. İşə düzələndən sonra bir müddət ailəyə öyrəşmək lazımdır. Evdə hamı ilə yaxından tanış olacaqsan. Mən müşahidə etmişəm ki, insanlar öz problemləri barədə danışmağı xoşlayırlar. Yadındadır, dünən yaşlı qadın Tomaziu damarlarındakı varikoz genişlənməni bizə göstərdi?

Trudi bir dəqiqə Sabinanın sözləri barədə düşünüb sonra cəsarətlə qarşısına qoyulmuş tapşırığı yerinə yetirməyi üzərinə götürdü.

*****

Qız polkovnik Şirkanunun evində işə qəbul edildi. O, artıq neçə ay idi ki, bu evdə çalışırdı. Sabina onun təhlükəsizliyi barədə narahat olmağa başlamışdı. Tezliklə Trudi Landauer müəllimə vasitəsilə Sabinaya təcili bir məlumat göndərdi.

Trudi Şirkanunun telefonda danışarkən bir pastorun adını çəkdiyini eşitmişdi. Həmin pastor polkovnikə xəbər çatdıran adam idi və o, toplantılara tez-tez gəlirdi.

*«Görəsən, o, doğrudanmı bizi satıb?»* Sabina özü-özünə düşünməyə başladı.

Bir müddət keçəndən sonra həmin pastor Sabinanın yanına gəlib dedi ki, onu uzun müddətli həbs cəzası ilə hədələyiblər və

səhhəti pisləşdiyi üçün o, Şirkanu ilə əməkdaşlıq etməyə razılıq verib. Pastor utandırılmış halda Buxaresti tərk etdi və bir daha oraya qayıtmadı.

Bundan sonra Trudi daha bir xəbər verə bilən adamın adını açıqladı. Bu, tələbə qız idi. Sabina ondan bu barədə soruşanda o, əvvəlcə hər şeyi inkar etdi. Sonra Sabina əlini onun çiyninə qoyub dedi:

— Xahiş edirəm, bizə həqiqəti söylə. Bizə yaxşı məlumdur ki, onlar insanlara hansı təzyiqləri göstərirlər. Bir çoxu bizə könüllü olaraq dedi ki, xəbər vermək üçün onları məcbur edirlər. Sən öz dostlarına, bizə nə baş verdiyini danışmalısan.

Tələbə qız dözməyib diz çökdü, ağlaya-ağlaya danışmağa başladı:

— Bir gün küçə ilə gedirdim. Qəflətən yanımda bir maşın dayandı və içəridən iki kişi mənə dedi ki, milisdirlər, maşına oturum. Onlar məni heç yerə aparmadılar, amma maşını bir neçə saat ora-bura sürdülər. Mənə dedilər ki, hər gün sizin evinizdə və kilsənizdə danışılanları, baş verənləri onlara çatdırmalıyam. Əgər etiraz etsəm, ailəmin başına pis hadisələr gələcək.

Qız and içdi ki, gizli kilsəyə zərər vuracaq heç bir məlumat verməyib, lakin Sabina buna şübhə ilə yanaşdı.

Trudi yenə də vaxtlı-vaxtında dəyərli məlumatlar ötürməkdə davam edirdi. Amma onun ən əlamətdar hərəkəti polkovnikin evini onun təqib etdiyi imanlıların gizli sığınacağına çevirməsi olmuşdu.

Trudi Sabinaya xəbər çatdırdı ki, Şirkanu öz işində irəliyə çəkilib və indi bu yeni vəzifənin imtiyazlarından zövq almağa başlayıb. Belə ki, o, arvadını və uşaqlarını tez-tez dağa və ya dənizə istirahətə aparır. Bu müddət ərzində isə evi Trudiyə tapşırırdı. Xanım Şirkanu qızı «kiçik xəzinəsi» adlandırırdı.

«Niyə Şirkanunun evində görüş keçirməyək ki? — deyə bir dəfə Trudi Sabinaya yazdı, — onlar uzaqdadırlar və bir neçə gün evdə olmayacaqlar. Ev çox böyükdür, bir neçə çıxış qapısı var. Heç kim şübhələnən deyil».

# Fəsil 48

Sabina Trudinin təklifini bəyəndi. Doğrudan da, kimin ağlına gələ bilər ki, məsihçilər onlarla mübarizə aparan insanın evində toplaşarlar?

Təyin etdikləri günün axşamı Sabina və gizli kilsənin altı rəhbəri həyəcanla tək-tək polkovnikin evinə yaxınlaşdı. Trudi ev yiyəsi kimi qonaqları qarşıladı. Gizli kilsənin rəhbərləri belə dəbdəbəli şəraitə öyrəşməmişdilər. Ancaq bu, onların görüşdükləri qaranlıq rütubətli zirzəmilərdən fərqli olaraq arzuolunan bir dəyişiklik idi.

Hər dəfə Şirkanu istirahətə gedəndə Trudi kilsənin düşməninin evində Buxarestdə ən çox adamın toplaşdığı ibadəti təşkil edirdi.

# 49

Sabina Riçardın 1938-ci ildə ona bağışladığı Müqəddəs Kitabı çox əziz tuturdu. Məhz həmin ildə Sabina ürəyini Məsihə vermişdi. Kitabda hər iki səhifədən bir qeyd üçün boş səhifə vardı. Sabina neçə illər ərzində orada öz düşüncələrini, şərhlərini və ruhani açıqlamalarını yazırdı. Bu, bir növ onun ruhani həyatının əsas məqamlarını əks etdirən gündəlik idi. Qeydlərin çoxu şifrələnmişdi ki, Müqəddəs Kitab müsadirə olunduğu halda, hökumət nümayəndələri onları oxuya bilməsin.

Məsihçilərlə görüşəndə Sabinaya həbsxana və düşərgələrlə bağlı suallar verilirdi. İlk vaxtlar acı xatirələri yada salmaq çox ağrılı idi. Amma sonralar Mihay anasına kömək etdi ki, yaşadığı o çətin vaxtlara başqa gözlə baxsın və onlar barədə danışmağa başlasın. O, oğluna necə döyüldüyünü, Dunay çayına itələndiyini, ağır daşları daşımağa məcbur edildiyini, sağ qalmaq üçün ot və ilan yediyini danışmışdı.

«Sən bütün bunlara necə dözüb Məsihdən üz döndərməmisən?» — deyə bir dəfə Mihay ondan soruşmuşdu.

Sabina ona cavab verərək demişdi ki, ibrani dilində gələcəkdə olan bəzi hadisələr bitmiş zaman formasında yazılır, hərəkətin artıq bitdiyini və keçmişdə tamamlandığını bildirir. Yeşaya 53-cü fəsildə Məsihin gəlişi və əzabları bu yolla təsvir olunub. Peyğəmbərlik sözləri Məsihin gəlişindən səkkiz yüz il əvvəl yazılsa da, hadisələr barədə gələcəkdə deyil, sanki keçmişdə baş vermiş kimi danışılır. İsa camaat qarşısında Özünün ağır əzabları barədə oxuyanda, O, sözsüz ki, felin hansı zaman formasında olduğuna diqqət yetirmişdi. O,

ibrani dilində bu hadisələri oxuyanda, onlar sanki artıq baş vermişdi. Əslində isə bütün bunlar bir müddətdən sonra Onun başına gələcəkdi.

«Mən özümü əzabların içində məhz belə hiss edirdim, — deyə Sabina o günləri yada saldı, — mən Müqəddəs Ruhun əbədi hüzurunda sevinirdim. Mən cənnətdə idim və heç kim məni oradan oğurlaya bilməzdi. Keçirdiyim iztirablar harada idi? Onlar keçmişə məxsus idi. Mən çox-çox əvvəllər əzab çəkmişdim, həmin vaxt əsl gerçəklik Rəbbə yaxınlıqdan duyduğum sevinc idi».

Bir dəfə Sabina öz Müqəddəs Kitabının səhifələrini vərəqləyəndə, bir vaxtlar Riçard barədə yazdığı qeydləri oxumağa başladı. O, sanki otağında ərinin dualarını və hüzurunu hiss edirdi. Sabina qarşısında ərinin hündür qamətini təsəvvür edir, öpüşünü duyur və onun ruhlandırıcı sözlərini eşidirdi. Sabina bütün həyatı boyu ona əziz olan Müqəddəs Kitabını qoruyub saxlayacaqdı. Bu, Allahın ona öyrətdiyi hər şeyin toplusunu əl ilə toxunaraq hiss etdiyi bir yadigar idi.

Müqəddəs Kitab gizli kilsə üçün nadir tapılan bir şey idi. Kilsənin üzvləri Sabinanın çardağına axışıb gəlirdilər ki, Allahın Kəlamına qulaq assınlar. Sabina çox tanındığına görə gizli toplantılara getmək daha da təhlükəli olmuşdu. O, küçəyə çıxanda nadir hallarda kiminsə onu güdmədiyini görərdi.

Amma Mihay anası kimi tanınmırdı, ona görə də asanlıqla gizli və açıq görüşlərə gedə bilirdi. Belə görüşlərin çoxu şənliklər kimi keçirilərdi. Otuza yaxın cavan adam kiminsə evində toplaşardı. Onlar içəri girəndə səs-küylə bir-birini salamlayardılar. Səsgücləndiricilər quraşdırılar, musiqi gur səslə ətrafa yayılar və bayırdan keçib-gedənlər gənclərin necə rəqs etdiyini görərdilər.

Bir müddətdən sonra rəqs bitər, gənclərdən biri Müjdə barədə danışardı. Sonra imana görə həbs edilmiş adamlar üçün dua edilərdi. Daha sonra qonşular üçün yenə gur musiqi səsləndirilər, ardınca ilahilər oxunardı.

Belə toplantılar ad günüləri, yubileylər və hətta pikniklər kimi keçirilərdi. Maqnitofonu istənilən yerə, hətta dua toplantısına

çevriləcək kənd ekskursiyalarına da aparmaq olardı. Toplantıya gedən yolda nəzarətçilər dayanardı ki, xəbərdarlıq edə bilsinlər.

Bütün detallar — yer, vaxt və şifrələr əvvəlcədən işlənib hazırlanardı. Bütün bunlar gərginlik yaradırdı. Cəsur yeniyetmələr toplantılara getməklə risk edirdilər. Onların bəziləri ailələrini axırıncı dəfə görəcəkdi. Hər bir himnin melodiyaları böyük əminliklə ifa olunurdu. Vəz edən hər kəs elə danışırdı ki, sanki bu, onun axırıncı vəzidir. İman sözləri həbsxana və ölümlə nəticələnə bilərdi, ona görə hər kəlmənin xüsusi gücü var idi.

# 50

Sabina azadlığa buraxıldıqdan bir neçə ay sonra Xarici İşlər Nazirliyindən bir məmur onun qaldığı çardağa gəldi. O, gur səsli, başının kənarlarında azacıq qara saçları olan kök bir kişi idi. Əlində ağzına qədər kağızlarla dolu sanki bu dəqiqə partlayacaq bir portfel tutmuşdu.

Kişi soruşdu:

— Sən anasan?

Sabina cavab verdi:

— Bəli!

— Sən necə anasan ki, uşağının gələcəyi ilə maraqlanmırsan? Məgər istəməzsən, o, yaxşı təhsil alıb yüksək maaşlı bir işə düzəlsin?

Əlbəttə, Sabina bunu çox istəyirdi.

Kişi sual verdi:

— Onda nə üçün soyadını dəyişmirsən? Sən özünə necə ana deyə bilərsən?!

O, bir neçə dəqiqə ağızdolusu danışdı. Bu vaxt ərzində Sabina oturub səssiz-səmirsiz ona baxırdı. Qadın nə qədər az danışsa, kişi bir o qədər tez gəlişinin səbəbini izah edər.

Kişi dil boğaza qoymurdu:

— Əksinqilabçı ərə bağlı olmağın nə faydası var? Onsuz da onu bir daha görən deyilsən.

Sabina kişinin sözünü kəsməməyə çalışdı və məmura imkan verdi ki, fikrini tamamlasın. O dedi ki, Sabina kimi cavan, ağıllı

qadının xalq düşmənindən boşanması yaxşı olardı. Əgər indi boşanmaq istəməsə, gələcəkdə, yəqin ki, boşanmalı olacaq.

O, qışqır-bağıra keçdi:

— Kor-koranə ağılsızcasına inadkarlıq etməklə daha nə qədər dövlətə qarşı gedəcəksən? Sənə başqa ər, uşağına isə başqa ata lazımdır!

Sabina qışqırıb ona «Nə cürətlə mənim evimdə mənə bu sözləri deyirsən?» demək istəyirdi. Amma səbir edib susmaq belə məqamda ən yaxşı müdafiə mexanizmi idi.

Sabina sakit tərzdə ona cavab verdi:

— Mən ərimlə yalnız xoş günlərdə yaşamaq üçün evlənməmişəm. Biz əbədi olaraq birləşmişik və hər nə baş verirsə versin, mən ondan ayrılan deyiləm!

Kişi daha yarım saat danışıb onu dilə tutmağa çalışdı, amma Sabina heç bir cavab vermədi. Nəhayət, o, söhbətini bitirdi, narazı halda başını tərpədə-tərpədə pilləkənlərlə aşağı düşəndə dedi:

— Gec-tez sən bizim yanımıza gələcəksən. Yadda saxla, bütün qadınlar belə edir!

Kişi düz deyirdi. Sabina təzyiq altında ərindən boşanan çox qadın tanıyırdı. Kommunistlər böyük səy göstərirdilər ki, məhbusların arvadları ərlərindən boşansınlar. Bunu məhbusun iradəsini qırıb müqavimət göstərməməsi üçün edirdilər. Boşanma xəbəri məhbusun olan-qalan müqavimətini də qırırdı. Arvadlarının boşanma xəbərini eşidən dustaqlar satqınlıq etməyə və məlumat verməyə başlayırdılar. Bu da öz növbəsində yeni həbslərə yol açırdı.

Boşanma həm də məsihçi həyat yoldaşlarını kommunist həyat tərzini qəbul etməyə vadar edirdi. Belə qadınları yolundan azdırmaq asan olurdu. Çox qadın ərindən, bəziləri hətta uşaqlarından belə üz döndərirdi.

Boşanmaq üçün qadından yalnız *razılıq* almaq kifayət idi. Qalan işləri artıq məmurlar yerinə yetirirdilər. Boşanma prosesi ilə onlar məşğul olurdular və dağılmış ailəyə müavinətlər təyin edirdilər. Bir

neçə gündən sonra qadının həbsxanada olan ərinə xəbər verilirdi: «Arvadın səndən boşandı!»

*«Daha mən kimə lazımam?* — deyə məhbus düşünməyə başlayırdı, — *azadlığa çıxmaq üçün məndən istədiklərinə qol çəkməmək axmaqlıq olar!»*

Lakin ər könüllü olaraq etiraf edib qol çəksə də, onu neçə illər ərzində azadlığa buraxmırdılar. O vaxta qədər arvadları kommunist kişi ilə evlənib onlardan uşaqlar dünyaya gətirirdi və beləcə övladlarını kommunizm ideyaları ilə böyüdürdülər. Sabina bu yolla dağılmış çox sayda məsihçi ailəsi tanıyırdı.

Sabina həbsxanada olanda tez-tez qadınlardan bu sözləri eşidərdi: «Hər boş şeyin üstündə ərimlə mübahisə edəndə necə də ağılsız olmuşam. Buradan nə vaxtsa çıxsam, ərimi çox sevəcəyəm, onun xətrinə dəyməyəcəyəm!»

Amma azadlığa çıxandan sonra dediklərinin tamam əksini edirdilər. *«Nəyə görə ondan boşanmayım? Ola bilsin ki, ərim bütün ömrünü həbsdə keçirəcək! Bəs uşaqlarımı ərzaq talonları olmadan necə böyüdüm? İşə necə düzəlim?»*

Beləcə boşanmağın onlar üçün yaxşı seçim olduğuna özlərini inandırırdılar. Amma Sabina artıq bir dəfə «bəli» demişdi və bundan sonra heç vaxt bu sözü başqa kişiyə deməyəcəkdi.

*****

Sabinanın qırx üç yaşı var idi. O, ataya böyük ehtiyacı olan yeniyetmə oğlu ilə tək yaşayırdı. Sabinanın səhhəti olduqca yaxşılaşmışdı və bir vaxtlar güzgüdə gördüyü gözəlliyi yenidən bərpa olmuşdu. Artıq neçə illər idi ki, Riçarddan bir xəbər yox idi. *«Görəsən, sağdır, yoxsa ölüb?»* İllər ildırım sürəti ilə bir-birini əvəz edirdi və Sabina onu şirnikləndirən fikirlər qarşısında özünü aciz hiss edirdi.

Onun bu zəifliyi yaraşıqlı, biçimli qədd-qaməti olan Paul adlı subay oğlanla əlaqəli idi. O, qırx yaşlarında olan yəhudi məsihçi

idi və yaşlı valideynləri ilə bir otaqda qalırdı. Paul mehriban və yumşaq xasiyyətli insan olduğundan Sabinanın üzünü güldürə bilirdi. O, Riçard kimi idi. Mihay da Paulla yaxşı yola gedirdi. Paul hərdən onu kinoya aparır və ev tapşırıqlarında ona kömək edirdi.

*«Budur, qadının sevib etibar edə biləcəyi bir insan qarşısındadır»* Sabina öz-özlüyündə düşünürdü. O, bu fikirlərlə mübarizə aparmağa çalışsa da, Paul onun əlindən tutanda əlini geri çəkə bilmirdi. Onun ürəyində Paula qarşı istək yaranmış, keçmiş həyatındakı intim münasibətlərə olan meyli yenidən baş qaldırmışdı.

Xoşbəxtlikdən Pastor Qreku Sabina ilə baş verənləri hiss etmişdi. Bir gün pastor onunla danışmaq istədi.

— Səni nə qədər sevdiyimi və dəyərləndirdiyimi yaxşı bilirsən. Nə olursa olsun, sənə olan münasibətim dəyişməyəcək.

Pastor ona məxsus olmayan bir emosiya ilə danışırdı.

— Mən neçə ildir ki, Riçardla səni tanıyıram. Əminəm bunu da bilirsən ki, günah etsən də, etməsən də, imanda qalsan da, qalmasan da mən sənə əvvəlki kimi qayğı göstərəcəyəm. Çünki mən sənin nə etdiyini deyil, kim olduğunu bilirəm.

Sabina Qrekunun söhbəti hara yönəltdiyini yaxşı başa düşürdü.

— Bağışla ki, sənə belə sual verirəm, amma bilmək istəyirəm, səninlə Paul arasında nə baş verir?

Sabina susurdu. O, sözünə davam etdi:

— Düşünmə ki, mən belə sınaqlarla üzləşməmişəm. Xahiş edirəm, sualıma cavab ver.

— Onun məndən xoşu gəlir.

— Bəs sənin necə, ondan xoşun gəlirmi?

— Bilmirəm. Bəlkə də.

Sabina utandığından üzünün necə qızardığını hiss etdi.

Pastor bir müddət susandan sonra dedi:

— Yadımdadır, Riçard belə deyərdi: «Heç bir ehtiras ağlın maneəsinə qalib gələ bilməz». Yaxşı-yaxşı düşün, onda görərsən ki, ərinə və Mihaya necə böyük zərbə vurmuş olarsan.

Sabina ərinin bu sözlərini yaxşı xatırlayırdı.

Qreku fikrini bu sözlərlə tamamladı:

— İstəyirəm ki, sən hər şeydən çətin olan bir qərar verəsən və onunla bir daha görüşməyəsən.

Sabina bilirdi ki, pastor doğru deyir. O, bir neçə həftə Paulla görüşməkdən yayındı. Axırda Paul özü onunla görüşməkdən vaz keçdi. Sonra Sabina öyrəndi ki, pastor Qreku Paulla da danışıb, ona Riçardın həbsxanada necə əziyyət çəkdiyini xatırladıb. Sabina öz otağında diz çöküb zəifliyinə görə Allahın qarşısında tövbə etdi.

Riçardın həbsdə olduğu on dörd il ərzində Sabinanı günaha sürükləyən başqa hallar da oldu. Qadın bunları həyatda yaşaya-yaşaya həmin vaxtlarda Riçardın hansı sınaqlarla üzləşdiyini yaxşı başa düşürdü. Əxlaqsız keçmişi onu əvvəlki həyat tərzinə qayıtmağa səsləyəndə, Sabina ona vurulan kişilərin nəvazişi qarşısında az qalırdı ki, təslim olsun.

Amma o, Riçarda «bəli» demişdi və verdiyi bu sözə ölənədək sadiq qalacaqdı. Başqa kişilərə «yox» demək üçün Allaha sığınacaqdı.

# 51

1955-ci ilin iyun ayında Riçarda məlum oldu ki, onu başqa həbsxanaya köçürəcəklər. Dörd nömrəli kamera onun həyatını əlindən ala bilmədi, onun çarpayısı isə vərəmdən ölən başqa məhbuslara lazım idi.

«Biz artıq sənin üçün heç nə edə bilmərik, — həkim Aldea ona dedi, — özünüzü qoruyun. Əgər nə vaxtsa əlinizə streptomisin düşsə, heç kimə verməyin!»

Riçard gözü yaşlı professor Poppla sağollaşdı.

«Biz yenə görüşəcəyik, — deyə Riçard ona söz verdi, — mən buna əminəm».

Mühafizəçi Riçardın adını çağıranda onu küçəyə çıxardılar. O, bayırdakı məhbuslara — başları qırxılmış yamaqlı geyimləri olan qəribə bir qrupa qoşuldu. Qrupdakı adamlar güclə addımlayırdılar. Onlar bütün var gücləri ilə sıraya düzülmək əmrinə tabe olmağa çalışırdılar. Sonra dəmirçi uzun zəncirlə bir-bir onların topuqlarını qandallamağa başladı.

Dəmirçinin arxasında həbsxana zabiti durmuşdu. Riçardın növbəsi çatanda o dedi:

— Ah, Vasili Qeorqesku! Yəqin ki, ayaqların buxovlandığı üçün sənin deməyə sözün olar.

Riçard cavab verdi:

— Bəli, leytenant, mən sizə mahnı ilə cavab verə bilərəm.

Zabit əllərini belinə qoyub gülümsündü:

— Əlbəttə, buyurub oxuya bilərsən. Biz hamımız mahnıya qulaq asmaq istəyirik.

Riçard ucadan Rumıniyanın himninin ilk sətirlərini oxudu:

— Qırılmış zəncirlər artıq geridə qaldı...

Riçardın cəsarətini görən digər məhbuslar leytenantın nə edəcəyinə diqqətlə baxırdılar.

Dəmirçi zəncirlərini vurub qurtarandan sonra Riçard zabitə dedi:

— Siz kommunistlər iddia edirsiniz ki, qırılmış zəncirlər artıq geridə qaldı. Amma bu sistem başqa sistemlərdən daha çox insanı qandallayıb. Rumıniyanın tarixində heç vaxt bu qədər insan zəncirlərdə olmayıb.

Zabit cavab verənədək məhbusları aparan maşın gəlib çıxdı. Sonra Riçard və başqa məhbusları qatara mindirdilər. Lakin qatar yola düşməzdən əvvəl onlar bir neçə saat gözləməli oldular.

Soyuq bahar küləyi vaqonun pəncərələrindəki deşiklərdən içəri doldu. Riçard 320 kilometrlik yol boyunca böyük həvəslə meşələrə və dağlara baxırdı. İki gün yol gedən məhbuslar arasında müxtəlif şayiələr yayılmağa başladı. «Bizi hara aparırlar?» — deyə onlar bir-birilərindən soruşurdular.

Pislikdə ad qazanan Krayova həbsxanası pəncərədən görünəndə hər şey aydın oldu. Qatar dayandı, vaqonların qapıları taybatay açıldı və məhbusları aşağı düşürdülər. Mühafizəçilər onların zəncirlərini açıb kiçik qruplarla içəri saldılar. Həbsxana divarlarının arxasından kameralardan səslər eşidilirdi: «Burada yer yoxdur! Biz onsuz da havasızlıqdan boğuluruq!»

Mühafizəçi Riçardı zəif işıqlanmış bir kameraya itələyib saldı. Qapı arxadan çırpılanda Riçardırn ayağı yerdə yarıçılpaq uzanmış məhbusa ilişdi. Onun gözləri bu toranlığa öyrəşəndə, on ikiyə yaxın üfunətli skelet gördü. Onlardan bəziləri sıra ilə düzülmüş iki mərtəbəli çarpayılarda uzanmışdı. Digərləri isə divara söykənərək yerdə oturub güclə nəfəs alırdılar. Bu dəhşətli üfunətdən Riçard az qalırdı ki, huşunu itirsin. O, ancaq pastor olduğunu deyə bildi.

Riçard bu dəhşətli kamerada iki aya yaxın qalası oldu. Mühafizəçilər ona yalnız ifrazatla dolu ayaqyolu vedrəsini yaxınlıqdakı meşəyə, kanalizasiya çuxuruna aparması üçün bayıra

çıxmağa icazə verirdilər. O öz çarpayısını müsəlman Nəssim ilə bölüşürdü. Nəssim onun 1945-ci ildə keçirilən konqresdə etdiyi çıxışı eşitmişdi.

Nəssim ona dedi:

— Yaxşı ki, səsini qaranlıqda tanıdım, yoxsa səni tanımazdım.

Nəssim Riçardla dostlaşdı. Onlar gecələri boğanaq otaqda din və siyasət haqqında müzakirələr etməklə keçirirdilər. Riçard məhbus yoldaşına onlara verilən şorbanın iylənmiş kələmdən hazırlanmasına baxmayaraq hamısını yeməsini məsləhət gördü.

Nəssim ondan soruşdu:

— Sən axı bunu necə yeyə bilirsən?

Riçard ağzını iyrənc şorba ilə doldurub udandan sonra dedi:

— Amerikada olan dostlarımın indi qızardılmış toyuq yeyib Allaha minnətdarlığını yadıma salır, mən də şorbanı yeyəndə şükür edirəm. Sonra İngiltərədə qovurulmuş dana əti yeyən dostlarımı xatırlayır, onlarla birgə sevinirəm və şorbadan bir qaşıq götürüb uduram. Başqa ölkələrdə yaşayan dostlarımı bir-bir yada salıb onlarla birgə şükür edirəm. Beləcə dostlarımın sayəsində sağ qalıram.

Nəssim kimi məhbuslar gəlib gedirdilər, amma üfunətli qoxu daim kamerada qalırdı. Bəzən yeməklər barədə müzakirələr bütün gecə davam edirdi.

Yeni gələn məhbus, hərbi ədliyyənin sabiq rəisi, general Kalesku öz keçmiş şirin xatirələrindən: zəfəran sousunda bişirilmiş balıqdan, tryufellərdən, Normandiya kərə yağında qızardılmış çörək dilimlərindən, ekzotik burqund və reynveyn şərablarından, cürbəcür şampanlardan, eləcə də dünyanın ən əla siqaretlərindən danışırdı. O, hər dəfə dəbdəbəli həyatındakı yeməkləri təsvir edəndə məhbusların ağzı sulanırdı.

Bir dəfə Kalesku Riçarddan soruşdu:

— Pastor, siz qızardılmış ördəyi xoşlayırsınız, elə deyilmi? Ya da hansısa bir kokteyli...

Riçard, həqiqətən də, qızardılmış ördəyi xoşlayırdı. Lakin onu sadə yeməklər — bananla doldurulmuş toyuq, kartof qızartması və

çiyələk mürəbbəsi də qane edərdi. Kamerada məhbuslar yeməklər barədə xatirələrini danışarkən mühafizəçi qapını açar, iylənmiş kələm şorbası ilə dolu çəlləyi içəri gətirərdi. Riçard həyatında heç vaxt belə iyrənc şorba yeməmişdi.

Bir dəfə istisna olaraq şorba əvəzinə başqa yemək gətirmələri məhbusları təəccübləndirmişdi. Mühafizəçilər həmin gün məhbuslar üçün bir qab soğan şorbası ilə yanaşı buğda bişmiş *əsl* ət, kartof püresi və təzə kök gətirmişdilər. Bundan əlavə, hər məhbusa iki bulka və bir zənbil alma da verildi. O gün məhbuslar sanki göyün yeddinci qatında idilər. Sonralar Riçarda məlum oldu ki, İngiltərə, Fransa və Amerikanın qadınlardan ibarət nümayəndə heyəti həbsxanalar üzrə ekskursiya keçirdiyinə görə məhbuslara belə yemək vermişdilər. Nümayəndələr öz ölkələrinə dönəndən sonra Krayova həbsxanasında məhbuslara necə yaxşı yemək verildiyindən ağızdolusu danışmışdılar.

*****

Riçard bilirdi ki, ya kommunizm sistemi Qərbi dağıdacaq, ya da əskinə, Qərb kommunizmi məhv edəcəkdi. Prezident Eyzenhauerin bu sözləri ona ümid gətirirdi: «Mən formamın axırıncı düyməsini bağlayan kimi Şərqi Avropadakı məhbuslar azad olunacaq!»

Bir sual daim Riçardı narahat edirdi: *«Görəsən, Qərbdə yaşayan məsihçilər həbsdə olan imanlı bacı-qardaşları üçün heç olmasa, dua edirlərmi?»* Riçard onların dua etdiklərini güman edirdi...

Bir axşam Riçard Nəssimə dedi:

— Əgər getdiyimiz qayığın bir tərəfində deşik açıb desəm ki, bu tərəf mənə aiddir, işimə qarışma, mənimlə razılaşarsanmı?

Nəssim başını yırğaladı.

Riçard dedi:

— Düzdür! Qayıqda öz tərəfimdə açdığım deşik axırda hamımızın batmasına səbəb olacaq!

Beləcə ümumdünya kilsə ilə eyni şeylər baş verdi. Həvari Paul 1 Korinflilərə 12:26-da dediyi kimi, «Əgər bir üzv əzab çəkirsə, başqaları da onunla birgə əzab çəkir. Üzvlərdən biri şərəfə çatırsa, başqaları da onunla birgə sevinir». Amma Riçard ümid edirdi ki, qərbdə olan pastorlar, müjdəçilər və məbədlər kommunizmin dəmir yumruğu altında əzilən müqəddəslər barədə xəbərdardırlar. Riçard deyirdi: «Mən Qərbdə yaşayanlara görə şadam, çünki onların rahat evləri, oxumaq üçün kitabları, dinləmək üçün musiqiləri, istirahət etmək üçün məzuniyyətləri, sevmək üçün ailələri və uşaqları var. Mən həm də Romalılara 15-ci fəslin 12-ci ayəsində deyilən «ağlayanlarla ağlayın» ayəsini xatırlayıram. Əminəm ki, Qərbdə yaşayan minlərlə imanlı bizim üçün dua edir».

*****

Krayova həbsxanasına gətiriləndən iki ay sonra Riçard başqa bir həbsxanaya köçürüldü. O, demək olar ki, Rumıniyadakı bütün həbsxanalarda oldu. Qatarla olan bu köçürmələr sanki sonsuz görünürdü. Vaqona düşən zəif şəfəqlər orada olan dəhşətli mənzərəni — iyirmi kiloqramlıq zəncirləri, skeletdən fərqlənməyən adamları, onların batmış ovurdlarını və qabarıq çənələrini işıqlandırırdı.

Hərdən qatara minən yenicə həbs olunmuş məhbusların qışqırığı Riçardı çox narahat edirdi. Lakin çox vaxt bunlar ona kabusu kimi gəlir və o, hansı həbsxanada olduğunu belə ayırd edə bilmirdi.

Qatar Poarta-Albaya çatanda Kalapod adlı bir cani Riçardın arxadan kürəyinə vurub bərkdən dedi:

— Demək, oğru və quldurları sevən müqəddəs budur?

— Cənab Kalapod, İsa ikinci gəlişi barədə danışanda Özünü oğru ilə müqayisə etməkdən çəkinmədi, — deyə Riçard cavab verdi (Matta 24:43–44).

Kalapod ağız-burnunu əydi. Riçard isə sözünə davam etdi:

— Evlərindən oğurluq etdiyin adamlar sənin nə vaxt gələcəyini bilmədikləri kimi, sənin də hazır olmadığın bir gecə İsa səni aparmaq üçün gələcək.

Qatar Sabinanın vaxtilə məcburi işlədiyi kanalın yaxınlığındakı əmək düşərgəsinin qalıqlarının yanından keçirdi. Riçard əmin idi ki, Sabina sağ-salamatdır və Buxarestdə haradasa yaşayır. Amma düz səkkiz il idi ki, o, həyat yoldaşını görmürdü. Bu səkkiz il ərzində elə bir gün olmamışdı ki, Riçard onun gözəl simasını gözü qarşısında canlandırmasın.

Poarta-Albada yerləşən primitiv daxmalara əlliyə yaxın məhbusu yerləşdirmişdilər. Onların ətrafı sahibsiz kazarmalarla və yabanı bitən bitkilərlə əhatə olunmuşdu. «*Yəqin ki, Sabina bunları görüb*» deyə Riçard öz-özünə fikirləşdi. Riçardın keçmiş, qəmgin xatirələrini onları başqa həbsxanaya köçürmək üçün qatarlara minməyə məcbur edən mühafizəçilər dağıtdılar.

Növbəti yer Transilvaniyanın dağlarında dərinlikdə yerləşən cəhənnəm çuxuru, qorxulu Qerla həbsxanası idi. Riçardın vəziyyəti vərəm xəstəliyindən günbəgün pisləşdiyinə görə onu «xəstəxana» adlanan bir kameraya yerləşdirdilər. Onun həkimi yenicə tibb məktəbini bitirən gənc arıq incə bir qadın olan Marina idi. Qerla həbsxanası onun ilk iş yeri idi. O, bu dəhşətli mənzərəni — bu qədər xəstənin ölməsini gözləmirdi. Marinanın məktəbi onu aclıq və qəddarlığın şahidi olacağına hazırlamamışdı.

O, Riçardı müayinə edəndən sonra dedi:

— Sizə yaxşı qidalanmaq və çoxlu təmiz hava lazımdır.

Riçard həkimin yanaqlarında göz yaşının axdığını görüb gülümsündü:

— Doktor Marina, məgər harada olduğumuzu bilmirsiniz?

Marina narahat halda cavab verdi:

— Mən tibb məktəbində belə öyrənmişəm.

Bir neçə gündən sonra Marina yüksək rütbəli zabitlərlə görüşüb onlara dedi:

— Yoldaşlar, bu adamlar ölümə məhkum olunmayıblar. Dövlət mənə, eləcə də sizə pul ödəyir ki, məhbuslar sağ qalsınlar. Sizdən bir xahişim var: öz vəzifə borcumu yerinə yetirmək üçün mənə şərait yaradasınız.

Zabitlərdən biri dedi:

— Deməli, sən cinayətkarların tərəfindəsən!

Marina zabitə cavab verdi:

— Sizin üçün onlar cinayətkarlar ola bilərlər, amma mənim üçün onlar sadəcə xəstələrdir.

Bir neçə ildən sonra işin ağırlığına tab gətirməyən cavan həkim revmatik qızdırmaya tutularaq öldü.

*****

1956-cı ildə nəzarətçilər Riçardı bir otağa gətirdilər. O, stolun arxasında dayanıb ona baş çəkən adamı gözlədi. O, bir neçə il əvvəl oğlu Mihay ilə belə bir otaqda Tirqul-Oknadakı həbsxanada görüşünü xatırladı. İsveçrənin Cenevrə şəhərində keçirilən beynəlxalq konfransda Rumıniya dövlətinə təzyiq edilmişdi ki, həbsxanada olan məhbuslara öz yaxın qohumları ilə görüşməyə icazə versin. Lakin bir çox məhbusun ona baş çəkəcək qohumları belə yox idi.

Riçard çox həyəcanlanırdı, həm də getdikcə sevinci artırdı. Birdən onun çöhrəsində böyük bir təbəssüm yarandı.

Sabina! Riçardın sağalması üçün dünyanın bütün dərmanlarındansa bircə Sabinanı görmək kifayət edərdi. Kiçik taxta stolun arxasında oturmuş cütlüyün söhbətinə iyirmiyə yaxın mühafizəçi nəzarət edirdi.

Sabinanı həbsxana həyatı yaşlandırsa da, yenə də gözəl görünürdü. Onun təbəssümünü Riçard hələ də yaxşı xatırlayırdı, indi Sabinanın təbəssümü daha da cazibədar olmuşdu. O, daxilən çox sakit görünürdü və əllərini bir-birinin üstünə qoyaraq oturmuşdu.

Riçard stolun kənarından tutaraq soruşdu:

— Evdə hər şey qaydasındadırmı?

Sabina cavab verdi:
— Bəli, hər şey qaydasındadır, şükür Allaha!
Mühafizəçi cəld Sabinaya irad tutdu:
— Burada, Allahın adını çəkməyə icazə yoxdur.
Riçard soruşdu:
— Anam necə, sağ-salamatdırmı?
Sabina başı ilə işarə edərək dedi:
— Allaha izzət olsun, o da sağ-salamatdır.
Mühafizəçi daha bərkdən qışqırdı:
— Sənə dedim axı Allahın adını burada işlətmək qadağandır!
Sabina soruşdu:
— Sağlamlığın necədir?
Riçard ona əziyyət verən öskürəyini gizlətməyə çalışdı:
— Məni həbsxananın xəstəxanasında saxlayırlar.
Komandir onun sözünü kəsərək dedi:
— Həbsxanada harada olduğunu deməyə icazə yoxdur!
Riçard sözünə davam etdi:
— Bəs məhkəmə işi necə oldu? Apelyasiyaya müraciət etməyə ümid varmı?
Mühafizəçi yenə müdaxilə etdi:
— Məhkəmə barədə də müzakirə etməyə icazə verilmir.
Saysız-hesabsız müdaxilələrdən sonra, nəhayət, Riçard dedi:
— Evə qayıt, Sabina, əzizim. Onsuz da bizə burada danışmağa imkan vermirlər.

Sabina gülümsədi və ayağa qalxıb mühafizəçilər Riçardı aparana kimi onun *arxasınca* baxdı. Riçard çiyninin üstündən dönüb bir daha həyat yoldaşına nəzər saldı ki, onun simasını mümkün qədər çox yadında saxlasın.

# 52

1956-cı ilin iyun ayında Riçardı Qerla həbsxanasından vaxtilə həbs olunduğu, Buxarestin yaxınlığında yerləşən Vakareştiyə köçürdülər. Riçardın vərəm xəstəliyi daha da ağırlaşmışdı. Gecələr onu soyuq tər və qanlı öskürək narahat edirdi. Çəkisini itirməsi və səkkiz il yarım azadlıqdan məhrum olduğu müddət ərzində aldığı yaralar onun səhhətinə pis təsir etmişdi. Riçarda olmazın əzablar vermişdilər. O, təpik və qamçı ilə döyülmüş, ac qalmış, amansız işgəncələr görmüşdü. Bütün bunlara rəğmən nə imanlı dostlarını, nə ailəsini, nə də öz Xilaskarını satmışdı.

Riçard Buxarest həbsxanasında imkan tapıb məhbuslara iki dəfə vəz etmişdi. «Dözmək, dözmək yenə də dözmək» — deyə onlara tapşırmışdı.

Bundan xəbər tutan mühafizəçilər onu yenidən sorğu-sual etməyə aparmışdılar: «Demək, sən burada məhbuslara öyrədirsən ki, amerikalılar gəlib onları azad edənə qədər dözsünlər. Sən onları inandırırsan ki, kommunizm ləğv olacaq! Bunlar hamısı əksinqilabi yalanlardır!»

Bu hadisədən bir həftə sonra mühafizəçi Riçardın kamerasına girib dedi:

— Dərhal istintaq olunmalısan! Tez ol, qalx ayağa, gedək! Maşın bizi gözləyir.

«*Maşın*?» Riçard tanış dəhlizlə keçib həbsxananın həyətinə çıxdı. Amma orada maşın yox idi. Həbsxana işçilərindən biri ona kağız vərəq verdi. Riçard kağızı əlinə alıb nəzərdən keçirəndə, az

qaldı ki, huşunu itirib yerə yıxılsın. Bu, Riçardın azad olunması barədə məhkəmə hökmü idi.

Riçard təəccübləndi:

— Mən burada yalnız səkkiz il yarım oldum, halbuki mənə iyirmi illik həbs cəzası verilmişdi.

— Siz buranı dərhal tərk etməlisiniz, çünki bu əmr ali məhkəmədən gəlib.

Riçard dilləndi:

— Axı mənim hələ on iki ilim qalıb.

Mühafizəçi əsəbiləşib dedi:

— Mənimlə mübahisə etmə! Çıx get buradan!

Riçard mühafizəçiyə əynindəki cırıq boz rəngli köynəyini və yamaqlı şalvarını göstərərək dedi:

— Siz bir mənim geyimimə baxın! Qarşıma çıxan ilk milis məni görən kimi həbs edəcək.

Mühafizəçi onun üstünə qışqırdı:

— Burada sənin üçün heç bir geyim yoxdur! Çıx get buradan deyirəm!

Dəmir qapılar Riçardın arxasınca çırpıldı. O, məhbus dostlarını qoyub getmək istəmirdi, amma artıq azad idi. «Ay Allah! — deyə Riçard bərkdən dua etdi, — mənə kömək et ki, azad olduğumdan daha çox həbsxanada mənimlə olduğuna görə sevinim».

Riçard yaşıl çəmənlik boyunca uzanan boş yolla gedirdi. Ətrafda inəklər otlayır, cücülərin vızıltı səsi eşidilirdi. Onlar, deyəsən, yanlarından keçən skeletə bənzər adamı heç görmürdü.

Beləcə Riçard yorğun halda hündür, yaşıl sıx otların və meşələrin içərisindən keçərək beş kilometr yol getdi. O, yolda dayanıb tikanlar arasında böyüyən çiçəkləri seyr etdi. *«Bu çiçəklər necə də xoşuma gəlir»*. Onun əynindəki çirkli köhnə paltarları tərli bədəninə yapışmışdı. Lakin Riçard cır-cındır geyiminə görə utanmırdı. Bu paltarlar ona əziz idi, çünki həbsxanada keçirdiyi illər ərzində Allahın lütfünün və təminatının şahidi olmuşdu.

Uzaqdan Riçardı görən yaşlı ər-arvad ona yaxınlaşdılar.
Kişi ondan soruşdu:
— Siz *oradan* gəlirsiniz?
Riçard başını tərpətdi və kişi ona bir az dəmir pul uzatdı.
Riçard dedi:
— Mənə ünvanınızı verin, sizə borcumu qaytara bilim.
— Xeyr, xeyr, heç nə qaytarmaq lazım deyil.
Riçard yoluna davam edərkən bir məsihçi qadın onu saxladı. O, qadına pastor olduğunu söylədi. Onlar yolun kənarında oturub Məsihin heyrətamiz işlərindən danışdılar. Sonra qadın əlini çibinə salıb bir neçə qəpik pul çıxardı, Riçarda uzadıb dedi:
— Bu, sizin tramvayla getməyiniz üçündür.
— Mənim artıq pulum var.
Qadın təkid etdi:
— Onda Allah xatirinə bu pulu götürün!
Riçard Buxarestə çatanda camaat hər tərəfdən onu dövrəyə aldı. Hər kəs ondan həbsxanada olan ailə üzvləri barədə xəbər alırdı. Tramvaya minəndə Riçard gediş haqqını ödəmək istədi, lakin sürücü pulu qəbul etmədi. O, tramvayın içində oturmağa yer axtaranda bir neçə sərnişin durub ona yer verdi. Riçardın gözü yanındakı qadının dizinin üstündə olan çiyələk dolu zənbilə sataşdı.
Qadın ondan soruşdu:
— Bu il heç çiyələk yemisinizmi?
Riçard ona cavab verdi:
— Mən düz səkkiz ildir ki, çiyələk yemirəm.
Qadın bir ovuc dadlı çiyələyi ona uzadıb dedi:
— Buyurun, götürün, yeyin!
Riçard yumşaq çiyələkləri bir-bir götürüb uşaq kimi yedi.
Sonra tramvay Riçardın evinə yaxınlaşdı. Bu vaxt o, çox həyəcanlandı. Riçard yaşadığı evin qapısına yaxınlaşdı. Qapı önündə durub arxadan mühafizəçilər tərəfindən itələnməmək ona qəribə gəlirdi. *«Görəsən, ailəm məni bu gündə görüb nə düşünəcək?»*

Riçard dərindən nəfəs alıb əlini qapının dəstəyinə uzatdı. O, səkkiz illik həbsxana həyatından sonra ilk dəfə qapını taybatay açdı.

«Ata!» — deyə Mihay qışqırdı. O, cəld atasının qucağına atıldı. Onun on yeddi yaşı vardı və indi o, atasından güclü idi. Atasını qucaqlayanda Mihay az qaldı ki, onu yerə yıxsın.

Tezliklə Sabina da onlara qoşuldu, qollarını ərinin boynuna doladı. Riçard Sabinanın onu necə qucaqladığını unutmuşdu. Həmin gün ailənin yenidən birlikdə olmasını qeyd etmək onlara hədsiz böyük sevinc gətirdi. Riçard dedi:

— Bir-birimizi öpməzdən əvvəl sizə bir şey demək istəyirəm.

Sabina Riçardı daha bərk qucaqladı.

— Elə düşünməyin ki, mən əzab-əziyyətdən xoşbəxtliyə gəlib düşmüşəm! Mən həbsxanada Məsihlə olduğum sevincdən, Onunla öz ailəmdə olmaq sevincinə qovuşmuşam. Mən yad adamların yanından doğmalarımın yanına deyil, həbsxanadakı doğmalarımın yanından evimdəki doğmalarımın yanına gəlmişəm.

*Sabina* bunları eşidəndə ağladı. Riçard isə onun zərif arıq üzünü ovucları arasında aldı.

— İndi məni öpə bilərsiniz! — deyə Riçard gülümsədi.

*****

Buxarestin hər yerindən məsihçilər Sabinaya zəng edirdilər ki, Riçardın qayıtmaq xəbərini özlərindən eşitsinlər. Tezliklə qonaqlar onların iki otaqlı kiçik çardaqlarına doluşdular. Riçard dükana gedəndə və ya küçədə yol gedərkən onu görənlər dayanıb kömək etmək istəyirdilər. Riçardla Sabina birlikdə şəhərdə gəzintiyə çıxıb, Allaha öz minnətdarlıqlarını bildirirdilər.

Riçardın həkimi inana bilmirdi ki, o, səkkiz il yarım ərzində lazımi tibbi yardım olmadan necə sağ qalıb. Ağ ciyərlərində olan çapıq izləri onun keçirdiyi vərəm xəstəliyinin əlaməti idi. Həkimlər xəstəxanada ona qalmaq üçün ən yaxşı çarpayını, pəncərələrinə günəş düşən otağı verdilər. Riçard rəhbərliyin diqqətini cəlb

etməmək üçün bir xəstəxanadan o birisinə keçirdi və onun səhhəti getdikcə yaxşılaşırdı.

Evliliklərinin iyirmi illiyini qeyd etmək üçün Sabinaya nəsə almağa Riçardın pulu yox idi. Ona görə də məhəbbət şeirini gözəl bir bloknota yazıb həyat yoldaşına hədiyyə etdi. Sabina ərinin bu hədiyyəsini böyük məmnuniyyətlə qəbul etdi. Onun üçün həyat yoldaşı ilə yenidən birlikdə olmaq kifayət idi.

Bir dəfə Mihay atasından soruşdu:

— Ata, sən o qədər çətinliklərdən keçmisən ki... Mən bilmək istərdim, sən bütün bu əziyyətlərdən nə öyrəndin?

Riçard qollarını oğlunun çiyinlərinə dolayıb dedi:

— Həbsdə olduğum müddət ərzində az qala Müqəddəs Kitabı unutmuşdum. Amma dörd həqiqət həmişə yadımda idi. Birincisi odur ki, Allah var. İkincisi, Məsih bizim Xilaskarımızdır. Üçüncüsü, əbədi həyat var. Dördüncüsü isə, məhəbbət hər şeydən üstündür.

— Ata, mən də elə bunları bilmək istəyirdim.

Valideynləri həbsxanada olanda tənhalıq və kədər Mihayın yol yoldaşı olmuşdu. O, var gücü ilə yaşamaq uğrunda mübarizə aparmışdı. O, on üç yaşı olanda, kanaldakı əmək düşərgəsinə — anasının yanına getmək üçün borca pul götürmüşdü. Mihay anasının çirkli paltarlarını, göz yaşları içində olan üzünü xatırlayaraq həmin görüş barədə Riçarda danışdı. Sabina dəmir barmaqlıqlar arasından oğluna ucadan demişdi:

— Mihay, bütün ürəyinlə İsaya iman et!

Mihay anasına cavab vermişdi:

— Ana, əgər sən belə bir vəziyyətdə Allaha inanırsansa, onda mən də inanmalıyam.

Riçardın həbsdən azad olmasından dörd ay sonra Mihay Hindistanda müjdəçi olmaq ümidi ilə Sibiuda yerləşən ruhani seminariyaya daxil oldu. O, günlərini kitabxanalarda keçirir, professorlardan öyrənir və «Xilas Ordusu»nun (*Salvation Army*) təsisçisi olan Vilyam But və Viktoriya dövrünün ən məşhur baptist vəzçisi olan Çarlz Spercen barədə kurs işi yazırdı.

## Fəsil 52

Riçard Sabinanın qonşudan müvəqqəti götürdüyü taxta çarpayıya başını qoyub uzandı. Sabina həyat yoldaşını öpüb üstünü təmiz yumşaq ədyalla örtdü ki, yatsın. Riçard çoxdan idi ki, sakitliyin və rahatlığın həsrətində idi. Amma nədənsə yuxusu həmişə qaçırdı.

Keçmiş məhbus gözünü tavandan çəkmirdi. Ağrısız yatmaq ona qəribə gəlirdi. Daha məhbusların qışqırtısını eşitmirdi. Nə iylənmiş kələm şorbası, nə müstəntiqlərin hədə-qorxusu, nə də işgəncələr vardı. Riçard özü istədiyi vaxt işığı yandırıb söndürə bilirdi. Bundan əlavə, tualet üçün otağın küncündə qoyulmuş vedrə əvəzinə indi o, müasir tualetdən istifadə edə bilirdi. Zirzəmidə soyuq təmiz su ilə əllərini yuya bilirdi.

Yuxusu qaçan Riçard Müqəddəs Kitabı açdı. Yəhyanın Müjdəsi həbsxanada ona dəstək idi. İndi isə o, yaddaşını Əhdi-Ətiqlə yeniləmək istəyirdi. Lakin təəssüf ki, o, kitabların hansı ardıcıllıqda olduğunu unutmuşdu. Danielin kitabını axtarıb tapmayanda, Yəhyanın üçüncü məktubunu açdı: «Mənim üçün övladlarımın həqiqətdə gəzməyindən böyük sevinc yoxdur» (3 Yəhya 1:4). Riçard ayağa qalxıb Mihayın otağına getdi. O, həbsxanada olarkən dəfələrlə bunu etmək istəmişdi. Nəhayət ki, arzusu gerçək olmuşdu. Mihay yanında idi.

*****

1956-cı ildə destalinizasiya ölkəyə yeni ümid gətirdi. Stalindən sonrakı rəhbər Nikita Xruşşov Kommunist Partiyasının XX qurultayında çıxış edərək Stalinin gördüyü işləri pislədi, Rumıniyada milis və təhlükəsizlik xidmətinin fəaliyyətini azaltdı. O, qərbdə olan bir çox ölkə ilə danışıqlar aparıb ticarət müqavilələri imzaladı və Riçard kimi yüzlərlə siyasi məhbusu azadlığa çıxardı. Lakin saxta imanlılar tərəfindən satılmaq qorxusu hələ də qalmaqda idi. Bu kimi xəyanətə qarşı ən yaxşı müdafiə etibarlı dostlardan ibarət şəbəkə idi.

Milis Riçardın vəz etmək hüququnu əlindən almışdı. Amma buna baxmayaraq, o, iki il yarıma yaxın gizli kilsələrdə öz işini davam etdirdi. Qanuni icazə olmadan belə xidmət etməyin nəticəsi çox acınacaqlı ola bilərdi. Əgər milis Riçardı tutsaydı, onu yenidən həbsxanaya atacaqdı.

Lakin Riçardı fikrindən döndərmək mümkün deyildi. Hökumətin ona icazə verib-verməməyindən asılı olmayaraq, o, Allah tərəfindən pastor olmağa çağırılmışdı. Riçard yenicə əldə etdiyi azadlığından sui-istifadə edir və hara getdiyini heç ailəsinə də demirdi. Əgər milis Mihayı, ya da Sabinanı tutsaydı, onların Riçard barədə gizlətməyə heç bir məlumatları olmayacaqdı.

Bütün qorxulara və təhlükələrə baxmayaraq, Riçard Sabinanın dəstəyi ilə fəaliyyətini davam etdirirdi. O, mərkəzdən kənarda — çardaqlarda, zirzəmilərdə və mənzillərdə gizlicə Allaha xidmət edirdi. İmanlılar Riçardın şəhadətini — cəsarətini, mərdliyini və dəyanətini dinləmək üçün gizli qruplarda yığışırdılar. Sözlərini sübut etmək üçün Riçard bədənindəki çapıqları onlara göstərir, gizli toplantıdakı imanlıları Allaha şükür edib Ona izzət gətirməyə çağırırdı. Qonşular şübhələnməsin deyə Riçard onlara ad gününü qeyd etdiklərini söyləyirdi. Üç və ya dörd üzvdən ibarət ailə bir il ərzində otuz beş dəfə «ad günü» şənliyi keçirmişdi.

İbadət toplantıları Riçarda Neronun, Diokletianın və başqa Roma imperatorlarının təqiblərindən əziyyət çəkən, yeraltı oyuqlarda və mağaralarda ibadət edən ilk məsihçiləri xatırladırdı. Təqiblər bütün konfessiyalardan olan məsihçiləri bir yerə toplamışdı. Düşmən onları biri-birindən ayıran xüsusiyyətlərdən daha güclü idi. Erkən imanlılar cəmiyyətinin ağsaqqalı Tertullianın dediyi kimi, məsihçi şəhidlərin qanı kilsələri yetişdirən toxum idisə, Rumıniya Roma kimi yeni məsihçilərin yetişməsi üçün bir bağ idi.

Gizli kilsə evlərdə yığışa bilmədiyindən Riçard ibadətləri Buxarestin kənarında, tarlalarda keçirməli olurdu. O, təmiz havada vəz etməyi xoşlayırdı. Səma sanki onlar üçün bir kilsəyə çevrilmişdi. Oxuyan quşların səsi orqanı, çiçəklərin qoxusu kilsə

buxurunu, göydəki ulduzlar isə kilsə şamlarını əvəz edirdi. Riçard vəz edib qurtarandan sonra dostlarının mühafizəsinə güvənərək, zəmidə bir kabus kimi gözdən itirdi. Hətta oğlu Mihay atasını zarafatca kabus vəzçi adlandırırdı.

# 53

Kommunizm dövründə Rumıniyada tələbələrə məsihçi müəlliflərin kitablarını oxumaq qadağan edilmişdi. Yunan filosoflarından Platonun, Aristotelin və İmmanuel Kantın əsərlərini, hətta Albert Eynşteynin ecazkar işləri barədə kitabları tapmaq isə mümkün deyildi. Əksər universitet tələbələri biliklərini artırmaq üçün Riçardın yanına məsləhət almağa gəlirdilər. Bir dəfə Kluj Universitetinin ilahiyyat fakültəsinin tələbəsi yazdığı dissertasiya işi barədə məsləhətləşmək üçün Riçarda müraciət etdi.

Riçard soruşdu:

— Mövzu nə barədədir?

Tələbə cavab verdi:

— Lüteran kilsələrində liturqik ilahilərin tarixi barədədir.

Lüteran Riçard yanına gələn ilahiyyatçı tələbəni yaxın gələcəkdə onu gözləyən təqiblərə kifayət qədər hazır olmadığına görə danladı.

Riçard sözünə davam etdi:

— Əgər cavan adamları sabah imanlarına görə ölüm gözləyirsə, onda onların başını tarixi araşdırmalarla doldurmaq lazım deyil.

— Bəs onda biz nə barədə öyrənməliyik?

— Siz əzablara, qurban getməyə və şəhidliyə hazır olmalısınız.

Riçard ona bədənindəki çapıqları göstərdi və həbsxanada olarkən yaşadığı dəhşətlərdən danışdı. Kommunist dövründə yaşayan pastorlar ölümə hazır olmalıdırlar. Liturgiyanın tarixi barədə olan ikinci dərəcəli suallara cavab verməzdən əvvəl, Riçard tələbənin diqqətini daha vacib olan məqamlara yönəltdi.

## Fəsil 53

Başqa bir ilahiyyatçı tələbə Riçarda belə dedi:

— Müəllimimiz deyib ki, Allah tərəfindən bizə üç vəhy verilib. Birinci vəhy Musa, ikincisi İsa Məsih, üçüncüsü isə Karl Marks vasitəsilə verilib.

Riçard bu barədə əvvəllər də eşitmişdi. Amma daha bu cəfəngiyatı eşitmək istəmirdi. O qərara gəldi ki, Kluj universitetinin qədim kilsəsində vəz etsin. Vurmbrandın gəlişi barədə xəbər tələbələr arasında böyük sürətlə yayıldı. Lakin Rumıniyada kommunistlər Riçardın yazılarının yayılmasını qadağan etmişdilər. Əgər kimsə bu qeyri-qanuni yazıları oxusaydı, həbs oluna bilərdi.

*****

Bir neçə il əvvəl Riçard məhbuslardan birinə söz vermişdi ki, dövlət tərəfindən təqib edilən və pravoslav təriqətindən olan «Rəbbin Ordusu»nun üzvlərini dəstəkləyəcək. O, bu məsələnin həlli üçün patriarx Yustinian Marina ilə görüşməyə qərar verdi. Düşünürdü ki, patriarx ona bu məsələdə kömək edəcək.

Marina çox ehtiyatla xüsusi görüş yeri seçmişdi. O, Riçardla ictimai yerdə görüşüb sonra onu mikrofonlardan uzaq və işçilərin qulaq asa bilməyəcəyi bir yerə, sarayındakı bağa apardı.

Riçard sözə başladı:

— Siz patriarxsınız, insanlar sizə vəzifəyə və məvacibə görə müraciət edirlər, getdiyiniz hər yerdə vəz etməli və ilahi oxumalı olursunuz. Mən də düşündüm ki, gərək sizin yanınıza gəlim və oxuyum.

Riçard Marinanın baxışlarından hiss etdi ki, o, bunu gözləmir.

Riçard ona bildirdi:

— Bu mahnı «Rəbbin Ordusu»nun mahnısıdır, mən onu həbsxanada olarkən öyrənmişəm.

Sonra mahnını oxudu.

Mahnını oxuyub qurtardıqdan sonra Riçard «Rəbbin Ordusu»nun üzvlərinin həbsdən azad olunması üçün Marinaya yalvardı:

— Axı onlar başqa məsihçi təriqətinə aid olduqlarına görə həbsxanada çürüməli deyillər.

Marina söz verdi ki, onları azad etməyə çalışacaq. Lakin Riçard ürəyində hiss edirdi ki, patriarx özü Allahdan uzaqlaşıb. Marina bildirdi ki, onun əlində məhbusları azad etmək imkanı yoxdur, çünki Yasi mitropoliti Yustina Moisesku onun hər işinə ciddi nəzarət edirdi. Əgər Marina vəzifəsindən azad olunsa, onun patriarx vəzifəsinə Yustina Moisesku təyin olunacaqdı. Bu isə kilsələr üçün yaxşı heç nə vəd etmirdi.

Sonralar Riçarda məlum oldu ki, onların bu söhbətinə Marinanın köməkçisi qulaq asıb və Moiseskuya çatdırıb.

«Demək, Vurmbrand sizinlə görüş təyin edib, hə? — Moisesku Marinaya demişdi, — yəqin ki, Riçardın həbsxanaya qayıtmaq vaxtı çatıb».

*****

Riçard tələbələr qarşısında çıxış etmək üçün Kluj universitetinə yollandı. Bu barədə xəbər tez bir zamanda hamıya yayıldı. Dərhal milisə Riçard barədə xəbərdarlıqlar gəldi ki, o, məsihçi fəlsəfəsindən mühazirə demək adı ilə Marksizmi ittiham edəcək və tələbələri üsyana təhrik edəcək. Riçard çıxış etməzdən öncə bir baptist pastor ona yaxınlaşdı və rəhbərliyə onun barəsində məlumat çatdırdığını bildirdi.

Amma bu xəbər Riçardı heç də təəccübləndirmədi, çünki o, belə satqınları çox görmüşdü. Kommunistlərin dövründə Rumıniyadakı məsihçi xidmətçilərini dörd kateqoriyaya ayırmaq olardı. Birinci kateqoriyaya işgəncələr qarşısında məsihçilərin adlarını və ünvanlarını verməyə məcbur olan xidmətçilər aid edilirdi. İkinci kateqoriyaya aid olan xidmətçilər həbsxanaya düşməməkdən ötrü hakimiyyətə passiv surətdə tabe olaraq imanlılar barədə məlumat verənlər idi. Üçüncü kateqoriyaya aid olan xidmətçilər Məsihin Bədəninə — imanlı cəmiyyətə ziyan vurmaqdan həzz alan və hakimiyyətlə əməkdaşlıq

etdiklərinə görə mükafat alanlar idi. Dördüncü kateqoriyaya aid xidmətçilər isə Riçard kimi həbsxanada dəhşətli işgəncələrə dözərək öz məsihçi dostları barədə məlumat verməyən, hətta dini fəaliyyət göstərmək səlahiyyətindən məhrum olanlar idi.

Riçardın çıxışı barədə xəbəri satqın baptist pastor Ruqojanu adlı fanatik bir agentə çatdırdı. O da dərhal bu imkandan istifadə etdi. O, Riçard kimi əksinqilabçıları axtarırdı və indi yığıncaqda Riçardın mühazirəsini dinləmək üçün ön cərgədə oturmuşdu.

Həmin gün mühazirədə əlliyə yaxın tələbə və bir neçə professor iştirak edirdi. Riçard əvvəlcə onların diqqətini Darvinin nəzəriyyəsindəki ziddiyyətə yönəltdi. Əgər Kommunist Rumıniyası qərbdən gələn bütün fikirləri inkar edirsə, bəs onda niyə Kluj universitetində hələ də ingilis tərəfindən kəşf olunan nəzəriyyələr öyrədilir?

Ruqojanu Riçarda diqqətlə qulaq asırdı.

«Əgər siz Allah tərəfindən yarandığınıza inanırsınızsa, onda siz Allaha bənzər olmağa çalışacaqsınız. Yox, əgər meymundan əmələ gəldiyinizə inanırsınızsa, onda sizin bir gün vəhşi heyvana çevrilmək təhlükəniz var!»

Riçardın bazar ertəsi və çərşənbə axşamı deyəcəyi mühazirəni dinləmək üçün tələbələrin sayı daha da artdı. Cümə günü isə Riçardı dinləmək üçün bütün universitet — minlərlə adam yığışmışdı. O bilirdi ki, dinləməyə gələnlərin bir çoxu onun imanını qəbul edir, lakin bunun nə ilə nəticələnəcəyindən qorxur. Riçard onlara faşistlər tərəfindən öldürülən bir pastor haqqında danışdı. Həmin pastor demişdi: «Sizi döyənlərin və ələ salanların əllərinə özünüzü təslim edəndə siz bədəninizi bir qurban kimi Allaha vermiş olursunuz. İsa çarmıxa çəkilməsinin yaxınlaşdığını biləndə belə demişdi: «Vaxtım yaxınlaşdı» (Matta 26:18). Çəkdiyimiz əzabları da biz Allahdan verilən bir imtiyaz kimi qiymətləndirməliyik».

Kilsədə elə bir sakitlik yarandı ki, milçək belə uçsaydı, səsi eşidilərdi. Riçard yığışan adamlara, xüsusilə də qeydlər yazmaqla məşğul olan Ruqojanuya nəzər saldı.

Riçard sözünə davam etdi:

— Əzablar sizi təəccübləndirməsin! Bu barədə düşünün. Məsihin və Onun müqəddəslərinin dəyərlərinə uyğun yaşayın.

Sonra Riçard erkən imanlılar cəmiyyətində Roma təqiblərindən əzab çəkən məsihçi rəhbər haqqında danışdı. Ağrıdan əzab çəkən həmin məsihçi ağrılara qarşı çox dəyərli bir əlac tapdığı barədə arvadına belə demişdi: «Mən bütün əzab və əziyyətlərə əlac olan bir çay kəşf etmişəm. Həmin çay yeddi növ bitkidən ibarətdir». Riçard üzünü zaldakılara tutub belə dedi:

— Mən onları sadalayacağam.

Riçard o yeddi bitkini sadalayanda zalda toplaşanlar ona daha diqqətlə qulaq asırdılar.

— Birinci bitki qane olmaq, nəyin varsa olanınla kifayətlənməkdir. Mən öz cırıq paltarlarımda soyuqdan əsib bir tikə çörək yeyirəm, amma imperator məni çılpaq halda zindana atsaydı və heç bir yeməyim olmasaydı, onda mənim üçün daha pis olardı. İkinci bitki sağlam düşüncədir. Sevinsəm də, narahat olsam da bunun mənası yoxdur. Onsuz da həbsxanaya düşəcəyəm. Onda niyə özümə əzab verim? Üçüncü bitki keçmiş günahları yada salmaqdır. Onları sayın və hər günahı bir gün həbsxana cəzası zənn edin. Beləcə həyatda dəmir barmaqlıqlar arxasında nə qədər vaxt keçirəcəyinizi hesablayın. Bir də canınızı belə rahatlıqla qurtardığınıza görə sevinin! Dördüncü bitki Məsihin bizim üçün sevinclə çəkdiyi əzabları düşünməkdir. Yer üzündə Öz taleyini seçmək imkanı olan yeganə İnsan əzabı seçdisə, yəqin ki, O, əzabda böyük dəyər görmüşdü. Ona görə də, gəlin sakitlik və sevinclə keçirilmiş əzabın bizə xilas gətirdiyi barədə düşünək. Beşinci bitki isə əzabların bizə zərər vermək üçün deyil, əksinə, bizi təmizləmək və müqəddəs etmək üçün verildiyini bilməyimizdir. Keçirdiyimiz əzablar bizi təmizləyib göylər üçün hazırlayır. Altıncı bitki heç bir əzabın məsihçi həyatına ziyan verməyəcəyini bilməkdir. Əgər insan üçün əsas yeyib içmək və bu həyatdan zövq almaqdırsa, onda həbs və əzablar ona son qoyacaq. Yox, əgər insan üçün həyatında

həqiqət əsas yeri tutursa, onda onu heç bir həbsxana kamerası dəyişə bilməz. Həbsxana sevməyimə mane ola bilməz. Dəmir barmaqlıqlar imanı sındıra bilməz. Əgər həyatım bu qayələrdən ibarətdirsə, onda mən harada olmağımdan asılı olmayaraq, hər yerdə sülhdə yaşaya bilərəm. Reseptdəki axırıncı bitki — ümiddir. Həyatın gərdişi çevrilə bilər. Padşahın ən yaxın köməkçisi belə həbsxanaya düşə bilər. Beləcə mən də bir gün saraya qayıda, hətta taxt-taca sahib ola bilərəm.

Riçard bir müddət sakit qaldı, sonra yenə də auditoriyaya nəzər salıb sözünə davam etdi:

— O vaxtdan bəri mən bu çayı çəlləklərlə içirəm və sizə də içməyi məsləhət görürəm. Bu çay adama çox yaxşı təsir edir.

Riçard mühazirəsini tamamlamaq üzrə idi ki, Ruqojanu ayağa qalxıb heç geriyə baxmadan auditoriyanı tərk etdi. Riçard xitabət kürsüsündən aşağı düşdü. Zalda olan iştirakçılar ayağa qalxıb sükutu pozdular. Tələbələr əl çala-çala adamlarla dolu skamyaların arası ilə keçərək Riçardın əlini sıxmaq istəyirdilər. Sonra Riçard Sabinaya zəng edib mühazirənin yaxşı keçdiyini dedi. Sabina ərinin xidmətinə görə sevinirdi, eyni zamanda bunun nəticəsindən də qorxurdu.

*****

Ertəsi gün yepiskop Riçardı görüşə, öz yanına çağırdı. Birdən Ruqojanu otağa soxuldu və Riçarda baxaraq dedi:

— Bu, odur! İndi nə bəhanə gətirəcəksən? Dediklərinin hamısını eşitdim. Bu xəyanətdir!

Riçard çıxışında nəyi bəyənmədiyini ondan soruşdu. Ruqojanunun dediklərindən belə məlum oldu ki, onun heç nədən xoşu gəlməyib, xüsusilə də əzablar üçün «yeddi bitkidən ibarət çay»dan.

Riçard sual verdi:

— Axı o çay barədə nə xoşunuza gəlmədi? Çaylardan hansı birini bəyənmədiniz?

Ruqojanunun hirsindən yanaqları qızardı və acıqla dedi:

— Sən söylədin ki, dünyanın gərdişi çevrilə bilər. Bu, ağ yalandır! Elə bilirsən kommunizm devriləcək, böyük səhv edirsən. Dediyin o gərdiş çevrilməyəcək! Kommunizm burada əbədi olacaq!

Riçard cavabında ona dedi:

— Axı mən o barədə danışanda kommunizmi deyil, sadəcə həyatın gərdişinin çevrilməsini nəzərdə tuturdum.

— Xeyr, xeyr! Sən elə kommunizmin dağılmasını nəzərdə tuturdun, qulaq asanlar da sənin nə demək istədiyini yaxşı başa düşdü.

Ruqojanu Riçarda ittihamlar yağdıra-yağdıra dedi ki, o, cavan tələbələrin ağlını zəhərləyərək hökumətin əleyhinə yönəldir. Sonra o, otaqdan çıxmazdan əvvəl yepiskopa yaxınlaşıb üstünə qışqırdı:

— Sizi əmin edirəm ki, Riçard bir daha vəz etməyəcək. Vurmbrandın sonu çatdı. Sonu çatdı! Eşidirsiniz?!

Ruqojanu binadan çıxanda yolla gedən bir maşın qarşısından keçən iti vurmamaq üçün cəld səkiyə çıxdı. Bu zaman avtomobil Ruqojanunu divara sıxaraq vurdu. Xəbərçi agent Ruqojanu yerindəcə öldü.

# 54

Ruqojanunun axırıncı dediyi sözlər tez bir zamanda bütün Rumıniyaya yayıldı. Riçard artıq diqqət mərkəzində idi. 1959-cu ilin yanvar ayında kilsədən bir qadın Sabinaya dedi ki, Riçardın etdiyi vəzin yüzlərlə nüsxəsi çap olunaraq paylanılıb. Milis bundan xəbər tutanda həmin qadının evini axtarıb tapmış, oradakı bütün qeyri-qanuni kitabları müsadirə etmişdi.

Sabina kilsəyə yeni çaxnaşma dalğasının gələcəyini sanki əvvəlcədən hiss edirdi. Ötən ilin iyul ayında əvvəlki illərə nisbətən dinlə mübarizədə daha ciddi qərarlar verilmişdi. Hətta kiçik bir qanun pozuntusu belə ən ağır cəza ilə nəticələnə bilərdi. Yetkinlik yaşına çatmayan yeniyetmələr də daxil olmaqla, minlərlə məsihçi həbs edilərək Dunay Deltasının ətrafında olan qamışlığa — bataqlıqları təmizləməyə göndərilmişdi. Xruşşovun əmrinə əsasən «mövhumatın qalıqlarının kökünü kəsmək» adlı yeddi illik plan icra edilirdi. Həmin plana görə, Şərqi Avropada bütün kahinlər həbs edilməli, kilsələr ya bağlanmalı, ya da klublara, muzeylərə, taxıl anbarlarına çevrilməli idi.

Riçard və Sabinanın balaca çardağı gizli toplantılar üçün mərkəz oldu. Hər axşam şam yeməyindən əvvəl Riçard belə dua edirdi: «Ey Allah, əgər hər hansı bir məhbusun mənim köməyimə ehtiyacı varsa, məni yenidən həbsxanaya göndər».

Sabina da könülsüz halda «Amin» deyərdi.

Vurmbrandın etdiyi duaya çərşənbə günü yanvar ayının 15-də cavab gəldi. Gecə saat 01:00-da Dövlət Təhlükəsizlik Xidmətinin

əməkdaşları Vurmbrandgilin qapısını sındırıb içəri girdi və işıqları yandırdılar.

— Riçard Vurmbrand? O biri otağa keçin və orada gözləyin!

Riçard və Sabina on nəfərdən artıq milisin şkafları, daxılları açıb oradakı kağızları və sənədləri qarışdıraraq döşəməyə tökdüklərinə tamaşa edirdilər. Onlar Riçardın evliliklərinin iyirmi illiyi ilə əlaqədar Sabinaya verdiyi balaca bloknotu da götürdülər.

Sabina onlara yalvardı:

— Xahiş edirəm, o bloknotu aparmayasınız, o, şəxsi əşyadır, mənə hədiyyə olunub. O sizə lazım olmayacaq.

Axtarışa cavabdeh olan kapitan Sabinanın xahişinə məhəl qoymadı və Riçardı arvadından ayıraraq əllərinə qandal taxıb, onu o biri otağa apardı.

Riçard soruşdu:

— Günahsız insanla belə rəftar etdiyinizə görə heç utanırsınız?

O, əllərini Sabinaya uzatdı, amma milis onun əllərindən tutub aşağı saldı.

Riçard tələb etdi:

— Əgər məni arvadımla vidalaşmağa qoymasanız, mən bu evi öz xoşumla tərk etməyəcəyəm.

Kapitan razılıq verdi:

— Qoy gedib arvadı ilə vidalaşsın.

Riçard arvadı ilə birlikdə milislərin qarşısında diz çökərək dua etdi. Sonra onlar ilahi oxudular: «Kilsənin yeganə təməli İsa Məsihdir, onun Rəbbidir...»

Bir qədər sonra gözləri yaşarmış kapitan nəzakətlə əlini Riçardın çiyninə qoyaraq pıçıldadı:

— Biz getməliyik. Artıq səhər saat beşdir.

— Oğlumuz Mihaya de ki, onu çox sevirəm. Məni satan pastora da onu sevdiyimi söylə.

Riçard bu sözləri milis onu pilləkənlərlə aşağı düşürən zaman deyirdi. Sonra onu itələyib maşına saldılar.

«Riçard, Riçard!» — Sabina onların arxasınca küçə boyunca qaçaraq maşın döngədə gözdən itənə kimi qışqırdı. O, soyuq küçədə təngnəfəs və kədərli bir halda yerə yıxılıb belə dua etdi: «Ya Rəbb, ərimi Sənin əllərinə verirəm. Mənim əlimdən heç nə gəlmir. Bağlı qapılardan yalnız Sən keçə bilərsən. Sən Öz mələklərini onun ətrafında qoy. Onu evə yalnız Sən qaytara bilərsən!»

Allah Sabinanın duasına beş il yarımdan sonra cavab verəcəkdi.

# 55

Alisiya Sibiu universitetinin yaxınlığındakı balaca parkda Mihayı gözləyirdi. O bilirdi ki, Mihay atasının yenidən həbs olunmasını eşidəndə çox kədərlənəcək. Bu xəbər həm də onun təhsilinə pis təsir edəcək, hətta qovulmaq təhlükəsi yaradacaqdı. Onsuz da bu, birinci dəfə deyildi. Mihay bir neçə dəfə məktəbdən qovulmuş və məktəbini dəyişməyə məcbur olmuşdu. Bu da onun təhsilinə çətinlik yaradırdı. Alisiya buz kimi havada üşüyə-üşüyə Mihayı görmək ümidi ilə dayanıb gözləyirdi. Nəhayət, hava qaralana yaxın Mihay gəlib çıxdı və atası barədə bəd xəbəri eşitdi.

Mihay sakitcə dilləndi:

— Mən bunu gözləyirdim, anama çatdırın ki, mən tezliklə evə qayıdacağam. Onlar anamı da apara bilərlər.

Alisiya ondan soruşdu:

— Bəs sənin dərslərin necə olacaq? Sən artıq üç ilə yaxındır ki, təhsilinə vaxt sərf etmisən.

Mihay onun sözünü kəsdi:

— Bunun indi nə mənası var ki? Çox vaxt məhz diplomlu pastorlar satqınlıq edib əsl «adam tutan balıqçılar»ın tikdiklərini dağıdırlar. Ona görə diplomsuz da keçinərəm. Əvvəl-axır atamın həbs olunmağından xəbər tutub məni qovacaqlar.

Alisiya Mihayla birgə Buxarestə qayıdanda Sabinanı kədər və sarsıntı içində gördülər.

Bir neçə gün sonra qapı döyüldü. Sabina qapını açanda yorulub əldən düşmüş bir nəfər gördü. O, Sabinaya bir sənəd verdi. Həmin

sənəddə belə yazılmışdı: «1909-cu il təvəllüdlü R. Vurmbrand iyirmi beş illik həbs cəzasına məhkum olunub».

*****

Sabina qapını bağlayıb ağlamağa başladı. Ertəsi gün vergi idarəsindən iki nəfər məmur Sabinanın qapısını yumruqla döyərək evdə olan dəyərli hər bir şeyi müsadirə etmək üçün içəri girdilər. Evdə yalnız çarpayılar, masa və iki stul qaldı. Növbəti illərdə onlar dəfələrlə gəlib Sabinadan pul tələb etdilər. Amma onun nə pulu, nə də qazanc yeri var idi. Sabinanın vaxtı gizli toplantıda xidmət etməklə və Riçardın həbsi ilə əlaqədar məhkəmənin təyin etdiyi yüksək cərimənin məbləğini azaltmaq üçün bir dövlət binasından o birisinə qaçaraq məmurlara yalvarmaqla keçirdi. Əgər Sabina qoyulan cəriməni ödəməsəydi, qaldığı yaşayış yerini də itirəcəkdi.

Sabina iynəsi tez-tez sınan köhnə bir tikiş maşını tapdı. O, qara bazarda corab və pulover satmaqla qazandığı pulu cəriməyə ödəyirdi ki, dövlət onun qaldığı yaşayış yerini əlindən almasın. İcazəsiz mal istehsal edib satmaq qeyri-qanuni hesab olunurdu. Lakin Sabinanın dostları onun tikdiyi paltarları fabriklərin girəcəklərində, yarmarkalarda, avtobus dayanacaqlarında və adamların çox olduğu yerlərdə satırdılar.

Bir dəfə Sabina tikiş maşınının arxasında oturub paltar tikirdi və birdən qapını kimsə vəhşi kimi bərkdən döydü.

— Yoldaş Sabina Vurmbrand.

Sabina qapını açanda orada qara plaşlı bir kişi durmuşdu.

Sabina ona cavab verdi:

— Bəli, mən Sabina Vurmbrandam.

— Sabah səhər saat doqquzda Daxili İşlər Nazirliyinə gəlib məlumat verməlisiniz. Bu çağırış kağızını mühafizəçilərə göstərib otağın yerini soruşarsınız.

O, Sabinanı soyuq baxışlarla nəzərdən keçirdi, sonra dönüb getdi.

Sabina əmin idi ki, kimsə onu satıb. Ona görə də bir çanta gigiyenik vasitələr və qalın paltarlarını yığıb tanışları ilə vidalaşdı. O bir daha onları görməyəcəyini düşünürdü.

Ertəsi gün səhər Sabina təyin olunmuş yerə yollandı. Çox geniş, xalçalarla döşənmiş, divarlarında Leninin portreti olan kabinetin girəcəyində gözəl bir katibə qız oturmuşdu. Sabina royal boyda stolun qarşısında əyləşmiş mülki geyimli kök bir kişiyə yaxınlaşdı. Onun təxminən qırx yaşı olardı.

— Əyləşin, yoldaş Vurmbrand, — deyə o, Sabinaya işarə ilə kreslonu göstərdi. — Sizi bura çağırmaqda məqsədimiz odur ki, işinizi daha yaxşı araşdıra bilək. Özünüz və ailəniz barədə bizə danışın.

Sabina bir az tərəddüd etdi.

Məmur kağızları eşələyərək dedi:

— Arxayın olun. Dedikləriniz buradan kənara çıxmayacaq. Sizin Mihay adlı oğlunuz var? Onun dərsləri necə gedir?

Sabina, nəhayət, işin nə yerdə olduğunu anladı. Başa düşdü ki, bu, onun Riçardla boşanması üçün növbəti cəhddir. Təzyiqlə etdikləri əvvəlki cəhdlər boşa çıxdığından indi kommunistlər nəzakətlə davranmaq yoluna əl atmışdılar. Məmur kresloya yayxandı.

Sabina ona cavab verdi:

— Mən ərimi sevirəm, nə olursa olsun, mən ərimdən ayrılmayacağam. Biz həmişəlik bir-birimizə bağlanmışıq.

Kişi dilləndi:

— Yaxşı, onda izin verin sizə bir şey təklif edim. Siz yəqin ki, oğlunuzun təhsilini bitirməsini istərdiniz. Siz həm də işləmək hüququna malik olub öz həyatınızı yaşamaq istərdiniz. Siz bütün bunlara nail ola bilərsiniz. Sadəcə öz pasportunuzu bizə verin və qırx səkkiz saatdan sonra soyadınızı dəyişməklə biz onu sizə qaytaracağıq. *Boşanmaq* kimi böyük sözləri unudun. Bu, sadəcə olaraq, dövlətin bizdən tələb etdiyi rəsmi bir şeydir. Məgər bu, vəziyyətdən çıxış üçün ağlabatan yol deyilmi?

Sabina ona təklif olunanlarla heç cürə razılaşmadı.

Məmur bir qədər susandan sonra dilləndi:

— Əgər siz bizimlə əməkdaşlıq etmək istəməsəniz, biz, sözsüz ki, başqa yollara əl atacağıq. Əvvəl-axır istədiyimizə nail olacağıq.

Sabina onun üzünə baxıb dedi:

— Təsəvvür edin ki, siz də başqa məmurlar kimi bir gün həbs edilirsiniz. Onda həyat yoldaşınızın sizdən boşanmasına razı olardınızmı?

Məmur əsəbiləşib özündən çıxdı. O, qələmini ocağa tulladı və qışqıra-qışqıra dedi:

— Siz harada olduğunuzu və kiminlə danışdığınızı heç bilirsinizmi? Siz nə cürətlə mənə belə suallar verirsiniz! İndi isə çıxın gedin buradan! Dediklərimi də unutmayın! Anladınız?

Sabina çantasını götürüb oranı tərk etdi. Əlbəttə, Sabina ona deyilənləri yaxşı başa düşürdü. Məmur da Sabinanın dediklərindən belə başa düşdü ki, o, ərindən ayrılmayacaq. Bu, onların Sabinaya göstərdikləri axırıncı təzyiq idi. Kommunizm dövründə məmurlar da məsihçilər kimi həbs olunmaqdan qorxurdular.

Bütün bunlardan sonra Sabinaya çatdırdılar ki, Riçard ölüb.

*****

Bir gecə Sabinanın qaldığı çardağa nimdaş paltar geyinmiş bir neçə gənc gəldi. Dediklərinə görə, guya onlar keçmiş məhbuslar idi. Maraqlısı o idi ki, bu gənclər gözlərini Sabinanın gözlərindən gizlədərək ətrafa baxırdılar. Sonra onlar həbsdə olarkən Riçardı gördüklərini deməyə başlayanda, Sabina başa düşdü ki, bu, bir təxribatdır.

Onlardan biri dilləndi:

— Yazıq pastor Vurmbrand. Biz onun başına nə gəldiyini dəqiq bilmirik. Ölməzdən əvvəl onun xasiyyəti yaman dəyişkən olmuşdu, heç kimlə danışmırdı.

Sabina soruşdu:

— Siz nə demək istəyirsiniz? O intihar edib?

— Dəqiq bilinmir. Bir onu bilirik ki, Riçardı Qerla həbsxanasından çıxarıb apardılar. Özünə sui-qəsd etsə də, kim onu ittiham edəcək ki?

Sabina bu deyilənlərin yalan olduğunu hiss edib dedi:

— Xahiş edirəm, çıxıb gedin buradan!

Gənclərdən biri təkrarən dedi:

— Yazıq pastor Vurmbrand, o, doğrudan da, əsl müqəddəs idi, bunu hamı deyirdi. Başınız sağ olsun, xanım Vurmbrand.

Sabina onun sözünü kəsdi:

— Xahiş edirəm, gedin buradan!

*****

Mihayın gözlədiyi kimi, atası həbs olunandan sonra kommunist təlimlərini öyrənməkdən imtina etdiyinə görə Sibiu universitetindən qovuldu. Ona həm də məlum oldu ki, təhlükəsizlik xidməti Mihayın hər bir fəaliyyətindən xəbərdardır. Onun getdiyi yerlər, olduğu ünvanlar və dostları haqqında hər şeyi bilirlər. Mihay xəbər çatdıranların gizli kilsəyə ayaq açmasından narahat olmağa başladı.

O, bir gün anasına dedi:

— Ana, sənə deməyə çəkinirəm, amma sən həddindən artıq yumşaq ürəklisən.

Sabina çaşqınlıq içində oğluna baxdı.

— Sən hər kəsin evimizə gəlməsinə icazə verirsən. Kim ki «Allaha izzət olsun» deyir, onu o dəqiqə içəri dəvət edirsən. Amma biz agentlərdən ehtiyatlı olmalıyıq.

Sabina mübahisə etmək istədi, amma Mihay onu sakitləşdirərək dedi:

— Ana, qorxuram ki, onlar səni yenidən həbs etsinlər. Elə məni də. Onlar bilirlər ki, mən sənə məxfi xidmətində kömək edirəm. Onlar başqaları üçün də təhlükəlidirlər. Mən Sibiu universitetindən tanıdığım cavan oğlanlar barədə də düşünürəm. Onları həftədə iki dəfə aparıb döyürdülər ki, mənim barəmdə xəbər çatdıracaqlarına

söz versinlər. Onların hamısı, yəqin ki, indi həbsdədirlər ya da ölənədək döyülüblər.

Sabina mülayim və xoşxasiyyət Alisiya barədə düşündü. Alisiya bütünlüklə öz həyatını siyasi məhbusların uşaqlarının qayğısına qalmağa həsr etmişdi. Gizli kilsə ilə əlaqəsi olduğuna görə Dövlət Təhlükəsizlik Xidməti onu həbs etmişdi. Ondan xəbər almağa çalışanda, heç bir məlumat verməmişdi. Ona görə də mühafizəçilər onu huşunu itirənə qədər döyüb bədənində bir neçə sümüyünü sındırmış, burnu polad olan çəkmələrlə qabaq dişlərinə təpiklə vurmuşdular. Sonrakı səkkiz il ərzində Alisiya dəhşətli işgəncələrə dözmüş, amma heç vaxt Sabinanı, Mihayı və ya başqalarını satmamışdı. Sabina Alisiyanın döyülən bədənini və işgəncələr qarşısındakı qışqırtılarını təsəvvüründə canlandırırdı.

Milislər daha da amansız olmuşdular. Onlar bir neçə gizli toplantını dağıdaraq rəhbərlərini həbs etmişdilər. Mihay haqlı idi. Onların toplantılarına gələn agentlərdən ehtiyat etmək lazım idi.

# 56

Sorğu-sual olunandan sonra Riçardı yük maşınının arxasına mindirib naməlum bir yerə gətirdilər. Yük maşını dayandı və qapılar taybatay açıldı. Riçard oranı görəndə ürəyi düşdü, çünki həmin yeri yaxşı tanıyırdı. Ora dəhşətli Cilava həbsxanası idi.

«Məhbusları düşürün!» — deyə kimsə əmr verdi. Nəfəsindən dəhşətli alkoqol qoxusu gələn və əlində dubinka olan bir neçə mühafizəçi məhbusları döyə-döyə yük maşınından düşürdü. Sonra onların üstünə boz rəngli məhbus geyimini tullayıb saç-saqqallarını qırxdılar. Bədəni yarıçılpaq və qanlı vəziyyətdə olan Riçardı böyük bir kameraya itələdilər. O, buz kimi soyuq döşəmənin üstünə yıxıldı.

Bir neçə saatdan sonra mühafizəçi qışqıraraq əmr verdi: «Bütün kahinləri və pastorları bayıra çıxarın».

Riçard və başqa pastorları kameradan çıxaranda onları ələ salan gülüş və fınxırtı səsləri eşitdilər. Mühafizəçilər məhbusları amansızcasına döyürdülər və yerə yıxılanları dubinka ilə vurub təpikləyir, üzlərinə tüpürürdülər. Riçard bacardığı qədər başını qorumağa çalışırdı.

Yarım saatdan sonra mühafizəçilər yenə də məhbuslara kameradan bayıra çıxmağı əmr etdilər. Bu dəfə heç kim yerindən tərpənmədi. Onda mühafizəçilər içəri girib yenidən dubinka ilə hamını vəhşicəsinə döyməyə başladılar. Riçard ayağa qalxa bilməyənlərə kömək etməyə çalışırdı.

Kameranın bir küncündə pravoslav kilsəsinin rahibi Miron Kristesku çömbələrək oturmuşdu. Riçard bir neçə il əvvəl pravoslav patriarxla görüşəndə Kristesku ilə tanış olub ona öz çətinlikləri

barədə danışmışdı. O isə əlini Riçardın çiyninə qoyaraq «Qardaş, Məsih yenidən qayıdacaq və biz bunu ümidlə gözləyirik» deyə təsəlli vermişdi. Kristesku pravoslav kilsəsinin kommunizmin əlində oyuncağa çevrilməməsi üçün var gücü ilə çalışmışdı. Lakin onun bu səyləri fayda verməmişdi.

İndi isə onun ağzından qan axırdı. Mühafizəçilər ağır çəkmələri ilə onun ağzına təpiklə vurmuşdular. Kristesku ağrıdan hönkürtü ilə ağlayaraq ovucu ilə ağzını bağlamışdı. Onun dişləri sınıb damağına batmışdı. Üz-gözü şişmiş, keçəl qırxılmış başı onu tanınmaz hala salmışdı.

Kristesku dedi:

— Budur, mən də başqaları kimi buradayam. Mən səhv etdim, gərək elə əvvəldən onlara qarşı durardım.

Riçard mövzunu dəyişmək istədi:

— Qoymayın, bu fikirlər sizi ruhdan salsın.

— Qardaşım Vurmbrand, məni ancaq bir şey ruhdan salır, o da səhv etməyimdir.

Əgər Kristesku bu sözləri kilsədə vəz edərkən desəydi, çox gözəl səslənərdi. Amma indi ağzı qan içində, dişləri sınmış vəziyyətdə kameranın bir küncündə oturaraq bunları deməsi onun güclü bir insan olduğunu göstərirdi.

*****

Riçardın budəfəki həbs həyatı əvvəlkindən daha betər idi. Mühafizəçilər kamerada vəz etməyi qadağan etmişdilər və məhbuslardan kimsə Allah barədə vəz etsəydi, qəddarcasına döyülərdi. Amma buna baxmayaraq, Riçard və Allaha xidmət edən bir neçə nəfər canlarını fəda edərək vəz edib döyülməyi üstün tuturdular. Onlar məhbuslara vəz edir, əvəzində isə amansızcasına döyülürdülər.

Onlardan biri vəz etməyə başlayanda mühafizəçilər qəfildən kameraya soxulub vəz edəni «işgəncə kamerası»na aparırdılar. Az

sonra həmin adamı döyülmüş halda, bədəni yaralı və qan içində gətirirdilər. Bir neçə dəqiqədən sonra o özünə gəlib, boz məhbus geyimini düzəldərək «Qardaşlar, mən harada qalmışdım?» deyə sözünə davam edirdi.

Riçard Qerla həbsxanasında vəz etdiyinə görə ölənədək döyülən Qreku adlı bir məsihçi barədə eşitmişdi. İşgəncələr həftələrlə davam etmişdi. Mühafizəçilər rezin toppuzla Qrekunun ayaqlarına və cinsiyyət orqanlarına vurmuşdular. Sonra bir neçə dəqiqə fasilə verib yenidən dəfələrlə bu işgəncələri təkrarlamışdılar. Huşunu itirəndən sonra həkim onu ayıltmaq üçün iynə vurmuşdu. Özünə gələndən sonra Rek adlı bir mühafizəçi onu yenidən o qədər döymüşdü ki, sonda ölmüşdü.

Rek kommunist partiyasının mərkəzi komitəsinin üzvü idi. Rek məsihçi Qreku ölməzdən əvvəl ona belə demişdi: «Bilirsən, *Allah mənəm*. Sənin həyatın və ölümün üzərində mənim səlahiyyətim var. Sənin həyatın göylərdə yaşayanın əlində yox, mənim əlimdədir. İstəsəm, sən yaşayacaqsan, istəməsəm, sən öləcəksən. *Allah mənəm!*»

Qreku isə özündə bir az güc taparaq demişdi: «Səni Allah insanlara işgəncə verən, qatil deyil, əksinə, Özünə bənzər, ürəyində Allah həyatı olan bir insan kimi yaradıb».

Qrekunun ölümündən az sonra Rek İsaya iman edib Onun davamçısı oldu.

Riçard kommunistlərin işgəncələrindən bir şey öyrəndi — *insanın bədəninə onun ruhu rəhbərlik edir*. Bədəni işgəncələrdən ağrı çəkəndə Riçard ruhunda ağlagəlməz bir sülh hiss edirdi. Mühafizəçilər Riçardı döyüb bədəninə zərər yetirə bilərdilər, amma onun ruhunu heç vaxt sındıra bilməzdilər.

*****

Bir dilim çörək və bir qab xarab şorba Riçard və onunla olan bütün məhbusların bir həftə ərzində yedikləri yemək idi. Bu kiçik

yemək payından onlar «ondabir»i ayırıb aralarında daha çox ehtiyacı olan zəif məhbusa verirdilər.

Ölüm hökmü verilən məsihçilərə axırıncı dəfə öz həyat yoldaşlarını görmək imkanı verilmişdi. Onlar öz həyat yoldaşlarına belə deyirdilər: «Sən bilməlisən ki, məni öldürənləri sevərək bu həyatdan köçürəm. Onlar nə etdiklərini bilmirlər. Mənim axırıncı xahişim budur ki, sən də onları sevəsən. Sənə əziz olanı öldürdüklərinə görə qoy ürəyin daşlaşmasın. Biz bir-birimizlə yenidən göylərdə görüşəcəyik».

Bu sözlər təhlükəsizlik xidmətinin əməkdaşlarına təsir etmiş və çox vaxt özləri sonradan Məsihə iman etmişdilər.

Riçard özü sayca onlarla cəsarətli pastorun belə əzabla şəhid olmasına şahid olmuşdu. O anlarda fövqəltəbii cəsarət bu məsihçilər üçün təbii hal idi. Onların dedikləri axırıncı bir neçə gözəl kəlmə sement divarlarda və boz dustaq geyimlərində parlayaraq şəfəq saçırdı.

Riçard həbs olunmazdan əvvəl Məsihi bütün qəlbi ilə sevirdi. İkinci dəfə həbs olunduqdan sonra gizli məsihçi toplantılarını da çox sevdi.

*****

Bir neçə ildən sonra Qerla həbsxanasına köçürülmək üçün Riçardı qatara mindirdilər. Bu yer Rumıniyanın Transilvaniya bölgəsində yerləşirdi. Riçard üç il əvvəl orada həbsdə olmuşdu. İndi o, həbsxana pəncərəsindən on səkkizinci əsrdə məhbusların edam olunduğu dar ağaclarını görürdü. Kommunistlər daha asan edam üsuluna üstünlük verirdilər: boynun ardından bir güllə sıxılırdı.

İki minlik dustaq üçün nəzərdə tutulmuş həbsxanada kommunistlər on minlərlə məhbusu acınacaqlı şəraitdə saxlayırdılar. Keçən yay mühafizəçilər həbsxananın pəncərələrinin taxta örtüklərini çöldən mıxlamışdılar. İşıqsız və havasız şəraitdə yaşamaq qeyri-mümkün idi. Buna görə məhbuslar üsyan etmişdilər. Dustaqlar həbsxananın bir tərəfində barrikada qurmuşdular. Mühafizəçilər milisləri də

köməyə çağırmış, milislər isə barrikadanı dağıdıb qapıları vurub yerindən çıxarmışdılar. Yüzlərlə məhbus yaralanmış, onlarla dustaq ölmüşdü. Riçard Qerlaya köçürüləndə mühafizəçilər keçən ilki üsyana görə məhbuslardan hələ də amansızcasına intiqam alır, onları aclıqla cəzalandırırdılar. Sonda bir çox məhbus başqa həbsxanalara köçürüldü.

Qerlada Riçardı əlli nəfərlik çarpayısı olan, amma yüz nəfərin yerləşdirildiyi zəif işıqlanmış uzun bir baraka köçürmüşdülər. Çarpayılar ümumi idi və hər birində bir neçə məhbus yatmalı olurdu. Xorultu və tualet əvəzinə istifadə edilən vedrədəki ifrazatın qoxusu buradakı şəraiti dözülməz etmişdi.

Mühafizəçinin tez-tez gəlişi Riçardın qısa müddətli istirahətinə mane olurdu. İti mahmızlı çəkmələrlə döyülmüş məhbusları saymaq üçün onları sıra ilə yerə uzanmağa məcbur edirdilər. Mühafizəçi məhbusun adını yazanda onun kürəyinin üstünə çıxırdı.

Həbsxanadakı qayda-qanunların azacıq pozulması ən azı iyirmi beş qamçı ilə nəticələnirdi. Hətta həkimin olmasına baxmayaraq, məhbusların çoxu ağrıdan ölürdü. Həbsxanada hər bir dustaq bu qamçıların ağrısını dadmışdı, çünki bəziləri həftədə bir neçə dəfə iyirmi beş qamçıya dözməli olurdu. Bir çox işgəncəyə tab gətirən Riçard və onun məhbus dostları təsdiqləyirdilər ki, bu cür cəza çubuq və ya dubinka ilə döyülməkdən daha betərdir. Qabırğalara və onurğaya dəyən hər zərbə dəhşətli ağrı yaradırdı. Çox vaxt məhbusların sinir sistemi buna dözmürdü və nəticədə ağrıdan huşlarını itirirdilər. İşgəncələr mühafizəçilərə də təsir edirdi. Gözləri qan tutmuş, dustaqlara zor tətbiq etmək səlahiyyəti ilə zəhərlənmiş bu insanlar get-gedə azğınlaşırdılar.

Riçard hər gün barakdakı tualeti əvəz edən ifrazatla dolu vedrəni boşaltmaq üçün həyətə çıxırdı. Vedrəni çalaya boşaltmaqdan ötrü o, uzun bir sırada dayanıb gözləməli olurdu. Riçard təmizliyə riayət etməyə çalışsa da, vedrədəki ifrazat əlinə və paltarlarına dəyirdi.

Rossa Şandor adlı məhbus qəbiristanlığı hər dustağın düşüncəsində xüsusi yer tutmuşdu. Pəncərədən baxanda

qəbiristanlığın boz başdaşıları Riçarda onun yaşa dolduğunu göstərirdi. O, ölümdən qaça bilməzdi, ölümü ancaq təxirə sala bilərdi. Məhbusların əksəriyyəti on illik həbs həyatında günlərin, illərin hesabını itirmişdilər. Qerla həbsxanasının əsas darvazasında olan saatın əqrəbləri altı il idi ki, öz yerindən tərpənmirdi. Güzgü olmadığından bir çox məhbus özünü həbs olunduğu gündəki yaşda təsvir edirdi. Həyat yoldaşlarının surəti yaddaşlarına azadlıqda olduqları vaxtlardakı kimi həkk olunmuşdu. Evə qayıdanda isə onların yaşlandığını görüb təəccüblənirdilər.

*****

Qırmızısifət kök mayor Dorabantu Qerla həbsxanasının baş komendantı vəzifəsində xidmət edirdi. O, həmişə cibində sarımsaqlı kolbasa və ya alma gəzdirərdi. Danışanda əlini cibinə salır, oradan çərəzini çıxarardı.

Riçard komendantın qarşısında durub onun dayanmadan dadlı çərəzlərlə kef etməsinə həsrətlə baxırdı. Dorabantu iki şeyi: yeməyi və öz səsini çox xoşlayırdı.

O, bir dilim piroqu ağzına atıb soruşdu:

— Deməli, Vurmbrand, sən rahibsən, hə?

Riçard onun səhvini düzəltdi:

— Mən pastoram.

— Pastor, kahin, rahib! Nə fərqi var ki... Siz hamınız mənim üçün eynisiniz. Kasıbları talayıb özünüz varlanırsınız. Bilirəm, bilirəm!

Dorabantu uşaqlığında bir dəfə monastırın lap yaxınlığında gəzişərkən rahiblərin onu qəddarcasına döyməsindən danışdı. O, bunları danışarkən gözlərindəki nifrət qığılcım saçırdı.

O soruşdu:

— Siz heç qoşalülə tüfənglə ac uşağı güllələyən kahin görmüsünüzmü, Vurmbrand?

Riçard ürəyinin necə tez-tez döyündüyünü hiss edirdi.

Dorabantu əlavə etdi:

— Bu, heyrətamiz mənzərədir!

Komendant Riçardın qarşılaşdığı yeganə qəddar adam deyildi. Onun kamera yoldaşları ömürlük həbs cəzasına məhkum olmuş qatillər, oğrular və cinayətkarlar idilər. Vaxtilə yəhudiləri öldürənlər Riçarda qarşı daha amansız idilər. Hətta bir dəfə az qala onun həyatına son qoyacaqdılar.

«Sənə dedilər ki, kəs səsini!» — deyə bir məhbus onu hədələmişdi.

Kimsə Riçardı itələdi və o, üzüstə yerə yıxıldı. Onu təpiklə döyməyə başlayanda xoşbəxtlikdən həmin vaxt qapı açıldı və mühafizəçilər kameraya girib onları ayırdılar. Sonra əmr etdilər ki, hərə öz çarpayısında otursun.

Az sonra Dorabantu kameralara baxış keçirərkən Riçardın başına gələnləri eşitdi. Mühafizəçilərdən biri Riçardı hündürboy olduğuna görə ayırd edə bilmişdi. Lakin qaranlıq olduğundan ona hücum edənlərin kim olduqlarını müəyyənləşdirə bilməmişdi.

Dorabantu soruşdu:

— Vurmbrand, bunu kim edib?

Riçard cavab vermədi.

Komendant əsəbləşdi:

— Niyə demək istəmirsən?

Riçard partlamış alt dodağını əli ilə örtməyə çalışaraq dedi:

— Mən məsihçiyəm. Mən düşmənlərimi sevirəm və bağışlayıram. Onları ittiham etmirəm.

Dorabantu qışqırdı:

— Onda sən axmaqsan.

Riçard razılaşaraq dedi:

— Siz düz deyirsiniz. Bütün qəlbi ilə məsihçi olmayan hər kəs axmaqdır.

— Demək istəyirsən ki, mən axmağam?

— Mən elə demədim. Mən bunu özüm barədə deyirdim, çünki yaxşı məsihçi deyiləm.

Dorabantu əmr verdi:

— Aparın onu! Otuz çubuq vurulsun! Axmaq rahiblər!

Mühafizəçilər Riçardı döyməyə apararkən onun ağzı ağrıdan zoqquldayırdı.

# 57

Floresku adlı qaraçı oğru taxta stulu çəkib Riçardın çarpayısının yanında oturdu və onunla söhbətə başladı:

— Mən gördüyüm, hiss etdiyim və toxunduğum şeylərə inanıram. Biz hamımız oturduğum bu taxta parçası kimiyik. Biz öləndən sonra hər şey itib gedir.

Riçard əqidəsini sübut etməli idi. O, ayağa durub stulu təpiklə vuraraq Floreskunun altından kənara tulladı. Stul divara çırpıldı, Floresku isə şappıltı ilə yerə yıxıldı.

Floresku hirslə qışqıraraq ayağa durdu:

— Hə, bununla nə demək istəyirsiniz?

Riçard sakitcə sözünə davam etdi:

— Sən indicə özün dedin ki, sən stul kimi bir cisimsən, mən stulun şikayət etməsini eşitmədim!

Kameradakı dustaqlar gülüşdülər.

— Bağışla, Floresku! Mən sadəcə sənə göstərmək istədim ki, biz insanlardan fərqli olaraq cisimlər nə məhəbbətə, nə də nifrətə reaksiya verirlər.

Floresku qaşqabağını sallayıb oturdu və sonra dedi:

— Əgər ölülər gəlib bizimlə danışarsa, onda mən sənin dediklərinə inanaram.

Riçard sözünə davam etdi:

— Sizi əmin edirəm ki, insanların ölülərlə əlaqəsi var. İsaak Nyutondan başlayaraq Oliver Lodj kimi bir çox dahi alimlər ruhlar aləminə inanıb. Hətta Müqəddəs Kitabda ölmüş peyğəmbər Şamuelin diri adamla danışığı təsvir olunub (1Şamuel 28).

Riçard həyat və ölüm barəsində danışmağa başlayanda dustaqlar onun ətrafına toplaşdılar. Onun sözləri kamera yoldaşlarının diqqətini cəlb etdi:

— Əgər Allah bizi yalnız bu dünyada yaşamaq üçün yaratsaydı, onda O, əvvəlcə bizə hikmətlə dolu qocalıq, *sonra* isə gümrahlıqla dolu cavanlıq verərdi. Axı özümüzlə qəbirə aparmaq üçün bilik və hikmət əldə etməyin nə mənası var?! Martin Lüter yer üzündəki həyatımızı doğulmamış uşağın həyatı ilə müqayisə edir. Əgər rüşeym ana bətnində düşünə bilsəydi ki, onun əlləri və ayaqları nə üçün inkişaf edir, onda mütləq belə bir nəticəyə gələrdi: gələcəkdə onun oynaya, qaça və işləyə biləcəyi başqa bir dünya mövcuddur. Biz də rüşeym kimi gələcək həyata hazırlaşırıq.

Riçard bacardığı qədər ucadan danışırdı ki, çarpayıda uzanan dustaqlar da onu yaxşı eşidə bilsinlər. Yarıqaranlıq kamerada hamının diqqəti pastora yönəlmişdi.

— Əgər sizi inandırmağa çalışsaydım ki, yarım litrlik şüşə qab beş litr süd tuta bilər, onda siz mənim ağılsız olduğumu düşünərsiniz. Amma buna baxmayaraq, beynimə min illər əvvəl baş vermiş Nuhun dövründəki daşqın, həbs olunduğum gün qoyub getdiyim həyat yoldaşım və oğlum, Allah və şeytan barədə düşüncələr sığışa bilir. Bəs necə olur ki, mən beynimə həm indiki zamanın qayğılarını, həm də əbədi həyat barədə fikirləri sığışdıra bilirəm? İnanırsınız ki, sizin azad ruhunuz istənilən dövrə və yerə gedə, bədən adlandırdığınız qabığın taleyini həll edə bilər?

Riçard vəzdən sonra kameraya çökmüş belə bir sükutu Buxarestdə pastorluq etdiyi illər ərzində heç vaxt görməmişdi. Otaqda nə əsnəyən, nə yerində qurcalanan, nə də zarafat edən var idi. Riçard Məsih barədə danışarkən yarıqaranlıq kameraya göz gəzdirdi. Onun kamera yoldaşlarından ibarət toplantısı var idi. Nimdaş geyimli, çökük yanaqlı, ağızlarında dişləri olmayan məhbusların ümid gözləyən və heyrətdən geniş açılmış gözləri Riçardın danışdığı həqiqət üçün susadıqlarını göstərirdi.

*****

Cəzasının dördüncü ili Riçard yenidən ağır xəstələndi. Onu məhbusların xəstəxanasına köçürdülər. Orada bir həftə qaldıqdan sonra mühafizəçilər digər məhbus xəstələrlə birgə Riçarda həyətə çıxmağı əmr etdilər. Dustaqların bəziləri başqasının köməyi olmadan gəzə bilmirdilər. Ona görə də Riçard bacardığı qədər onlara kömək edirdi. Bir saat ərzində xəstə məhbuslar çöldə dayanıb başqa dustaqların ifasında tələm-tələsik hazırlanmış teatr tamaşasına baxmalı idilər. Aktyorların məsihçiliyi ələ salmağı bu vaxt yemək yeyən komendantın qəhqəhə çəkib gülməsinə və sürəkli alqışlarına səbəb olurdu.

Məhbusları məcbur edirdilər ki, bir-bir səhnəyə çıxıb Məsihi ələ salan küfr şüarlarını təkrarlasınlar.

«Biz tamaşa qurtarana kimi bu sözləri *deməliyik*» — deyə məhbuslardan biri gözləri yaşarmış halda əlini Riçardın çiyninə qoydu.

Komendant vəzifəsinə yenicə təyin olunmuş Aleksandresku Riçardı səhnəyə çağıranda hamının gözü pastora zilləndi. «Görəsən o, kommunizmi tərifləyəcəkmi?» — deyə məhbuslar öz aralarında pıçıldaşdılar.

Riçard dini konfessiyaların konqresində Sabinanın dediyi sözləri xatırladı: «Məsihin üzündən bu rüsvayçılığı götür!»

Aleksandresku ona əmr etdi:

— Sənin növbəndir, çıx danış!

Riçard yavaşca dedi:

— Bu gün bazar günüdür. İndi həyat yoldaşlarımız, analarımız və uşaqlarımız məbədlərdə və evlərdə bizim üçün dua edirlər. Biz də gərək onlar üçün dua edək. Amma əvəzində biz burada tamaşaya baxırıq.

Riçard ailələr barədə danışanda məhbusların gözlərinin yaşardığını gördü. Sonra sözünə davam etdi:

— Bir çoxları burada Məsihi ələ saldı. Siz niyə Onun əleyhinə çıxırsınız? Siz burada zəhmətkeşlərdən danışırsınız. Məgər İsa dülgər deyildi? Siz deyirsiniz ki, işləməyən dişləməz. Amma bu sözlər sizdən çox-çox əvvəl Paulun Saloniklilərə ikinci məktubunda deyilmişdi (2-ci Saloniklilərə 3:10). Siz varlıların əleyhinə danışırsınız. İsa Özü də tacirləri məbəddən qamçı ilə qovmuşdu (Yəhya 2:14–15).

Aleksandresku qaş-qabağını töksə də, ona qulaq asırdı. Görünür, Riçardın ölüm hökmünə layiq olmaq üçün kifayət qədər danışacağına ümid bəsləyirdi.

Riçard davam etdi:

— Siz kommunizm qurursunuz, amma yaddan çıxarmayın ki, ilk məsihçilər cəmiyyət kimi birgə yaşayıb əllərində olan hər şeyi bölüşürdülər (Həvarilərin İşləri 2:44). Siz kasıbları yüksəltmək istəyirsiniz, Məryəm də İsanın doğulması barədə oxuduğu nəğməsində deyir ki, Allah kasıbları varlıların üzərində ucaldacaq (Luka 1:52–53). Kommunizmdə olan bütün yaxşı təlimlər məsihçilikdən götürülüb!

Sonra Riçard Karl Marksdan sitat gətirərək dedi ki, «*Kapital*» əsərinin girişində o, məsihçiliyin ən münasib din forması olduğunu yazmışdı. Riçard mühafizəçilərə baxıb soruşdu:

— Burada günahsız olan insan varmı? Hətta kommunist olsa belə...

Bundan sonra Riçard hər bir insan üçün çarmıxda ölən və hətta kommunistləri sevən İsa Məsih barədə açıq danışmağa başladı:

— Sınaqlar həyatımızın bir hissəsidir. Universitet tələbəsindən tutmuş adi fabrik fəhləsinə kimi hamı Allah tərəfindən mühakimə olunacaq.

Sonra Riçard komendanta tərəf çevrilərək dedi:

— Mayor Aleksandresku, siz də mühakimə olunacaqsınız!

Məhbuslar qorxu içində bir-birilərinə baxdılar. Riçard ölümün bir addım yaxınlıqda olduğunu dərk edirdi. Lakin buna baxmayaraq,

vəzini davam etdirərək tövbə edib İsanın yanına gələn hər kəsə Onun əbədi həyat verməsindən danışdı.

Riçard çıxışını qurtarmamış həbsxananın həyətini sürəkli alqış səsi bürüdü. Müxtəlif səbəbdən tutulan məhbuslar bunun nə ilə nəticələnəcəyini düşünmədən əl çalıb qışqırırdılar. Riçard sözünü bitirib öz yerinə qayıdanda məhbus Miron onun qulağına pıçıldadı:

— Sən onların etdiklərinin hamısının üstündən xətt çəkdin.

Qaston da onun o biri qulağına pıçıldadı:

— Alqışları eşitdin?

Riçard ona cavab verdi:

— Onlar məni yox, ürəklərinə toxunan Allahın Müjdəsini alqışlayırlar.

Riçardın çıxışına görə onu məhbusların xəstəxanasından çıxardılar və «kahinlərin kamerası»na köçürdülər.

Bir neçə gün sonra leytenant Konya Riçarda iki xəbər çatdırdı. Onun dediyi birinci xəbər bu idi ki, Sabina həbsxanadadır, ikincisi isə çıxışında dəfələrlə itaətsizlik etdiyinə görə axşam saat 10-da döyüləcəyi barədə idi. Riçard döyülməyə birtəhər dözə bilərdi. Amma Sabinanın həbsdə olması xəbəri ona ciddi zərbə vurdu.

Döyülməyi gözləmək insanı dəli edə bilərdi. Lakin Riçard həyat yoldaşının döyüləcəyini düşünəndə, bu, onun üçün dözülməz olurdu. O, kameranın qapısının ağzında durub dəhliz boyu hərdənbir gah yaxınlaşan, gah da uzaqlaşan addım səsləri eşidirdi. Uzaqdan döyülən dustağın fəryad səsləri gəlirdi. Amma Riçardı döymək üçün heç kim gəlmədi.

Növbəti altı gün ərzində yenə də Riçardı hədələdilər ki, onu tezliklə döyülməyə aparacaqlar. Nəhayət, bir həftədən sonra onu işgəncə otağına sürüyərək gətirib kürəyinə və çiyinlərinə çubuqla o qədər vurdular ki, bundan sonra sağ qalacağına inanmırdı. Bədənindəki hər bir yara onu alov kimi yandırırdı.

Mühafizəçilər döyməyi qurtarandan sonra leytenant Konya əmr etdi: «Əlavə 10 dənə də vurun!»

# Fəsil 57

Riçardı kameraya huşsuz vəziyyətdə gətirdilər. Bütün günü səsucaldan cihazlardan səslər gurlayırdı: «Məsihçilik axmaqlıqdır! Məsihçilik axmaqlıqdır! Məsihçilik axmaqlıqdır! Bu yoldan dön. Bu yoldan dön. Bu yoldan dön!»

Riçard bu yoldan dönə bilməzdi, çünki İsa da dönmədi. İsa işgəncələrlə üzləşəndə xilas olmaq üçün mələkləri köməyə çağıra bilərdi. Lakin Onu çarmıxa çəkənləri sevdiyinə görə ağrılara dözdü.

Növbəti bir neçə həftədə zərbələr daha da şiddətləndi. Çox vaxt Riçarda və başqa pastorlara şalvarlarını soyunmağı əmr edirdilər. «Üzü üstə uzan!» — deyə mühafizəçilər qışqırırdılar. Digərləri isə «arxası üstə uzan və ayaqlarını yuxarı qaldır» — deyə tələb edirdilər. Mühafizəçilər üçün bu darıxdırıcı olanda iki məhbus ayırıb birinə deyirdilər: «Dostunun üzünə sillə vur!» Əgər məhbus bundan imtina etsəydi, ona deyirdilər: «Sən şansını itirdin». Sonra ikinci məhbusa birinci məhbusu vurmağı əmr edirdilər: «İndi isə sən vur!» — deyə qəhqəhə çəkib gülürdülər. Adətən, məhbuslar üzləri göyərib şişənə qədər bir-birini döyürdülər.

Belə işgəncələri Riçarda tətbiq etmək mənasız idi. O, Məsih uğrunda çəkdiyi əziyyətlərə görə böyük sevinc hissi yaşayırdı. Ona görə də leytenant Konya işgəncə vermək üçün başqa üsula əl atdı. Bir dəfə o, Riçardın otağına gəlib əşyalarını yığmağı tələb etdi.

Konya Riçardı həbsxananın həyətindən keçirib ağ divarlı kamerası olan binaya gətirdi. Riçard heç vaxt belə bir kamerada olmamışdı. Künclərdə qoyulmuş gur parlayan lampalar otağı işıqlandırırdı. Bir dəqiqə keçməmiş səsucaldan cihazlar işə düşdü: «İndi heç kim Məsihə inanmır. İndi heç kim Məsihə inanmır. İndi heç kim Məsihə inanmır. Heç kim kilsəyə getmir. İmanından dön. İmanından dön. İmanından dön. İmanından dön. İndi heç kim Məsihə inanmır...»

Riçard istədi ki, qulaqlarını tutsun, amma onun əlləri arxasında bağlanmışdı.

Ertəsi gün Konya kameraya daxil olub Riçardın əllərindəki qandalları çıxardı və ona dəhliz boyu arxasınca gəlməyini əmr etdi.

Pastor öz yeni kamerasını görəndə heyran oldu. Ağ mələfə sərilmiş çarpayının üstündə geyinmək üçün təmiz paltar, süfrə sərilmiş stolun üzərində, güldanda təzə çiçəklər var idi. Bu mənzərə Riçardı valeh etdi. O, çarpayıda oturub ağladı. Bu, Konyanın ürəyincə idi.

Riçard stolun üstündəki qəzeti vərəqlədi. Bu, həbsxanada olduğu müddət ərzində əlinə aldığı ilk qəzet idi. O, bacardığı qədər çox məlumat oxumaq üçün səhifələri yavaş-yavaş çevirdi. Görəsən, Amerikanın donanması Qara Dənizə daxil oldumu? Qəzetdə bu barədə heç nə yox idi. Lakin Amerikaya meydan oxuyan Kubadakı kommunist diktaturası barədə məqalə var idi.

Aleksandresku dəbdəbəli otağa daxil oldu. O, Riçarda söz verdi ki, cəzasının qalan hissəsini bu otaqda keçirəcək. Sonra söhbəti başqa məcraya yönəldib iddia etdi ki, İsa Məsih həvarilərin uydurmasıdır. Onlar qullara yaxşı həyat barədə yanlış ümid vermək üçün bunu uydurublar.

Riçard qəzeti ona uzadıb dedi:

— Sizin kommunist qəzeti sübut edir ki, İsa uydurma deyil. Qəzetin üstündəki tarix 1963-cü ilin iyul ayını göstərir. Bu o deməkdir ki, kiminsə doğulduğu ildən bəri 1963 il keçib. Ancaq siz təkid edirsiniz ki, elə bir adam heç vaxt mövcud olmayıb. Siz İsa Məsihə iman etmirsiniz, amma Onu sivilizasiyanın banisi kimi qəbul edib tarixi Onun doğulduğu gündən hesablayırsınız.

Aleksandresku çiyinlərini çəkdi:

— Bunun nə mənası var ki, sadəcə belə hesablamaq lazım gəlir.

— Əgər İsa Məsih heç vaxt dünyaya gəlməmişdisə, bəs onda bu adət necə ortaya çıxıb?

— Bunu bəzi yalançı adamlar uydurub.

— Tutaq ki, siz mənə deyirsiniz, ruslar Marsa eniblər. Mən buna inanmaya bilərəm, amma radionu açsam və orada amerikalıların rusları təbrik etdiyini eşitsəm, onda bunun doğruluğuna inanmalıyam. Beləcə biz də Məsihin mövcud olmasını tarixi bir fakt kimi qəbul etməliyik. İsanın qatı düşmənləri olan fariseylər bu faktı Talmuda yazıb orada Onun anası Məryəm və

bəzi şagirdləri barədə də qeyd ediblər. Bundan əlavə, fariseylər Talmud kitabında Məsihin möcüzələr yaratmasından da yazıblar. Bu cür qeyri-adi hadisələrin qara magiya cadugərləri tərəfindən törədilməsinə isə etiraz etmişdilər. Bəzi bütpərəst yazıçılar da öz əsərlərində İsanın mövcudluğunu etiraf etmişdilər. Yalnız kommunistlər tarixin bu açıq-aydın faktını inkar edirlər. Çünki onların təlimlərinə uyğun gəlmir.

Nədənsə Aleksandresku bu barədə mübahisə etmədi. Əvəzində o, Riçarda oxumaq üçün *«Ateistlərin məlumat kitabçası»*nı uzatdı. Bu, möhkəm cildli rəngbərəng rəsmlərdən ibarət gözəl tərtibatlı kitab idi. Riçard orada yazılan dinlərin — yəhudilik, buddizm, konfutsiya və islamın tarixi barədə oxuyub məsihçilik tarixinə keçdi. Kitabda katolisizmin nüfuzunu itirdiyi, lüteranlığın isə ondan daha yaxşı olduğu qeyd olunurdu. Çünki Martin Lüter papanın adını ləkələmişdi. Buna baxmayaraq, elm sübut edib ki, bütün məsihçi adət-ənənələri yalandır və yanlış fərziyyələr üzərində qurulub. Riçardın diqqətini «Ateist təbliğatının formaları» başlıqlı axırıncı fəsil cəlb etdi. O, kitabı oxuyub qurtarandan sonra bağladı. Kitabı əlində tutmaq imkanına malik olduğuna görə Rəbbə minnətdarlığını bildirdi. Sonra o, təmiz mələfəli çarpayıya uzandı.

*****

Katolik kilsəsi Şərqdə və Qərbdə yaşayan «bir-birindən ayrı düşmüş» qardaşları barışmağa çağırırdı. Məsihçilərin birliyi mümkündürmü? Riçard bu barədə düşünürdü və bilirdi ki, həqiqətən, Məsihi sevən insanlar bir-birilərini də sevməlidir. O, İsanın dünyanın hər yerində yaşayan Öz övladlarına necə müraciət etdiyini təsvir edirdi: «Mən sizə müxtəlif yollarla şəfa verdim, indi isə siz bir-birinizlə mübahisə etməməlisiniz, əksinə, sevinməlisiniz».

Riçard məşhur alman şairi Götenin dediyi sözləri xatırladı: «Rəng işığın ağrısıdır». O, şairin bu fikrinə təəccübləndi. İşıq prizmadan keçəndə parçalanaraq hər tərəfə yayılan rəngli şüalara

bölünür. Hər bir şüa isə başqa şüalar kimi bir işıqdan yaranıb. Onlar sadəcə rənginə və istiqamətinə görə fərqlənir.

Eynilə də Qərbdə yaşayan məsihçilər Şərqdə yaşayanlardan fərqlidirlər. Onların milli bayraqları fərqli olduğu kimi, adət-ənənələri də bir-birindən fərqlidir. Amma Allahın bütün övladları İsa Məsihin qanı bahasına satın alınmışdır. Allah eynilik yaratmayib. O, Oğlunda bizi yeni varlıq edib və bizim birliyimizi istəyir.

Riçard fərqli nöqteyi-nəzərdən həqiqət axtarışı uğrunda kilsənin parçalanmasının ağrılı bir şey olduğunu düşünərək yuxuya getdi. İsanın dediyi «Yol, həqiqət və həyat Mənəm. Mənim vasitəm olmadan heç kim Atanın yanına gələ bilməz» (Yəhya 14:6) sözləri sanki ona lay-lay çalırdı.

# 58

«Nəhayət, Alisiya azadlığa çıxdı!» — deyə Marietta həyəcan içində qışqırdı:

Sabina qulaqlarına inanmadı. O, dörd il idi ki, Alisiyanı görmürdü. Sabina cəld paltosunu geyinib Mihay və Maretta ilə birlikdə küçəyə çıxdı. Onlar tramvaya mindilər.

Alisiya necə də yaşlanmışdı. Onun paltarları yamaqlı idi. Seyrək saçları üzünə tökülərək kommunistlərin dəhşətli işgəncələrinin yaratdığı dərin qırışları örtürdü. Alisiya həmişəki kimi gülümsəyirdi.

Sabina ona söz verdi:

— Sabah sənə yeməyə bir şey gətirərik.

Alisiya cavab verdi:

— Axı sizin də heç nəyiniz yoxdur.

O, haqlı idi.

Mihay gülə-gülə dedi:

— Xeyr, biz bolluqda yaşayırıq. Kaş gəlib bizim mansardamızı görərdiniz!

Marietta əlavə etdi:

— Divarlarda xalçalar var, pəncərələrdə də həmçinin! Təmiz su düz tavandan tökülür!

Onlar Alisiyanı Sabinanın bibisi qızının mənzilinə yerləşdirəndən sonra evə qayıtdılar. Həmin gecə Sabina yatmağa çalışdı, amma hər dəfə gözlərini yumanda fikrində Riçardın siması canlanırdı.

Buxarestdə keçirilən hər kommunist bayramında tezliklə azad olunacaq siyasi məhbusların adları elan edilirdi. Sabina

da belə bayramlarda iştirak edir, Riçardın adının çəkilməsini səbirsizliklə gözləyərdi.

1964-cü ilin isti yay günlərinin birində Sabina evə qayıdanda stolun üstündə rəfiqəsinin işə gedərkən gətirdiyi gündəlik qəzeti gördü. Qəzetin ön səhifəsində böyük qalın hərflərlə yazılmış «AMNİSTİYA» başlığını oxuyanda həyəcanlandı.

*****

Sabina *kimlərin* əfv olunduğunu bilmirdi. Lakin ümid içində bütün qəlbi ilə dua edirdi ki, həbsdən azad olunanlar Riçard kimi siyasi məhbuslar olsun. Məqaləni dəfələrlə oxuyandan sonra o, rəfiqəsinin evinə tələsdi. Orada bir neçə qadın yığışıb bu xəbəri müzakirə edirdi.

Xanım Landauer kədərli halda dedi:

— Yəqin ki, onlar keçən ildəki kimi ancaq cinayətkarları azad edəcəklər.

Sabina etirazını bildirdi:

— Xeyr, xeyr! Gəlin dua edib Allaha minnətdarlığımızı bildirək. Onda görərsiniz ki, O nə edəcək!

Sabinanın evə qayıtmasından beş dəqiqə keçmişdi ki, qonşularından biri dostunun Qerla həbsxanasından yenicə azad olunması xəbəri ilə tələsik qapıdan içəri girdi.

*Qerla?* Sabina bunu eşidəndə gözləri parladı, qonşu isə sözünə davam etdi:

— Dostum deyir ki, bu gün azadlığa buraxılanların siyahısında sizin ərinizin də adı var idi. Sonra onun həyətdə gözlədiyini görüb. Yəqin ki, həyat yoldaşınız indi yoldadır, evinə qayıdır!

Həmin axşam Sabina kartof təmizləyirdi. Onun ürəyi sevincdən az qala yerindən çıxacaqdı. O, əlindəki işi yarımçıq saxlayıb stula oturdu. Nəhayət, bir neçə saatdan sonra qapı döyüldü.

Bu, aşağı mərtəbədə yaşayan Vurmbrandlar ailəsinin dostu cənab İonesku idi. Onların evində telefon var idi. O, Sabinanın qolundan tutub dedi:

— Gəlin gedək, başqa şəhərdən kimsə zəng edib sizinlə danışmaq istəyir.

Sabina onun ardınca aşağı mərtəbəyə tələsdi. Telefon dəstəyini əlinə götürdü.

Bu, Riçardın səsi idi! Sabinanın başı hərləndi, gözləri qaraldı və ayaqlarının altından yerin qaçdığını hiss etdi. Gözlərini açanda ətrafında ona həyəcanla baxan adamları gördü.

Kimsə qışqırdı:

— Özünə gəldi!

Sonra başqa birisi dedi:

— Sən huşunu itirmişdin!

Mihay artıq telefonla danışmışdı deyə sevinirdi. O, anasına baxıb gülümsədi, atasının Klujdakı dostlarıgildə qaldığını dedi. Riçard azadlığa çıxdığını, sağ-salamat olduğunu və ertəsi gün qatarla evə qayıdacağını bildirmişdi.

Həmin axşam dostları Sabinaya baş çəkməyə gəldilər. Az sonra Sabina bir teleqram aldı və oradakı şad xəbəri dostları ilə bölüşdü.

«Riçard xəbər göndərib ki, o, gecə qatarı ilə yola düşüb. Sabah səhər 8:30-da bura çatacaq!» — deyə Sabina həvəslə oxudu.

Həmin gecəni Sabina yata bilmədi. O, ərləri azad edilən başqa məhbusların arvadları ilə birgə sevinirdi. Bəzi qadınlar həyat yoldaşlarını on beş il idi ki, görmürdülər. Sanki qəbirlər ölüləri dirilərin yanına qaytarırdı.

Demək olar ki, hər saat evə bir dəstə gül gətirilirdi. Onları Sabinanın yanına gələ bilməyən dostları göndərirdilər. Ətrafındakı dostlarının gülüş səsləri isə hər yana yayılırdı.

*****

Ertəsi gün səhər sanki tez açıldı. Günəş gözəl səhər şəfəqləri ilə üfüqdə göründü. Fit verərək uğultu ilə vağzala yaxınlaşan qatara böyük izdiham həyəcan içində baxırdı. Hər kəs səbirsizliklə həbsdən azad olmuş doğmasının gəlişini gözləyirdi. Atalar, ərlər, qardaşlar

və oğullar üçün hər kəsin dilindən səmaya dualar ucalırdı. Lakin bir çoxlarının duası o gün cavabsız qaldı.

Sabinanın gözləri ötüb keçən vaqonların pəncərələrinə dikilmişdi. Birdən onun gözü tanış üzə sataşdı. Pəncərələrin birindən Riçard başını çıxarmışdı. Onun saçları pis qırxılmışdı, üzü isə solğun və çox arıq idi. «*Allah onu mənə qaytardı!*» Sabina sevinclə həyat yoldaşı ilə görüşməyə tələsdi. Riçardın əynindəki paltarları nimdaş, bağsız ayaqqabıları isə ölçüsündən böyük idi. Mihay da yaxınlaşıb atasını anası ilə birlikdə qucaqladı. Bütün vağzalı görüşənlərin sevinc sədaları bürümüşdü. Hər kəs Riçardı təbrik etmək və başqa məhbuslar barədə soruşmaq istəyirdi. Fotoqraf onları kənara çəkib Riçardın ailəsi ilə birgə şəklini çəkdi.

«Heç nə danışmayın, — Riçard sakitcə ailəsinə dedi, — qoyun sadəcə sizə baxım!»

*****

Əgər komendant Aleksandresku bir neçə gün əvvəl Qerlada olan məhbuslara «Sabah sizin hamınızı güllələyəcəklər» desəydi, onda həbsxanada «*Ura! Nəhayət ki, azadlığa çıxdıq və əzabların sonu gəldi!*» səsləri ucalacaqdı. Amma bunun əvəzinə komendant elan etdi ki, siyasi məhbuslar əfv olunublar və sabah azadlığa buraxılacaqlar. Dustaqlar çaşqınlıq içində «*Bəlkə bu, növbəti bir yalandır*» deyə düşündülər.

Riçard həbsxananı tərk edən axırıncı qrupların birində idi. Vaxtilə onunla qəddarcasına rəftar edən mühafizəçilər indi ona geyinməyə təmiz paltarlar verdilər. Riçard böyük minnətdarlıqla onları əyninə geyindi.

Sibiu şəhərindən olan bir kişi pastora yaxınlaşdı:

— Vurmbrand qardaş! Mən sizin barənizdə oğlunuzdan o qədər eşitmişəm ki... Onunla bir kamerada olmuşam.

Riçard təəccübləndi:

— Mənim oğlum həbsxanadadır?! Yox-yox, yəqin, səhv edirsiniz!

Kişi onun halına acımış halda cavab verdi:

— Məgər bilmirsiniz? Oğlunuz artıq altı ildir ki, həbsxanadadır!

Riçard bədənində kəskin bir ağrı hiss etdi. O, sanki kürəyinə vurulan iyirmi beş qamçının ağrısını duydu. Amma bu ağrı qamçıların ağrısından daha kəskin idi. Mihayın səhhəti çox zəif idi. Bu qədər müddətdə o, həbsxana həyatına dözə bilməzdi.

Riçard bu dəhşətli xəbərin təsirindən hələ də özünə gəlməmişdi ki, Aleksandresku ona yaxınlaşdı.

Komendant maraqla ondan soruşdu.

— Hə, Vurmbrand? Azad olandan sonra sən hara gedəcəksən?

Riçard bir anlıq düşünüb dedi:

— Bilmirəm. Mənə dedilər ki, arvadım həbsxanadadır. İndi isə eşitdim ki, yeganə oğlum da həbsdədir. Mənim başqa heç kimim yoxdur.

Aleksandresku gülümsəyərək dedi:

— Oğlun da buradaymış! Onun da dustaq olduğunu biləndən sonra özünü necə hiss edirsən?

Riçard cavab verdi:

— Əminəm ki, oğlum oğurluq və ya hər hansı bir cinayət törədərək həbs olunmayıb. Əgər o, Məsihə iman etdiyinə görə həbs olunubsa, onda mən oğlumla fəxr edirəm.

Aleksandresku qışqırdı:

— Necə? Biz neçə illərdir ki, pul xərcləyib səni burada saxlamışıq, sən isə ailə üzvünün həbsxanada olması ilə fəxr edirsən?!

Riçard başqa adamın geyimində həbsxananı tərk etdi. O, azadlıq hissinin nə olduğunu bir dəfə duymuşdu. Lakin indi arvadının və oğlunun həbsxanada olduğunu bilib, ürəyi sınmış və ümidsiz halda ağır addımlarla küçəyə çıxdı.

Riçardın yanından sürətlə avtomobillər keçirdi. Onun diqqətini qadınların əlvan rəngli geyimləri, evlərin pəncərələrindəki çiçəklər və radiodan gələn şən musiqilər cəlb etdi. Bu şəhər necə də əsrarəngiz idi! Sərin meh əsirdi. Təmiz hava onun ciyərlərinə doldu.

Riçard avtobusla bir vaxtlar dostlarının yaşadığı qonşu şəhərə — Kluja yola düşdü. Dostları dəfələrlə köçməli olduğundan Riçard şəhərdə onları çox axtarmalı oldu. Avtobus tini dönəndə birinci dəfə həbsxanadan çıxanda ona çiyələk təklif edən qadın yadına düşdü. Belə qızmar havada bir iki giləmeyvə üçün o, nələr verməzdi ki?!

Nəhayət, Riçardın axtarışları uğurla başa çatdı. Dostları Riçardın azadlığa çıxmağına çox sevindilər. Onlar Riçarda meyvə və tort verdilər. Riçardın gözü isə stolun üstündəki qəhvəyi soğana sataşdı. Həbsxananın dadsız yeməkləri onda nəsə acı bir şey yemək istəyi yaratmışdı.

Qəlyanaltı edib qurtarandan sonra Riçard Buxarestdəki qonşusuna zəng etdi. Bir neçə dəqiqədən sonra telefon dəstəyində Sabinanın səsi eşidildi.

Riçard ucadan dedi:

— Sabina, mənəm, Riçard! Mən elə bilirdim ki, sən həbsxanadasan.

Dəstəyin o biri tərəfindən güclü gumbultu səsi gəldi, ardınca isə qarmaqarışıq səslər eşidildi. Sonra Riçard Mihayın səsini eşitdi:

— Anam huşunu itirdi. Dəstəyi asma!

Bir dəqiqədən sonra Mihay yenidən telefona gəldi:

— O, indi yaxşıdır. Bizə demişdilər ki, sən ölmüsən!

Mihay həbsxanada deyilmiş! Sən demə, komendant Riçardın reaksiyasını görmək üçün əmr edibmiş ki, ona yalandan belə desinlər.

Riçard Buxarestə gedən qatara mindi. Ora gəlib çatanda perronda kişilərdən, qadınlardan və uşaqlardan ibarət əllərində gül-çiçək tutmuş böyük bir izdihamın toplaşdığını gördü. *«Görəsən, belə təmtəraqla kimi qarşılayırlar?»* Riçard öz-özünə düşündü. Vaqonun pəncərəsindən başını çıxarıb toplaşanlara baxarkən birdən gözü izdihamın içərisindən Sabinaya sataşdı. Qatardan düşəndə gördü ki, bütün kilsə onu qarşılamağa gəlib. Riçard Sabina və Mihayı qucaqlamaq üçün izdihamı yarmağa başladı.

*****

Növbəti günlərdə Riçard on dörd illik həbsi barədə çox düşündü. Bu vaxt ərzində o, yazmağı unutmuşdu. Aclıq və narkotik maddələrin təsirindən Kəlamdan əzbərlədiyi ayələr yadından çıxmışdı. Amma bir hissəni o, yaxşı xatırlayırdı: «Yaqub Rəhiləyə görə yeddi il xidmət etdi. Onu sevdiyi üçün bu müddət gözünə bir neçə gün kimi göründü» (Yaradılış 29:20).

Qarşıda Riçard və Sabinanı çətinliklərlə dolu yoxsul bir həyat gözləyirdi. Lakin bunun heç bir əhəmiyyəti yox idi. Çünki onlar indi azadlıqda və bir yerdə idilər.

# 59

Hər gün gecə-gündüz Sabina çardaqda ölkənin hər yerindən Riçardı görməyə gələn qonaqları qarşılayırdı. Hamı pastora dəstək olub minnətdarlıq bildirmək istəyirdi. Hətta Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşları belə Vurmbrandların evinə axışıb gələn izdihamı nəzarətdə saxlamağa çalışmırdılar. Onlar Riçardın məşhurluğuna təəccüblənir, bir kənarda durub onun şəxsi işinə yeni qeydlər əlavə edirdilər. Hətta Riçardın qaldığı xəstəxanalarda da yanına gələnlər çox olurdu.

Riçard xəstəxanalarda özünə rahatlıq tapmadığı üçün Sinaya kəndindəki sanatoriyaya gedəsi oldu. Bu yer dağların başında bir vaxtlar kral üçün tikilmiş yay sarayı idi. Amma Riçardın qaldığı yeri öyrənən pastorlar və müxtəlif kilsələrdən olan adamlar onu burada da ziyarət etməyə davam etdilər. Camaat oraya piyada, motosiklet, velosiped və avtobuslarla gəlib çıxırdı.

Riçardın sağlamlığını bərpa etməsi üçün illər lazım olacaqdı. O, çubuq kimi arıq idi və çəkisi qırx kiloqrama yaxın idi. Uzun illər ərzində döyülmək və «beynin yuyulması» onun səhhətinə böyük xələl gətirmişdi. Riçardın kürəyi işgəncələrdən qalmış oyuqlar və çapıqlarla dolu idi. Bircə gözləri əvvəlki kimi mavi idi. Sabina bir vaxtlar bu gözlərdə Riçardın qəlbinin gözəlliyini görüb ona vurulmuşdu.

*****

Riçardın həbsdən azadlığa buraxıldığı il hökumət on minlərlə siyasi məhbus azad etdi. Onların çoxu ilə Riçard həbsxanada olarkən tanış olmuşdu. Buxarest birdən-birə ailələrini dolandırmaq üçün iş axtaran, həbsdən çıxmış çox sayda insan axını ilə üzləşdi. Bu qədər kütləni işlə təmin etmək çox çətin idi. Həddən artıq əziyyət çəkmiş bu insanlar gündəlik həyatda çətinliklərlə qarşılaşırdılar.

Milis bütün bu qarmaqarışıqlığa nəzarət etmək gücündə deyildi. Riçard onu dəvət edən hər kilsədə vəz etmək imkanından yararlanırdı. O, hətta dini fəaliyyətini davam etdirmək və vəz etmək üçün icazə də ala bilmişdi. Məsihdən danışmaq üçün ona hökumətdən icazə lazım deyildi. Amma əlində belə bir sənədin olması üzünə çoxlu qapılar açırdı.

Sabina və Riçard həyatlarının ən gərgin dövrünü yaşayırdılar. Onlar tez-tez gizli şəkildə ibadətlər keçirərək yüzlərlə insanın Məsihə iman etməsinə nail olurdular. Bütün bunlara baxmayaraq, Riçarda elə gəlirdi ki, Allah üçün az iş görür. O, həbsxanada olarkən azadlığa çıxanda hansı işləri görəcəyini çox götür-qoy etmişdi.

Bir gün Sabina ərindən soruşdu:

— Sənin nə planların var?

— Ən çox arzuladığım şey tərki-dünya olub səhraya çəkilmək, orada ömrümün qalan hissəsini keçirərək Allahın gözəlliyindən zövq almaq və Onun Kəlamı barədə düşünməkdir.

Sabina bu ideyanın möhtəşəm olması ilə tam razı idi. Əvvəllər onlar var-dövlətə, şan-şöhrətə və zövq-səfaya can atırdılar. Lakin Allah həbsdə və yoxsulluqda keçirdikləri illərdən istifadə edərək onları yalnız Məsihin hüzuru ilə kifayətlənəcək adamlar etmişdi.

Kameranın boz divarları Allahın hüzuru üçün maneə deyildi. Müqəddəs Ruh hətta o dəhşətli yerləri belə gözəlləşdirə bilirdi. Əvvəllər kobud kömür kimi olan Riçard və Sabina həbsxanadan almaz kimi çıxdılar və Allahın nuru qaranlığa işıq saçsın deyə həyatlarının qalan hissəsini Ona həsr etdilər.

Təkadamlıq kamerada qalmaq Riçarda Xilaskarın hüzurundan daha çox zövq almağı öyrətdi. O, Allah haqqında düşüncələrə qərq

olub ürəyində tüğyan edən fırtınaları sakitləşdirməyə və nifrəti yox etməyə müvəffəq oldu. Riçard dərk etdi ki, ona artıq heç kimlə mübarizə aparmaq lazım deyil. Çünki məhəbbət zorakılıqdan daha güclüdür və ən qəddar müstəntiqin ürəyini belə fəth edə bilər. Qarşıdan sakitlik və rahatlıqla dolu illər gəlirdi. Amma Riçard bu illəri boş-boşuna keçirmək istəmirdi. O, Allahın Kəlamını vəz edərək, Onun məhəbbəti və mərhəməti haqqında şəhadət edəcək, bütün bunları kitablarda yazaraq ürəklərdə Məsih üçün məbədlər quracaqdı.

Riçard kilsəsindəki adamlar barədə Təhlükəsizlik Xidmətinə xəbər verən və kilsə qarşısında bunu dərin kədərlə etiraf edən pastorlara təsəlli verirdi. Rumıniyadakı kilsələrdə qorxu hökm sürəndə bəzi pastorlar bir vaxtlar Məsihə imana gətirdikləri insanları satmışdılar.

Lenin belə yazmışdı: «Hər bir dini ideya, Allaha aid fikir, hətta Allaha olan məhəbbət sözlərlə ifadə oluna bilməyən iyrənclikdir... ən təhlükəli şeydir. Milyonlarla günah, mənfur əməl, zorakılıq, yoluxucu xəstəliklər belə Allah barədə fikirdən daha təhlükəsizdir»[1].

Sovet İttifaqının kommunist partiyası Leninin fikirlərini dəstəkləyirdi. Din onlar üçün xərçəng, vərəm və sifilis kimi iyrənc xəstəliklərdən daha betər idi. Çünki onun mövcudluğu xalq üçün təhlükə idi. Buna görə də onu mümkün qədər tez və məharətlə aradan götürmək lazım idi.

Buxarestdə kommunistlər kilsədə gənclər və uşaqlar üçün keçirilən toplantıları bağlamışdılar. Çünki kommunistlər böyüyən nəslin «məsihçi Müjdəsinə yoluxmasını» istəmirdi. Riçard bu barədə həbsdən azad olandan sonra xəbər tutdu. O, kommunistləri sevməyinə baxmayaraq, var gücü ilə bu pisliyə qarşı duracağına söz verdi. Milyonlarla kişi, qadın, uşaq hələ də kommunizmin dəmir yumruğu altında idi. Riçard qəti qərara gəldi ki, həyatının qalan hissəsini bu insanların dəhşətli zülmdən azad olmasına həsr etsin.

---

[1] Vladimir Lenin, Piter Uotsonun «Ateistlərin erası: Allahın ölümündən sonra biz necə yaşamağa çalışdıq» kitabından sitat (Nyu York: Simon və Schuster, 2014), səh. 216.

Riçard bilirdi ki, Allahla təkliyə çəkilmə müəyyən müddət ola bilər. O, otuz il Misirdə səhrada tənha yaşayan müqəddəs Antonini xatırladı. Antoni tərki-dünya olub səhrada oruc tutaraq dua edirdi ki, sınaqlara, şirnikləşdirici şeylərə və günaha qalib gələ bilsin. Amma o, Məsihin ilahiliyi barədə Afanasi və Ari arasında olan münaqişəni eşidəndə, yalan təlimlə mübarizə aparmaq üçün səhrada tədric olunmuş həyatını qoyub İsgəndəriyyəyə getdi.

Rumıniyada mübarizə aparmaq üçün kifayət qədər pislik var idi. Professorlar və savadlı adamlar öz etiqadlarından dönməyə və ateizm barədə öyrətməyə məcbur edilmişdilər. Komsomol təşkilatının rəhbərliyi gənclərin ünsiyyətinə nəzarət edir, iclaslarda onlara töhmət verirdi. Cavan məsihçi oğlanlarla görüşməmək üçün qızlara hədə-qorxu gəlir, kimlərlə dostluq edəcəkləri barədə onlara göstəriş verirdilər. Riçard yenə də gizli kilsənin üzvləri ilə görüşməyə başladı. Onlar vaxtilə işgəncələrə dözmüş, Riçardın keçmiş dostları idi. Həbsdən azad olduqdan sonra bu məsihçilər yenə də gizli toplaşırdılar. Dövlətin göstərişinə əks olsa da, Riçard onların toplantılarına qoşuldu. Bu toplantılarda hətta Riçardın həbsxanada bəstələdiyi himnlər oxunurdu.

Cavanlıqda Allah Riçardın planlarını dəyişmişdi. Yaşa dolduqca bilirdi ki, Allah yenə onun planlarını dəyişə bilər. Sakit həyat sürmək arzusunu İsa Məsih uğrunda mübarizə aparmaq istəyi əvəz etmişdi. Allah Öz xalqını köləlikdən azad etmək üçün Misirin üstünə on bəla göndərməklə misirlilərin ilk övladlarını öldürdü. Riçard bilirdi ki, Allah Rumıniyaya şərlə mübarizə aparması üçün güclü bir silah verib. Bu silah Onun Oğlu İsa Məsihin ölümü idi. Yalnız ölülərdən dirilmiş Məsih Riçardın viran edilmiş vətəninə yeni həyat gətirə bilərdi.

Digər kilsə rəhbərləri Riçardın hökumətdəki korrupsiyaya qarşı yönəlmiş vəzlərini tənqid edirdilər. Ona məsləhət görürdülər ki, Müjdənin özünü vəz etsin. Bəs Vəftizçi Yəhyanın vəzi Müjdənin özü deyildimi? Yəhya təkcə «Tövbə edin! Çünki Səmavi Padşahlıq yaxınlaşıb» deməmişdi axı (Matta 3:2). O, həm də padşah Hirodu

etdiyi bütün pisliklərinə görə məzəmmət etmişdi (Luka 3:19). İsa Yəhyanı bütün insanlar arasından ən üstün adam hesab etmişdi, hətta həbsdə olarkən onu ruhlandırmışdı (Matta 11:2–6, 11). İsanın Özü də dövrünün şər əməllərini ifşa etmişdi. O, təkcə Dağüstü vəz ilə kifayətlənməmişdi, eləcə də dindarları «Vay halınıza, ey ilahiyyatçılar və fariseylər — ikiüzlülər!...» deyə məzəmmət etmişdi (Matta 23:27).

Kommunizm günah idi. Ölkənin müxtəlif yerlərində yaşayan yüzlərlə, hətta minlərlə məsihçinin pastoru olan Riçard öz xalqını müdafiə etməli idi. O bilirdi ki, sosializmi tətbiq edən hər bir ölkə və xalq iflasa uğrayır. Sosializmin dəyişməyən əlaməti yuxarı təbəqədə korrupsiya, aşağı təbəqədə isə kənarlaşdırılma idi.

*****

Hökumətin pastorlara qarşı qoyduğu qadağa aradan qaldırılandan sonra Riçard Orşova şəhərindəki kilsədə pastor təyin olundu. Kommunist hökumətinin konfessiyalar üzrə komitəsindən ona bildirdilər ki, kilsə otuz beş nəfərdən ibarət olmalı və heç bir halda otuz altıncı üzv olmamalıdır. Həm də ondan tələb edilirdi ki, hökumətə casusluq edib, hər bir kilsə üzvü barədə onlara xəbər versin və gənclərin ibadətə gəlməsinə yol verməsin. Beləcə kommunistlər insanlara nəzarət etmək və kilsədə imanlıların artmasına əngəl olmaq üçün məbəddən bir alət kimi istifadə edirdilər.

Riçard bilirdi ki, Allahın Kəlamını vəz etmək kilsəyə yüzlərlə insanın gəlməsinə səbəb olacaq. Ona görə də o, qeydiyyatdan keçmiş rəsmi kilsələrdə işləməyə çalışmadı. Bunun əvəzində o, gizli kilsə fəaliyyətinə qayıdıb öz şəhadətini bölüşərək, bədənindəki çapıqları göstərərək Allahın Kəlamını vəz edirdi. Faşistlərin və kommunistlərin hakimiyyəti dövründə Allah Rumıniyada möcüzəli surətdə iş görmüşdü. O, köləlikdə olan seçilmişlərini unutmamış, bu xalqın fəryadını eşitmişdi. İndi Qərbdəki məsihçilər onlar üçün dua edir və kömək etməyə başlamışdılar.

Günlərin bir günü Riçarda onu sevindirən xəbər çatdırdılar: «Qərbdən qardaşlar gəliblər». Qərbdəki imanlılar məsihçi şəhidlərin ailələrinə yardım paylamaq üçün gizli və təhlükəli bir xidmət təşkil etmişdilər. Onlar məsihçiliyə aid kitabları başqa təchizat malları ilə birgə Rumıniyanın sərhədindən qaçaqmalçılıqla keçirərək qanunu pozmuşdular.

Həmin məsihçilərdən altı nəfər on dörd ilini həbsxanada keçirmiş məşhur pastoru tapmaq məqsədilə Buxarestə gəldilər.

Riçard onlarla görüşəndə dedi:

— Həmin axtardığınız adam mənəm.

Onlar isə heyrətləndilər:

— Biz elə zənn edirdik ki, ruh düşkünlüyündə olan bir adamı görəcəyik. Siz isə, əksinə, xoşbəxt görünürsünüz. Yəqin ki, siz bizim axtardığımız adam deyilsiniz. Axı sizin ürəyinizdə sevinc aşıb daşır!

Riçard həmin adamlara bədənindəki çapıqları göstərdi və dualarına görə onlara öz minnətdarlığını bildirdi. Şux və iti zəkalı Riçardın yanında qonaqlar tez açılışdılar və bir-biriləri ilə xoş xatirələri bölüşərək deyib güldülər. 1964-ci ilin noyabrında Riçardın yanına gələn qonaqlardan biri B. Styuart Harris idi. O, ehtiyatla gecə Vurmbrandların evinə gəlmiş, qərbdəki məsihçilərin məhəbbət və təsəlli sözlərini onlara çatdırmışdı. Riçard onun üçün böyük əhəmiyyət daşıyan bu görüşləri heç vaxt yadından çıxarmayacaqdı.

Bu görüşlərdən yaranmış dostluq münasibətləri gizli kilsəyə humanitar yardımların, Müqəddəs Kitabların və məsihçiliyə aid başqa kitabların gətirilməsinə yol açdı. Riçard uzun illər qərbdəki imanlılar üçün dua etmişdi. İndi həmin məsihçilərin onun üçün dua etdiyini biləndə, gözləri yaşarırdı. Riçarda «beyinlərin yuyulması» proqramı təsir etməmişdi. O, illərlə bu sözləri eşitmişdi: «Heç kim sizi sevmir, siz heç kimə lazım deyilsiniz, heç kim sizi sevmir, siz heç kimə lazım deyilsiniz!» İndi isə o və başqa imanlılar görürdülər ki, amerikan və ingilis məsihçilər öz həyatlarını təhlükəyə ataraq onlara həm sözdə, həm də əməldə öz məhəbbətlərini göstərirlər.

Onlar Riçarda, onun ailəsinə və bütün gizli kilsənin üzvlərinə təsəlli vermək üçün Allahın göndərdiyi mələklər idilər. Riçard qərbdəki məsihçilərin təhlükəsizlik xidmətinin əməkdaşları və milislərlə əhatələnmiş evlərə gizlicə gəlməsi üçün məxfi yollar işləyib hazırlamışdı.

Riçardın qərb dünyası ilə geniş əməkdaşlığı yenidən həbs olunması üçün böyük zəmin yaradırdı. İki məsihçi təşkilatı — «Yəhudilərə xidmət edən Norveç təşkilatı» və «İbrani Məsihçi İttifaqı» buna imkan verə bilməzdi. Onlar Riçard üçün kommunist hökumətinə on min dollar — siyasi məhbus üçün olan məbləğdən beş dəfə artıq pul ödədilər.

İsa Məsih çarmıxdakı ölümü vasitəsilə Riçardı satın aldı. İndi isə Məsihin yer üzündəki Bədəni, Onun Cəmiyyəti Riçardı «dəmir pərdə»dən satın aldı. Qeyri-müəyyənliklərlə, işgəncələrlə və sorğu-suallarla dolu uzun illərdən sonra Vurmbrandların ailəsi üçün Rumıniyanı tərk etmək məqamı gəlib çatdı.

# 60

Vurmbrandların ölkədən çıxışı üçün hökumətə on min dollar pul çatdıqdan sonra Təhlükəsizlik Xidməti Riçardla axırıncı dəfə görüşməyi tələb etdi.

«Çıx get Qərbə, orada nə qədər istəyirsən vəz et, — məmur dedi, — amma bizim haqqımızda bir söz desən, bil ki, səni orada da susdurmağı bacararıq».

Ertəsi gün, 1965-ci il dekabrın 6-da Riçard, Sabina və Mihay aeroporta yola düşdülər. Uçuş-enmə zolağı üfüqədək uzanıb dumanda itirdi. Vurmbrandların da gələcəyi üfüq kimi belə dumanlı idi. Onlar Rumıniya hökumətindən satın alınmış əsasən yəhudilərdən ibarət altmış nəfərlə birlikdə DC-7 təyyarəsinə qalxdılar. Aeroportun təhlükəsizlik xidmətinin işçiləri Vurmbrandları yola salanların binaya girməsinə mane olmaq istədi. Lakin onların səyləri boşa çıxdı. Mühafizəçilər Qərbə yola düşənlərə paxıllıqla baxır və təyyarəyə minənləri qapısına qədər ötürürdülər.

Tezliklə təyyarənin təkərləri boz asfaltdan ayrıldı. Bəziləri sevincdən qışqırır, digərləri isə acılı-şirinli xatirələrdən doğan hisslərini cilovlamağa çalışırdı. İnsanlar azadlıq əldə etdikləri üçün sevinsələr də, ölkədə qalıb əzab çəkənlərə görə kədərlənirdilər.

Bir neçə saatdan sonra təyyarə Romada yerə endi. Vurmbrandlar Romadan Osloya yola düşdülər. Riçard Cenevrədə düşüb orada olan insanlara Rumıniyadakı məsihçilərin təqib olunması barədə danışmaq istəyirdi. Amma Beynəlxalq Lüteran Federasiyasının katibi telefonla ona zəng vurub yalvardı ki, gəlməsin, yoxsa, ruslar bundan xəbər tutacaqlar.

Norveçdə Vurmbrandları İsrailə xidmət təşkilatının üzvləri qarşıladılar. Onların içərisində on beş ildən artıq bir müddətdə bu ailəni azad etməyə çalışan Anutza da var idi. Riçard onun həbsdən azad olunması üçün uzun illər ərzində hər gün dua etmiş İsveç İsrail təşkilatının direktoru pastor Qote Hedenkvist ilə də görüşdü. On min dolların bir hissəsini ödəmiş «İbrani Məsihçi İttifaqı»nın üzvləri ailənin ilkin ehtiyaclarını qarşılamaq üçün dərhal onlara yardım etdi.

Vurmbrandlar Norveçdən Böyük Britaniyaya yola düşdülər. Burada onları dostları Styuart Harris qarşıladı. O, Riçardın universitetlərdə və çoxlu sayda kilsədə vəz etməsi üçün imkanlar yaratdı. Britaniyalı məsihçilər Rumıniyada kommunist hökmranlığı altında yaşayan bacı-qardaşlarının təqibləri barədə çox məlumatlı deyildilər. Nəhayət, onlar gizli kilsənin əzabları və qələbələri barədə eşitmək imkanına malik olmuşdular.

Britaniyalı yeni dostları Riçard və Sabinaya mələklər kimi qonaqpərvərlik göstərirdilər. Böyük Britaniyada kommunist rejimi altında olan ölkələrdəki məsihçilərə xidmət edən yeni ittifaq yaradıldı. Lakin Riçard bilirdi ki, onun amerikalıların dəstəyinə ehtiyacı yaranacaq.

# 61

Vurmbrandlar ailəsi Amerikada məskunlaşarkən Rumıniyanın Dövlət Təhlükəsizlik Xidməti onların kommunist hökumətinin pisliklərinin şahidi kimi aradan götürülməsinə əmr vermişdi. Riçarda bu barədə susmağı xəbərdarlıq etsələr də, o, əlinə düşən hər bir imkandan istifadə edərək kommunizmin əleyhinə danışırdı. Allahın əli hər addımda onun ailəsini qoruyurdu.

Riçard Vaşinqtonda yerləşən Amerika Senatının, sonra isə Konqresin qarşısında ifadə vermək üçün dəvət olundu. O, tribunaya çıxanda qarşısında təkcə senatorları deyil, həm də oraya toplaşmış nümayəndələri, qəzet və radio müxbirlərini gördü. Riçard gizli kilsənin keçirdiyi əzablardan danışmağa başlayarkən çoxlu sayda televiziya kamerası ona tuşlanmışdı.

— Dünyanın üçdə birinin sizin dualarınızı, himayənizi və maddi köməyinizi əldə etməyə haqqı var. Mən həbsxanada olarkən ayaqlarında iyirmi kiloqramlıq zəncirlər olan məhbusların Amerika üçün dua etdiyini eşitmişəm. Amma Amerika kilsələrində kommunist həbsxanalarındakı qandallı dustaqlar üçün nadir hallarda dualar eşidə bilərsiniz.

Senator Riçarddan bədənində işgəncələri sübut edən hansısa bir izin olduğunu soruşdu. Riçard köynəyini çıxarıb bədənindəki on səkkiz çapığı göstərdi.

— Mən bu çapıqlarla qürrələnmirəm. Mən kilsəmin və ölkəmin işgəncəyə məruz qalmış bədənini göstərirəm. Mən özləri haqqında danışa bilməyən qəhrəmanların və şəhidlərin — Allaha imanlarına

görə işgəncələr zamanı ölmüş protestantlar, katoliklər, pravoslavlar və yəhudilərin adından danışıram.

Sabina artıq göz yaşlarını saxlaya bilmədi. Kanalda, düşərgədə ölən həmin qadınların simaları gözünün önünə gəldi. O, Senatın əksər üzvləri ilə birlikdə Rumıniyada hələ də köləliyə məhkum olmuş kəndli qadınlar, rahibələr, gənc qızlar üçün hamı qarşısında bərkdən ağladı.

Riçard Sabinanın necə ağladığını gördü və sonra ona dedi:

— Sənin göz yaşların mənim sözlərimdən daha güclü təəssürat yaratdı. Göz yaşları ən qalın divarları belə dağıtmağa qadirdir!

*****

Riçard yaxşı bilirdi ki, qələm qılıncdan itidir. Britaniyada olarkən həbsxana xatirələri hələ yaddaşında təzə idi. O, həmin vaxt «*Müasir şəhid kilsə. Məsih uğrunda əzablar*» adlı kitabı diktə edərək yazdırmışdı. Sabina divanda oturub ərinin bir-bir hadisələri danışmasına qulaq asırdı. Riçard işgəncələri, amansız sorğu-sualları və başqa şəhidlərin başına gələnləri yadına saldıqca arvadının hönkürtüləri onun cümlələrinə durğu işarələrini qoyurdu.

Bu kitab qələm mürəkkəbi ilə deyil, göz yaşları ilə yazılmışdı. Bu kitab həm də gələcək nəsillər üçün şəhidlərin kağıza köçürülmüş hekayələri idi.

«*Məsih uğrunda əzablar*» kitabı gözlənilmədən Qərbdə ən çox satılan kitaba çevrildi. Kitab sayca ondan çox dilə tərcümə edildi. Riçard ilə Sabinanın müxtəlif ölkələrə və kontinentlərə səyahət etməsi, Müjdənin gücü və təqib olunmuş məsihçilərin cəsarəti barədə danışması üçün imkanlar yaratdı. Vurmbrandların bu kitabı və səyahətləri Avropa, Asiya, Avstraliya və Amerikada on doqquz təşkilatın yaranmasına kömək etdi. Bu təşkilatlar bu günə qədər gizli kilsələr üçün öz ana dillərində məsihçi kitabları və radio proqramları, eləcə də şəhidlərin ailələrinə humanitar yardım təmin etməklə həmrəylikdə əməkdaşlıq edir.

Riçardın qələmindən başqa kitablar da çıxdı. O, yorulmadan vəz edən bir adam idi. Lakin təkcə bununla kifayətlənməyib kommunist ölkələrində gizli xidmət edən səmərəli təşkilat yaratdı. Bəziləri onun bu metodlarına şübhə ilə yanaşırdı. Riçard isə onlara fikir vermirdi. O, «ölülərdən ona görə dirilməmişdi» ki, öz enerjisini tənqidçilərə sərf etsin. Onun diqqəti mənfur şər düşmənə yönəlmişdi.

Vurmbrandlar getdikləri hər yerdə məsihçilərin birliyinə çalışırdılar. Onlar Avstraliya, Hindistan və Yeni Zelandiyadakı məsihçilərə həqiqət və şəfa barədə xəbəri çatdırmaqdan böyük sevinc duyurdular. Cənubi Afrikadakı irqi ayrı-seçkilik siyasətinə baxmadan görüşlər keçirirdilər. Müxtəlif rəngli dəriləri olan məsihçilərin toplaşdığı bu görüşlərdə Riçard Məsihin Müjdəsindən və gizli kilsənin cəsarətindən danışırdı. Afrika qəzetlərinin birində onların səfəri barədə belə yazılmışdı: «Bizim üzərimizə Riçard adlı bir qasırğa gəldi».

«Kommunizmə nifrət edin, amma kommunistləri sevin və onları Məsih üçün qazanın,» — deyə Riçard insanlara çağırış edirdi. Milyonlarla məsihçi Allahın köməyi olmadan insanın təkbaşına belə məhəbbət göstərməsinin mümkün olmadığını bildikləri üçün bu çağırışa səs verirdi. Allahla hər şey, hətta bağışlanma belə mümkün idi.

Sabina ərinə nisbətən yumşaq təbiətli olsa da, Müjdəni bölüşmək tapşırığına gələndə o, geri çəkilmir, mətin və nikbin bir insan kimi hərəkət edirdi. Vurmbrandlar təqib olunmuş məsihçilərin güclü səsi idilər. Onların işgəncə, həbs, eləcə də ölümə qarşı cəsarət, mətanət və imanla sinə gərən məsihçilərin hekayələrini danışması Qərb məsihçilərinə təsir edir, dinləyənlərin özlərini Məsihə tamamilə həsr etmələri və Xoş Xəbəri çatdırmaları üçün ruhlandırırdı.

Riçard və Sabina kommunist ölkələrinə xidmət edən təşkilatlara rəhbərlik etməkdə hər cəhətdən bir-birilərini tamamlayırdılar. Həmin təşkilatların üzvləri həbs olunmadan məlumat toplamağı bacarmaq üçün təlimlər keçməli idilər. Bir çoxu Vurmbrandların şəhadətini dinləyib ruhlandıqdan sonra bu xidmətləri həyata

keçirmək üçün təşkilata qoşulurdu. Onlar Müqəddəs Kitablar, məsihçi kitabları, audio-yazılar və təqib olunan bacı-qardaşlara maddi vəsait çatdırmaqda kömək edirdilər. Sabina xidmətlə məşğul olan bu adamları sanki Məsih imiş kimi evinə qonaq qəbul edirdi.

Həbsxanalarda etinasızlığa, alçaldılmaya və ələ salınmaya öyrəşmiş Riçard indi tərif və hörmətlə qarşılanırdı. Bu, hansısa başqa adamı qürurlandıra bilərdi. Amma Sabina heç vaxt ərinin ürəyində zərrə qədər də olsa, qürur görməmişdi. Məsihlə olmaq üçün Riçard Danielin kitabında qeyd edilmiş üç kişi kimi odlu sobanın alovunun içərisindən keçmişdi (Daniel 3). Məsih uğrunda soyundurulmuş, aclıq çəkmiş və yaralanmış çapıqlı bədənində qürur üçün yer yox idi. Riçard alçaldılmanı qəbul etdiyi kimi şöhrəti də təvazökarlıqla qəbul edirdi.

Vurmbrandlar Rumıniyada həddən artıq yoxsulluqda yaşamışdılar. İndi isə onların qarşılarında yeni bir təhlükə var idi. Amerikada yaşayan Sabina var-dövlət yığmaqdan ehtiyat edirdi. O bilirdi ki, var-dövlət öz sahibini idarə edir. Ona görə də Riçard və Sabinanın heç vaxt nə evi, nə maşını, nə də velosipedi belə oldu.

Sabina Riçard ilə ailə quranda varlı olmaq istəyirdi. Bir vaxtlar o, rahat həyat arzusunda idi. İndi isə bilirdi ki, dəbdəbə cütlüyə xələl gətirib onları Məsih barədə şəhadətdən yayındıra bilər. Dadlı yeməyin hər tikəsi onlara həbsxanalarda aclıq çəkən insanları xatırladırdı. Riçard ömrünün axırına qədər heç vaxt çürük kök şorbasını unutmadı. Hər dəfə soyuducunu açanda yadına həbsxanada onu necə buzxana kamerasına atmaqları düşürdü.

Riçard və Sabina həm sevinc, həm də narahatlıq hissi çox yaşamışdılar. Amerikada yaşasalar belə, həbs olunmaq təhlükəsi heç vaxt onları tərk etmədi. Sabina həmişə özünə xatırladırdı ki, əgər Allahın işi təhlükəlidirsə, onu başlayıb bitirməmək daha təhlükəlidir.

O, çox vaxt uşaqları ruhlandırıb deyirdi ki, Məsihə görə dünyanı dəyişmək üçün yaşın fərqi yoxdur. Sabina bir oğlan barədə hekayə danışdı. Oğlan sahildə dayanıb gözdən itən böyük gəmiyə əl edirdi. Onun yanında dayanan kişi oğlana dedi:

— Ağılsız olma, onsuz da gəmiçi gəminin istiqamətini əl etdiyinə görə dəyişən deyil.

Amma gəmi, həqiqətən də, geriyə dönüb bərəyə qayıtdı.

Oğlan göyərtəyə qalxıb ucadan dedi:

— Yox, mən ağılsız deyiləm. Sadəcə gəminin kapitanı mənim atamdır!

# EPİLOQ

Yəhudilərin əcdadlarının dediyinə görə, onlar Qırmızı dənizdən keçəndə misirlilər boğuldu. İsraillilər isə köləlikdən azadlığa çıxdığı üçün sevincdən mahnı oxudular və mələklər də onlara qoşuldu. Lakin Allah mələklərə qadağan edib dedi: «İsraillilər insandırlar və azad olduqlarına görə sevinə bilərlər. Sizdən Mən çox şey gözləyirdim. Məgər misirliləri də Mən yaratmamışammı? Məgər onları sevmirəmmi?»[1]

Riçardın həbsxanada keçirdiyi on dörd qaranlıq il ona bir həqiqəti açdı. Allah məsihçiləri sevdiyi qədər onlara işgəncə verən kommunistləri də sevir. Allah hamını xilas etmək istəyir. Bəşər tarixində Allah üsyankarları dəyişib insan tutan balıqçılara, uğursuz adamları müjdəçilərə, cinayətkarları güclü imanlılara çevirir.

Bir dəfə Riçarddan müsahibə götürən zaman soruşdular ki, kommunistlərə nə deyə bilər. O, düz kameraya baxıb dedi: «Mən sizi bütün qəlbimlə sevirəm, məsihçilərin də hamısı sizi sevir. İsa cənnətə getməyinizi sizdən daha çox istəyir. O sizi bağışlamağa hazırdır. Xilas olmağınızı sizdən daha çox İsa istəyir». Yusif onu qul kimi satan qardaşlarına dediyi kimi, «Baxın, siz mənə qarşı pis fikrə düşdünüz, lakin Allah onu yaxşı işə çevirdi ki, ...çoxlu adamın həyatını qorusun» (Yaradılış 50:20). Eynilə Riçard da Allahın xalqını azad etmək üçün Onun qüdrətli əlini görürdü.

Riçard və Sabinanın əziyyətləri bizə xatırladır ki, Allah ümid və şəfa gətirmək üçün istənilən birimizi istifadə edə bilər. Vaxtilə qatı ateist olan Riçard Məsihin Bədəninin üzvlərini təqib edən

[1] «Sanhedrin 39», Babil Talmudu: Sanhedrin traktatı.

ateist sisteminə qarşı əsas bir qüvvə oldu. «Öz düşmənlərinizi bağışlamağı necə öyrənmisiniz?» sualına Riçard belə cavab vermişdi: «Təqibçilərə qarşı heç də bizdə həmişə mərhəmət hissi olmur. Amma daxilimizdə bu hissi duyana kimi mərhəmət göstərməliyik». Sonra Riçard bu sözləri də əlavə etdi: «Bağışlamaq və sevmək, yaxud nifrət etmək sizin öz seçiminizdir».

Riçard əsas məqamı — on dörd il ərzində işgəncələrə məruz qalmasına Allahın niyə yol verdiyini başa düşmüşdü: *çünki onun işgəncələri ona əzab verənləri əbədi işgəncədən azad etmişdi.* O, həbsxanada olarkən kommunistlərin xilas olacağına inanırdı. Məhz həbsdə olarkən onlar üçün Riçardda cavabdehlik hissi baş qaldırdı. Riçard işgəncələrə məruz qalarkən ona əzab verənləri sevməyi öyrəndi.

Həbsxananın mühafizəçiləri və müstəntiqlərindən bir çoxu İsa Məsihin davamçısı oldu. Hətta sonralar onlardan bəziləri pastor oldular. İsanın çarmıxa mıxlanmış müqəddəs əlləri kommunistlərin daş ürəklərinə toxunanda onların qəlbləri yumşaldı.

Riçard hər dəfə vəz edəndə düşmənləri bağışlamağı və sevməyi, Sabina isə imanlılarla, xüsusilə də Məsih uğrunda təqib olunan bacı-qardaşlarla olan ünsiyyəti xüsusi vurğulayırdı. Sabinanın əzablar barədə öz təsəvvürü var idi. Onun fikrincə, Allahın iradəsi ilə çəkdiyimiz əzablar, Onun məhəbbəti ilə təzad yaratmır. Bu, Allahın istifadə etdiyi üsullardan biridir.

*****

İsa geri qayıdana kimi təqiblər davam edəcək. Hər bir dövrdə Məsihdə olan imanlı bacı-qardaşlarımız təqiblərlə üzləşiblər. Məsihçilər hələ də kommunistlərin və başqa diktatorların, eləcə də islamçı və hindu ekstremistlərin əlindən əziyyət çəkirlər. İndi də məsihçilər imanlarına görə həbs olunur, tənha, ac və ağrı içində əziyyət çəkirlər. Onlar ölümdən qorxmayıb, daha çox Allahı sevdikləri üçün işgəncələrə və təhqirlərə dözürlər.

# EPILOQ

Bir dəfə Riçard belə demişdi: «İyirmi ildən çox gizli kilsədə — əvvəlcə faşistlərin, sonra isə kommunistlərin hakimiyyəti altında xidmət etdikdən sonra insanlardan qorxmamağı öyrəndim. Mən kiminsə məni öldürməyindən qorxmuram».

Müsəlman ölkələrində Məsihə iman edənləri islamdan üz döndərdikləri üçün ailə üzvləri rədd edir. Onlar yaxınları tərəfindən təqib olunduqlarına görə qaçıb gizlənirlər. Şimali Koreyada məsihçilər Allaha ibadət etdikləri üçün ittiham olunaraq əmək düşərgələrində ölürlər. Onların çoxu barədə kitablar yazılmayacaq. Onların nə adları, nə də simaları tanınacaq. Amma Allah bu məsihçiləri tanıyır və onlara təqibçilərini bağışlamaqda kömək edir.

Bəli, onların bizim köməyimizə, sevgimizə, ürək-dirək verməyimizə və dualarımıza ehtiyacları var. Bizim də onların işgəncələr, həbsxanalar və ölüm qarşısında göstərdikləri cəsarətə, məhəbbətə və şəhadətə ehtiyacımız var (İbranilərə 12:1–2). Onların bizi ruhlandırmaqları ona görə lazımdır ki, nəyin bahasına olursa olsun, Məsihə və Onun Böyük Tapşırığını yerinə yetirməyə sadiq olaq (Matta 28:18–20).

Riçard Vurmbrand İsa Məsihdən sitat gətirərək belə yazmışdı: «İsa «Gedin, bütün millətləri Mənim şagirdim edin!» demişdi. O, «Gedin, dəmir və ya bambuk pərdə yırtılandan sonra bütün millətləri Mənim şagirdim edin!» deməmişdi. İlk məsihçilər həyatlarını təhlükəyə atıb qadağan olunan yerlərdə Müjdəni yaydılar. Biz də onlardan nümunə götürməliyik».

Təqib olunan bacı-qardaşlarımızın nümunəsi bizi onlar kimi hərəkət etməyə ruhlandırır. Məsihə imanları və Böyük Tapşırığa olan itaətkarlıqları onlara çox baha başa gəldi. Bəs siz öz imanınızdan ötrü hansı dəyəri ödəməyə hazırsınız?

KITABI-KNIGI.COM

İstənilən cihaza öz dilinizdə
yükləyin və oxuyun. Bütün ailə üçün
pulsuz elektron kitablar.



# DÜNYANI DƏYIŞDIRƏN PASTOR VƏ ONUN HƏYAT YOLDAŞI

29 Fevral 1948-ci ildə Riçard Vurmbrand Rumıniyanın təhlükəsizlik xidmətinin əməkdaşları tərəfindən həbs edildi. O nə cinayət etmişdi? İbadət keçirmək və Məsih barədə danışmaq — hər ikisi Rumıniyadakı ateist Kommunist rejimində qanunsuz fəaliyyətlər hesab olunurdu.

Richard on dörd ilini həbsxanada keçirdi. O, işgəncələrə məruz qaldı, döyüldü və təkadamlıq kameraya salındı. Sabina Vurmbrand üç ilini əmək düşərgəsində keçirdi, o digər məhbuslar ilə birgə Dunay kanalında işləyərkən az qala soyuqdan donaraq öləcəkdi. Ona dəfələrlə ərinin dəmir barmaqlıqlar arxasında öldüyünü söylədilər.

Riçard və Sabina Vurmbrandın Məsihə imanları sarsılmaz idi. Onlar ümidlərini itirmədilər və İsa haqqında danışmaqda davam etdilər.

Onların hər ikisinin heyranedici hekayəsi ilk dəfə bir kitabda təsvir edildi. «Vurmbrandlar» kitabı Riçard və Sabinanın «Pastorun həyat yoldaşı», «Allah ilə gizlində» və «Məsih uğrunda əzablar» kitablarında təsvir olunmuş həyatlarından bəhs edir. Ümid edirik ki, siz özünü Ona tam həsr edənlərin qəlblərində Məsihin nurunun necə şəfəq saçdığını görməyiniz üçün müəllif ilə birgə ən qaranlıq həbsxana kameralarına gedərək imanda möhkəmlənəcəksiniz.